2

SEÇİLMİŞ ƏSƏRLƏRİ

30

Firuz MUSTAFA

29

**Firuz**
**MUSTAFA**

# Seçilmiş Əsərləri

**2-ci cild**

**Firuz MUSTAFA**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

## (OTUZ CİLDDƏ)

**İkinci cild**
**(povestlər)**

**BAKI - “ECOPRİNT” - 2017**

Redaktor: Fazil Mustafayev

Korrektor: Emil Rasimoğlu

Firuz Mustafa, Seçilmiş əsərləri – II cild
Bakı, "Ecoprint", Bakı, 2017, 321 səh.

Firuz Mustafanın seçilmiş əsərlərinin ikinci cildi oxuculara təqdim olunur. Bu cildə yazıçının üç povesti daxil edilib. "Dünyanın rəngi" adlı ilk povest 1978-79-cu illərdə qələmə alınıb, aradan on il keçəndən sonra, 1989-cu ildə eyniadlı kitabda nəşr olunub.

"Dəniz köçü" adlı povest ötən əsrin 90-cı illərində yazılıb, qısa müddət ərzində on dəfə təkrar nəşr olunub, rus, fransız, alman və ingilis dillərinə çevrilib. Əsər ərəb qrafikası ilə də çapdan çıxmışdır.

"Payız süvarisi" adlı kinopovest əsasən ssenari kimi düşünülüb. Bu əsər yeni əsrin onuncu illərində qələmə alınıb, 2016-cı ildə "Azərbaycan" jurnalında çap edilib.

ISBN: 978-9952-8104-0

© Firuz Mustafa

# MÜQƏDDIMƏ ƏVƏZI

...budur, artıq otuzcildliyin 2-ci cildi də hazırdır.

Əgər xatırınızdadırsa, ötən il nəşr edilmiş 1-ci cildə iki romanım daxil edilmişdi- "...Qapı..." və "Cənnət çiçəyi".

Bu cildə isə üç povestim daxil edilib.

"Dünyanın rəngi" adlı ilk povestim 1978-79-cu illərdə qələmə alınıb,amma aradan on il keçəndən sonra,yəni 1989-cu ildə eyniadlı kitabda nəşr olunub.

"Dəniz köçü" adlı povestimin qədəmi nisbətən uğurlu olub. Belə ki, 90-cı illərdə yazılmış əsər qısa müddət ərzində on dəfə təkrar nəşr olunub, habelə rus, fransız, alman və ingilis dillərinə çevrilib.

"Payız süvarisi" adlı kinopovestim əsasən ssenari kimi düşünülüb. Bu əsər yeni əsrin onuncu illərində qələmə alınıb, 2016-cı ildə "Azərbaycan" jurnalında çap edilib.

Doğrusunu deyim ki, bu janrda nisbətən az yazsam da, povest mənim ən çox sevdiyim ədəbi növlərdən biridir.

Bu əsərlərin hamısı ilkin variantda necə qələmə alınıbsa, indi oxuculara elə o cür də təqdim edilir. Yalnız "Dünyanın rəngi" povestində vaxtilə ixtisar edilmiş çox cüzi parçalar yenidən bərpa olunub.

Yazdıqlarıma nəzər salarkən öz-özümə düşünürəm: "Bütün bu cildlər hərf-fərf, söz-söz, cümlə-cümlə yazılıb. Nə yazmışamsa ürəyimin hökmüylə yazmışam. Sifarişlə, xahişlə, əmrlə bir sətir belə yazmamışam. Heç kəsdən bir təmənna ummamışam. Həyatımın böyük bir hissəsi öz daxili tənhalığımla yol yoldaşı olub. Saxta sözə görə, düz sözə etinasızlığa görə incidiyim insanlar da olub. Söz mənimçün bir klassik tərifdə deyildiyi kimi, təkcə "fikrin qabığı" yox, həm də həyatımın və bütövlükdə həyatın özü

olub”.

Və nəhayət, özümə tez-tez sual verirəm: “Görəsən, bu qədər zəhmətə, bu qədər əziyyətə dəyərdimi?”

Doğrusu, real həyatda öz sualıma özüm cavab tapa bilmirəm. Amma bu sualın kəsə və qısa cavabını yazdıqlarımda asanlıqla tapıram və belə hesab edirəm ki, yazmaq üçün yaşamağa, yaşamaq üçünsə yazmağa dəyərmiş.

# "DÜNYANIN RƏNGİ"

Doğrusu, "Dünyanın rəngi" povestinin yazıldığı dəqiq tarixi unutmuşdum. Amma əsərin qələmə alındığı fəslin, zamanın rəngləri heç vaxt yadımdan çıxmırdı. Əslində o vaxtın bircə rəngi vardı ki, bu da bəyaz rəng idi. Həmin rəngə qışın şaxta və çovğununu da əlavə etmək olar. Yalnız bu günlərdə, aradan illər keçəndən sonra, əsərin sonuna baxanda hər şeyi olduğu kimi xatırladım.

Amma eyniadlı kitabın nə vaxt nəşr olunduğu tarix yaxşı yadımdadır. Bir də ki, necə deyərlər, kitabın özündə bütün "sertifakatlar" var: *"Dünyanın rəngi". Bakı. Gənclik. 1989. Redaktoru: Səyyarə Həbibzadə. Nəşriyyat direktoru F.H. Axundlu. Rəssamı X. Əbilova. Sifarış sayı 270. Tirajı 14.000. Qiyməti 65 qəp.*

*"Gənclik" nəşriyyatı. Bakı, Hüsü Hacıyev küç., 4*

*"Qızıl Şərq" nəşriyyatı mətbəəsi, Həzi Aslanov küç., 4*

Bütün bunları nə üçün yazıram? Tarix üçün? Yox. Oxucular üçün? Yox. Elə-belə, özüm üçün.

Hə, sən demə povestin sonunda yazıldığı tarix də qeyd edilibmiş:1978-1979-cu illər. Əvvəllər bu tarix diqqətimi o qədər də cəlb etməmişdi. Halbuki kitab illər uzunu daim rəfdə, gözümün qabağında olub. Və əsər yazıldığı vaxtdan düz on il keçəndən sonra- 1989-cu ildə nəşr olunub. Bu cür "ləngimələr" mənim əksər kitablarıma xas olan cəhətdir. İndi düşünürəm ki, "plana" düşmək ehtimalı ilə toz basmış nəşriyyat qovluqlarında aylarla, illərlə, hətta onillərə saxlanılan əsərlərin nəşrini gözləməkdən, hələ müəlliflər bir yana qalsın, nə qədər əsərlərin "bağrı çatla-yıb" görəsən? Bu mənada çox güman ki, hər bir adamın, daha doğrusu hər bir yaradıcı şəxsin özü kimi, onun yaratdığı əsərin də öz tərcümeyi-halı olur.

Mən povestin məziyyəti barədə nəsə bir söz demək istəmirəm. Artıq yuxarıda bildirdiyim kimi, əsərin yazıldığı zaman, daha doğrusu fəsil, yaxşı yadımdadır. O ki qaldı məkana, əsər Bakının ucqarındakı “gecəqondu”lardan birində yazılıb. Yadımda qalan budur ki, həmin qış çox qarlı-şaxtalı idi, arada Günəş çıxdıqca kölgəyə sığınmış kiçik evimin üstündəki qar layları əriyir, yaşadığım mənzilin tavanından aramsız su damcıları süzülürdü. İşıqlar tez-tez söndüyünə görə nöyüt lampası yandırmalı olurdum. Olsun ki, povestin bir çox səhifələrinə elə o qarlı qışın soyuğu, sazağı da hopub.

Mən soyuq havaların cövlan etdiyi bölgədə, Bakıdan uzaqda yerləşən Şınıxda (Gədəbəy rayonunda) doğulmuşam. Uşaqlığımın keçdiyi o yerlərdə də qış ayları adətən sərt keçərdi. Amma indi xatırladığım o ilki Bakının qışı ilə müqayisədə Şınığın qışı toya getməli idi.

Həmin il hərbi xidmətdən təzəcə gəlmişdim. Əsgərliyimin keçdiyi soyuq yerlərin-Uzaq Şərqin soyuğu-şaxtası hələ canımdan çıxmamış Bakının sazaqlı-küləkli havasına düşmüşdüm. Bir yandan da bu zəhrimara qalmış işsizlik. Daimi qeydiyyatım olmadığına görə heç yerdə işə götürmürdülər. Arabir radio, televiziya və qəzetlərə yazdığım ssenari, süjet və məqalələrə görə aldığım qonorarla dolanırdım. Qonorarsa gah olurdu, gah da olmurdu.

Əsgərlik məni əməlli-başlı möhkəmləndirmişdi. Az qala bütün sutkanı işləyirdim. Yuxum ərşə çəkilmişdi. Elə o vaxtdan bəri yuxusuz mənim tale və yol yoldaşıma çevrilib.

Həmin günlərdə yaşadığım daxmanın ətrafını qar təpəcikləri örtmüşdü. Onda şəhərin bu ucqar qəsəbəsində

ensiz küçələr boyu səpələnmiş bu kiçik "gecəqondular" mənə vaxtilə, uşaqlıq illərində kitablarda gördüyüm qış şəkillərini və Şaxta babanın komasını xatırladırdı. Amma o vaxt əhvalım heç də nağıl qəhrəmanlarının şən ovqatına uyğun deyildi. Dediyim kimi, işıqlar tez-tez sönürdü, tavanda kiçik yazı stoluma su damcıları düşürdü. Mən çox sürətlə yazırdım, qorxurdum ki, birdən başıma nəsə gələr. Qar isə səngimədən yağmaqda idi. Bəlkə elə buna görədir ki, "Dünyanın rəngi"ndə bəyaz rəng və qış mənzərələrinin təsviri üstünlük təşkil edir.

Sonra. Mən bu povestin on il "növbə gözləməsinin" konkret səbəbini dəqiq deyə bimərəm. Amma aradan illər keçəndən sonra belə düşünürəm ki, o vaxtkı "Qlavlit"i mənim qəhrəmanımın bir çox "cəhətləri", lap elə o qəhrəmanın öz atasına və "ellər atası" Leninin mavzoleyinə ünvanlamaq istədiyi bu sətirlər də qıcıqlandıra bilərdi:

*"Səni niyə tutublar, ata? Axı, sən faşistlərə könüllü əsir düşməmişdin. Bəyəm əsir düşənin hamısı günah yiyəsidir? Mən sənin günahkar olmadığın barədə Bakıya, Moskvaya məktub yazmaq istəyirdim. Əgər cavab gəlməsə lap Leninə yazacağam. Qoy mavzoleydə onun keşiyini çəkənlər oxuyub məlumat versinlər...Anam deyir ki, elə məktub yazma, öz başına əngəl açarsan... Vallah, kənddə də bizə birtəhər baxırlar: axı, sənin nə günahın var, ata? Bəs mənim, bəs anamın?.. Dünya niyə belə amansızdır, ata? Hörmətlə: Vamiq.*

*8 noyabr 1948-ci il".*

Əgər bu fikir belə "qorxulu" idisə, bəs onda o vaxt, rejimin kəshakəs dövründə onun çapına nə əcəb icazə

vermişdilər? Bu, bir fatal alın yazısıdır bəlkə?

Və nəhayət. Bu əsərdə amansız, sərt bir HƏQİQƏT haqqında söhbət gedir.

Mən fəlsəfə ilə peşəkar şəkildə məşğul olan, həqiqəti heç olmasa nəzəri fikirlərdə axtaran bir tədqiqatçı kimi deyə bilərəm: bu gün mütləq həqiqəti axtaranlar az qala yoxa çıxıb. İndi hamı bu dünyada nisbi həqiqətin axtarışındadır. Mənim qəhrəmanım bu mənada istisnadır.

*Deyirsən, həqiqət nisbidir, vallah,*
*O, birində çoxdur, başqasında az.*
*Deyirəm, həqiqət "çoxdursa" hərgah,*
*Ortada bir dənə həqiqət olmaz.*

*Firuz Mustafa*

# DÜNYANIN RƏNGİ
## (povest)



# PROLOQ

...Təcili yardım maşını xəstəxananın həyatində dayandı.

Eyvanda dayanıb çəhrayı rəngə bürünmüş dağlara və o dağların üstündən tənbəl-tənbəl sürünüb keçən boz buludlara tamaşa edən Əbülfəz kişi sanki qəflətən yuxudan ayıldı; yaşına uyuşmayan iri, cəld addımlarla xəstəxananın taxta pillələri ilə aşağı endi.

Maşından əvvəlcə surücü düşdü. Qara bığlarının ucu az qala çənəsinin altında birləşən bu qonurgözlu, güləş oğlan itiaddımlarla ona sarı gələn Əbulfəz kişiyə yaxınlaşıb gülə-gülə:

– Hə, Əbülfəz dayı, – dedi, – daha bildirçinin bəyliyi qurtardı. Sənin “həkimliyin”başa çatdı. Təzə həkimi gətirdim.

Əbülfəz kişi sürücünün zarafatını cavabsız qoydu, maşından düşüb naşı-naşı ətrafa boylanan dolubədənli, qıvrımsaçlı, ağsifət oğlana yaxınlaşdı, qollarını qanad kimi yana açdı, oğlanı bağrına basıb alnından öpdü.

Göy üzündən uçan bulud qatarının kölgəsi yerlə sürünüb keçdi.

Oğlan kişinin çiyinlərinin nədənsə – qəhərdənmi, həyəcandanmı titrədiyini hiss elədi.

Əbülfəz kişinin gözləri yaşarmışdı. Əlləri əsirdi. O, oğlanın qoluna girib xəstəxananın pilləkəninə yaxınlaşdı və pillələri ağır-ağır qalxa-qalxa:

– Ağrın alım,– dedi,– yolda çoxmu yoruldun?

Oğlan gülümsədi:

– Niyə yoruluram ki?.. Yol rahat, maşın rahat....

Kişi geri qanrılıb üzünü sürücüyə tutdu:

– Tez ol, çap evə. Zibeydəyə de ki, bir azdan gəlirik.

Oğlan:

- Oldu,- deyib, cəld  maşına sarı yönəldi.

Təcili yardım maşını sanki bir göz qırpımında xəstəxananın həyətindən çıxıb üzüyuxarı götürüldü.

Əbülfəz kişi qəddini düzəldib, içini arıtlayıb, diqqətlə oğlanı süzüb dedi:

– Sənin gəlməyini dünən Nəcəf xəbər elədi. Zəng vurmuşdu...

Oğlan soruşdu:

– Hansı Nəçəf?

– Şıxəmirov...

– Hə, səhiyyə şöbəsinin müdirini deyirsiniz?

Xəstəxananın geniş eyvanına çatandan sonra dərindən nəfəs alan Əbülfəz kişi, gözlərini qıyıb açıq pəncərəyə doğru baxaraq:

– Ay uşaq!– deyə, səslədi:– Oturmağa bir şey gətirin.

Sonra əlini naşı-naşı ətrafa boylanan oğlanın qolundan çəkib astaca, qayğıkeşliklə onun çiyninə qoydu:

– Bəlkə, elə sənin qəbinetinə gedək?

Oğlan azacıq qızardı; deyəsən, o, “qəbinet” sözünə görə sıxıldı. Bir az duruxub asta səslə dilləndi:

– Nə fərqi var ki?.. Bura da yaxşıdır.

Əbülfəz kişi çiyinləri atlana-atlana güldü:

– Fərqi odur ki, öz yerini indidən tanıyarsan. İrəliki həkimimiz kimi ayaqyoluynan palatanın yerini dəyişik salmazsan...

Oğlan da ona qoşulub güldü:

– Hə, onda gedək kabinetə...

Kabinetə girdilər. Otaq tər-təmiz idi. Əyləşdilər.

Əbülfəz kişi bayaqkı söhbətinin ardını davam eləyərək dedi:

– Bax keç orada əyləş...  Hə, Nəcəf həkim dedi ki,

Vamiq mənim ən birinçi dostumdu, gərək onun oğlu, heç olmazsa, iki-üç gün qonağım ola. Dedim, Nəcəf, heç elə şey yoxdur. Vamiq sənin dostundursa, mənim də qardaşımdı, qardaşımın oğludur; uşağı ləngitmə rayonda, qoy tez gəlsin kəndə. Camaat burda həkim gözləyir, sən də başlayıbsan belə... O dedi, mən dedim... Axırda sözü bu oldu ki, Əbülfəz kişi, sənin təki beş-üç adam olsaydı, ta sovet hökumətinin nə dərdi... Dedim, Nəcəf, məni dərinə çəkmə, elə hökumət bu el-obadı, bu camaatdı. Camaat da ki, həkimsiz keçinməz, çanı ağrıyan olur, uşağı azarlayan olur... Kəsəsi, sürücünü xoruz banından qabaq yuxudan elədim. Yola saldım ki, get öz həkimimizi gətir.

Oğlan onu qarşılamağa maşın göndərdiyi üçün kişiyə təşəkkur eləmək istədi. Ancaq nədənsə fikrindən vaz keçdi. Düşündü ki, yersiz çıxar.

Əbülfəz kişi:

– Adın tez-tez yadımdan çıxır, ağrın alım,– dedi.

– Asim...

– Mənim adımı bilirsənmi?..

– Bilirəm, Əbülfəz dayı. Təsərrüfat müdirisiz də?

Kişi güldü:

– Bəli, zavxozam. Əvvəllər kolxoz idim, indi zavxoz olmuşam. Vamiq bu barədə söhbət eləmiş olar…

– Yox, atam ümumiyyətlə, özü haqda danışmağı xoşlamır. Heç kənddən, qohumlardan da söz açmır. Nədənsə, mən bu il institutu bitirəndə atam məsləhət elədi ki, bura gəlim. Doğrusu, gəlmək istəmirdim. Bir-iki ay işsiz gəzdim. Gördüm ki, avaraçılıqdan bir şey çıxmır. Məcbur olub gəldim...

– Atan sənə pis məsləhət verməz, ağrın alım. Mən şahidi olmuşam o, necə əzab-əziyyətnən ev saxlayıb, institut qurtarıb. O vaxt onun atasını, yəni sənin babanı

şərləyib tutdurmuşdular. Mən sənin babanla yaxın dost olmuşam... Eh, bu uzun əhvalatdır... Baxırsan balaca bir kənddir... Amma... Hələ cavansan, başına dönüm. Adamları tanıya bilməzsən... Gör Vamiq neçə illərdi kəndə gəlmir. Ancaq burasını yaxşı eləmir. Adam böyüyəndə nə olar ki? Hərdən köhnə yerlərə baş çəkmək lazımdı, ya yox? Hər dəfə adını eşidəndə, şəklini qəzetlərdə görəndə ürəyim fərəhdən qanad açıb quşa dönür. Eh, ay gidi dünya...

Kişi ah çəkdi.

Asim ətrafa göz gəzdirdi. Gülümsədi: yəqin ki, işə nə cür başlayacağı haqda düşünürdü. Baxışları döşəmədəki ləkəyə zilləndi; deyəsən, mürəkkəb çilənmişdi. Bu, Əbülfəz kişinin də nəzərindən qaçmadı; o, hirslə qapıya doğru gedib, üzünü qonşu otağa tutdu:

– Kim var orada, ay uşaq?!

Çox keçmədi ki, arıq çiyinləri geydiyi çit donunun altından bıçaq tiyəsi kimi dikəlmiş, solğun bənizli, eynəkli, yaşlı bir qadın açıq qapıdan içəri boylandı. O, sanki otağa girməyə cəsarət eləmir, kimdənsə çəkinir, qorxurdu.

Bayaqdan həlim səslə danışan Əbülfəz kişinin ədası sanki bircə anda dəyişdi; o, uca, amiranə səslə:

– Ay oxumamiş professur,– dedi.– Sənə yüz dəfə demişəm ki, əvvəla bir işi görmə, amma elə ki, gördün, onda çalış səliqəli, isbatlı olasan. Bax, o ləkə nədir orada?

Deyəsən, qadın ağır eşidirdi, çünki Əbülfəz kişi danışanda o, əlini qulağına sarı tutdu: sanki qulağının dibindən uçub gedən sözləri bir anlığa əli ilə tutub saxlamaq istəyirdi.

– Onu qızın Zibeydədən soruş, o günləri şüşəni əlindən salıb sındırmışdı. Nə qədər yudumsa, getmədi...

Neyləyim?

Arvad asta-asta danışırdı. Səsi boğuq və əsəbi idi. Bir azca da kəkələyirdi deyəsən.

Əbülfəz kişi qaş-qabağını töküb, üz-gözünü turşutdu:

– Vallah, saçın ağardı, yenə ağıllanmadın. Demə ki, qızıdı deyə tərifləyir – Zibeydə təmizkardı, sənin tayın deyil. Bir də ki, o, felşir adamdı. Gərək sən də öz işini biləsən...

– Mən olan işi dedim sənə, – deyə, qadın tələsik cavab verdi.

Kişi üzünü Asimə tutub astadan dedi:

– Tənha zənən xeylağıdı. Yalvardı-yaxardı ki, kimsəsiz qadınam, bir işə düzəldin. Düzəltdik. Sağ olsun Nəcəfi – o da kömək elədi... İndi bu zalım qızı burnunu hər işə soxur.

Sonra kişi qadına sarı çevrilib uca səslə dilləndi:

– Yüz dəfə demişəm, bu qəbineti təmiz yuyun!

Qadın çiyinlərini qısıb yazıq-yazıq Asimə sarı baxdı.

Sonra otağa qəribə bir sükut çökdü.

Asim eynəyin qalın şüşələri arxasından yaşarmış gözləri parıldayan bu zəif qadını ötəri süzüb Əbulfəz kişiyə sarı döndü. Ancaq dillənmədi.

Qadın bir ayağı qaçaraq halda:

– Yaxşı, Əbülfəz, sözünü sonra deyərsən, burada yad adam var, – dedi.

Əbülfəz kişi birdən şaqqanaq çəkib güldü. Elə bil o, bayaqdan bəri qəzəbini tökməyə çalışan hirsli-hökümlü adam deyildi. Elə gülə-gülə:

-Bura bax, yad niyə olur, – dedi. – Təzə həkimimizdir!

Qadın titrək, qırışıq əllərini Asimə sarı uzatdı:

– Xoş gəlmisiniz...

Asim:

– Sağ olun, xala,– dedi.

Əbülfəz kişi üzünü qadına tutub, Asimi göstərdi:

– Bir yaxşı-yaxşı bax, bəlkə oxşatmaynan tanıdın bu cavan oğlanı?..

Qadın eynəyinin üstünə tökülən ağ saçlarını əli ilə geri atıb, zəndlə oğlana baxdı. Onların baxışları çarpazlaşdı. Qadının kirpiklərinin ətrafı yaşla həlqələnmişdi. Bəbəkləri hiss olunacaq dərəcədə titrəyirdi.

Asim ağı saralmış, kənarlarını qırışlar örtmüş, eynəyin qalın şüşələri altında böyümüş bu zəif gözlərdə nəsə bir hürkəklik, əzginlik gördü.

– Vamiqin oğludur. Bildin?

Qadın sanki qəfildən uçunaraq bir Əbülfəz kişinin, bir də Asimin uzünə baxdı:

– Məni az ələ sal, Əbülfəz...

Əbülfəz kişi gülümsəyib, Asimin üzünə baxdı.

– Ələ niyə salıram? – Sonra qadına tərəf döndü:— Atanın goru haqqı, bizim Vamiqin oğludur bu, gözünü niyə döyürsən, ay zalım qızı?... Elə bil heç Vamiqi tanımırsan!.

Qadın üzünü qapıya sarı çevirdi. Onun çiyinləri titrəyirdi. Dəhlizə çıxdı. Addımları eşidilməz oldu...

- Bizdə xidmətçidir. Yazıq qocalıb, ağlı azalıb. Bir də ki, buralarda elə qohum-əqrəbası da yoxdur... Gəlmədir… Davadan sonrakı aclıq illərində gəldi, sonra həmişəlik qaldı burada- Göyəmlidə...

– Adı nədir o qadının, Əbülfəz dayı?

– Əfsunə...

– Nə?

– Əfsunədir, Əfsunə...

– Nə qəribə addır?..

Torpağa qırov düşmüşdü. Ağacların üstunə səpələnmiş xırda, ağ “ovxantı”lar alça çiçəklərinə oxşayırdı. Qənşərdəki ensiz dərədən keçən sakit- sısqa çayı nazik buz qatı örtmüşdü. Sərçələr ot, kövşən tayalarının üstündə atılıb-düşür, tapdıqları qılçıqlı arpa dənini cikkildəşə-cikkildəşə bir-birlərinin dimdiyindən vurub salmağa çalışırdılar.

Göyün üzü bomboz idi. Səhərin açıldığını, havanın get-gedə ayazıdığını duyan itlər hərdən, bir-iki ağız hürüb zəngildəyirdi...

Vamiq rəngi sürtülüb getmiş boz sırıqlısının yaxasını açdı. Şirin-şirin gərnəşdi. Fit çala-çala mal pəyəsinə sarı getdi. Rəzəni geri çəkib qapını açdı. Cənləmiş otun qoxusu, təzə qoyun peyininin buğu gözlərini yaşartdı. O, divara söykədiyi yabanı götürüb ot yığınına yaxınlaşdı. Sərçələr pırıltı ilə havaya qalxdı. Yaba xırçıltı ilə ota sancıldı. Elə bil kələm doğrayırdılar. Vamiq qoyunları alaflayandan sonra iti qarğaradan açdı, aparıb onu öz daimi yerinə-hinə bağladı.

Anası yuxudan oyanmışdı. O, mis parçı götürüb oğlunun əlinə su tökə-tökə dodaqaltı deyinməyə başladı:

– Lap üzdün özünü. Heç canına yazığın gəlmir. Azacıq yatıb dincələydin. Bir həftədi günün-güzəranını yoxdu… O ot zəhrimarı daşıyıb qurtarmadınız?

Vamiq qoşa ovuclarını soyuq su ilə doldurub fınxırdı:

– Hələ üç taya qalıb. Gərək hamısını gətirək. Bir azdan qar qapını alacaq…

– Beli qırılmış Əbülfəz vaxtında daşıtsaydı, indi bu it zülmünü əkməzdiniz…

Arvad mis parçdan su tökə-tökə oğlunun cod tük basmış, günün-yağışın altında qaralmış peysərinə, çiyinlərinə baxıb, “eyzən atasına çəkib”,- ürəyindən

keçirdi. Kövrəldi. Doluxsundu. Sanki kirpiklərində qışın sırsırası dondu. “O Sibir cəhənnəmdə sənin nə işin vardı, ay Aslan? Havayı şərin, fitnənin güdazına getdin. Allah baisin evini yıxsın. O Ədilov deyilən canavar olmasaydı bəlkə də indi evində, ocağının başında idin...Offf... Dağıl ay dünya,dağıl. O Ədilov alçaq yazıq kişinin üzünə zorla durub dedi ki, sən özün könüllü əsir düşmüsən. Ay tanrı, bu kəmfürsətlərə niyə fürsət verirsən? Yoxsa elə zalımların dünyasıdır bu dünya? Vamiqə baxanda bağrımın başı göynəyir; üzə vurmasa da içəridə atasının xiffətini çəkir, onun günahkar olduğuna inanmır. Onsuz da Aslanı tanıyanların heç biri inanmır bu iftiraya…”

Vamiq dırnağı ilə saçının dibini qaşıyaraq yarızarafat:

– Ay ana, – dedi, – o qədər ot-ələf dərdi çəkirik ki, başımda da ot bitib…

Doğrudan da oğlanın şəvə saçlarının arasında qızılı saman çöpləri, kövşən qılçıqları saralırdı.

– Qabağında ölüm, ay oğul, bir tikə çörəyi daşdan çıxarırsan…

Arvad ağlamsındı. Qəhərini boğmaq üçün susdu.

Vamiq dedi:

– Yaxşı, səhər-səhər yenə gözünün qorasını tökmə. O dəsmalı ver görüm bura...

Səlbi dəsmalı verib içəri keçdi…

Kiçik alma bağının o üzündəki evin qapısı cırıltı ilə açıldı. Başına qara yun şal örtmüş arıq bir qadın ensiz taxta pilləkənlə həyətə endi.

– Sabahın xeyir, ay Əzizə xala! – Vamiq bığaltı gülüb qonşu qadına sataşmaq istədi: – Yenə canına cəfa verib nə tezdən qalxmısan belə?!

Qadın asta və ürkək səslə:

– Sabahınız xeyir, – deyə, cavab verdi.

Vamiq çaşdı. Oğlanın rəngi qıpqırmızı oldu. Bu qadın, onun hər səhər zarafatla salamlayıb, kef-əhvalını soruşduğu qonşuları Əzizə qarı deyil, ağbəniz, zərif bir qız idi. Qız, deyəsən, onu qarı ilə dəyişik salan yekəpər oğlanın sözlərinə ürəyində uğunub getdi. Vamiq altdan-altdan baxıb qızın ensiz çiyinlərinin atılıb-düşdüyünü də gördü. Bu naməlum "xala" hələ üstəlik qara yun şalla sifətini gizlətməyə çalışırdı.

"Elə bil ki, zalım balasının dilinə heç nə dəyməyib... Üfürsən yıxılar. Elə bir suyu Əzizə qarıya oxşayır. Yəqin rohumudur".

Səlbi arvad qapını açıb, matı-qutu quruyan, diqqətlə Əzizə qarıgilin həyətinə boylanan oğlunu süzüb dedi:

– Yeməyin soyudu, tez ol gəl... Deyəsən, Əzizə qarı hələ yuxu bişirir...

– O uşaq kimdi elə?

– Nə uşaq?

Vamiq qonşu həyətdə şala bürünüb döyükə-döyükə ətrafa boylanan qızı anasına göstərib dilləndi:

– Odu ey, çardağın böyründəki uşağı deyirəm. ..

– Nə? Uşaq nədi?.. Uşaq sənsən, a bala... O, Əzizə qarının bacısı qızıdı. Davadan qabaq buraya anasıynan gəlib-gedirdi... Onda sən hələ uşaq idin. Səni belinə şəlləyib o qədər gəzdirib ki...

– Kim?

– O "uşaq" dediyin gəlin...

– Di yaxşı, sən də...

– Həzrət Abbas haqqı, doğru sözümdü... Dədəsi-anası ölüb... Əri də davadan qayıtmayıb... Əzizə qarı gətirib ki, həm hayan olsun, həm də...

"Həm də birinə sırısın... Hə, indi kəndin dul kişiləri Əzizə qarının evini su yoluna döndərəcək". Bu fikirlər ani

olaraq Vamiqin beynindən keçdi.

Ancaq arvad sözünün ağzını başqa səmtə saldı:

– Həm də ki, daha qarının hay-hayı gedib, vay-vayı qalıb. Qoca arvaddı, qapı-bacanı saxlamağa, ona baxmağa bir hayan lazımdı. Tək adama çətindi, bala...

Vamiq anasının arxasınca içəri keçdi. Boşqabdakı südlü əriştə istisini qabağına çəkdi. O, sobanın üstündə qızdırılmış boyat çörəyi xırçıltı ilə çeynəyir, qaşığı tez-tez boşqaba uzadır, elə bil ki, harasa tələsirdi.

Səlbi özünü saxlaya bilmədi:

– Arxadan səni qovan-zadmı var, bala? Düz-əməlli ye. Gedəsi yerin ha yoxdu… Qoy yediyin də canına sinsin…

Vamiq cavab vermədi. Boşqabı kənara itələyib köynəyinin qolu ilə ağzını sildi. Əyilib taxtın altından ilan dilli qamçını götürdü. Sırıqlısını, çəkməsini geydi. Ansı da ayağa qalxdı:

– Hələ səhərin gözü təzə açılıb, indidən hara gedirsən?

Vamiq hirsli-hirsli onun üzünə baxdı:

– Eh, sən allahh… Qoy iş-gücümüzün dalınca olaq… "Hara gedirsən, hara gedirsən?.." Getdiyim yer hara olasıdı ki?... Ilanyalı tayalar qarın altda qalıb xarab olacaq… Görək bir başımıza nə gəlir?

Arvad dillənmədi. Onsuz da ana-bala arasında belə söhbətlər hər gün olurdu.

Səlbi oğlunun ardınca xeyli baxdı. Vamiqin enli, çəpəki çiyinləri, asta yerişi ona əri Aslanı xatırladırdı. Arvad köksünü ötürdü: "Necə qıydın, ay Tanrı…"

Kirpikləri qırov bağlamış boz payız səhəri açılırdı. Dağın ətəyində burulan duman layı ağ yaylıq kimi süzülür, qıvrıla-qıvrıla yastanaların, gədiklərin üstündən axıb gedirdi. Elə bil dağın sinəsini üzüaşağı üç yerdən şaqqalamışdılar. Çataqdan üç dərə ayrılmışdı. Dərələrin

yaxası boyu qaya silsiləsi uzanır, çataqdan bir az yuxarıda qol-boyun olub birləşir, dağın əzəmətini bir az da artırırdı. Dərələrin döşündən püskürüb qaynayan bulaqların suyu bir-birinə qarışır, get-gedə gurlaşır, qıjıltı ilə axıb Göyəmli çayına qovuşurdu.

Göyəmli çayının sol sahilində təzə tikilmiş dörd-beş evdən bir az yuxarıda meşəlik başlayırdı. Yarpaqları tökülmüş fısdıq, vələs, gökə ağaclarının qırov bağlamış gümüşü budaqları parlaq səhər şəfəqlərində işıldayırdı. Ağacların başındakı qarğa, çalağan yuvaları sahibsiz papaqlar kimi qaralırdı.

Səhər açılırdı… Kənd mürgü dənizindən silkinib çıxırdı…

Əfsunə payız səhərinin sazağından üşürgələndi. Çardağın üstünə qalxıb dağın ətəyində qıvrılan dumana tamaşa eləməyə başladı. Dağın sinəsi bomboz idi. Qaramtıl, sıldırım qayalar ona vahiməli görünürdü. Deyəsən, dərələr dərinləşmişdi. Sanki dağların da əzəlki həlimliyi yox olmuşdu…

Əfsunə bu yerlərdə uşaqlıqda olmuşdu. Hər yay ta payız düşənə kimi anası və bacıları ilə Göyəmlidə dincəlirdi. Anası zarafatcıl arvad idi. Bacısı Əzizəyə atmacalı sözlər deyib onu cinlədər, şaqqanaq çəkib gülərdi. O vaxtlar Əzizə qarının da canı sulu idi. Əfsunə böyük bacıları ilə təpələrə dırmaşar, keçi kimi daşdan-daşa səkər, hərdənsə bildirçinləri yuvalarından hürküdüb onların yumurtalarını qoynuna yığıb evə gətirərdi. Bunu görən Əzizə hər dəfə uşağın üstünə çəmkirər, «bizi qarğış yiyəsi eləyərsən, ay günün günbatandan doğsun», – deyib onun yanından çimdik qopardı. Həmişə Əfsunənin bədəninin zərif, şəffaf dərisində çimdik yerləri qaralardı. Ancaq xalasının hirsi tez soyuyardı; qadın mısmırığını

sallamış qızın başını qucaqlayıb öz quru- taxta sinəsinə sıxar, nəmli yanaqlarından marçıltı ilə öpərdi. Sonra qolu büzməli qoftasının cibindən ya saralmış qənd tikəsi, ya da bir ovuc qax çıxarıb Əfsunənin ovcuna basar, bic-bic gülümsəyib uşağın pırpız saçlarına sığal çəkərdi: “Səni bacım qızlarının hamısınnan çox istəyirəm…”

Qız xalasının dizləri arasına girər, başını onun boynuna, çiyinlərinə sürtərdi… Xalasının əllərindən yarpız qoxusu, saçlarından isə yovşan ətri gələrdi. Əfsunə burnunu Əzizənin saçlarının arasında gizlədərdi. Gözlərini yumanda kirpiklərinin ucunda rəngbərəng zərrələr oynaşardı. Bu zərrələr ona yuxularından tanış idi. Sanki xalasının qucağında büzüşən zaman təzədən o yuxulara qayıdırdı. Yuxulardan gələn bu yüngüllük, yumşaqlıq onu daxilən qıdıqlayar, güldürərdi. Ömrünü uzatmaq istəyərdi bu yuxuların…

Anası kənddə az qalardı. Əzizə bacısı ilə üç-dörd gün dərdləşər, pıçıldaşar, ona öyüd-nəsihət verərdi…

Gecələrin birində Əfsunə qoynunda uçduğu rəngli zərrələrlə dolu yumşaq yuxudan hıçqırıq səsinə ayıldı. Anası ağlayırdı. Əzizə asta səslə bacısını sakitləşdirməyə çalışırdı:

– Özünü üzmə, ay evi yıxılmışın qızı...

Əfsunə qaranlıqda anasının sızıltısını eşitdi

– Canımı oda yaxdım, ömrümü çürütdüm, bacı...

– Günahın hamısı özündədi... Gərək vaxtında aralanaydın ondan...

Əfsunə yorğanı bərk-bərk başına çəkdi. Qızın bədəni çimçəşdi. O, bacıların «arvad söhbətinə» qulaq asmaq istəməsə də anasının pıçıltısını aydın eşidirdi:

– Mən papaq deyiləm ki, başdan-başa ötürüləm, pencək deyiləm ki, gündə biri soyunub o biri geyinsin...

– Niyə papaq olursan, niyə pencək olursan?.. Gərək uşaqlarını da götürüb çıxaydın o xarabadan. Canını azara saldın. Yıxılsan, heç baxanın da olmayacaq...

– Təki qızların canı sağ olsun. Onsuz da mənim ələyim ələnib, xəlbirim də göydə oynayır....

– Elə qızların da kökünə, sümüyünə çəkib. Burunlarını sıxsan, canları çıxar.

– Düzü, məni də qorxudan odur. Deyirəm, birdən o bədbəxtin azarı bunlara da keçər...

– Keçər... Əlbəttə, keçər. Bəs keçməzmi? Ağzında «vərəm» deyirsən... Bu, nəsilliknən olan şeydi. Elə dədəsi rəhmətlik də o cür idi. Camaat adına ayama qoşmuşdu: «Çıxotqa Əlabbas»... Baxanda deyərdin ki, yel əssə yarpaq kimi göyə sovrulacaq.

– Eh, ay Əzizə, səninki də gətirmədi...

– Elə ikimizin də bəxtimiz qaradı, ay bacı. Ancaq rəhmətlik kişi mənim dayağım idi... Fələyin yazdığı yazıdı, neyləyim ki?

– Sən allah, ürəyinə salma.

Arvad kəsik-kəsik güldü:

– İnnən belə ürəyimə salıb neyləyəsiyəm ki? Cavan döyüləm ki, təzədən ərə gedəm.

– Az, Əzizə, yəqin rəhmətlik kişidən imiş...

– Yox, vallah adamın başının üstündə allah var– kişidə xəstəlik-zad yox idi, hamısı özümdən oldu.

Əzizə susdu...

O gecə, o yumşaq yuxunun qanadlarından yatağa enən balaca Əfsunə doluxsunmuşdu. Göz yaşları yanaqlarından diyirlənib balışı isladırdı, hıçqırığını zorla saxlayırdı. Qız atasının xəstə olduğunu ilk dəfə idi ki, eşidirdi. Keçən il məhəllə arvadlarının baş-başa verib onun və bacılarının ardınca zənlə baxıb pıçhapıçla bir-birlərinə dedikləri sözü

yataqda ilk dəfə xatırladı:

“Elə bil qəbirdən xortlayıb çıxıblar...”

“Yəqin bunlar da ataları kimi…”

Əfsunə körpə ağlı ilə indi dərk elədi ki, atası ağır xəstədir.

“Xəstədir, xəstədir... xəstədir!..” Bu sözlər onun qulaqlarında neçə dəfə guruldayıb əks-səda verdi. Atası gözləri qarşısında canlandı: kişinin çöp kimi nazik qolları dizlərinə çatırdı. Gözlərinin altı torbalanmış, batıq ovurrdları az qala bir-birinə yapışmışdı.

Əfsunənin qonur bəbəkləri atasına çəkmişdi. Elə qaşları da lap atasınınkı kimi idi: ensiz, uzun, qara… O, hər dəfə güzgüyə baxanda elə bil ki, atasının gözləriona tamaşa edir, gülümsəyir, qəzəblənirdi...

– Əzizə, sabah gedirəm, uşaqlar amanatı...

– Bir-iki gün də qalaydın. Sir-sifətinə təzə-təzə qan gəlir...

– Yox, qala bilmərəm, işdən içazə alıb gəlmişəm...

– Eh, süpürgəçiliyi də matah eləyirsən.

– Vallah, o iş olmasa, dilənçidən pay umarıq. Yenə hər nədi... Daha kişinin canında təpər qalmayıb... İşləyə bilmir...

– Az, o balaca qız yerində qurcuxur, deyəsən, hələ yatmayıb…

Anası qaranlıqla dinşəyib:

– Əfsunənimi deyirsən?– deyə, soruşdu.

– Hə...

– Onun yatışı elədi... Bir də görürsən ki, yuxuda zarıyır, ağlayır...

Əfsunə için-iin sızıldayırdı...

Otaq da qaranlıq idi, bayır da. Yay gecəsi qara alov dili kimi mürgü dənizində üzən qızın bədənini yalayırdı.

Qara tonqal dalğası onu atıb-tutur, qarsıyır, əridib zülmətə qarışdırmaq istəyirdi. Qızın kiçik ürəyi çırpınır, lələkləri od tutan quş kimi çapalayır, qara alovun dəhşətli yanğısından çıxıb aydın səmada süzmək istəyirdi... Ancaq hər tərəf boşluq idi, hər yer zülmətə qovuşmuşdu. Göz-gözü görmürdü... Qız qışqırdı. Anası yüyürüb onun başının üstünü aldı. Əzizə qızın alnına yaş dəsmal qoydu; yarpız qoxulu əlləri ilə onun başını sığalladı:

– Mənim balam niyə ağlayır?

Əfsunə cavab vermədi.

Xalası bir də soruşdu:

– Niyə gözünün qorasını ələyirsən?

Alovun qara dilləri tovuzquşunun lələyi kimi get-gedə yığılıb çəkilir, evin pəncərələri sübhün ala toranlığında işıldayırdı...

...Taxt cırıldadı.

– Nə tezdən durubsan, bala?

Əfsunə, qarının sözünə dik atıldı. Xalasının xırıltılı səsi onu cığırlarında azıb itdiyi xatirələr çəmənindən qoparıb, səhər şəfəqlərinin işıqlandırdığı başqa bir dünyaya çıxartdı.

Nə qara alov dilimi vardı, nə də həyəcanla onun yanına yüyürən anası... Nə pıçıltı eşidilirdi, nə də bacılarının mışıltısı. Ancaq otaq həmin otaq idi. Taxt da iyirmi il əvvəlki kimi öz yerində idi. Di gəl ki, taxt qocalmışdı, toxunanda cırıldayırdı. Əzizəninxalası da taxtla birlikdə qocalmışdı, indi o kiçilib yumaq kimi bükülmüşdü... Tutqun pəncərə şüşəsindən Əfsunəyə solğun çöhrəli, nazik-çatmaqaşlı bir qız baxırdı. Çiyninə atdığı şal nə zamansa qoynunda alışıb-yandığı, qarsılandığı o yay gecəsinin bir parçası kimi qaralırdı. Lakin bu bir parça gecə daha onu yandırmırdı, əridib yox eləmirdi.

Əfsunə gec cavab verdi:

– Ay xala, tez deyil... Mən çoxdan oyanmışam. Hələ həyətə çıxıb hava da aldım... Görən saat neçə olar?

Qarı cavab vermədi. Bir də ki, nə cavab verəydi? Eşitmirdi. Neçə illər idi ki, beynində bir səs uğuldayırdı. Bu uğultu get-gedə güclənib, axır vaxtlar onu tamam kar eləmişdi. Qarı hərdən öz-özünə danışır, kiminsə qarasınca deyinir, kiminsə boynunu oxşayırdı. Əfsunə Göyəmliyə gəldiyi üç gün ərzində xalası ilə düz-əməlli söhbət eləməmişdi. Arvad eləcə üyüdüb-tökür, bacısının, yeznəsinin hansı qəbiristanlıqda basdırıldığını, qəbirlərin itib-itməməsini yerli-yataqlı soruşurdu. Arvadı dirilərdən çox, ölənlər narahat edirdi. Əfsunə qışqıra-qışqıra onu əl-qolla başa salır, öz bacılarından, onların ərlərindən danışırdı. Qarının dağınıq fikirləri baş alıb gedirdi. Allah bilir, o nə haqda düşünürdü... Gah ağlamsınır, gah da uşaq kimi sadəlövhcəsinə gülürdü...

Əfsunə xalasına baxır, onun halına yanırdı... Qocalıq arvadı əldən-dildən salmışdı. Qarı illərin ağır məngənəsində sıxılıb öləzimişdi. Onun yuxuları da uçub getmişdi, əvəzində yuxulu bir ömür yaşayırdı...

Evdən qəribə bir ətir gəlirdi. Qurudulub torbalara yığılmış kəkotu, yemişan, quşburnu, yarpız – Əfsunənin adlarını düz-əməlli bilmədiyi çiçəklərlə yarpaqların qoxusu bir-birinə qarışmışdı. Qarı dərman bitkilərini, boyaq otlarını çeşidləyib ayırmışdı. Əfsunə özü ilə gətirdiyi taxta çamadanı açdı. Şüşələrdəki maye dərmanları, kağıza bükülmüş həbləri, tənzifi, zərrəbini, iynəni, kitabları, diş kəlbətinini səliqə ilə dolabın içinə yığdı.

Qarı taxtdan durdu. Bacısı qızının gətirdiyi dərmanlara diqqətlə baxıb:

– Deyəsən, bunlar doxdurluğa aid dəfə-daraqdır, hə?– deyə, soruşdu.

Əfsunə başını tərpətməklə onun sualını təsdiq elədi.

Qarı özü-özüylə danışırmış kimi qırıq-qırıq dilləndi:

– Zamananın üzü qara olsun, məktəbini qurtarsaydın, indi sən də...

Əfsunə cavab vermədi. Sanki içini sübhün ayazı daladı.

– Bizim həkimxana yaman uzaqdadı. Sabahgözünə yola düşən, şər qarışan vaxtacan zornan gedib çatar ora... Diş doxturu da əhlikefin biridi. Adı nədi? Hə... zad... Nəcəfdir adı. Molla Şıxəmirin nəvəsidi... Qonşu kənddəndi. Zoğallıdan. O gün qulağım çaldı ki, sözümü danışıb, kölgəmi qılınclayıb: guya mən cindaram, falçıyam... Özü də qonaq yeri Əbülfəzgildi. Tumanımın balağını çırmayıb getdim... Əbülfəz and-aman elədi ki, sənə yalan qandırıblar, heç mən özüm Nəcəfin dava-dərmanına inanmıram. O günü bir şey vermişdi, içdim, bir həftə qarnım burdu, vallah, sənin dərmanın diriltdi məni... Əbülfəz olmasaydı, onun abrını ətəyinə bükəsi idim…

Danışdıqca qarının başı hiss olunacaq dərəcədə titrəyir, bulanıq gözləri yaşarırdı...

Xəyallar Əfsunəni uzaqlara çəkib aparırdı; atası gəlib gözlərinin qənşərində dururdu. Kişi böyük qızlarını köçürəndən sonra canını onlara tapşırıb getdi. Əfsunənin toyunu görmək ona qismət olmadı...

Uzun illərin tənhalığından yenicə yaxa qurtaran Əzizə qarı başı əsə-əsə hələ də danışırdı:

– Nə yaxşı ki, gəldin, ay ayağının altında ölüm. Tək yaşamaqdan lap bayquşa dönmüşdüm. Qabaqlar qızını köçürənə kimi Səlbi oğlunu göndərirdi yanıma, Vamiq gecələr gəlib burada yatırdı. Yenə hər nədi həyan idi

mənə. Qız gedəndən sonra Səlbi dedi ki, gecələr eymənirəm... Daha uşağı buraxmır... Eh, kişisiz evdə bin-bərəkət də olmaz. Yorğan-döşəyin yunu keçəyə dönüb. Kimdi yun didən?.. Birdən deyərsən ki, xalam qocaldıqca var-dövlət yığmaq istəyir... Yox, həzrət Abbas haqqı... Kənd yeridi, bunlarsız keçinmək olmur, qızım... Gedib-gələnnən sənə ismarış eləməkdən dilim qabar olmuşdu. Nə yaxşı ki, gəldin?! Dişimnən-dırnağımnan yığdığım kimə qalasıdı ki?.. Mən öləndən sonra bu ev-eşik yad oğlunun, yad qızının ayağının altında itib-batasıydı.. Səni mənə urcah eləyənə canım qurban, ay bala!.. Vallah, illacım yoxdu ki, o çaydanı götürüb burdan ora qoyum. Görürəm, sən də yaman sınıxıbsan. Əyin-başın da nazikdi... Qoyun dərisinnən kürk düzəltmişəm, götür gey əyninə. Ağlın öz yerlərinizə getməsin. Oralar istidi… Göyəmli həmişə soyuq olur. Gərək canına qulaq asasan!

Əfsunə səhəngi götürüb bulağa endi... Bura onun uşaqlıqda ən çox sevdiyi yer idi. Xatırındadır, bir zamanlar, neçə il bundan əvvəl bulağın ətrafında bitən adını bilmədiyi iri otların saplağını qırıb nov düzəldər, əyilib o "nov"dan gələn suyu ləzzətlə ciyərinə çəkərdi. Bəzən də ovurdlarını su ilə doldurub xalasıgiləcən qaçar, sonra suyu elə "nov"danca qarının üstünə püskürər, tumanını isladıb, onu hirsləndirərdi. Əzizə «şeytan şapalağını» bunun üstündə kötəkləyərdi. Əfsunə qışqırıb haray-həşir qoparanda xalasının gözləri yaşarar, ürəyi yumşalardı. Arvad cibindən qənd, qax çıxarardı... Hərdən də uşağın könlünü mer-meyvə ilə alardı...

Bulağın suyu sozalmışdı. Onun dövrəsində nə yarpız vardı, nə ot, nə də çiçək... hər tərəf bomboz idi. Elə bil suyun da rəngi dəyişmişdi. Bir zamanlar bulaq yamyaşıl olardı. Onun suyu soğan otların arası ilə pıçıldayıb axardı.

İndi bulağın da rəngi dəyişmişdi, torpaq kimi bozarmışdı. Suyun bənizi qaçmış, onun sehrli pıçıltısını sanki ağır bir şırıltı əvəz eləmişdi. Elə bil ki, həzin bir nəğmə kiminsə kallaşmış boğazından axaraq, öz ilkin gözəlliyini itirmişdi. Payız dünyanın rəngini dəyişmişdi.

Əfsunə səhəngin tıxacını çıxarıb bulağa əyildi. Mis parçı doldurub doyunca içdi. Su elə əvvəlki kimi idi: bumbuz, dupduru... Qız, soyuq payız səhərinin parlaq şəfəqləri ilə dolu səhəngi çiyninə götürüb geri qayıtdı...

Əzizə qarı oxlovu, ələyi, tabağı stolun üstünə qoymuşdu.

Əfsunə qolunu çırmayıb xəmir qatmağa başladı...

Damı boz şiferlə çatılmış hündür, ikimərtəbəli ev diqqəti lap uzaqdan cəlb edirdi. Evin asfaltlanmış həyətindən mərkəzi yola qədər boz çınqıl döşənmişdi.

Evdə cəmi iki adam yaşayırdı: Əbülfəz və qızı Zibeydə.

Əbülfəz qamətli, enli çiyinli, saçları vaxtsız çallaşmış bir kişi idi. Arvadı inişil ürəkkeçməsindən öləndən sonra damın altında qızı ilə tək qalmışdı.

Zibeydə anasına çəkmişdi. Ağ, dolubədənli qız, hələ uşaq olsa da buxaq bağlamışdı. Əyninə geydiyi bahalı paltarların altından onun gözəgəlimli, yumru bədəni oynayırdı. Səlbi arvad evdə hər dəfə Əbülfəzdən söhbət düşəndə sözü dolandırıb Zibeydənin üstünə gətirər, elə bil Vamiqə eşitdirmək üçün deyərdi: "Lap quymaq kimi qızdı. Elə bil Əbülfəzin belindən gəlməyib. Rəhmətlik anasına çəkib".

Vamiq hiss edirdi ki, Səlbi arvadın Əbülfəzdən zəndeyi-zəhləsi gedir, həmişə “kəmfürsət adamdı” – deyib, sədrin qarasınca deyinərdi. Ancaq, nədənsə, arvadın

Zibeydəyə qanı qaynayırdı....

Payızın sazağı-küləyi damlardan, bacalardan çıxan tüstünü dağıdır, ağacların quru budaqlarını şaqqıltı ilə sındırır, sanki qışın qapı ağzında olduğunu xəbər verirdi.

Çardaqların üstündə yarmaçalar, girdinlər qalaqlanmışdı. Ehtiyatlı adamlar qışın tədarükünü çoxdan görmüşdülər.

Əkin-biçin qurtarmışdı. Hərdənbir dəyirman yolunda bellərinə ağır çuvallar, xurcunlar yüklənmiş ulaqlar görünürdü. Göyəmlilər qışa hazırlaşırdı.

İş-gücü olmayanlar, ağsaqqallar kəndin ortasındakı yomsa taxta dükanın qabağına yığışıb, ordan-burdan söhbət eləyirdilər. Səxavətli adamlardan biri tənbəki kisəsini açır, qalanları saralmış qəzet parçalarında eşmə bükür, həmişə də keçən ilki tütünün bu ilkindən yaxşı olduğunu söyləyirdilər.

Dükanın qabağı yenə də adamla dolu idi. Ökuzləri sulayıb təzədən tövləyə bağlayan Vamiq oğrun-oğrun, yaşlılardan xəlvəti papiros çəkir, tək ayağının üstündə durub qoltuq ağacına söykənən Binnət müəllimin söhbətini dinləyirdi.

Binnət müəllim hərdən qoltuq ağacının burnu ilə yeri cızır, söhbəti şirinləşdirmək üçün nəfəsini dərib susur, handan-hana sözünə davam edirdi:

- Çox adam elə bilir ki, davaya gedənin hamısı əlinə tüfəng alıb vuruşub. Amma elə deyil axı. Məsələn, eləsi var ki, tıla düşüb...

Devitbe Söhü onun sözünü kəsdi:

– “Tıl”nədi, Binnət müəllim?

Binnət müəllim söhbətnnə ara versə də, Söhünün sualını cavabsız qoydu:

- Tılda olanın biri də mən idim. İşim-gücüm güllə

yeşiklərində çörək daşımaq olub. Bir at arabası da vermişdilər. Çapırdırdım elədən-elə, belədən-belə...

Kazım soruşdu:

– Bəs heç nemes görmədin?

– Niyə görmədim, gördüm... Bizə plen düşmüşdulər.

Kazım bir sual da verdi:

– Yəqin ac qalırdılar, hə?

Binnət müəllim güldü:

- Ay qaldılar ha! Biz yediyimizdən yeyir, biz içdiyimizdən də içirdilər. Hünərin var idi birinə toxunaydın! Çörəklərini də özüm paylayırdım, nə qədər lazımdı, o qədər...

Söhü özünü saxlaya bilmədi:

– Gedib faşist yemləmisən?! Sən əsl vraq narodsan! Satqınsan...

Kimsə pıqqıldadı...

Binnət müəllim özünü o yerə qoymadı. Sözünə davam elədi:

– Bizim əsgərlər onlardan yaxşı vuruşurdu...

Söhü qışqırdı:

– Sən nə qanırsan, vuruşmaq nədi?!

Binnət müəllim ona əhəmiyyət vermədi.

- Ancaq bizimkilərdən də satqın çıxanlar olurdu. Belələrinin işinə vayenni tribunal baxırdı...

Söhü yenə sual verdi:

– Yaxşı, sən ki vuruşmayıbsan, bəs ayağını harada itiribsən?

Bayaqdan özünü çox təmkinli aparan Binnət müəllim bu dəfə onun sualına əsəbi cavab verdi:

– Kimi ayağını itirdi, kimi də ağlını...

Devitbe Söhü birdən uşaq kimi ağlamsınıb hıçqırdı:

- Mən? Mən?.. Mən ağlımı itirmişəm?... Sinəmi gülləqabağına verəndə ağıllı idim, indi ağılsız oldum, hə? – Kişi sırıqlısının düymələrini açıb, pencəyinin yaxasına sancdığı medalları göstərdi. – Bu qramotaları dəliyə verəllərmi? Hə, cavab ver də! Mən... Mən ağılsızam? Yaxşı, mən Hitleri gəbərdəndə sən harda idin?Bir daraq güllə boşaltdım o itoğlu itin murdar cəmdəyinə... Radio məndən danışır, qəzet, kitab məndən yazır... Yaxşı, deyək ki, mən vuruşub ağlımı itirmişəm, bəs sən qurumsaq əlinə avtomat almaya-almaya ayağını niyə itiribsən? Dəli kimdi: sən, ya mən?.. Yaxşı, baxarıq... Sənin əməllərin barədə yazaram.

Binnət müəllimin rəngi qaraldı, başını bulayıb qoltuq ağacı ilə yeri cızmağa başladı...

Sonra söhbətin mövzusu hərlənib-fırlanıb yenə Göyəmliyə qayıtdı.

Kazım üzünü bir qədər kənarda dayanıb yaşlıların söhbətinə qulaq asan Vamiqə tutub soruşdu:

- Düzdürmü, deyirlər qonşunuzun bacısı qızı gəlib? Özü də həmişəlik kənddə qalacaq.

Vamiq çiyinlərini çəkib astadan:

– Bilmirəm,–dedi.

Kazım gülüb göz vurdu:

– Sən bilməyəndə, mən ha biləsi deyiləm...

Binnət müəllim özünü eşitməzliyə vurub soruşdu:

– Hansı qonşunu deyirsən, Kazım? Nə qız?

Vamiqin əvəzinə Söhü cavab verdi:

- Əzizənin bacısı qızını deyir... Davadan qabaq buraya gəlib-gedərdi anasi ilə... Onda balaca uşaqdı...

Kazım yenə güldü:

- Sən hardan bilirsən? Gedib burnunun suyunu ora da tökürsən? Yaman şeysən ha, Söhü!..

Söhü Kazımın sözlərindon incimədi:

- O günləri başımnan dişimin ağrısı qarışmışdı bir-birinə. Dedim, Əzizə qarı çarəsini bilər. Gedib görürəm evdə bir qız uşağı var. Soruşuram, kimlərdənsən, deyir Əzizə qarının bacısı qızıyam. Sən demə, qız uşaq-zad deyilmiş, elə mənnən yaşıd imiş. Əri frontdan qayıtmayıb... Gəlib xalasının yanına...

Kazım soruşdu:

– Bunları elə özü danışdı?

Söhü dedi:

- Yox, Əzizə qarı dedi... Ancaq allah o qızın gununü ağ eləsin, bu dişimi elə çəkdi ki, heç ruhum da incimədi. Doxdurdu, özü də ayrı cüründən. Əli qızıldı, qızıl.

- Elə bir az da Əzizə qarının türkəçarəliyindən öyrənsə, alim olar, – deyə, Binnət müəllim dilləndi...

Atın üstündə şax əyləşib qaragül dərisindən tikilmiş papağını gözünün üstünə endirən Əbülfəz torpaq yolda görünəndə hamı susdu...

Sədr atı dükanın qabağında saxladı:

– Salaməleyküm!

Onun amiranə səsinə hamı xorla cavab verdi:

– Əlejkəssalam!..

Əbülfəz gözünü dolandırıb Vamiqi gördü. Onun üstünə çəmkirdi:

- Səni anana oğul olmayasan! O nədi elə, hər öküzün qabağına bir yığın ot qoyubsan?! Kolxoz malıdı

deyə, hamınız dağıtmağa səy eləyirsiniz! Hələ qabaqda qış var, çillə var. Dilsiz-ağızsız heyvandı – yediyini yeyir, yemədiyinin də üstünə...

Vamiq barmaqları ilə yaxasını didişdirə-didişdirə asta səslə dilləndi:

- Hərəsinə bir qoltuq ot verdim... Elə də çox deyildi, Əbülfəz dayı...

- Qışa ot çatmasa sizin dərinizi soyacam hamınızın!

Əbülfəz atın qantarğasını qamçı kimi yelləyib şaqqıldatdı. Sarı ürgə yerindən dördələmə götürüldü.

Binnət müəllim üzünü Vamiqə tutub dedi:

– Oğul, düz deyir də, israfçılıq eləməyin...

Kazım da onunla razılaşdı:

- Elədi. Düzü, evdə də o cür eləyirik. Payızdan otu dağıdırıq, qışın çilləsində mal-qara ağzı günə qalır. Yazbaşı heyvan ələngəyə dönür: bir dəri, bip sümük...

Söhü hirslə qışqırdı:

– Nəyi düz deyir? Otun hamısını biçin yerindən satdı zoğallılara, bir başıpapaqlı tapılmadı ki, dillənə! Ay yazıqlar, elə bizim özümüzü üzüyola at kimi minirlər, xəbərimiz yoxdu!

Binnət müəllim qoltuq ağacının burnu ilə yerdə nəyinsə haqq-hesabını eləməyə başladı...

Kazım əlindəki açarı oynada-oynada dükana girdi...

Söhü pencəyinin yaxasına düzdüyjü medalları sığallayıb hirsli-hirsli Binnət müəllimin üzünə baxdı...

Vamiq başını aşağı salıb kolxozun tövləsinə sarı yollandı…

Əbülfəz sarı ürgənin gümüş qaşlı yəhərini atın belindən götürdü.

At tərli idi, yerində dingildəyirdi. Heyvan ayaqlarını götürüb-qoyduqca təzə vurulmuş aypara nalları par-par parıldayırdı.

Əbülfəz tayadan bir yaba ot götürüb atın qabağına atdı. Sonra əli ilə sarı ürgənin gözlərini, boynunu, sağrısını tumarladı. Qabaq ayaqlarının buğumlarına yapışmış pıtırğanları, quyruğunun arasına dolmuş saman çöplərinitəmizlədi. Darvazanın üstündəki dəmir qaşovu götürüb atın beli uzunu çəkdi, yalmanını darayıb başını sığalladı. Ürgənin enli, xınayı yanbızları sahibinin və dəmir qaşovun təmasından bürkülü yay günlərinin ilğımlı havası kimi titrəyirdi.

İrəli yeriyib ovcunun içi ilə ürgənin sağrısına şappıldatdı...

İçəridə qab-qacaq cingildədi. Zibeydə artırmanın pəncərəsindən çölə baxdı:

– Ay dədə, yemək soyuyur, tez ol!

Əbülfəz qaşovu darvazanın üstünə atıb yuxarı boylandı.

– İndi gəlirəm...

Əbülfəz məhrəba ilə əllərini qurulayıb kətilin üstündə oturdu. Beçə şorbasının kəkotu qarışıq ətri, təndirdən təzə çıxan isti buğda çörəyi onun iştahasını daha da açdı. Ətli budlardan birini götürüb dişinə çəkdi: «Nəcəf burda olsaydı, boğazımızı yaşlayardıq»,– deyə, ürəyindən keçirtdi....

Neçə gündən bəri idi ki, doxdur Nəçəfin söhbəti Zibeydənin bir dəqiqə də olsun yadından çıxmırdı. Nəcəf ötən çərşənbə dostunun qızını gözaltı süzüb Əbülfəzə demişdi:

– Rayonda mamalıq kursu açılasıdır. Istəyirsən uşağı qoyaq, oxusun. Sənətdi, nə vaxtsa lazım olar....

Qız atasının cavabını ürəyi uçuna-uçuna gözləsə də Əbülfəz dillənməmişdi.

Zibeydə yeddi il məktəbdə oxumuş, müharibənin ortalarııda davadan yarımçıq qayıdan, ayağının bir tayını «asqol aparan» Binnət müəllimdən dərs almışdı.

Indi qız bir tərəfdən rayona "mamalıq kursunda" oxumağa can atsa da, digər tərəfdən hansı gözəgörünməz qüvvəsə onu Göyəmliyə bağlayırdı.

Saatlarla pəncərə qabağında əyləşib soyuq payızın boz sifətinə tamaşa edirdi. Amma bu soyuqluq onu üşütmürdü. Ürəyinə yayın isti həniri, Göyəmlinin ılıq günəşinin qızılı dalğaları yayılırdı. Belə vaxtlarda gözləri önünə güllü biçənəklər, o biçənəkləri çimizdirən yay leysanı gələrdi...

...Hava bürkülü idi, nəfəs almaq olmurdu.

Qurşağacan soyunub kərənti çəkən biçinçilərin bədənləri Günəşin altında yanıb kösöv kimi qaralmışdı. Qadınlar biçinçi kişilərə su daşıyırdılar. Sakitlik idi. Arabir çəyirtkələrin civiltisi və kərəntilərin vıyıltısı eşidilirdi.

Biçinçilərin dodaqları təpimiş, sifətləri kömür kimi qaralmışdı. Cavan gəlinlər, qızlar üzlərini yaylıqla örtmüşdülər.

Zibeydə də biçinə gəlmişdi. Yanaqlarında, boyun-boğazında puçurlanan tər damcıları üzüaşağı axıb gedirdi. O, yorulsa da bunu üzə vurmaq istəmirdi.

Birdən Göyəmli tərəfdən boz qayaların arasından qara, göyümsov buludlar qaynamağa başladı. Çöllərə qəribə bir sərinlik çökdü.

Hamı göyə baxıb:

– Yağış yağacaq, – dedi.

Az sonra buludlar davakar qoçlar kimi "buynuzlaşa-buynuzlaşa" aşağı endi. Əvvəlcə yağış, sonra isə şüşə kimi

şəffaf, möhkəm dolu dənələri yerə dəyib tappıldamağa başladı. Biçinçilərin "çobanaldadan" hesab elədiyi yağışdan sonra başlayan dolu, get-gedə daha da güclənirdi. Hamı dərədəki alaçığa sarı götürüldü. Qoruqçu dəyəsi səs-küylə doldu...

Kimi dəyənin ortasındakı kiçik döşəkçələrin üstündə əyləşmiş, kimi də küncə qısılmışdı. Kişilərin çoxu dəyənin ağzında çömbəlib papiros, qəlyan tüstülədirdi. Qadınlar asta səslə söhbət edirdilər. Xısın-xısın danışan qızlar yavaşca dümsükləşirdilər; hərdən özünü saxlaya bilməyənlərdən hansısa əlini ağzına qoyub gülməyini zorla saxlamaq istəyir və kəsik-kəsik paqqıldayırdı.

Zibeydə dəyənin bir küncünə qısılmışdı. O, büzüşüb əllərini dizlərində daraqlamışdı. Alaqaranlıq dəyənin ici darısqal idi. Hətta, qadınların bəzisi bir-birinin qucağında oturmuşdu. Kiminsə isti nəfəsi Zibeydənin boynunu qarsıyırdı. Qız zorla nəfəs alırdı.

Zibeydə yerindən güclə qanrıla bildi. Hər tərəfdən sıxışdırılan Vamiqi böyründə gördü. Oğlan, qızın hirsli, parlaq gözlərinin üzünə dikildiyini hiss edib, istər-istəməz yana çəkildi; özünü saxlaya bilməyib böyründəki yaşlı qadının üstünə sarı yıxıldı. Qadın ufuldadı. Biçinçilər çevrilib gülüşdülər; elə bil onlar nədənsə duyuq düşmüşdülər. Qadın yerini möhkəmlədib qışqıra-qışqıra deyindi:

– A bala, dörd yanın qız-gəlinnən doludu! Onlar dura-dura niyə mənim üstümə yıxılırsan?!. Qoca adamam...

Kişilərdən hansısa cavab verdi:

– Elə nə varsa, qocada var!

Yenə gülüşmə qopdu. Gülüş səsi göy gurultusuna qarışdı.

Zibeydə də gülənlərə qoşuldu...

Vamiqin alnında soyuq tər puçurlandı... Hələ də dolu yağırdı. Yay dolusu...

Qız tez-tez o günü xatırlayır, boyun-boğazında Vamiqin odlu nəfəsini hiss edir, belə anlarda bədəninin bütün qanı sürətlə alnına, sifətinə vururdu...

...O, pilləkəni enib, vedrəni doldurmaq üçün qapıdan axan arxa yaxınlaşdı. Birdən qab əlindən düşüb cingildədi, qızın sinəsindən tükürpədən bir fəryad qopdu:

– Vay, dədə, öldü-ü-üm!..

Əbülfəz qızın ətürpədən səsini eşidib artırmaya sarı yüyürdü. Zibeydə yerə sərilmişdi. Donunun ətəyi qan içində idi. Əbülfəz aşağı əyildi. Qızın dizindəki nal boyda çapıqdan qan fışqırırdı. Kişinin gözləri qaraldı... Ürgənin gavalı gözləri ifadəsiz idi...

Səsə qonşular tökülüşüb gəldilər. Qızı qollarının üstünə aldılar.

– Qızı çər dəymiş at vurub... Nalın izi qalıb dizində...

– Nəcəf doxdur çox uzaqdadı, qız gedib ora çıxana kimi qanının hamısını itirər...

– Yaranı yumaq lazımdı...

– Pambıq parça varmı? Yandırıb külünü sürtək....

– Yaxşı, az zəvzəkləyin, uşağı tez Əzizə qarıya çatdırın. Ya özü, ya bacısı qızı bir çarə tapar...

Qonşular Zibeydəni darvazadan çıxaranda, ov tüfəngindən dalbadal iki güllə açıldı. Sarı ürgənin qanı şoralanıb Zibeydənin dizindən torpağa çilənən qana qarışdı.

Əbülfəz tüfəngi evdəki ağac mıxdan asıb, çıxdı. Üzünü qonşu evə tutub qışqırdı:

– Ay uşaq! Bir eşiyə çıx!

Belinə uşaq şəllənmiş arıq bir qadın qapıda görundu:

– Nədi, Əbülfəz qardaş?

– Binnət müəllim gələndə deyərsən ki, bu atın leşini ya sürütdürüb uçurumun kənarında basdırtsın, ya da aparıb itə versin...

Qonşu evdə baş verən hadisəni bilən, güllə səsini eşidən arvad sakitcə dedi:

– Yaxşı, gələndə deyərəm...

Əbülfəz Əzizə qarıgilə tərəf yollandı...

Zibeydəni arxası üstdə taxtda uzatmışdılar. Arvadlardan hansınınsa yaraya sarınmış ağ yaylığından qan sızırdı. Qız inildəyir, zarıyırdı.

Adamlar Əbülfəzi görüb geri çəkildilər. Gözlərinə qan sağılmış kişi ağır, ləngərli addımlarla qızının uzadıldığı taxta yaxınlaşdı.

O biri taxtda Əzizə qarı uzanıb hıqqıldayırdı.

Qarı kəsik-kəsik nəfəs alır, bacısı qızından tez-tez soruşurdu:

– Gör çıxıqdı, yoxsa sınıq? Haradan yıxılıb o tifil?

Əbülfəz qaragül papağını təpəsinin ortasına itələyib qeyzlə qışqırdı:

– Nə çıxıq, nə sınıq, ay arvad?! At vurub təpiknən, at! At!.. Sarı ürgə!.. Nalın izi qalıb qızın dizində. Bax buna deyiblər: karın könlündəki...

Arvad onun dediklərini eşitmir, elə üyüdüb tökürdü:

– İllacım yoxdu, ay Əbülfəz, ayağının altında ölüm... Daha heç gözüm də seçmir... Qoy qız əməlli-başlı baxsın, dava-dərman qoyub sarıyar... Əfsunə, a bala, o uşağı yavaş sarı...

Əfsunə qanlı yaylığı açıb, yaranın üstünə basılmış pambıq külünü şəffaf maye ilə yudu. Göydaş rənginə çalan qatı dərmanı ağac boşqabda qarışdırıb qızın dizindəki qanlı ayparanın üstünə yaxdı. Sonra dümağ tənziflə Zibeydənin ətli-canlı qıçını sarıdı.

Kişilərin hamısı otaqdan çıxmışdı. İçəridə Əbülfəzlə arvadlar qalmışdı. Qonum-qonşunun qızları Əfsunəyə əl-ayaq verirdilər.

Əbülfəz qıraqda durub qaşqabağını sallamışdı. Onun üz-gözündən zəhrimar yağırdı. Kişinin şax qəddi elə bil ki, bir az qabağa əyilmiş, çoxdan dən düşmüş saçları indi daha da ağarmışdı. «Qız, yəqin ki, bütün ömrü boyu axsayacaq» – deyə, o öz-özünə fikirləşirdi. «İt köpək uşaqları o qədər çeynəyirlər ki, evdən-eşikdən xata əskik olmur. Yenə allahın yazığı gəlib. Əgər ürgə qızın qarnına ilişdirsəydi içalatı tökülərdi...

Əzizənin bacısı qızı diribaş uşağa oxşayır... Gərək onun da yanında gözükölgəli qalmayam...»

Əfsunə yaranı sarıyıb qurtardı. Əlini yuyub üzünü Əbülfəzə tutdu:

– Qızınızdı?..

– Hə...

– Gərək özünü soyuğa verməyə, bir ay yataqdan qalxmaya...

Əbülfəz qaragül papağını gözünün üstünə endirdi. Əzizə qarının kəsik mışıltısı aydınca eşidilirdi... Zibeydənin iniltisi kəsmişdi. Əfsunə qızın avazımış alnında puçurlayan təri sildi, saçını arxaya doğru tumarladı. Zibeydə kirpiklərini qaldırdı. Onun nəmli gözləri əvvəlcə Əfsunənin, sonra atasının üzünə dikildi.

Qız hıçqırdı... Əbülfəz eşiyə çıxdı...

Qarı son zamanlar namaz qılmağa başlamışdı. Hər halda Əfsunə əvvəllər, müharibədən qabaq, xalasının namaz qıldığını görməmişdi. Arvad sübh tezdən durub dəstəmaz alır, otağın bir küncünə qoyduğu kiçik, naxışlı kilimin üstündə diz çökürdü. Sonra arvad tirməyə bükdü-

yü möhürü çıxarıb divardakı taxçanın üstünə qoyur, pıçıltı ilə nəsə deyib əyilib-qalxır, salavat çevirirdi. Əfsunə gözaltı diqqət yetirərdi. Dodaqaltı mızıldayıb nəsə pıçıldayan arvad haldan-hala düşürdü: qırışların doğrayıb cadar torpağa döndərdiyi qansız üzünün əzaları titrəyir, bu qəribə titrəyişlərdə ilğıma bənzər bir meh gəzirdi; əyilib-qalxdıqca kürəyindəki qupquru qulunclar üzə çıxan qadının üz-gözündə əcaib ifadələr yaranırdı: bu ifadələr gah gülüşə, gah da dözülməz əzaba bənzəyirdi. Sanki o, eyni zamanda həm ağrılar içində qovrulur, həm də bəxtəvərliyin qanadlarında intəhasız bir aləmdə uçurdu.

Bir dəfə günorta namazi vaxtı qəflətən Söhü gəldi. O, deyəsən, arvadın adətindən xəbərdar idi; Əzizə xalanın namaz üstə olduğunu görüb qapının ağzındaca günahkar uşaq kimi boynunu büküb dayandı. Əfsunə taxtın üstünə sərdiyi qurumuş çiçəkləri ipçinləyir, arabir onlardan bəzisini burnuna tutub qoxulayırdı. Bu xəzələ dönüb soluxmuş güllərin rayihəsi qışın oğlan çağında onu az qala bihuş etmişdi. Söhü gah qarıya, gah da qıza sarı baxırdı. Elə bil yerindəcə quruyub daşa, ağaca dönmüşdü...

Qarı namazını başa çatdırdı. Taxçanın üstündəkn şəkli götürüb təmiz dəsmala bükdü. Ayağa durub belini düzəltməyə çalışaraq, Söhü səmtə dönüb soruşdu:

– Nə var, nə yox?

Söhü, görünür arvadın qulaqı ağır eşitdiyi üçün qışqırdı:

– Heç... salamatlıqdı... O kişinin şəklini hələ də əzizləyirsən, ay arvad?

Arvadın sifəti tutuldu:

– O kişinin təkcə şəkli qoyulan yer yox, elə kölgəsi düşən, adı çəkilən yer də qiblədir... Bizim qibləmizdir o kişi.

Söhü hirslə dilləndi:

– Yaxşı, sən allah... Adamdan qibləgah olar bəyəm?

Arvad ötkəm səslə:

– Niyə olmur?– deyə, kəkələdi.– Bəs peyğəmbərimiz adam deyildimi? Elə urusların Isa peyğəmbəri də insan idi, – göyə çəkildi...

Söhü tutulub yenə uca səslə dedi:

– Yaxşı, yaxşı, hirsini bas... Bəs o kişi deyildimi o qədər adamı güllələdən?.. Təkcə bizim bu Göyəmlidən köhnə əlifba ilə yazan neçə oxumuş adamı molla adıynan güllələdilər.

– Buna o kişi neyləsin?.. Ədilov kimi qansızlar qırdırdı camaatı...

Söhü səsini lap qaldırdı:

– Bəs hökumətin başında duran o kişi deyildimi? O şəklini qibləyə çevirdiyin kişi.... Ədilov o kişinin əlaltısı deyilmi?... Arvad, yığışdır o şəkli, sən atanın goru... Yazan-zad olar...

Qarı onun gözünün içinə dik-dik baxıb soruşdu:

– Kim yazar? Kimə, hara yazarlar?..

– Lap elə o kişinin özünə... Yazarlar ki, səni qibləgaha, pirə çevirən bir qarı peyda olub... Gör, bu qoca vaxtında başına öz əlinlə oyun aça bilirsənmi?

Əfsunə xalası ilə Söhünün söhbətinə maraqla qulaq asırdı; qız artıq söhbətin kimdən getdiyini başa düşmüşdü... Deyəsən, Əzizə qarı Söhünün dediklərindən hirslənmişdi: qansız dodaqları payız yarpağı kimi əsirdi.

– Sən mənim işimə qarışma, get öz ağlının hayına qal, – deyə, qarı pıçıldadı...

Söhünün üzündən qapa buludlar keçdi: o, titrək səslə ağlamsına-ağlamsına dedi:

– Sən də belə... Sən də məni gic hesab edərsən?.. O

qibləgaha çevrildiyinin yolunda gic oldum də... Yazacam hamınızdan... Səndən... Əbülfəzdən... Ədilovdan... Lap o altını kürüyüb-təmizlədiyim heyvanlardan da... Haram gicdi mənim? Haram? Ağlıma nə gəlib? Mən hamıdan ağıllıyam...

– Rədd ol!– Qarının səsi alaqaranlıq otaqda şimşək kimi guruldadı.

Söhü yerindəcə donub qapıya söykəndi. Bir müddət həmin vəziyyətdə qalıb handan-hana tərpəndi, dalı-dalı addımlayıb daş pilləkənlə həyətə endi...

Əfsunənin qanı qaraldı. Altdan-altdan hirslə xalasını süzdü. Qarı ayağa durub açıq qalmış qapının arasından qışqırdı:

– Nəyə gəlmişdin, Söhü?

Əfsunə "Devitbe"nin cır səsini eşitdi:

– Heç... Elə-belə... At xəstələnmişdi.

Söhünün səsi çox sakit idi, elə bil bayaqdan əsib-çoşan, az qala evdən qovulub çıxarılan adam o deyildi. Qarı həyətə sarı qışqırdı:

– Bax, indi bildim ki, başın tamam xarab olub. Ay allahın bədbəxti, burada at həkimi var?

Söhü həyətdən cavab verdi:

– Adamı sağaltmaq, atı sağaltmaqdan asandı bəyəm? Adama dava-dərman eləyən, atı bir göz qırpımında sağaldar ki...

Qarı qoşa əllərini arıq dizinə çırpdı:

– Daha sənə sözüm yoxdur. Elə ağlın bu cürdür ki, Allaha-peyğəmbərə təpik atırsan...

Əfsunə uğunub getdi...

Qarı elə həmin axşam keçindi. Ölümqabağı sanki arvadın qulağı yüngülləşmişdi, zehni aydınlaşmışdı. Qansız sifətinə qəribə, işıqlı bir ifadə qonmuşdu: üz-

gözündən uşaq sadəlövhlüyü yağırdı...

Əzizə qarı dərindən köks ötürüb susdu... Elə bil hıçqırıb içini çəkdi: "Hıqqq..." Gözləri açıq qalmışdı. Əfsunə əyilib qapamaq istəyəndə, solğun qapaqların arasından bir cüt heyrət dolu gözün üzünə dikildiyini gördü: bu bir cüt göz Əzizənin öz gözlərindən daha çox Əfsunənin gözlərinə bənzəyirdi. Bir az da anasının, atasının, baxışlarını xatırlatdı o bir cüt göz. Lap Söhünün də gözlərindən nəsə vardı orada, o gözlərdə...

Əfsunə göz yaşlarını saxlaya bilməyib hıçqırdı…

Bir azdan bütün kənd yeriyib gəldi... Səhərisi gün qarını kəndin başındakı qədim qəbiristanlıqda dəfn etdilər... Müsəlman adətinə görə ölünü basdırmağa qadınlar getməzdi. Əfsunə nə qədər yalvar-yaxar eləsə də onu qəbiristanlığa buraxmadılar....

Qonşular Əzizə qarının üçünü, yeddisini, qırxını verdilər...

Əfsunə Göyəmlinin qışını ilk dəfə idi ki, görürdü. Vamiq həftədə bir-iki dəfə gedib onun odununu yarır, otunu yığırdı. Qız bir söz soruşanda o, qulaqlarının ucuna qədər qızarıb pörtür, dil-dodağı təpiyirdi. Əfsunə onun iri sümüklü bədəninə, güclü peysərinə, qara, parlaq gözlərinə, yeriyəndə çəpəki görünən enli çiyinlərinə gözaltı baxır, özünü heç cürə inandıra bilmirdi ki, bu «kişini» körpəlikdə şəlləyib kürəyində, qucağında gəzdirib. Ovuclayıb torpaq yediyi üçün o körpəni-Vamiqi dəfələrlə kötəklədiyi də onun bu günkü kimi yadında idi...

İllər Göyəmli çayının suyu kimi axıb keçmişdi. Vamiq böyüyüb kişiləşmiş, Səlbi arvadın beli əyilmiş, Əzizə qarı canını qara torpağa tapşırmışdı. Ançaq Əfsunə yenə əzəlki kimi qalmışdı: arıq, solğun, balaca....

Özü də hiss edirdi ki, günü-gündən mum kimi əriyir,

qaraqabaq, adamayovuşmaz olur. Elə bil kiminsə əlləri onun ürəyini məngənə kimi sıxır, təbiətin bəxş elədiyi gülüş, sevinc payını xınçımlayırdı. Xatirələr nəhəng bir quşa dönüb qızı qanadları üstünə alır, onu uzaqlara aparıb çıxarırdı. Əfsunə uzun gecələrin qucağında ilan kimi qıvrılıb-açılır, çox zaman gözünə heç çimir də getmirdi.

O, bəzən yuxudan səksəkəli oyanır, vahimələnir, bədəni süstləşirdi. Otaqdakı əşyalar əcaib şəkillər alıb tərpənirdi. Sanki onlarca göz onun üzünə dikilib bərəlirdi. Əfsunə yorğanı başına bürüyüb, qorxusundan hənirini belə çəkmirdi. Eşitdiyi hər kiçik taqqıltı onun yuxusunu ərşə çıxarır, yatağına qor doldururdu. Güzgüdə qan sağılmış gözlərinə baxanda hönkürməkdən özünü zorla saxlayırdı. Hər dəfə özünə tamaşa eləyəndə sanki qızın göz qapaqlarının arasından yad və yad olduğu qədər də doğma olan bir adam çıxar, ona baxardı. Bu adam Əfsunənin atası idi. Atasının gözləri qızın üzünə tuşlanardı. O gözlər qonur idi. Əfsunə güzgünün yanından uzaqlaşar, pəncərədən dağın zirvəsində laylanan buludlara baxar, onu əzən, taptalayan düşüncələrdən yaxa qurtarmağa çalışardı.

O, tənhalıqdan qorxurdu.

Əfsunə belə əzablı günlərin birində bütün gecəni otaqda çapalayıb, yalnız səhərə yaxın yuxuya getdi. Birdən qız çardaqda taqqıltı eşitdi. Pəncərəyə baxdı. Hava hələ qaranlıq idi; qışın alatoranlığı Göyəmlinin üstündən asılmışdı. “Yəqin, it-pişikdir” – ürəyindən keçirtdi. Ancaq taxta pilləkəndə asta addım səsləri aydınca eşidilirdi. Qız elə bildi ki, onu yenə xof basır. Böyrü üstə çevrilib yorğanı başına çəkdi. Addımlap susdu. Əfsunə hənirtini dinşədi. Təzədən pəncərəyə baxdı. Tutqun bir kölgə ötüb keçdi. Bir az sonra kiminsə sifəti şaxtanın naxışladığı pəncərəyə söykəndi. Əfsunə özünü itirdi. Qışqırmaq

istədi. Nəfəsi təngidi. Taxtdan yerə sıçradı. Yalın ayaqları döşəməyə dəyib şappıldadı.

Pəncərədən boylanan sifət geri çəkildi. Şüşədə əcaib izlər qaldı.

Əfsunə paltarını əyninə keçirib qapını açdı. Hava işıqlanmışdı; pəncərə buz bağladığından bayır alaqaranlıq görünürmüş.

Çardağa yağmış təzə qarın üstündə iri ləpirlər aydın seçilirdi. Pəyə qapısının ağzında kimsə kibrit əkdi. Əfsunə irəli yeridi. Vamiq idi.

Vamiq onu görüb günahkar adam kimi büzüşərək asta səslə:

– Sabahın xeyir, – dedi. – Bayaqdan baltanı axtarıram…

Qızı gülmək tutdu. Üzünü yana tutub dilləndi:

– Aqibətiniz xeyir...

Görünür, onu yuxudan kal qaldırdığına görə Vamiq utanıb pörtdü. Üzrxahlıq elədi.

– Elə bildim oyanıbsan... Dedim bəlkə, suya-zada gedibsən...

– Balta pəyədə – baçanın ağzındadır, – deyib, Əfsunə evə keçdi.

“Yəqin yalan deyir. Bəs görmür ki, qapıda iz yoxdur? İz yoxsa, demək, mən evdəyəm, yatıram... Bəlkə, heç iz haqqında fikirləşmək onun ağlına gəlməyib. Üzdə yalançıya oxşamır. Yalançı olmasa da yaşının elə vaxtıdır ki... O yaşda olanda mən kişilərə başqa gözlə baxırdım... Yox, bəlkə də heç iz məsələsi ağlına gəlməyir?.. Nə bilim? Elə mən özüm Zübeyirin yanına kitab bəhanəsi ilə getmirdimmi?”. Düşüncələr Əfsunəni on il əvvələ apardı...

...Atası böyük qızları köçürəndən sonra öldü. Əfsunənin toyunu görmədi... Ana və qız böyük, hündür

binanın aşağısında – ikiotaqlı zirzəmidə yaşayırdı. Ərindən keçən xəstəlik arvadı yay armudu kimi gündən-günə saraldırdı. Əfsunənin anası xasiyyətcə deyib-gülən idi. Ancaq əri öləndən sonra əsəbi olmuşdu. Tez-tez qışqırıb özündən çıxırdı... Əfsunə ürəyi uçuna-uçuna böyüyürdü. Güzəranları yaxşı keçmədiyinə görə otağın birini kirayəyə vermişdilər. Kirayənişin otuz yaşlarında sağlam, dolubədənli həkim idi Təzə qonşu, evə yan tərəfdən qapı açdırdı. O biri girişdən onun yanına tez-tez xəstələr gəlir, dərman içir, diş çəkdirirdilər. Həkimin adı Zübeyir idi. O, çox səxavətli adamdı; Əfsunənin anasına bazarlıq etdirəndə, arvad nə illah eləsə də pulun qalığını geri götürmür, hələ üstəlik arabir ana və qıza hədiyyələr də alırdı.

Əfsunə məktəbi bitirəndə Zübeyir onun sənədlərini tibb institutuna verdi. Qız tələbə olandan sonra öz kirayənişinlərinin evinə daha tez-tez gedir, tibbə aid kitablar alırdı. Anası həkim qonşularının tapıb gətirdiyi insan sümüklərinə iyrənə-iyrənə baxır, qızına yalvarırdı ki, onları bu səmtə hərləməsin. Əfsunə hərdən əlində oynatdığı kəllə sümüyünün alnından öpər, anası ilə zarafatlaşmaq istərdi. Arvad üz-gözünü turşudub, əllərini dizinə çırpar, qızın üstünə qışqırardı: «Ödüm ağzıma gəldi, a günü qara! O ölü sümüyünü bir də gətirsən, başına vuracam!»

Bir səhər hələ anası yuxuda ikən, o, ayaqlarının ucunda bayıra çıxıb, Zübeyir yatan otağın qapısını yavaşca taqqıldatdı. Qapının ağzında bir qədər durub dinşədi. Dəmir çarpayı cırıldayanda geri qayıtmaq istədi. Bu zaman Zübeyirin başı çölə çıxdı. O, bir əli ilə qapının dəstəyindən yapışmışdı, o biri əli ilə köynəyinin yaxasını düymələyirdi.

Əfsunə çaşdı. Bilmədi ki, nə desin. Dili topuq çala-çala dilləndi:

– Sabahınız xeyir!

– Aqibətin xeyir. Hə, gəl içəri… Keç, keç... Kitab üçün gəlmisən?

– Hə… Bəli, – deyə, Əfsunə cavab verdi. Hiss elədi ki, yanaqları od tutub yanır.

– Kətili çək, əyləş...

Əfsunə çəkinə-çəkinə əyləşdi. Zübeyirin yatağı yığılmamışdı. Yorğan-döşəkdən kişi bədəninin ətri gəlirdi. Mələfə qar kimi idi. Onu dünən Əfsunə ütüləmişdi.

– Hansı kitab lazımdır?

Əfsunə ağlına gələn kitablardan birinin adını dedi.

Zübeyir rəfə yaxınlaşıb qalın cildli kitabı əlinə götürdü:

– Hə, budur, tapdım... Al... Götür...

Qız gözucu kitaba baxıb:

– Bundan özümdə də var, – dedi.

Zübeyir diqqətlə onun üzünə baxıb, birdən qəhqəhə çəkdi. “Özündə varsa, daha niyə gəlmisən?” Zübeyir yalnız gülməklə kifayətlənsə də Əfsunə onun üzünün ifadəsindən fikrindən keçən bu sözləri oxudu. Özünü itirdi. Bilmədi daha nə desin. Nəhayət, dilləndi:

– Sonuncu nəşri lazımdır...

Zübeyir gülümsəyib asta səslə dilləndi:

– Elə bu axırıncı dəfə çıxandır.

Əfsunə özünü daha da itirdi:

– Dedim, bəlkə bundan sonra da çap olunub...

Qız ayağa qalxıb, bayıra çıxdı. Xəcalətdən gizlənməyə yer axtarırdı...

Aradan xeyli keçdi... Bir dəfə axşamüstü anası dedi ki,Zübeyir nişan gətirmək istəyir. Əfsunə başını aşağı

dikdi... Susdu. Yazbaşı toy elədilər...

Əfsunənin gəlinliyi dörd ay çəkdi. Zübeyiri müharibəyə apardılar... Cəmi iki məktub gəldi... Biri Zübeyirin özündən idi. Yazırdı ki, sağ-salamatlıqdır. Əfsunəyə, anasına ürək-dirək verirdi. İkinci məktub isə “qara kağız” idi....

… – Otağınız çox soyuqdu. Sobanı qalayın... Odun gətirmişəm...

Vamiqin içəri girməsindən qızın xəbəri olmamışdı. Səsə başını qaldırdı. Xatirələr aləmindən ayrıldı.

– Hə, çox sağ olun... Əziyyət çəkmisiniz...

Balta çalmaqdan hələ də tövşüyən oğlan pencəyinin qolu ilə alnının tərini silib:

– Nə əziyyəti var ki? – dedi.

Əfsunə sobanı ağzına qədər odunla doldurdu. Vamiq onun səriştəsiz olduğunu görüb, xırda çırpıları irəli çəkdi, Cibindən çıxartdığı qəzet parçasının yarısını cırıb kibritlə alışdırdı; Soba gurhagur yanmağa başladı.

Əfsunə Vamiqin üzünə baxıb gülümsədi...

- Bir stəkan çay gətir, – deyə, Əbülfəz asta səslə dilləndi.

Zibeydə bayaqdan pıqqıldayan samovarın dəmkeşini maşa ilə götürüb kənara atdı. Çay süzüb stəkanı atasının qabağına qoydu.

Əbülfəz altdan-altdan qızına, onun yeriş-duruşuna göz qoyurdu. Zibeydə yeridikcə sol ayağını azacıq çəkir, əyiləndə dizini yaxşı qatlaya bilmirdi. Qızın yanaqlarının qızartısı solmuş, rəngi avazımışdı. Qabaqlar paltarın altında yırğalanan dolu-sağlam bədəni indi nəzərə çarpacaq dərəcədə zəifləmişdi. Kirpiklərinin altına qövs şəkilli kölgə düşmüşdü. Qız kiçik vedrələrin qulpunu çiyin

ağacının qarmağına keçirə-keçirə dedi:

– Dədə, mən bulağa gedirəm. Arxımızın suyu donub… quruyub… Dəm çaydanı sobanın üstündədi...

– Birdən ayağına güc düşər...

– Düşməz, – qız asta səslə dilləndi.

O, iki aya yaxın idi ki, həyət-bacadan çölə çıxmırdı. Çaya, bulağa gedən qız-gəlinlərə həsədlə baxırdı. Atası evdə olmayanda pəncərənin qənşərində oturub Səlbi arvadgilin evinə, habelə, çaya uzanan ensiz yola boylanır, mal-qaranı qabağına qatıb çaya enən Vamiqi görəndə ürəyi həyəcanla çırpınırdı. Hərdən gündüzlər onlara gəlib Zibeydəyə baş çəkən, qızın yarasına bağladığı sarğını açıb dəyişən Əfsunə olmasaydı, yəqin ki, onun bağrı çatlardı. Əfsunə ona uzaq yerlərdən, qəribə adamlardan danışardı. Qızın dərdini yüngülləşdirməyə, fikrini dağıtmağa çalışardı. Onların arası elə açılışmışdı ki, zarafatlaşar, hətta yaş fərqlərinə baxmayaraq hərdən təkcə qadınlara aid ola biləcək “gizli” mövzularda söhbətə girişərdilər.

Əfsunə bu nəhəng evdə, böyük həyətdə – insanlardan və günəşdən uzaqdakı qalın meşələrin yabanı çiçəyi kimi böyüyən qıza ürəkdən bağlanmışdı.

Əbülfəz evlərinə gəlib-gedən Əfsunə ilə gah həyətdə, gah da doqqazda rastlaşır, şax qamətini azacıq əyib, başını tərpətməklə qızın salamını alırdı. Kişi əvvəllər ona o qədər də diqqət yetirməzdi. Ancaq Əfsunənin hələ on il əvvəl ərə getdiyini qulağı çalandan sonra bu zərif qadına çoxdan bəri balış yoldaşına tamarzı qalan dul kişi sövq-təbiiliyi ilə göz qoymağa başladı. O, daha Göyəmlinin təzə sakininin salamını başını tərpətməklə almır, ucadan:

– Salaməleyküm, doxtur, – deyirdi.

Gözünü yerə dikib yanından keçən Əfsunənin nazik, çatma qaşları, ağappaq zərif sifəti, ensiz- yumru çiyinləri,

kişinin ürəyində qadınlarla bağlı yadırğanmış hissləri təzədən göyərdirdi. Elə bil ki, sinəsində sönüb kül olan ocaq təzədən qorlanır, korun-korun yanır, onun qəlbinin buz qatını əridirdi. Kişi cavanlığında olduğu kimi özünü çəkib şax qamətini daha da dartır, üzünü hər gün ülgücləyib, qalın bığının ucunu alırdı. Lakin Əbülfəzin gözləri özünün çallaşmış saçına sataşanda qanı qaralır, sifətinin rəngi bozarırdı. Belə anlarda ürəyində baş qaldıran gənclik hisslərinə görə xəcalət çəkib özünu yamanlayırdı: "Tay-tuşlarım deməzmi ki, ay çal qurumsaq, ərə getməli qızın var, amma özünün ürəyindən təzəbəylik keçir. Bu, qocalıqda yorğalıq döyülmü? Eşidən-bilən fikirləşər ki, kolxozu yedi, gözü qızdı. Hələ Zibeydə... Qız üzümə qayıdıb deməzmi, ay dədə,saqqalından utanmırsanmı? Camaat da, Əfsunə də ələ salar məni".

O, hərdən özünə bəraət də qazandırardı: «Bir yana baxanda, axı,niyə ələ salsınlar? Bu qız on il qabaq ərə gedibsə, məndən uzaq başı on-on iki yaş kiçik olar. Nə olsun ki, üzdən uşaq görünür? Kimi tez düşər, kimi gec... Mənimlə çiling-ağac oynayanların çoxunun başında bir dənə ağ tük yoxdu. Bu boyda kəndin yükünü belimdə daşıyıram”.

Əbülfəz qarmaqarışıq düşüncələri özündən uzaq eləməyə çalışırdı.

Qapı taqqıldadı.

Əbülfəz amiranə səslə:

– Gəl! – dedi.

Qapının arasında başına qara şal örtmüş bir qadın göründü. Sir-sifəti son günlər- kəndə gələndən sonra təravətlənib bahar çiçəkləri kimi açmış qızın Əfsunə olduğunu görən Əbülfəz qeyri-ixtiyari ayağa qalxdı. Kişi

az qala gözlərinə inanmadı.

– Xoş gəlibsən... İçəri keç...

Qız otağa boylandı.

– Yox... Mən gedirəm... Zibeydənin yanına gəlmişəm...

– Zibeydə suya gedib. Indi gələr... Otur...

– Sağ olun... Gedim, sonra gələrəm...

Əbülfəzin bozumtul, uzun sifəti işıqlandı, dodağı qaçdı.

– Onsuz da sağıq... Sən keç əyləş, söz güləşdirmə. Mən bu saat çıxıram... Qız da indi gələr...

Əfsunə nədənsə çəkinə-çəkinə kənardakı kətillərdən birinin üstündə oturdu. Soyuqdan göyərmiş əllərini, bir-birinə kip qısdığı dizlərinin üstünə qoydu.

Əbülfəz hiss elədi ki, bu anlarda nəsə söhbət eləmək, bir şey soruşmaq lazımdır. Hər halda susmaq heç də yaxşı əlamət ola bilməzdi.

– Heç şəhərdə qohum-əqrəban qalıbmı?

Qız gözləmədiyi sualdan karıxdı.

– Hə... Bəli... Qalıb... Iki bacım...

Əbülfəz əlindəki boş stəkanı oynada-oynada dedi:

– Buraya gəlməkdə ağıllı iş görübsən... Xalanın yurdu boş qalmaz... Ot-alaf, odun-su, nə lazım olsa, de, utanma...

– Çox sağ olun...

Əbülfəz bir az susub dilləndi:

-Vallah, sənin borcundan çıxa bilmədim. Ha deyirəm bir şey alım. Kazımın dükanına heç nə gəlmir ki...

Əfsunə heyrətlə soruşdu:

– Nə borc?

– Zibeydənin ayağını sən sağaltdın... Sən olmasaydın, allah bilir, nə təhər qurtaracaqdı... Deyəsən, axı sən həkimlik məktəbini bitiribsən hə?

– Yox. Cəmi bir il oxumuşam...

– Bir il azdımı? Mənim qonşu kənddə dostum var: Nəcəf... Davadan qabaq gərək ki, ikicə il oxumuşdu. Ala-yarımçıq da olsa dava-dərmandan başı çıxır, nə qədər adamı sağaldıb... Dava qurtarandan sonra getdi, qalanını da oxuyub geri qayıtdı. Əli qızıldı.

Zübeyirin xəyalı Əfsunənin gözləri qarşısında canlandı. Qız özü də bilmədən soruşdu:

– Bəs müharibəyə getmədi?

– Kim?

– Dostunuz... Nəcəf...

– Eh, sağolmuş, həkimlər ciki də bilir, biki də... Nəsə onu aparmadılar davaya...

Daş pilləkəndə addım səsləri eşidildi. Artırmada vedrə cingildədi. Qapını açıb içəri girən Zibeydənin yanaqları sazaqdan nar kimi qızarmışdı. Qız kətilin üstündə büzüşüb oturmuş Əfsunəni görüb şən səslə:

– Xoş gəlibsən, Əfsunə bacı,– dedi.

Qız alnına tökülmüş qara tellərini güllü yaylığının altına yığıb taxçadan stəkan-nəlbəki götürdü. Sonra:

– Görüm, samovar soyumayıb ki,– deyə, artırmaya çıxdı.

Əbülfəz boynu xəz dərili paltosunu çiyninə atdı. Sobanın altındakı maralayaq qamçını xrom çəkməsinin boğazına keçirdi. Qamçının şallağı qırmızı ilan dili kimi sallanırdı.

Atası çıxan kimi, Zibeydə qollarını qanadlayıb Əfsunənin boynuna doladı. Ağlayıb təzəcə ovunan körpə kimi içini çəkə-çəkə başını onun zərif, yumru çiyinlərinə qoydu.

– Nə yaxşı ki, gəldin, ay Əfsunə bacı!.. Damın altda ürəyim partlayırdı.. Bəs sən tək darıxmırsan?...

Əfsunə qızın sadəlövh sualına gülüşlə cavab verdi:

– Darıxıram....

...Əbülfəzin ovqatı təlx idi, qanı bərkqaralmışdı. Artırmaya çıxdı. Barxanaların böyrünə atılıb qalmış içi qırmızı tiftikli təzə, qara qaloşları çəkməsinin üstündən geydi. Əlini arxasında çarpazlayıb var-gəl eləməyə başladı. Kişi addımladıqca sanki dodaqaltı kiminləsə söhbət edir, qəzəblənib kimisə asıb-kəsirdı. Bayaqdan atasına göz qoyan Zibeydəni gülmək tutmuşdu. Pıqqıldamamaq üçün əlini ağzına qoyub otağa keçdi. Qız doyunca güləndən sonra sobanın içinə bir-iki odun atdı.

Əbülfəzin dodaqları əsirdi...

Qaloşları soyunub daş pilləkənlərlə həyətə endi. Maralayaq qamçısını çəkmənin boğazından çıxarıb bir-iki dəfə şallağını ayağının böyrünə vurub şappıldatdı. Idarəyə doğru yönəldi...

Dükanın qabağında durub uşaq kimi qarın üstündə nəsə yazıb-pozan Söhünü görəndə kişinin halı daha da pozuldu. Qeyzlə onun üstünə qışqırdı:

– Devitbe köpəyoğlu, nə sülənirsən burda?!

– Söyüş söymə, Əbülfəz... Kazımı gözləyirəm,– deyə, Söhü fağır-fağır dilləndi.

– Gecələr satdığın otun pulu cibini deşir, hə?

Söhü heyrətlə onun üzünə baxdı:

– Nə pul?.. Nə ot?

– Qandıraram sənə nə ot, nə pul!..

Söhü də səsini qaldırdı:

– Üstümə şər atma, Əbülfəz! Arvad-uşaq damın altında ac-yalavacdır... Gəldim ki, bir az nisyə qənd-çay alım.

– Ağı-zəhər yedirdəcəyəm sənin arvad-uşağına!

– Zəhəri sənin balan...

Söhünün sözü ağzında yarımçıq qaldı. Qulağının dibində açılan şapalaq elə bil onun cümləsini tamamladı. Ocağa təzə atılan yaş odun da canına hənirti keçəndən sonra beləcə şaqqıldayır: şaqq!

Söhü ulaq belindən atılan tozlu palan kimi qarın üstünə sərildi. Ancaq bu uzun çəkmədi. Dirsəklərini yerə qayayıb iməkləyə-iməkləyə ayağa durdu. Əbülfəz onun çevrilib hədəqəsindən çıxan gözlərinə səksəkəli-səksəkəli baxıb bir-iki addım geri çəkildi, «bu köpəkoğlu birdən ölüb kolxoz davarı kimi ayağımda qalar Devitbe»,– deyə, düşündü.

Söhü hələ də onun üzünə baxırdı. Elə bil ayaqlarından yerə mıxlamışdılar: heç nəfəsini, cıqqırını da çəkmirdi. Təkcə boğazından dikəlib irəli çıxan iri, yumruq boyda hulqumu qalxıb-enirdi.

Əbülfəz səsini bir az yavaşıdıb:

– Get öküzləri qoş,– dedi.

Söhü kirli barmaqları ilə şapalaq dəyən qulağını ovuşdurub eyni ahənglə:

– Niyə qoşum?– deyə, soruşdu.

“Selbə yeyən it kimi hürüb-hürüb susdu deyəsən. Hamısı belədi. Gərək bunların təpəsindən qapazı heç vaxt əskik eləməyəsən. Yoxsa nə allahın yolunu tanıyarlar, nə bəndənin”. Əbülfəz ürəyindən keçən bu fikirlərin təsiri altında hirslə dilləndi:

– Sənə qoş dedilər, yüyürtmə, get qoş!

– Yəni, ağa deyir sür dərəyə, sür, hə?!.

Əbülfəz daş dəymiş ayı kimi donquldandı:

- Sənə min dəfə demişəm ki, səfeh-səfeh danışma.. Get arabanı sazla. Qapıdakı yığının yarısını...

Söhünün hədəqədən çıxmış gözlərinin qapaqları bir-

birinə dəyib daha da genişləndi:

– Əbülfəz, nə ot, nə qapı? Mənim qapım...

Əbülfəz hirsli-hirsli güldü:

– Mənim qapımdakı otu... Özümnən başlayıram. Əgər çatmasa bir qapıda diş qurdalamağa belə çöp qalmayacaq!

Söhü dillənmədi.

- Axı camaat...

Əbülfəz daha da hirsləndi:

– Camaat qələt eləyir. Heç kəs mənə qaşın üstdə gözün var deyə bilməz! Acınnan ölən adam üçün indi heç kəsdən haqq-hesab tələb olunmur. Amma biz hökumətimizin tələf olan hər baş mal-qarası, lap elə hər qoyunu, hər atı, hər iti üçün başımızla cavab veririk. Mən dövlətin dilsiz-ağızsız heyvanını qırıb türmədə can çürüdən deyiləm! Mən cibimdə o boyda partbilet gəzdirirəm!

Söhü asta səslə dilləndi:

– Hökumətin malına yazığın gəlir, hökumətin camaatına yox?! Vallah, faşist səndən insaflıdı... Mən heç frontda da belə əziyyət çəkmədim.

Əbülfəz onun sözünü ağzında qoydu:

– Mənə moizə oxuma! “Camaat... Camaat”... Nə camaat?! Tüpürüm camaata. Mənnən camaat haqq-hesabı soruşan yoxdu! Bildin? Plan istəyirlər, plan! Sən nə qanırsan belə şeyləri, ay gic?!.

Söhü hirslənib özündən çıxdı:

- Mən qanmıram? Niyə qanmıram, Əbülfəz! Dediklərini yazacam! Elə sənin özündən yazacam... İndi... indii sən planı palan edib minirsən camaatı. Vallah, bu dünyada əhli-kef adamların bəxti həmişə üzünə gülür.

– Ağzını yum! Gepezeyə düşməyibsən, deyəsən ağzın isti yerdədi sənin!.. Arabanı sür mənim qapıma...

Əbülfəz xrom çəkmələrini cırıldada-cırıldada

uzaqlaşdı...

...Vamiq yabanı xırçıltı ilə tayaya sancır, otu çəngələyib lay-lay arabanın üstünə atırdı. Söhü quru otun kəsif-şirin ətrini udduqca asqırır, dodaqaltı deyinirdi:

– Qansız oğlu qansız deyir ki, qapılardakı otu da yığdıracam. Sabah da deyəcək ki, davar qırılıb, kərək hərə üç-dörd toğlu kəramət eləsin... Yaz gələndə də yun çatışmayacaq. Payız güzəmi yığdı, indi də yarpağını dənləyəcək... Hələ yumurta, yağ, toyuq-cücə... Vallah frontda peysərimə dəyən o güllə sinəmə dəysəydi bundan yaxşı idi... Canım birdəfəlik qurtarardı bu dünyanın qeylü-qalından... Arvad-uşaq yanında da ölməli olmuşam... Gecə-gündüz işləyirəm. Nədir qazançım? Yumruq, söyüş... Vallah, o öldürdüyüm frislər bu Əbulfəz kimilərdən insaflı idi. Bizim öz faşistlərimizdən heç yerdə olmaz....

Söhü doluxsundu:

– Kül olsun mənim başıma, kül! Doğrudan da başım xarabdı...

– Başın niyə xarab olur ki, ay Söhü?

–Xarab olmasa «devitbe» deməzlər ki... Xarab olmasa buralara qayıdardımmı? Qalardım Fransada, Italiyada... Orada... Onların arasında elə mərifətlisi olur ki... O ki qaldı faşistə, elə hər yerdə var. Bu kənddə yoxdu bəyəm? Çoxdu, çox... Vallah, doğrudan da "devitbe"yəm.

– Söhü, düzü mən bilmirəm o nə deyən sözdü elə. Devitbe nədi axı?

– Heç mən özüm də əməlli-başlı bilmirəm.... Inişil rayonda davada olanları, frontovikləri yoxlayırdılar. Mən də getmişdim. Imanına it bağladığım Binnət müəllim də mənnən idi... Həkim yoxladı, dedi: «Sən doqquz bısan». Dedim ki, "doqquz bı" nədi? Dedi ki, yəni "devitbe"...

Baxıb görürəm Binnət müəllim bığaltı gülür. Özüm kəndə gəlib çatmamış adım gəlib çatdı, bir də baxıb görürəm ki, hamı mənə "devitbe" deyir, "devitbe" Söhü... Bildim ki, Əbülfəzin qonşusunun işidi... Binnət müəllimin... Hə, deyəsən, ta yer qalmadı arabada. O çatının ucunu bura at. Əvvəlcə, ilgək elə… Bax elə... Ay sağ ol...

Vamiq kəndirin düyünlü tərəfini arabanın üstündə dizi üstə durub, aşağı əyilən Söhüyə doğru atdı. Söhü kəndirin doğanaqdan keçən ucunu çiynindən aşırıb gücü çatıncaya qədər dartdı...

Vamiq öküzlərin boynunu boyunduruğa keçirib, dəmir samıları deşiklərə sancdı. Qamçını əlində oynada-oynada oxranan cöngələrə qışqırdı:

– Oho-o-o! Gözünüzə dönüm!..

Ox cırıldadı. Araba yerindən tərpəndi. Təkərin şini xır daşları əzdi, qarı xartıldatdı...

Zibeydə aynabənddə durub qarın üstü ilə qara örkən kimi uzanan qoşa araba təkərinin izinə xeyli tamaşa elədi…

Vamiq qamçını öküzlərin boynu üzərində– havada şaqqıldatdı...

Təkərlərin cırıltısı eşidilməz oldu...

Bir azdan daş pilləkənlərdə çəkmə cırıltısı eşidildi…

Bozay girəndən sonra havalar daha da sərtləşmişdi. Gah qar yağır, gah tufan qopurdu. Gecələr daha da şiddətlənən külək qarı sovurub yarğanlara doldurur, dərələri silələyirdi.

Belə tufanlı gecələrin birində Əfsunə yuxudan hövlnak qalxdı. Haradasa itlər ağız-ağıza verib ulaşırdı. Əfsunə vahimələndi. Qalxıb çırağı yandırdı. Sönməkdə olan sobaya quru çırpı atdı. Alovun sarı şöləsi divarda oynadı...

Təzədən yataqa uzandı. Səs-küy get-gedə yaxınlaşırdı. Bəlkə, kəndə yalquzaq düşüb? Bəlkə oğrulardır?

Əfsunənin ürəyi sürətlə döyünməyə başladı...

Bu yerlərdə qız götürüb qaçmaq adəti hələ də qalmaqda idi.

Əgər birdən... - Əfsunənin bədənini buz kimi soyuq tər basdı... - Evə basqın eləsələr imdada çatan olacaqdımı? Köməyə kim gələsidir ki? Yad kənd, yad qız... Yad adamlar....

Əfsunə qonşu evin– Səlbi arvadgilin işığının yandığını hiss elədi. Təzədən qalxıb boylandı. Çırağın pənçərədən süzülən zəif işığında boz kölgələr oynaşırdı…

– Əfsunə!..

Qızın başındakı tüklər biz-biz oldu... Kimsə pıçıltı ilə onu səsləyirdi. Səs lap yaxınlıqdan gəlirdi.

– Əfsunə!..

Əfsunə qaranlıqda əli ilə axtarıb donunu tapdı. Ağ yun corabları ayağına taxdı. Şalı çiyninə atdı. Onun bədəni uçunurdu.

– Əfsunə, mənəm, bir dəqiqəliyə gəlmişəm... Vamiqəm . Mənəm... Qapını aç!..

Qız Vamiqin səsini tanıyıb bir az cürətləndi. Qapının rəzəsini geri çəkdi.

– İçəri keçin...

– Yox, tələsirik...

Əfsunə Vamiqin arxasında büzüşüb duran qadın görəndə daha da təəccübləndi.

Vamiq qızın ürəyindən keçənləri duyubmuş kimi dedi:

– Əfsunə, Binnət müəllimin ayağını it dişləyib... Hava pisdir, soyuqlayar deyə onun özünü gətirməyiblər... Sənin adını tutub gəliblər...

Binnət müəllimin rvadı soyuqdan dişləri dişlərinə

dəyə-dəyə Əfsunəyə yalvarmağa başladı:

– Üzüm ayağının altına... Qabağında ölüm... Tək ayağının üstündə bir çətən külfət dolandırır... O birisi ayağını da itirsə.... Balam sənə qurban, ay gəlin, ay Əfsunə...

Əfsunə rezin çəkmələrini geydi: dolabdan tənzif, yod, spirt, dərmanla dolu bir-iki şüşə götürdü...

Qarın şəfəqləri yeri işıqlandırmışdı. Küləyin uğultusu bir qədər azalmışdı. Xarlayıb bərkimiş qar layları onların ayaqları altında xırtıldayırdı. Gediş-gəlişin çox olduğu mərkəzi yol buz bağlamışdı...

Binnət müəllimin arvadı irəlidə gedirdi. Az qala yüyürürdü. Vamiqin arxası ilə tələsən Əfsunənin tez-tez ayaqları büdrəyir, sürüşürdü...

Dizə qədər qara batan qız əl atıb Vamiqin qolundan yapışmasaydı yəqin ki, üzüqoyulu yıxılacaqdı.

– Vay! Vamiq...

Əfsunə əl atıb oğlanın qolundan tutdu. Vamiqin canından ömründə hiss eləmədiyi bir dalğa keçdi: hərarətli, qaynar, alovlu...

...Onlar gəlib yetişəndə Binnət müəllim uşaq kimi zarımağa başladı:

– Səndən də ayıb olmasın, a qızım, ayaqyoluna çıxmışdım. Bircə onu gördüm ki, Əbülfəzin iti məni qamarlayıb altına yıxdı... Qonum-qonşu gələnə kimi şilimlədi məni... Vay-y-y... Ölürəm!.. Deyirəm, birdən qancıq qudurmuş olar...

Əfsunə, əmrə müntəzir əsgər kimi ərinin başının üstünü kəsdirib durmuş arvaddan:

– Evdə dəri varmı?– deyə, soruşdu.

– Nə dərisi?

– Qoyun, mal dərisi...

– Niyə yoxdu?.. Var...

– Bir az da bal tapın... iki-üç qaşıq...

Əfsunə xalasını xatırladı... Uşaqlıqda Əfsunənin böyük bacısını it dişləmişdi. Əzizə qarı yaranı yuyub onun üstünə pətək balı yaxdı. Sonra dəri qoyub sarıdı. Qız çox tez sağaldı...

Əfsunə dərinin üstündən tənzif çəkdi. Binnət müəllimin uşaqları boyun-boyuna verib ona tamaşa edirdilər. Binnət müəllimin arvadı ərinin başına fırfıra kimi dolanırdı...

Artıq dan yernə qızartı düşmüşdü. Geri qayıdanbaş Əfsunə yenə Vamiqin qoluna girdi.

– Əfsunə, sənin əlin şəfalıdır....

Qız susdu...

Vamiqə elə gəldi ki, qız onun dediklərini eşitmədi.

– Sən həkim işləyə bilərsən...

– Nədən bilirsən?

Vamiq udqundu:

– Görmürəmmi?... Zibeydəni də sən sağaltdın...

– Yox, Vamiq, məndən həkim olmaz... Cəmi bir il oxumuşam. Dad yarımçıq əlindən...

– Bəs niyə qurtarmadın?..

– Müharibə qoymadı...

– Müharibədən sonra...

– Müharibədən sonra... Dünyanın o qədər qəribə işləri var ki... Vamiq, sən heç Göyəmlidən kənara çıxmısan?

– Zoğallıda olmuşam... Bir dəfə də rayonda...

Əfsunə xısın-xısın güldü.

Vamiq ürəyində onun gülüşünü başqa yerə yozdu. Qaş-qabağını tökdü. Qız onun incidiyini başa düşüb dilləndi:

– Başqa şeyə gülürəm. Xətrinə dəyməsin...

– Xətrimə niyə dəyir ki?.. Hə, deyəsən, çatdıq?..

– Çatdıq....

Əfsunə onun qolunu boşladı.

– Yəqin, soba sönüb. Istəyirsən, gedək çay qoyum, iç, qızış...

Vamiq güldü.

Qız soruşdu:

– Niyə gülürsən?

– Sobanı qalamağı öyrəndinmi?

Əfsunənin də dodağı qaçdı.

– Yaxşı, onda sən qalayarsan, mən də çay qoyaram...

Vamiq dünəndən yarıb çardağın üstünə düzdüyü quru odundan bir qucaq yığdı. Boylanıb həyətlərinə sarı baxdı. Səs-səmir gəlmirdi. Gecə Binnət müəllimin arvadı onlara gələndə Vamiqi anası oyatmışdı. Oğlnun qonşu ilə getdiyini görən arvad yəqin ki, artıq arxayıalaşıb yatmışdı...

Sobanın üstündəki çaydan qaynamağa başladı. Əfsunə durub çay süzdü. Qızın əlləri əsirdi.

- Deyəsən, qəndimiz qurtarıb...

Vamiq xatırladı ki, onlarda da qənd yoxdur. Son vaxtlar heç Kazımın dükanında da qənd tapılmırdı.

- Qaxnan içərik...

Vamiq sırıqlısının cibindən bir ovuc qax çıxartdı. Əfsunə uşaqlıqda onu çimdikləyib ağladan, sonra qax verib ovudan xalasını xatırladı.

İçəri isti idi. Sobadakı odunlar çataçatla yanırdı. Vamiq otağa göz gəzdirdi. Əzizə qarı sağ olanda tez-tez gəldiyi ev sanki dəyişmişdi. Pəncərəyə tor pərdə salınmış, döşəmə tər-təmiz yuyulmuşdu. Divarlar adamın üzünə gülürdü. Vamiqin baxışları Əfsunənin üzünə dikildi. O, ilk dəfə idi ki, qıza belə yaxından tamaşa edirdi. Əfsunənin

sıx kirpikli ala gözləri, Göyəmliyə yağan təzə qar təki ağ sifəti, tər damcıları sırğalanan ensiz alnı, uzun qaşları, şəffaf dərili zərif boğazı, qansız, nazik dodaqları Vamiqin ürəyində qəribə hisslər oyadırdı.

Qız onun uzun, diqqətli baxışları altında pörtüb çiyninə atdığı qara yun şalın saçaqlarını didişdirməyə başladı.

Handan-hana Vamiq dilləndi:

– Əfsunə, sən burada həmişəlik qalacaqsan?

Verdiyi sual Vamiqin özünə də çox səfeh göründü: «Birdən soruşsa ki, bunun sənə dəxli varmı, az, ya çox, hələlik buradayam, öz doğma xalamın evindəyəm, onda mən nə cavab verim?»

– Necə bəyəm? – Əfsunə gülümsədi.

– Heç... Elə-belə deyirəm... Qalsan yaxşıdır... Buralarda dava-dərman tapılmır... Onsuz da həkim lazımdır...

– Mən ki, həkim deyiləm, Vamiq...

– Niyə elə deyirsən? Vallah, hamı sənin xətrini istəyir. O günü Söhü səndən danışırdı. Deyir, uşaqlarımın əl-üzünü dəmirov basmışdı; Əfsunə sağaltdı, əli qızıldı...

“Mən lap gicəm... Söhü... dəmirov... Heç yeridir?... Adam kimi düz-əməlli söz də danışa bilmirəm. Yəqin, ürəyində mənə gülür... Mənim səfehliyimə, avamlığıma... Axı, ayrı nəsoruşum ki? O, çox şey bilir, çox yerlərdə olub. Ancaq üzdən lap uşağa oxşayır... Zibeydə onun yanında yekə arvaddır... Zibeydəyə nə var ki?.. Deyirlər, Əfsunə Əbülfəzgilə ayaq açıb, tez-tez Zibeydənin yarasını bağlamağa gedir. Əfsunə. Eh, bizimkilərə də bir söz lazımdı. Daha kişilər arvadlardan betər olub. Söz gəzdirirlər, qeybət eləyirlər”...

Bu anlarda sanki Əfsunənin sinəsi od tutub yanırdı.

“Yox, mən həkim deyiləm, Vamiq... Daha məndən

həkim olmaz... Indi mən şikəstəm. Heç kəsə lazım deyiləm. Lap doğma bacılarım da mənə gülüb, "türkə-çarəçi" deyirlər. Mən adamlara yaxşılıq eləmək istəyirəm, məni ələ salırlar, məni lağa qoyurlar... Mənim kimi adamlara nə şəhərdə yer var, nə kənddə. Mənim ürəyim çilik-çilik olub, onu tikmək mümkün deyil. Onu sağaltmaq olmaz... Həyatım puç olub gedib. Tale də mənim bəxtimi qara edib... Mən... mən bədbəxtəm, Vamiq"...

Əfsunə əlləri ilə üzünü tutub hıçqırdı. Çiyninə atdığı şal sürüşüb yerə düşdü. Vamiq əyilib şalı götürdü. O, çaşıb qalmışdı. Qıza toxtaqlıq, təskinlik vermək istəyir, amma nədənsə münasib söz tapıb fikrini ifadə edə bilmirdi.

Əfsunə əlini uzadıb şalı alanda, onların əlləri bir-birinə toxundu. Vamiq közə toxunubmuş kimi tez əlini geri çəkdi.

- Niyə ağlayırsan ki?.. Axı sənə nə oldu? Kim sənin xətrinə dəyən bir söz deyir axı?...

Əfsunə cibindən çıxartdığı dəsmalla yanaqlarından axan göz yaşlarını silə-silə pıçıldadı:

– Eh, Vamiq, sən hələ uşaqsan...

Elə bil Vamiqin başına bir qazan qaynar su tökdülər.

– Uşaq niyə oluram, Əfsunə?..

Qız sanki öz hərəkəti ilə oğlanın xətrinə dəydiyini duyub özünü ələ aldı, ürəkdən qəhqəhə çəkib güldü. Elə bil bayaqdan hönkürüb ağlayan o deyildi. Vamiq qaşqabağını töküb, üz-gözünü turşutdu.

Əfsunə onun ürəyini almaq üçün əlini Vamiqin cod, qara saçlarına çəkdi:

- Uşaqsan, Vamiq... Balaca olanda səni o qədər qucağımda gəzdirmişəm ki... Onda yaman dəcəl və şən idin, gülüb-oynayırdın. Indi də sən mənə hirsli, acıqlı bir

körpəni xatırladırsan...

Saçlarında gəzən zərif əllərin təması Vamiqi ürəyini titrətdi.

– Mən uşaq deyiləm, Əfsunə. Bəlkə də, sənə elə gəlir... Dünyanın işlərini mən də az-çox başa düşürəm..

Qız qaqqıldayıb təzədən güldü. Onun bəyaz, zərif yanaqlarına qızartı çökdü. Qızın bu gözlənilməz dəlisovluğu Vamiqi özündən çıxartdı. Onun dodaqları əsdi: elə bil boğazına nəsə tıxanıb sinəsini xışmaladı. Istədi ürəyindən keçənləri qıza desin:

"Uşaq beşikdə, bələkdə olar... Mən dava illəri belimdə odun daşımışam... Yazda kotan məcindən yapışmışam, yayda gecə-gündüz biçində olmuşam... Xırmanda vəlin altına düşmüşəm... Bunları ona görə deyirəm ki, mənim uşaq olmadığımı biləsən. Heç mənim düz-əməlli uşaqlığım da olmayıb. Yadıma gəlmir ki, balacalara qoşulub oynayım. Evin böyüyün işini də mən görmüşəm, kiçiyin işini də..."

Amma dillənə bilmədi. Susdu.

Vamiq qızın saçlarını oxşayan titrək əlindən tutdu. Ürəyi sürətlə döyünməyə başladı. Köz kimi yanan dodaqlarını, qızın göyərçin kimi çırpınan yumşaq, zərif əllərinə sıxmaq istədi.

Əfsunə çaşqın-çaşqın onun üzünə baxdı. Əllərini geri çəkdi. Pıçıltı ilə:

– Sən nə edirsən, Vamiq? – dedi.

– Əfsunə...

– Gözləməzdim... səndən...

Vamiqin sinəsi körük kimi qalxıb-endi. Sifəti kürədən çıxan dəmir kimi qızardı. Çaşqın nəzərləri qızın üzünə dikildi. "Mən lap ağlımı itirmişəm. Daha bura nə üzlə gələcəm? Axı mən nə etdim ki?.. Lap heyvan kimiyəm...

Elə bil dilim qıfıllanıb, söz tutmur ki, danışam”...

– Niyə, niyə gözləməzdin? – Vamiqin səsi xırıldadı.

– Ayıbdır...

– Əfsunə, mən gec-tez ürəyimi açmalı idim... Mən istəyirəm ki, daha sən tək yaşamayasan... Mən... mən istəyirəm ki...

– Deyəsən, sən də məni ələ salırsan, Vamiq...

– Niyə, axı?..

– Nə çoxdur gözəl-göyçək, ağıllı qızlar...

– Sən mənə hamıdan ağıllısan... Qızların hamısından göyçəksən...

– Camaatı özünə güldürərsən, Vamiq... Gör, mən səndən neçə yaş böyüyəm... Sən hələ...

– Bəsdir, Əfsunə!.. Yəqin yenə «uşaqsan» – deyəcəksən. Tay-tuşlarım...

Əfsunənin baxışları yerə dikildi.

– Yox, bu mümkün deyil... Ola bilməz...

– Niyə olmur ki?..

– Vamiq, sənin anan var, qohumların var...

– Nə olsun ki?.. Onların bura nə dəxli?

– Onlar heç vaxt razı olmazlar ki, sən... sən yad, gəlmə bir adamla evlənəsən... Mən səndən yaşlıyam.. Həm də ki, mən daha bir dəfə ailə qurmuşam... On il keçir o vaxtdan... Onda sən uşaq idin, Vamiq... Lap uşaq idin. Ay allah, vaxt necə tez ötüb keçdi...

– Mən ki, bunları bilirəm...

– Bildiklərin, gördüklərin azdır... Hələ irəlidədir sənin gələcəyin... Bir vaxt indi dediyin sözlər üçün xəcalət çəkəcəksən, ozün öz hərəkətlərinə güləcəksən. Sənin ailən, uşaqların olacaq... Bu günlər yadına düşəndə...

Vamiq onun sözünü kəsdi:

-Mən uşaq deyiləm, Əfsunə... Lazım gəlsə hər şeydən

keçərəm... Mən heç kəsin sözüynən iş görmürəm! Mənim öz ağlım özümə bəsdir... Əgər sən istəsən lap Göyəmlidən baş götürüb çıxaram. Səninlə dünyanın o başına da gedərəm!

Əfsunə çaşıb qalmışdı. Onun indiyəcən dilsiz-ağızsız uşaq hesab elədiyi Vamiq, indi qızın gözləri qarşısında başqalaşır, özgə bir adama çevrilirdi... "Əzizə xala həmişə deyərdi ki, xamır yeyənin fağırı olmaz"– deyə, qız ürəyindən keçirdi.

Vamiq başını aşağı dikib susurdu. O, günlərlə ürəyində gəzdirdiyi, neçə yol öz-özünə təkrarladığı sözləri birnəfəsə deyib qurtardığı üçün elə bil rahatlanırdı. Sanki aylardan bəri çiyinlərində gəzdirdiyi ağır dəyirman daşını yerə qoymuşdu.

Əfsunə oğlanın əsəbiliklə bir-birinə çarpazlaşan barmaqlarına baxdı. Vamiqin iri pələş əlləri qabar-qabar, didik-didik idi. Qalın dırnaqlarını şaxta-sazaq vurub gül kimi bozartmışdı. Əfsunə onun əllərinə baxanda uşaqlıqda gördüyü xırman vəllərini xatırladı. O vaxt vəlləri atlara qoşub taxıl döyərdilər.

“Yox, o doğru deyir, daha uşaq deyil. Ancaq həyatda az şey görüb. Yer əkməklə, taxıl biçməklə öyünsə də belə, çox şeydən xəbəri yoxdur. Axı, mən nə cür razılıq verə bilərəm? Onsuz da öz əzabım özümə bəsdir... Nə üçün onu da əziyyətə salmalıyam? Əgər onun istəyi baş tutsa, Göyəmlidə bizi topa qoyub atarlar... Vaxt gələr, o özü də peşman olar, tutduğu işdən əzab çəkər... Hələ eşidən-bilən nə deyər? Səlbi arvad gecə-gündüz məni söyər. Gün-güzəranım zəhərə dönər! Yox, bu qətiyyən ola bilməz!” Əfsunə özü də bilmədən hündürdən qışqırdı:

– Yox, bu qətiyyən ola bilməz!

Vamiq başını qaldırıb diqqətlə qızın üzünə baxdı.

Əfsunənin gözlərinin ətrafı yaşla həlqələnmişdi. Elə bil ağır buludlar bir himə bənddi ki, kükrəyib dünyanı selə-suya bələsin.

Vamiq dillənmədi. O, qızın göz yaşlarını görmək istəmirdi. Səssizcə ayağa qalxdı. Asta, yorğun addımlarla bayıra çıxdı. Qapını örtəndə hıçqırtı eşitdi. Addımlarını yavaşıtsa da geri dönmədi. Ağac pilləkəni enib öz həyətlərinə yönəldi...

Səlbi arvad çoxdan oyanmışdı. Hələ dan yerinə səda düşməmiş arvadın yuxusu ərşə çəkilmiş, ondan sonra çimir eləməmişdi. Oğlunun Binnət müəllimgildən belə gec qayıtması ananın ağlına yüz fikir gətirirdi. «Birdən yolda it-pişik tutar... Bəlkə, Binnət müəllimin yarası ağır olub? Dilim-ağzım qurusun, birdən bir iş-zad çıxar...»

Arvad səhərə yaxın xırçıldayan qarın üstdə ayaq səsləri eşidib oğlu ilə Əfsunənin qayıtdığını yəqinləşdirdi. Xeyli gözləsə də Vamiq gəlib çıxmadı.

Durub pəncərədən boylandı. Qonşu evdə çıraq yanırdı. Səlbi arvad onların qayıtdığını hiss elədi. Gümanını yəqinləşdirmək üçün daha diqqətlə baxdı; evin bacasından çıxan qara tüstü göyümsov-tutqun səmada əriyib dağılırdı. Demək, sobanı qalamışdılar...

Arvad oğlunun yolunu gözlədikcə dişi bağırsağını doğrayır, öz-özünə əsib-coşurdu: “Dul gəlinin yanında nə işi var onun? Onsuz da bizim camaata bir zurna-balaban lazımdı ki, çalıb-çağırsın... Birdən Əzizənin bacısı qızı uşağı cadu-pini eləyib toruna salar? Nə desən çıxar onnan... Yerin altını da bilir, üstünü də... Üzü üzlər görüb günü qara olmuşun... Elə çoxdan duyuq düşmüşdüm ki, oynaqlaşırlar. Mənim oğlum qızdan həyalıdı. Üzü gor görmüş, yəqin uşağı yoldan çıxarıb; onun da ki, beyni qandır, nə desələr inanar... Gör bir kimin kimə quşu

qonub? Yaşı o yana dursun, adama oxşarı da yoxdu, qoluqıçı iynə kimidi... Neçə ilin duludu. Ayıbını qara torpaq örtsün bunun... Vallah, gözü qızıb qızın! Uşağın saqqızını oğurlasa, daha ölməli olaram kənd içində. Qonum-qonşunun üzünə çıxa bilmərəm. Deməzlərmi ki, filankəsin oğlu qab dibi yalayır?! Heç əsli-nəsli də bilinmir. Rəhmətlik Əzizə yaxşı qonşu idi, ancaq bu dünyadan züryət deyə-deyə getdi. Bu da onun kimidi yəqin... Deyəsən, nəsillikcə belədirlər... Nə döl gözləyəsən bunlardan?!. Ürəyimə çoxdan dammışdı ki, bu xısınlaşmanın, mazaqlaşmanın gec-tez bir hoqqası çıxacaq. Bilirdim ki, belə buynuzlaşma çıxacaqsız olmaz! Yox, gərək gədənin əl-ayağını yığışdıram. Beş-üç ağsaqqal göndərərəm Əbülfəzin qapısına... Qızı verər – gətirərəm ocağa, verməz – ağrım onun özünün də, qızının də ürəyinə. Insafana qız, dil-ağzı özündə olan uşaqdı, anasına çəkib, təmiz süd əmib. Ancaq sümüyü zaydı, Əbülfəz qansızdı, kəmfürsətdi...

Əstəğfürullah, bu uşaq harda qaldı? Bir dəli şeytan deyir, əlinə bir payadan, yarmaçadan al... get, ikisini də..."

Addım səsləri arvadı qonşuya getmək fikrindən döndərdi. Vamiq ayaqlarını sürüyə-sürüyə içəri keçdi. Elə bil Səlbi arvadın yarasına duz basdılar.

– Hardan gəlirsən, a bala?!

Vamiq gec cavab verdi:

– Hara getmişdimsə – ordan...

Qadın səsini qaldırdı:

– Getdiyin yeri yaxşı bilirəm...

Vamiqin başında nəsə uğuldadı.

– Bilirsənsə, ta niyə soruşursan?

Arvad xeyli susdu. Çənə-boğaz eləməyin yersiz olduğunu duyub asta səslə dedi:

– Ağlını başına yığ, bala... Hələ cavansan... Hər çalınan havaya oynama. Dostdan çox düşmən var... Birdən camaatı bizə güldürərsən...

Vamiq hiddətlə bağırdı:

– Bəsdir!

Vamiqin gözləri az qala hədəqəsindən çıxacaqdı; qadın qorxu və heyrətlə oğluna baxdı.

Vamiq yaralı vəhşi kimi yenə nərildəyirdi.

– Bəsdi daha! Hamınız ağıl verən olubsunuz!.. Təkcə mən ağlımı itirmişəm!... Bəsdi, qurtarın!..

Vamiq qapını çırpıb çıxdı...

Arvad quruyub yerində qalmışdı. Əllərini dizinə çırpıb pıçıldadı:

– Ay allah, mənə ölüm ver... Uşağın başına hava gəlib... Səni görüm ağ günə həsrət qalasan, ay ovsunçu, bihəya qancıq!..

Səlbi arvad oğlunun ardınca çıxdı...

Zamiq görünmürdü...

Boyunduruqlar şaqqıldadı, cilov zənçirləri cingildədi. Araba yerindən tərpənəndə Söhü başını qaldırıb Əzizə qarıgilin evinə sarı boylandı. Əfsunə çardağın üstündə, əli qoynunda durub arabaçılara baxırdı.

Söhü qamçının dəstəyi ilə Vamiqin böyrünü dümsüklədi:

– Biyabır oldum... Deyəsən, qız söyüşümü eşitdi... Vamiq tərs-tərs onu süzüb çəmkirdi:

- Tez ol, öküzləri yedəklə! Arabanın oxu daş-kəsəyə ilişib qalar. – Sonra hirslə əlavə etdi: – Nə vaxtdan mərifətli danışan olubsan?..

Söhü irişə-irişə onun üzünə baxdı:

– Hə, qardaş, mən deyən oldu, ya yox? Gördünmü, Əbülfəz nə təhər ağlatdı bu boyda kəndin anasını, hə?! Bu

da sənin otun... Ancaq mən yenə kişi kimi deyirəm: ona bir çəngə də ot verən deyiləm. Əmək günümə nə yazıblar onu da almışam. Bax, bir sözdü sənə deyirəm: əgər mənim otumu aparmağa gələn olsa, yığına od vurub yandıracağam. Beş-on baş davarım var, qatıb qabağıma aparacam bazara. Onsuz da inəyim oğursaqdı, əmcəyi qurumuş nə qədər eydirirsən eydir, onsuz da yarım sərnicdən artıq süd vermir...

Araba Əzizə qarıgilin evinin qabağından keçəndə Söhü söhbətini yarımçıq qoyub:

– Axşamın xeyir, ay Əfsunə bacı,– deyə, hələ də qapıda dayanıb onlara göz qoyan qızı salamladı.

– Aqibətiniz xeyir...

– Yenə boğazımın ağrısı tutub... Sabahda-zadda gələrəm, bir əncam...

Vamiq onun üstünə qışqırdı:

– Cəhənnəmə sancsın, gora sancsın! Tez ol yedəyi çək!

Əfsunə evə girəndə Söhünün səsini eşitdi:

– Sənə nə olub, gicitkən kimi adamı dalayırsan. Görürsən ki, kişinin qızıynan gap eləyirəm, üstümə şeşələnirsən...

Onların söhbətini eşidən qızı gülmək tutdu. Tez evə keçdi.

Əfsunə əl-ayaq yığışandan sonra səhəngi götürüb su gətirməyə getdi.

Bozumtul qış gecəsi öz qanadlarını Göyəmlinin üstünə sərdi. Hərdənbir pəyələrdə inək böyürür, hinlərdə toyuqlar qaqqıldaşırdı.

Külək dağın döşündəki qarı sovurub aparmışdı. Dərələr, yarğanlar ağappaq idi. Dağ qış yuxusuna gedən nəhəng ayını xatırladırdı.

Sazaq qalxanda itlər ağız-ağıza verib hürüşməyə başladılar. Uzaqlarda– küləyin az tutduğu yastanalarda, qobularda çaqqallar ulaşırdı.

Pilləkəndə eşidilən çəkmə cırıltısı qızı diksindirdi. Qulaqlarına inanmadı; axı, kənddə Əbülfəzdən başqa cırıltılı çəkmə geyən ikinci bir adam tanımırdı. Bayırdan eşitdiyi səs onu daha da vahimələndirdi.

– Qonaq istəmirsən ki?

Az qala pıçıltı ilə deyilən sözlər Əfsunənin qulaqlarında guruldayıb əks-səda verdi. Qız karıxıb qaldı. Ayağa sıçrayıb şalı çiyninə atdı.

Səssiz açılan qapının arasından əvvəlcə Əbülfəzin qaragül papağı göründü. Sonra kişinin şax qaməti kölgə kimi sürünüb otağa keçdi. Əfsunə heykəl kimi donub otağın ortasında qalmışdı. Qonağa «xoş gəldin» deyib, yer təklif eləmək də yadından çıxdı.

Əbülfəz otağa göz gəzdirib, heyrətdən quruyub qalmış qıza sanki o qədər də əhəmiyyət verməyərək:

– Deyəsən, çırağın nöyütü azalıb?– deyə, soruşdu.

Hələ də özünə gəlməyən qız, dili topuq çala-çala dilləndi:

– Yox, yox... Nöyüt var... Nəsə zəif yanır...

Əbülfəz kətil çəkib sobaya yaxın oturdu. Kişinin sazaq vurmuş yanaqları allanmışdı.

– Niyə ayaq üstə durursan ki?.. Elə bil mən ev yiyəsiyəm, sən də qonaq. Düzü, gəlib-getməyə macalım olmur... Bir hovur başım açılmır ki, sənə dəyim. Qonaq olmasan da, buralara çox bələd deyilsən. Camaatnan da elə alış-verişin yoxdu... Gərək bağışlayasan... Heç bilmirəm güzəranın-zad necə keçir...

Əfsunə büzüşüb taxtın üstündə oturdu:

– Sağ olun... zəhmət çəkmisiz...

– Nə zəhmət – nə filan... Hökumət bu boyda Göyəmlinin ağalığını mənə verib... – Əbülfəz qızın üzünə baxıb qımışdı. – Əslində, ağalığım nökərçilikdən betərdi... He-he-he... Yaxam qalıb bu axmaq camaatın əlində. Qıraqdan baxan da deyir ki, nə var– işlər öz-özünə gedir... Vallah, əslində heç baş qaşımağa macal yoxdu.

Əfsunə ayağa durub çaydanı sobanın üstünə qoydu, Əbülfəz altdan-yuxarı qızı süzüb:

– Nahaq zəhmət çəkirsən, – dedi.

Əfsunə dillənmədi.

Əbülfəz yerində qurcuxdu. Xrom çəkmələri cırıldadı.

– Doğrusu, ürəyimdən keçirdi ki, güzəranına-zada baxım. Görüm əyər-əskiyin, ehtiyacın nəyədi... Bizim camaat da zurnaçıdı... Gəlib-gedəcəksən, deyəcəklər ki, görən nə təmənnası var... Avam adamlardı... Qanmırlar ki, qadın xeylağına çətindi. Illah da ki, yad yer ola, tək ola... Mən söz-söhbətə qulaq asan adam deyiləm, amma yenə hər necə olsa el-obadı, gərək hərdən hesablaşasan... Odun sarıdan korluğun varmı?

Əfsunə başını yırğaladı:

– Yox...Bu qışa çatar yəqin...

– Utanıb eləmə... Nədən korluğun olsa de...

Qızın ürəyini şübhələr didirdi. “Gecə yarıdan keçir. Mən ona necə deyim ki, çıx get... Özü başa düşmürmü? Desəm də yaxşı düşməz. Bəlkə də, açıq ürəklə gəlib... Axı, bu boyda kəndin qayğısını çəkir... Nə bilim?... Bir də ki, buralarda kişilərin tənha qadınların yanına getməsinə yaxşı baxmırlar. Mən ki, bu yerlərin adətinə uşaqlıqdan bələdəm...”

Əbülfəz gözlərini büzüşüb taxtın üstündə oturmuş Əfsunəyə zillədi. Qızın nazik qaşları çatılmış, gözləri bir nöqtəyə zillənmişdi; nəfəs aldıqca xırda, yumru sinəsi

xəfifcə titrəyirdi. Sobanın istisi vurduqca qızın alnında puçurlanan tər damcıları diyirlənib yanaqlarında şırımlanırdı...

Otağın isti havasından və bir-iki saat əvvəl dostu Nəçəflə içdiyi arağın təsirindən xumarlanan Əbülfəzin qırışığı açılır, sifəti işıqlanırdı. Qıza tamaşa elədikcə canına hərarət gəlir, gicgahının damarı qaragül papağında vururdu. Kişi cibindən çıxartdığı ağ dəsmalla boyun-boğazının tərini siləndən sonra dəsmalı cibinə qoyub dedi:

– Eh, vallah, təklik də bir şey deyil. Adam yalquzağa dönür... Heç olmazsa, gündüzlər idarədə, poçtda vaxtım keçir. Elə ki axşam düşür, evə üz çevirmək iətəmirəm. Dağı arana, aranı dağa daşıyıram... Öz-özümə fikir eləyirəm ki, bu qədər vuruşub çalışmağım da havayıdı. Allah bilir, qazandığım hansı yad oğluna qalacaq... Sümüyüm qəbirdə çürüyəndə heç yada da düşməyəcəm...

Əfsunə ona ürək-dirək vermək istədi:

– Tək niyə olursuz ki? Allaha şükür, yanınızda qızınız...

Əbülfəz əlini yellədi:

– Qız yükü, duz yükü... Indiki zamanda halal süd əmmiş adam tapmaq da müşkül işdi. Nə biləsən, kimə ürcah olacaq?... Bir də ki, qızı yola saldım...

Əfsunə kirpiklərini döyə-döyə təəccüblə soruşdu:

– Hara?

Əbülfəz gülümsəyib:

– Oxumağa,– dedi. – Nəcəf dedi ki, ver aparım, feldşirlik kursudu-nədi, ora. Qızın da ürəyi vardı. Qoşdum Nəcəfə, getdi. Yenə hər nəydi həyan idi, o gedənnən sonra lap yetim kimi olmuşam. Heç bilmirəm, neyləyim, ev-eşiyi kimin umuduna qoyum? Qalmışam naçar...

Əbülfəz söhbəti dolandırıb Əfsunənin üstünə gətirmək

istəsə də çəkinir, ürəyindən keçənləri açıb deməklə qızı hürküdəcəyindən ehtiyatlanırdı. "Əgər sözüm yerə düşsə, gərək başıma papaq qoyub camaat içinə çıxmayam. Eşidən-bilən dalımca gülüb məni ələ salar... Amma bundan da gözüm su içmir. Zalım balası elə bil maldı, mal... Nə deyirsən, elə gözlərini döyüb adamın üzünə baxır... Deyəsən, yaşlaşdıqca mən də uşağa dönürəm, gərək söhbətin məğzini birdəfəlik açıb deyim. Yoxsa, gizlənpaç oynamağa gəlməmişəm ki"...

Çaydan pıqqıldamağa başladı. Əfsunə qalxıb sobaya yaxınlaşdı. Əlini dəstəyə uzatmaq istədikdə Əbülfəzin tərli barmaqları onun ağ, zərif biləklərinə toxundu. Əfsunə əlini tez geri çəkdi, heç nə deməyib geri qayıtdı. Taxtın üstundə oturub üzünü yana çevirdi.

Əbülfəz çaydanı yerə qoyub başını əlləri arasına aldı. Dirsəklərini dizinə söykəyib xeyli susdu. Sonra ayağa qalxıb çəkmələrini cırıldada-cırıldada var-gəl elədi. Onun kölgəsi çırağın zəif işığında döşəmədə, divarda sürünür, tavanda titrəyirdi. Elə bil danışmaq üçün kimdənsə təklif gözləyirdi. Handan-hana duruxa-duruxa dilləndi:

– Əfsunə, məni az-çox tanıyırsan. Günümə-güzəranıma da bələdsən. Bilirəm ki, elə sən də mənim təki talesiz-baxtsızsan... Amma nə edə bilərik ki? Adamın başına hər iş gələ bilər... Dünyanın gedişatından baş çıxarmaq olmur... Sən buraya gələndən istəyirdim ki, ürəyimnən keçəni açıb deyim. Rəhmətlik Əzizə qarının ölümü araya düşdü. Bilirsən ki, mən də damın altında təkəm... Sən özün uşaq deyilsən ki... Bəlkə də, yaxşı düşmür heç...

Əbülfəz danışdıqca uzaq yol gəlmiş adam kimi tövşüyür, küt, onun boğuq səsi çəkmələrinin cırıltısını batırırdı.

– Ömrünün axırına qədər tək qalası deyilsən ki?.. Tələsdirmirəm... Əməlli-başlı fikirləş. Rəhmətlik qarı sağ olsaydı... Lap istəyirsən, gedim şəhərdə ailənizlə danışım. Bilirəm qohumların oradadır. Bacıların, yeznələrin razılıq versə... Bir də ki... hər şey sənin özünnən asılıdır... Ya "hə", ya "yox"... Əfsunə, mən gec-tez sənə deməli idim... Yaxşı düşməsə də belə...

Əbülfəz susub qızın üzünə baxdı. Əfsunə hıçqırıb, əvvəlcə körpə uşaq kimi sızıldadı. Sonra onun sızıltısını inilti əvəz etdi. Əbülfəz çəkməsinin cırıldayacağından ehtiyat edirmiş kimi ayaqlarının ucunda ona yaxınlaşdı. Əllərini qızın ensiz çiyinlərinə qoyub taxtın ucunda oturdu. Kal səslə dilləndi:

– Axı, niyə gözünün qorasını ələyirsən?... Nə olub ki?.. Nə qədər ki, mən sağam, bir adam sənə güldən ağır söz deyə bilməz... Ay dəli, yaxşı, bəsdi... Adamın ürəyinin başına od düşür... Lap uşaq kimisən...

Əbülfəzin əlləri qızın saçında, yanaqlarında, çənəsində gəzdikcə göz yaşları ilə islanırdı.

Əfsunə ağladıqca sanki yüngülləşir, illərlə ürəyini xıncımlayan ağır dərd yükü, ata-ana kədəri, ər intizarı get-gedə azalırdı. Göz yaşları bahar səmasının buludu kimi axıb gedirdi...

Onun ürəyi qızmar yay günəşinin qurudub cadar-cadar etdiyi şoran səhraların torpağı kimi suya, qayğıya həsrət qalmışdı, sanki kimdənsə təsəlli umurdu...

Bayırda külək it kimi ulayır, ağacların budaqlarını şaqqıldadırdı. Soyuq qış gecəsi təkcə küləyi dondura bilməmişdi...

Əbülfəzin əlləri qızın saçlarında, bədənində gəzdikcə Əfsunə gözlərini yumub süstləşir, büzüşür, əriyib gecəyə qarışmaq istəyirdi. "Mən istəyirəm ki, daha sən tək yaşa-

mayasan.... Sən ağıllısan... Qızların hamısından göyçəksən..."

Elə bil təzəcə aydınlaşan göylərə zülmət çökmüşdü. Qız xəyalla həqiqət səddində, yuxu ilə oyaqlıq qovşağında burulğana düşmüşdü. Yox, bu Əbülfəzin səsi deyildi. Bu səs uzaqdan, lap uzaqdan gəlirdi. Bu, Zübeyirin səsi idi. On il idi ki, yol gəlirdi. Işığı yol gələn ulduzlar təki... Bu, Vamiqin səsi idi... Elə o gün də soba beləcə yanırdı. Əfsunə onda da hıçqırırdı, ağlayırdı... Bəs bu kimin əlləridir onun yanaqlarını, boynunu, saçını oxşayır?... Vamiqin əlləri iri idi, dərisini şaxta vurub çatlamışdı. Əfsunə kirpiklərini qaldırıb sinəsində gəzən yad kişi əllərinə baxdı: üstü sıx qırışlarla örtülmüşdü. Barmaqlar qızın gözləri önündə sürüşkən ilan kimi qıvrılıb açılırdı. Əfsunə gözlərini yad, isti, nəmli əllərin sahibinin üzünə dikdi. Əbülfəz bayaqdan hönkürüb ağlayan qızın axır ki, toxtadığını zənn edib başını onun sifətinə doğru əydi... Əbülfəzin bu hərəkəti nədənsə Əfsunənin yadına uzaq-uzaq günləri saldı... Bir dəfə zoologiya müəllimi dərsdə ağzı kip örtülü şüşə bankanı salıb sındırdı. Şəffaf qabın içindəki yaşıl ilan təcrübə stolunun üstündə qaldı, maye isə döşəməyə dağıldı. Spirtin kəskin qoxusu uşaqların burnunu qıcıqladı...

Əfsunə gözləri önündə tərpənən uzun barmaqlara bir də baxdı. Qızın gözləri dumanlandı. Kirpiklərinin ucunda sırğalanan göz yaşları arxasında barmaqlar öz rəngini dəyişdi: əvvəlcə bozumtul rəng aldı, sonra qalayı sürtülən qaşıq kimi göyərməyə başladı. Barmaqlar get-gedə rəngini dəyişib yaşıl rəngə büründü... Yamyaşıl oldu. Ot kimi, yarpaq kimi, zoologiya müəlliminin stolunun üstündə qalan ilan kimi... Qızın burnunu da həmin tanış iy – sinif otağına çökən spirtin qoxusu qıcıqlandırırdı.

Axı, bu gürzələrin məqsədi nədir? Qızın yaxasını niyədidişdirir? Gürzələr belinə dolanıb onu harasa dartır, yıxmaq, zəhərli dilləri ilə çalmaq istəyirdi. Onların dişləri necə də itidir... Gürzələr qızın çiyninə atdığı şalı, əyninə geydiyi koftanı, donu hara gəldi atdı, alt paltarını şilimlədi... Ilanlardan birinin iti dişi onun çılpaq kürəyinə sancdı...

Əfsunə dəli kimi qışqırdı:

– Əl çəkin! Rədd olun! İlanlar!

Vahiməli qışqırıqdan Əbülfəzin tükləri ürpəşdi. Yerindən dik atıldı...

Sanki qızın gözləri kəlləsinə çıxmışdı; çırağın zəif titrək şöləsində onun sifəti dəhşətli, qorxunc bi görkəm almışdı...

...Əbülfəz asta addımlarla pillələri düşə-düşə öz-özünə fikirləşirdi: "Deyəsən, bunun tutması var..."

Külək hələ vıyıldayırdı...

Qarın xırtıltısı Əbülfəzin çəkmələrinin cırıltısına qarışmışdı...

Təkcə rəhmətlik Əzizə qarıgilin evinin pəncərəsində solğun çıraq işığı titrəyirdi...

Göyəmlinin göyləri qətran kimi qara idi.

Əfsunə gözlərini açanda hava çoxdan işıqlanmışdı... Gecə Əbülfəzlə olan söhbət ona həqiqətdən daha çox, yuxunu xatırladırdı. Bu qorxulu, qəribə yuxu onu kədərləndirdi. Hətta, qız nədənsə öz-özünə xəcalət hissi keçirdi.

Çardaqda ayaq tappıltısı eşidib pəncərədən boylandı. Söhü idi. Əfsunə ayağa durub qapını açdı. Söhü həyəcanlı idi. Dodağı səyriyirdi.

– Əfsunə bacı...

– Bir nəfəsini dər... Nə olub ki?

Söhü boynunu yana əyib yazıq-yazıq dilləndi:

– Yox, qaça-qaça gəlmişəm... Burda durmağa heyim yoxdur... Gedək bizə, arvad yatıb...

Əfsunə onun dediklərindən bir şey anlamadı:

– Yatıb? Necə yəni yatıb?

Söhü günahkar uşaq kimi çənəsini sinəsinə sıxdı:

– Dərdin alım, Əfsunə bacı... Sən allah, bağışla məni... İndiyəcən bizim tifillərin hamısını rəhmətlik Əzizə qarı tutub. Bu sabah gördüm itin qızı zoqquldayır... Uşaqların anasını deyirəm... Mənə də bir söz demir... Bayaq girirəm içəri, görürəm, böyük qızım özünü yeyib-tökür. Başımı qaldırıb baxıram, zalım balası–uşaqların anasını deyirəm–taxtın üstündə qızıl qana bələnib... Əfsunə bacı, qədəminə qurban olum... Əfsunə bacı, allah sənin gününü ağ eləsin...

Əfsunə məsələnin nə yerdə olduğunu başa düşüb tez-tələsik rezin çəkmələrini ayağına taxdı, paltosunu geydi. Qapıdan çıxanda Söhü onu haqladı.

– Vallah, sənnən başqa heç kəsə üzüm gəlmədi... Səni muradına çatasan, Əfsunə bacı... Rəhmətlik Əzizə qarı...

Əfsunə daha ona qulaq asmırdı...

... Söhünün böyük qızı ağlamaqdan gömgöy olmuşdu. Əfsunə uşağı bayıra çıxarıb qapını arxadan bağladı.

Arvad taxtın üstündən sürüşüb torpaq döşəməyə düşmüşdü. Görünür, qışqırtısı eşidilməsin deyə paltarının cırılmış ətəyini bürmələyib ağzına soxmuşdu. Əfsunə əskini dartıb onun xirtdəyindən çıxartdı; at çeynəyibmnş kimi didik-didik olmuş əski qana bulaşmışdı. Arvad sanki yad adamı görüb zarımağa başladı...

Əfsunə başını qaldıranda gözlərinə inanmadı. Taxtın üstündə, qanovuz yorğanüzünün arasına bügülmüş əl boyda canlı bir şey tərpənirdi...

Arvadın süzülmüş gözləri elə bil işıqlandı. Dişdəm-dişdəm elədiyi qanlı dodaqları zorla aralandı:

– Göbəyini özüm dişimnən kəsdim... Ammma bağlaya bilmədim...

Əfsunə, ətçəbala quş kimi ağzını açıb-yuman körpənin qan sızan göbəyini, öz şalının ucundan qopartdığı saçaqla bağladı. Çağa kəsik-kəsk qığıldadı... Əfsunə, arvadın qoluna girib taxtın üstünə qaldırdı... Durub qapını açanda Söhünün arakəsmədə qızı ilə baş-başa verib gözlərini döydüyünü gördü.

– Ayıb olmasın, Əfsunə bacı, oğlandı, ya qız?–deyə, Söhü astadan soruşdu.

Əfsunə gülə-gülə:

– Qızdır, Söhü qardaş, – dedi.

Söhü bir qədər susub dilləndi:

– Allahın verdiyinə şükür...

Yenə xeyli duruxdu. Handan-hana dili topuq çala-çala:

– Əfsunə bacı, acığın tutmasa bir söz... – deyib, susdu.

Əfsunə təəccüblə ona baxdı:

– Acığım niyə tutur ki?..

– Deyirəm, elə qıza sənin adını qoyum... Əfsunə...

Əfsunənin gözləri yaşardı: "Təki taleyi mənə oxşamasın, Söhü", – deyə, ürəyindən keçirdi.

Əfsunə handan-hana astadan dilləndi:

– İstəyirsən, olsun... Nə deyirəm ki...

– Ömrüm-günüm sənə qurban, Əfsunə...

Söhü indi Əfsunələrin ikisinə də dil-ağız eləyirdi.

- Sən kitab oxumağı sevirsən? Vamiq?

– Əlbəttə... Mən həmişə əlaçı olmuşam, – deyə, oğlan ğzünü öyən körpə uşaq kimi sinəsini irəli verib dilləndi.

– Bəs gələcəkdə təhsilini davam etdirmək istəmirsən? Yoxsa ta oxumaqdan bezmisən?..

Vamiq tutuldu:

– Niyə ki? İstəyirəm... Anama görə qalmışam. Bir də deyirlər... guya atası əsir olanları institutlara qəbul eləmirlər...

Əfsunə Vamiqin atasının müharibə zamanı əsir düşdüyü üçün sonralar sürgün olunduğunu qonşulardan eşitmişdi. Qız oğlanı ürəkləndirmək üçün qətiyyətlə dedi:

– Yox, elə şey yoxdur... Mən yüz faiz bilirəm. Şəhərdə bizim bir qonşumuz vardı, atası siyasi məhbus olsa da özü universitetdə oxuyurdu...

– Bu, heç inanılası şeydir ki?...

– Yaxşı, bunlar öz yerində... O sevdiyin kitablardan birini verərsən oxumağa?..

– Niyə vermirəm ki?.. Məndə kitab çoxdur. Özüm də gecələr oxuyuram. Heyif ki, nöyüt çətin tapılır, yoxsa səhərəcən çırağı yandırıb kitabdan ayrılmaram. Sən hansı kitabı istəyirsən? Nağılı sevirsənmi?

– Fərqi yoxdur... Özün xoşladığın kitablardan birini gətir...

Vamiq gətirdiyi kitabı – "Nağıllar"ı Əfsunə çoxdan, lap çoxdan – hələ üçüncü sinfə gedərkən oxumuşdu. O vaxt atası arxası üstə çarpayıya uzanıb əlini Əfsunənin çiyninə qoyar, kitabı sürətlə oxuyan qızcığazı ürəkdən tərifləyərdi: "Əhsən, qızım, əhsən... Çox gözəl oxuyursan". Sevincdən Əfsunənin sinəsi atlanardı...

Əfsunə kitabı bir də vərəqlədi. Vərəqlərin arasından düşən iki kağız parçası onun diqqətini çəkdi, götürüb baxdı– hər ikisi məktub idi. "Hörmətli məktub"... Birinci məktub bu sözlərlə başlayırdı. Gülümsədi... Görəsən nə məktubdu elə? Bəlkə... Nədənsə özünü saxlaya bilməyib kağızı saralmış, mürəkkəbi solmuş məktubları oxumağa başladı. Oxuduqca sifətinə qonan təbəssümü üzüntülü bir

ağrı əvəz edirdi...

*“Ata, biləsən ki, bizim vəziyyətimiz lap yaxşıdır, sənin də yaxşı olmağını o tək allahdan arzu edirik. Mən 7-çi sinfə keçdim... Binnət müəllim bu günlərdə yaralanıb gəlib, bir ayağını ağacdan düzəldiblər. Anam deyir ki, təki atan qayıdıb gəlsin, lap iki ayağı da ağacdan olsa belə, yenə dərdim olmaz, anam deyir ki, təki sənin nəfəsin üstümüzdən əskik olmasın. Ancaq ata, mən istəyirəm ki, sən sağ-salamat qayıdasan. Qoy sənin ayağın taxtadan olmasın. Gələndə çoxlu orden gətir. Cəfər dədəsinin gətirdiyi ordenləri yaxasında gəzdirir. Ata, gələndə tapança da gətir, əsl tapança. Öpürəm. Oğlun Vamiq.*

*5 avqust 1943-cü il”.*

İkinci məktub da «Hörmətli məktub» sözləri ilə başlayırdı. Xətt aydın, səliqəli idi. Məktubun yuxarı, sağ güncünə çiçək şəkli çəkilmişdi...

*“Ata, salam.*

*Vəziyyətimiz yaxşıdır, ata. Allahdan arzu edirik ki, sənin də vəziyyətin yaxşı olsun. Yəqin, Sibirdə havalar lap soyuqdur. Indi buralarda da havalar yavaş-yavaş soyumağa başlayıb. Dünən 7 noyabrı bayram etdik. Binnət müəllim çıxış elədi. Sonra söz Ədilova verildi. Rayon mərkəzində yaşayan naçalnik Ədilovu yəqin ki, yaxşı tanıyırsan. O, Sovet hökumətini nə cür qurduqları barədə xatirələrini danışdi. Dediyinə görə, Göyəmlinin yarısı xalq düşməni imiş. Düşmənləri necə məhv etdiyindən də danışdı. Mən şeir oxudum. Ədilov Binnət müəllimdən nəsə soruşdu. Hələ iclas başa çatmamış Binnət müəllim mənə yaxınlaşıb dedi ki, bala, anan evdə*

*təkdir, yaxşısı* budu *çıx get evinizə. Mən Ədilovun üzünə baxdım. Ədilovun sifəti nağıllardakı cəlladların sifətinə bənzəyirdi. Bəbəkləri oynayırdı Ədilovun... Ata, eşitdiyimə görə səni o vaxt həbs edən Ədilov olub. Düzdümü? Hə, ata, indi burada payızdır. Əl-ayaq yığılan vaxtdır. Otun-suyun tədarükünü görürük. Sənə yun corab göndərdik – aldınmı? Əbülfəz dayı bizim hörmətimizi yaxşı saxlayır, tez-tez soruşur ki, atandan məktub alırsanmı? Mən isə Söhü ilə mala baxıram. Indi Söhüyə kənddə «Devitbe» deyirlər. Bilmirəm o nə deyən sözdür, deyəsən, ağlını itirənlərə belə deyirlər. Hə, bir də onu deyim ki, Əbülfəz əmi doxdur Nəcəflə, bir də Ədilovla möhkəm dostdur. Deyir ki, bu dərədə Sovet hökumətini quran Ədilov olub.*

*Səni niyə tutublar, ata? Axı, sən faşistlərə könüllü əsir düşməmişdin ki? Bəyəm əsir düşənin hamısı günah yiyəsidir? Mən sənin günahkar olmadığın barədə Bakıya, Moskvaya məktub yazmaq istəyirdm, ata. Əgər cavab gəlməsə lap Leninə yazacağam. Qoy mavzoleydə onun keşiyini çəkənlər oxuyub məlumat versinlər. Bəlkə, onda bizə kömək elədilər... Səncə, bu* cür *məktubun xeyri olarmı, ata? Anam deyir ki, elə məktubyazma, öz başına əngəl açarsan... Vallah, kənddə də bizə birtəhər baxırlar: axı, sənin nə günahın vap, ata? Bəs mənim, bəs anamın?.. Dünya niyə belə amansızdır, ata? Hörmətlə: Vamiq.*

*8 noyabr 1948-ci il".*

Əfsunə məktubları oxuyub kövrəldi. Daha onun kitab oxumağa həvəsi, hövsələsi qalmamışdı. Elə doluxsunmuşdu ki.... Sanki göz yaşları ürəyinə axırdı... Qız başını əlləri arasına alıb gözlərini bərk-bərk yumdu.

Əbülfəz çəpərin dalından keçib oğurluğa gedən

adamlar təki diqqətlə həyət-bacaya göz gəzdirdi. Qonşu evin qapısında Səlbi arvadgilin qara köpəyi bir-iki ağız hürüb susdu. Deyəsən, it kəndin böyüyünü tanımışdı...

Ehtiyatlı addımlarla ağac pilləkənə yaxınlaşdı. Yadına düşəndə ki, çəkmələrini evdə qoyub qaloşla gəlib, öz ağıllı hərəkətindən bir daha xoşhallandı. Evin üst yanından eşidilən səs onu dayandırdı. Kişi xeyli duruxub geri qayıtdı. Sonra yenə ayaq saxladı. Dünəndən bəri ürəyində baş qaldıran ilıq, şirin duyğu ilə Əfsunənin yanına gələn kişi, səs gələn tərəfə yönəldi. "Axşamın bu vədələrində buralarda vurnuxan kim olar? Bəlkə, məni pusurlar? Bəlkə, bir dadanan var Əzizə qarının evinə? Nə desən olar"...

Vamiq Əzizə qarının evinin üst yanına bitişik olan damın divarlarını hörürdü. Oğlan başının üstünü kəsdirən qaraltıya əhəmiyyət vermədən tələsə-tələsə işləyir, qaranlıq düşməmiş, dünən arabanın yanına ilişib dağılan divar kərpiclərini düzüb qurtarmaq istəyirdi.

– Neyləyirsən burada?!

Bayaqdan Əfsunə hesab elədiyi qaraltının yoğun, xırıltılı səsi oğlanı diksindirdi. Vamiq qəddini dikəldib Əbülfəzin axşam toranlığında kömür kimi qaralan üzünə baxdı:

– Divarı düzəldirəm. Uçmuşdu...

Vamiqin arxayın, kişiyana danışığı Əbülfəzi özündən çıxartdı:

– Nə ustalıq eləyən olubsan? Fermada inək balasını çığnayıb öldürüb, sən də burada... Tikdiyin ev başına uçsun...

Elə bil ki, doğrudan da böyük bir evin sıldırım divarları Vamiqin üstünə gəldi. Oğlanın gözlərinə qaranlıq çökdü.

– Niyə söyüş söyürsən, Əbülfəz dayı?

Sanki kişinin yarasının üstünə köz basdılar.

– Söz güləşdirmə! Bu saat get tövləyə.

Vamiq əlindəki kərpici yerə atıb dedi:

– Əbülfəz dayı, doğan mala sağıcılar baxır...

– Kəs səsini! "Mala sağıcı baxır!" Deyəsən, qudurmusan!..

Vamiq pörtdü:

– Söyüş söymə!

– Söyərəm də, hələ bir o yana da keçərəm!

– Qarğış tökmək arvad işidir...

Əbülfəzi elə bil ilan çaldı. At kimi fınxırıb onun üstünə qolaylandı:

– Dilini dibindən çıxararam... İt balası!

Vamiq uşaq kimi doluxsundu:

– Niyə söyüş söyürsən, Əbülfəz dayı?

Bayaqdan xoruzlanıb dil-dil ötən oğlanın, kövrəlib az qala gözünün yaşını tökməsi Əbülfəzin səsinin ahəngini dəyişdi.

– Yaxşı, gözünün yaşını tökmə... Yad qapılarda az sülən...

Vamiq özünü saxlaya bilmədi:

– Sülənən sən özünsən. Saç-saqqalından utanmırsan...

– Nə dedin?!

Əbülfəz yumruğunu hərləyib onun sifətinə çəkdi. Vamiqin başı damın təzə hörülmüş divarına dəydi.

Sinəsinə endirilən təpik az qala Vamiqin hənirini kəsdi. Çöysüyüb dizi üstə çökdü. Əlləri ilə qarnını tutdu...

Bayaq Vamiqin oğrun-oğrun həyətə girib evin yuxarısına qalxdığını görən Əfsunə, bir-iki dəfə bayıra çıxıb onun uçmuş divarı hördüyünə göz qoymuşdu. Oğlanın küsülü adamlar kimi kəlmə kəsməməsi qızın

heysiyyətinə toxunsa da, bir azdan sonra onun belə uşaq hərəkətinə ürəyində gülmüşdü.

Əfsunə səs-küy eşidib çardağın üstünə çıxdı. Gördüyünə inanmadı. Əbülfəzin təpiyi, yumruğu altında qıvrılan Vamiqin alnından axay qan üz-gözünə çilənmişdi.

Qız özünü irəli atdı. Əbülfəz yumruğunu havada oynada-oynada qışqırdı:

–Çəkil qırağa! Çəkil deyirəm sənə!..

Oğlanı küt zərbələrdən xilas edə bilməyən qız Əbülfəzin ayaqlarını qucaqladı:

– Ona dəymə, əl vurma! Məni öldür, məni!.. Ay, kömək edin!

Tumanının ətəyini qurşağına sancmış Səlbi arvad özünü yetirəndə Vamiqin sinəsindən qan açılmışdı. Dodaqlarında laxtalanan qan onun ağzını qurumlanmış kiçik-qırmızı bacaya bənzədirdi. Oğlanın dişləri ovxalanmış, alnı çapılmışdı. Axşam toranlığında qaramtıl qandan qalxan buğ aydın görünürdü.

Ana gözlərinə inanmadı. Oğlunun üstünə ya divar uçduğunu, ya da onun evin damından yıxıldığını zənn edib Əfsunənin gözünün içinə baxdı:

– Bu tifil sənin oduna düşdü, ay həyasız! Üzünü gor görsün sənin!

Əbülfəz sinəsini irəli verib xırıldadı:

– Mən əzişdirmişəm onu. Camaatın uşağını niyə söyürsən?

Arvad Əbülfəzin qəssab qiyafəsinə – qanlı əllərinə, üst-başına baxanda təpəsindən od püskürdü:

– Niyə şil-küt eləyibsən mənim balamı, ay binamus oğlu?! Niyə?!

Əbülfəz təngnəfəs dilləndi:

– Bax, o küçüyün də sənin təki ağzını boş-boşuna

qoyub hürürdü... Indi bildin niyə?! Yaxşı, batır səsini, bəsdir!..

Əfsunə yüyürüb evdən gətirdiyi tənziflə Vamiqin yaralarını sarımağa başladı. Oğlan inildəyirdi.

Səlbi arvad bəndi dağıdan sel kimi kükrədi:

– Sinəndən qızıl güllə dəysin, Əbülfəz! Ürəyinə bala dağı çəkilsin, Əbülfəz! Allah sənin kölgəni götürsün yer üzündən! Sən yetimin, yazığın qənimisən! Bu tifilin dədəsi özünü ölümün ağzına atanda sən sabun yeyib köpük qusurdun. Yarana gah sarımsaq qoyurdun, gah da donuz tükü soxurdun ki, əsgər aparmasınlar. Indi geroy olmusan?.. Min cür tülküluk eləyib davaya getmədin, ay qurumsaq!...

Əbülfəz acı-acı gülüb dedi:

– Hələ bir danışmağa dilin də var?!. Bəs xalq düşməni olan kim idi? Mən ya sənin ərin?! Nemesə plen düşən kim idi?!. Mən ya sənin ərin? Hökumət bilir kimnən nə cür danışmaq lazımdır! Gördünmü, kişiciyəzin davadan sonra xəlvətə salıb başını daldalamaq istəyirdi, amma yenə ilişdi! Allah bilir, bəlkə də indi Sibirdə gorbagor olub...

– Sən mənim dilimi ağzımda yandırdın, Əbülfəz! Səni görüm o dünyada yanasan! Ay üzünü mürdəşir yusun, Aslanı tutub aparanda sızıldayanın biri də sən deyildinmi? Demirdinmi, günahsız yerə ilişdi... Sən əsgərliyə getməmək üçün o zoğallı Nəcəfnən min cür dava-dərmana əl atdın...

Əbülfəz Vamiqin yarasını sarıya-sarıya onların söhbətinə qulaq verən Əfsunəyə ötəri nəzər saldı.

-Məni hökumət özü saxladı. Mən dövlətin fonduna neçə min manat pul keçirmişəm! Sənin nə başın çıxır belə şeylərdən?!.

Səlbi arvad oğlunun tənziflə örtülmüş sifətinə baxıb

əlini dizinə çırpdı:

– Əlin qurusun! Sinənə qızıl güllə dəysin sənin! Mən yaxşı bilirəm, o fonda nə veribsən! O hökumət fondu yox, Ədilin fondu idi. Xalı-xalçaları daşıdın onun evinə ki, sənə bir topallıq-şillik kağızı düzəltsin! Allah səni ömürlük topal eləsin! Balan üstünə boğazlansın! Mənim oğlum səni ağsaqqal bilib, öz atasının dostu sayıb əl qaldırmayıb... Onun bir yumruğu sənin nəfəsini kəsməyə bəs edərdi, ay namərd...

Əbülfəz özlüyündə arvad xeylağı ilə ağız-ağıza verib dilləşməyi mənasız hesab eləyib həyətdən çıxdı.

Səlbi arvadla Əfsunə Vamiqin qoluna girib onu ayağa qalxızdılar. Oğlan titrəməli adamlar kimi səndələyərək dili dolaşa-dolaşa dartınıb onların əlindən çıxmağa çalışdı:

– Dəyməyin... Özüm gedirəm... Mənə əl vurmayın...

Ana pəhləvan cüssəli oğlunun getdikcə büdrəyən ayaqlarına baxıb nalə çəkərək üzünü cırdı:

– Allah mənə ölüm versin, ay oğul...

...Əfsunə o gecə səhərə qədər yatmadı. Qızı elə bil saçından dara çəkmişdilər. Boynunun damarı zoqquldayır, başı uğuldayırdı. "Səlbi arvad düz deyir, Vamiq məndən ötrü xurd-xəşil oldu. Əbülfəz nə insafsız adammış? Mən daha burada qala bilmərəm. Yox, yox, qala bilmərəm bu kənddə! Elə bu gün çıxıb gedirəm. Hara? Hara olur-olsun. Iki əl bir başı hər yerdə dolandırar".

O, dəli kimi yataqdan sıçradı. Çamadanını qablaşdırdı. Tez-tələsik paltosunu geydi...

Kənd yuxuda idi. Narın qar yağırdı...

Əfsunə yalı aşanda hava elə bil birdən-birə işıqlaşdı. Araba təkərlərinin, at ayaqlarının izini təzə yağan qar örtmüşdü. Bir azdan Göyəmlinin evləri arxada qaldı...

Nə qədər yol getdiyini heç özü də bilmirdi. Qamışlı bataqlığa çatanda yolu azdığını başa düşdü.

Qar səngimişdi. Bozumtul səma açıq-mavi rəngə çalırdı. Qamışlığı keçib yoxuşa çatanda Əfsunə ətrafa boylandı. Uzaqdakı təpələr donmuş dalğaları xatırladırdı. Hər yer bəmbəyaz qara bələnmişdi...

...Qarın rəngini müəyyən eləmək mümkün deyildi, milyonlarla işıq zərrəsi yer üzündə bərq vururdu. Sanki göylərin intəhasız dərinliklərindən torpağa tabaq-tabaq ulduz ələnmişdi. O parlaq ulduzlar iynə olub Əfsunənin gözünə, bədəninə batırdı. Keyimiş ayaqları, qıc olmuş qolları indi qızın sözünə baxmırdı. Onun kürəyi quru ağaca dönüb keyimişdi. Gözləri qabağı yaxşı seçmirdi. Ətraf ovuc içi kimi dümdüz görünsə də, ayaqları tez-tez çala-çuxura düşür, daş-çınqıla ilişir, sızıldayırdı. Yaxşı ki, qar kəsmişdi və səma açıq-mavi rəngə boyanmışdı. Ancaq bu maviliyin arxasında dünyanın iliyini donduran qorxulu bir şaxta, təbiətin büsatını alt-üst edib dağıdan dəli bir tufan yatırdı. Məhz bu an səma, Əfsunəyə Əzizə qarının neçə illər bağlı qalan, üstü ulduzlu cehizlik sandığı kimi sirli göründü.... Ona elə gəldi ki, göylər də mavi qapağını götürə bilər və ta dünya yaranandan bəri hamıya sirli görünən nəhəng ağuşunu açar, bu əsrarəngizlik aləmə bəlli olar. Ancaq nə göylər sirrini açır, nə qar okeanının sonu görünür, nə də şaxta ayazıyırdı...

...Don vurmuş əllərini hovxurub bir-birinə sürtdü. Bəbəklərini geniş açıb irəliyə baxdı. Arabir qarın altından dikələn qanqalların başı qaralırdı. Başqa heç nə, heç nə görünmürdü. Odlu ulduzlar onun alacalaşan gözlərini iynə kimi dalayır, bəbəklərinə sancılırdı. Buna görə Əfsunə arabir gözüyumulu yeriyirdi. Get-gedə qızı vahimə basırdı. Əllərini ağzına yaxınlaşdırıb var səsi ilə qışqırdı:

"Heyyy! Heyyy!" Çöllər, ağzı qarla siləlenmiş dərələr ona cavab vermədi. Təbiətin dilini şaxta qurutmuşdu...

Əfsunə qəflətən ayağının altında boşluq hiss edib qollarını yana açdı. O, dərənin döşündəki çıxıntıdan sürüşmüşdü. Çamadan əlindən çıxıb harasa diyirləndi. Ayağı xarlamış qarın üstünə dəyən kimi vıyıltı ilə dərənin dibinə yumalanmağa başladı. Çömbəlib dizlərinin üstünə çöksə də heç bir şey çıxmadı. Dirsəkləri araba təkəri kimi qarın üstündə qoşa şırım açdı. Aşağıda, dərənin dibi ilə axıb gedən çayın üstünü qılınc kimi parıldayan buz örtüyü qapamışdı. O, üzü üstə buzun üstünə sərildi. Başında küt ağrı hiss etdi. Dərə boyunca sürüşməyə, daha doğrusu sürünməyə başladı. Qəfildən rezin çəkməsinin boğazı iri buz parçasına ilişib onu saxladı. Bir müddət üzüqoylu qaldı. Huşunu itirdi... Çapılmış dirsəklərinin qanı qarın üstə çiləndi.

Göyəmli sarıdan axan buludlar göyün üzünü örtdü. Təzədən qar yağmağa başladı. Uzaqda üfüqlər bozarırdı. Elə bil ki, gecə ilə gündüzü əridib bir-birinə qatmışdılar. Səhərmi, ya axşammı olduğunu təyin etmək mümkün deyildi...

Əfsunənin beyninin hansı guşəsindəsə közərən işıq zərrəsi korun-korun yanmağa başladı. Bəbəklərində soyuq şimşək parıltısı kimi bir qığılcım oynadı.

Qız dəhşətli yuxu görüb sayıqlayan adamlar təki mızıldayıb çırpındı. Onun göyərmiş dodaqları tərpəndi, əzabla çatılmış qaşları səyridi.

O, nəsə demək istəyirdi. Kilidlənmiş dişləri boğazından süzülən səsləri doğrayıb kiçik qar dənələri kimi ətrafa səpələyirdi...

Əfsunə gözlərini açdı. Dünya lal süküta qərq olmuşdu. Lopa-lopa qar yağırdı. Qız keyiyib ağac kimi qurumuş

dirsəklərini dayaq edərək yerindən dikəlmək istədi. Ayaqlarının xırçıltısını eşidib hərəkətsiz vəziyyətdə qaldı. Dəhşətli ağrı beyninə vurdu. Bir daha qımıldansa huşunu itirəcəyini hiss elədi. “Bəlkə, bütün bunlar yuxudur”, – deyə ürəyindən keçirdi. Ayaqları təzədən göynədi və qız gördüklərinin yuxu olmadığını bir daha yəqinləşdirdi.

Əfsunə ayağa qalxıb bu kimsəsiz, qorxunc çuxurdan çıxmaq istəyir, gözəgörünməz bir əl isə onu tutub saxlayır, torpağa pərçimləyirdi. O, qışqırmaq istədi. Özünün hələ də canlı, yaşarı olduğunu yəqinləşdirmək üçün kiminsə səsini dinləmək arzusu bu an onun şüurunda baş qaldıran ən aydın fikir idi.

“Ah-h-h!” Zəif səslə inildədi. İndi onun nidası haraydan daha çox, hıçqırığa bənzəyirdi. Elə bil sinəsini dəmir məngənə arasında sıxırdılar. Şilimlənib astarı üzünə çıxmış bozumtul paltosunun yaxasını açmaq istədi. Biləyi quru budaq kimi şaqqıldadı. Qaxac olmuş barmaqları sözünə baxmadı. Nəfəsi təntidi, sinəsi xışıldadı. Əlini başına apardı. Şalı sürüşüb düşmüşdü. Ovcunda bir çəngə saç gəldi. Üstündə qan ləkələri donmuş o bir çəngə saç bomboz keçəyə dönmüşdü....

Əfsunənin donuq baxışları göyə zillənmişdi. Kirpiklərinin ucu sırsıra bağlamışdı. O, indi səmanı aydın seçə bilmirdi. Ancaq bilirdi ki, qar yağır... Həm də lopalar get-gedə böyüyür, ağırlaşırdı... Qız qarın necə yağdığını, hətta, onun səsini də eşidirdi. Yalnız müdhiş tənhalığın qoynunda arxası üstə torpağa uzanıb, bütün diqqət və iradəsini cəmləşdirərək bir pıçıltı dinşəmək ümidində olanlar, yerə qonan qar dənəciklərinin səsini eşidə bilərlər, lap kar olsalar da belə…

Qar yağır... yağırdı... Onun şüuru da baxışları kimi tez-tez dumanlanır, bulanırdı. Sanki təbiət öz övladına

verdiyi idrak və düşüncəni geri almaq, onun iliklərini dondurub həyat qüdrətini məhv eləmək istəyirdi.

“Əfsunə!.. Əfsunə!..” Onun vücudu silkələndi. Ani olaraq şüuru aydınlaşdı. Bəlkə də bu səs öz ürəyinin əks-sədası idi və onu silkələyib oyatmaq, ayağa qaldırmaq istəyirdi. Yox, Əfsunə həmin səsi bir də... bir də eşitdi. Zorla da olsa göz qapaqlarını araladı. Ondan azacıq aralıda – uçurumun dikdirindən dovşanalması kollarının üstünə qonmuş bir dəstə ala qarğa ağız-ağıza verib qarıldaşırdı. Qarğalar hələ hənirtisi kəsilməmiş insana baxır və yəqin ki, öz qarğa dillərində danışıb onu neçə yerə şaqqalamaq haqqında mübahisə edir, öz qarğa aləmlərində düşünüb onun neçə günlük azuqə olacağını götür-qoy edirdilər. Qarın üstünə çilənmiş qan damcıları təbiətin qarınqulu canlılarını daha da iştaha gətirirdi. Ala qarğalar ləzzətlə qanadlarını çırpır, hücum etməyə girəvə axtarırdılar.

İyrənc və amansız bir ölüm yaxınlaşmaqda idi. Əfsunə canını dişinə tutub dikəldi. Dizin-dizin sürünməyə başladı. Şişib kötüyə dönmüş hərəkətsiz ayaqları qıza mane olurdu. Taqətdən düşmüş qolları iradəsinə tabe olmurdu. Bir yandan da  ayaqlarının şiddətli ağrısı ona əzab verirdi.

Qarğalar iri, boz qaraltının hərəkətə gəldiyini görüb qanadlarını çırpa-çırpa havaya qalxdılar. Qarlı-şaxtalı səmanın qucağı o qədər geniş idi ki, orada qarğalar üçün də yer tapılırdı.

“Əfsunə... Əfsunə”. Yox, qulağı onu aldatmırdı; bu, lap tanış səs idi. Kim idi onu haraylayan? Əbülfəz? Vamiq? Bəlkə də, qarğaların səsi idi?

Bəlkə Əzizə qarı idi – səsləyirdi onu öz yanına? Atası da ola bilərdi... Hətta, anası da ola bilərdi bu səsin sahibi. Hə, deyəsən o, səsin ünvanını müəyyən elədi: bu səs onun

öz içindən, öz beynindən gəlirdi. Deməli, bu, ölümün səsi idi. Əcəl haraylayırdı onu. Qoy gəlsin ölüm... Qoy gəlsin... Daha heç nəyin qorxusu yoxdu bu dünyada... Bəzən ölüm də insanı nədənsə xilas edir. Nədən? Adamın özünü özündən – əzabdan, tənhalıqdan qurtarır. Ölüm qol-boyun olsun qoy onunla. Ölümdən o yana yol vardı ki?

"Əfsunə... Əfsunə..."

Səlbi arvadın təpitmələri oğlunun bədəninin sızıltılarını azaltmışdı. Vamiq üz-gözünün sarığını açdı. Dodaqları partlayıb qaysaqlamış, sifəti qançırlamışdı. Peysərində yumurta boyda şiş vardı.

Ayaqlarını taxtdan sallayıb uzun müddət hərəkətsiz dayandı. Anası sobanı qalayıb sağıma getmişdi. Sobanın gözünə bir-iki parça odun atıb, ötən yay anasının gəzəllə-çiçəklərdən alınmış təbii rənglərlə boyadığı bez göynəyi əyninə taxdı. Dizləri közənmiş şalvarının balağını naxışlı yun corabının boğazına soxdu. Əl-üzünü ılıq su ilə isladıb həyətdə düşdü. Asta, ehtiyatlı addımlarla gəzişməyə başladı. Kimdənsə ehtiyat edirmiş kimi hürkək nəzərlərlə qonşu evə sarı boylandı. Səs-səmir gəlmirdi. "Hələ yatır", – deyə, ürəyindən keçirdi.

Səlbi arvad gec qayıtdı. Evi yır-yığış elədi.

Ana-oğul nədənsə göz-gözə baxa bilmirdilər. Arvad xəfənəkli at kimi sinəsi xışıldaya-xışıldaya öskürür, dodaqaltı mızıldanıb kimisə asıb-kəsirdi.

"Görəsən Əbülfəzi görübmü? Bəlkə, yenə sözə gəliblər? Anam hirsini-hikkəsini saxlayan deyil ki..."

Səlbi arvad sapılcanın hisini sürtə-sürtə:

– Keçi öldü, daha qoturu kəsər, – dedi.

Vamiq dillənmədi.

"Keçi öldü... Kimi deyir görəsən? Deyəsən, nəsə

olub...”

Qonşuda- Əzizə qarıgilin pəyəsində qoyunlar mələşəndə Səlbi arvad başını qaldırıb oğlunun üzünə baxdı:

- Yazıq heyvan acnaşıb. Qan-qarğışdı... Get bir çəngə ot ver onlara...

Vamiqin sinəsi göynədi.

– Mən niyə?..

– Bəs o dilsiz-ağızsızlar qırılsınlarmı, a bala?

– Niyə qırılır ki? Nə olub bəyəm?

Səlbi arvad başı ilə qonşu evə işarə edib dedi:

– Getdi... Sər-sovxalı idi. Birdəfəlik gedənə oxşayırdı... Hə... Alaqaranlıqda itin səsinə qalxanda gördüm... Gedirdi...

Vamiqin boynunun əzələləri yay kimi dartıldı.

Arvad hikkəli-hikkəli deyindi:

– Qoy getsin... Düz elədi... Qarnının altını bilmək olmurdu onun. Dünən gəlmişdi, bu gün ara çalxalayırdı. Getdiyi yaxşıdı... Qalıb neyləyəsiydi ki? Kimi vardı onun burda?

Vamiq dözə bilmədi. Ayağa durub qapıya yaxınlaşanda anası dedi:

– Qazlara da yem ver... Yazıqdırlar...

Qonşu evin taxta pilləkənindən enən izə qar yağsa da rezin çəkmələrin ləpiri hələ seçilirdi. İz kəndin ətəyinə doğru uzanırdı...

Vamiq ürəyi həyəcandan atlana-atlana Söhünün evinə sarı götürüldü...

Söhü odun yarırdı. O, başını qaldırıb arabaçı yoldaşının üzünə baxanda əlini arvadsayağı dizinə çırpdı:

– Allah məni öldürsün... Kim səni xışdayıb bu kökə salıb?

Vamiq əlini yellədi:

– Heç... Boş şeydi... Yıxılmışam...

– Belə də yıxılmaqmı olar?

– Görürsən ki, olur də... Söhü, sənin yanına atdan ötrü gəlmişəm.

– Atı neynirsən?

– Lazımdı... Dəyirmana un aparıram...

Söhü sağ əlini boynunun ardına sürtüb şaqqanaq çəkdi:

– Bu vədə dəyirman olar? Donuzluq çoxdan donub, novun suyu da ki, allah bilir, nə vaxtdan quruyub.

Vamiq qəzəblə onun üstünə bağırdı:

– Nağıl danışma! Yekə kişisən! Atı verirsən ver, vermirsən də...

Söhü ötkəm və hirsli bir əda ilə danışan qonşusunu çəpəki süzüb mizildandı:

– Nə kəmhövsələ adamsan? O at, o da sən... Ancaq, qardaş, at üç-dörd gündü doğub... Gəlhagəlimdir... Bir yanda arvad zahı, bir yanda da at..

Vamiq pəyəyə girdi. Atın yüyənindən tutub çölə çıxartdı. Arakəsmənin o üzündə qalan körpə qulun fınxırıb anasının ardınca kişnədi...

Vamiq atı yəhərləyəndə Söhü qantarğanın ucunu əlində oynada-oynada məsləhət verirdi:

– Bax, birdən atı çapıb eləyərsən, ha?! Tərləsə işi bitdi, daha onnan at olmaz. Bir də ki, altında balası var... Xəstə atın elə südü də xəstəlikdi...

Vamiq qayışları çəkərək tapqırları bərkidib ayağını üzəngiyə qoydu.

– Az naqqallıq elə, yüyəni bura ver görüm!

– Niyə böyürürsən? Al, bu da sənə yüyən...

At yorğa yerişlə tərpəndi. Sonra dördələməyə keçdi.

Söhü uça səslə öz-özünə mızıldanıb:

– Bu heç dəyirmana gedənə oxşamır,– dedi...

Vamiq atın ağzını üstünə təzə qar ələnmiş izə saldı...

...O günün axşamı Əzizə qarının evində solğun çıraq işığında iki nəfər pıçıltı ilə söhbət eləyirdi.

– Axı, məni niyə gətirdin? Qayıtmaq istəmirdim.

– Mən səni qaytarmalı idim. Sən Göyəmlidə yaşamalısan. Əzizə qarı da belə vəsiyyət eləmişdi. Bir də ki, kənddə hamı xətrini istəyir sənin. Ağzıgöyçəklərəsə heç fikir vermə.

– Mən özümlə birdəfəlik haqq-hesabı kəsmək istəyirdim. Üstümdə qarğalar uçuşanda fikirləşdim ki, hər şey bitdi...

– Mən bilirdim ki, sənə heç bir şey ola bilməz.

– Nədən bilirdin?

– Sonra vaxt gələr deyərəm nədən bilməyimi.

Araya sükut çökdü...

Sobanın üstündəki çaydanın qapağı pıqqıldadı...

– Amma sənə bir şey demək istəyirəm... Yaz gələndə mən buradan çıxıb gedəcəyəm, Əfsunə...

– Haraya?

– Şəhərə....

– Nəyə?

– İşləməyə... Əgər baş tutarsa, oxumağa...

– Vamiq, bəs ananı kimə tapşırırsan?

– Osuz da bacımgilin ev-eşiyi yoxdu... Onlar ailəlikcə gəlib qalarlar bizdə.

– Demək, gedirsən?.. Mən yenə tək-tənha qalıram... Onsuz da ömrüm boyu belə yaşamışam: yalquzaq kimi tək.

– Tək niyə olursan ki? Adamlar, kənd...

– Bir vaxt hər şey yaddan çıxacaq... Hər şey.

– Mən səni yaddan çıxaran deyiləm, Əfsunə.

– Sənə elə gəlir... Sən hələ uşaqsan, vallah... Özü də kinli, tərs bir uşaq. Amma ürəyin təmizdir. Vaxt gələcək dəyişəcəksən. Özün güləcəksən özünə...

– Sən həmişə mənim ürəyimdə yaşayacaqsan... Biz birlikdə olacağıq...

– Gülürsən mənə? Gül... Amma, bilirəm ki, mənim ömrüm bitmək üzrədir. Öləcəyəm. Tezliklə... Ürəyimə damıb.

- Nağıl danışma. Sənin ömrün irəlidədir. Vaxt gələcək, biz bu qışı dönə-dönə xatırlayacağıq, Əfsunə...

– Vamiq...

## PROLOQ

(*davamı)*

– Niyə ki? Qəribəliyi nədədi? Elə-belə, adi bir addır onun adı...

– Birinci dəfədir belə ad eşidirəm. "Əfsunə"...

– Bıy səni sağ olasan. Bizdə hələ başqa bir Əfsuna də var. Devitbe Söhü deyirdilər dədəsinə, inişil rəhmətə getdi. Ancaq qız – Söhünün qızını, o birisi Əfsunəni deyirəm, insafən ağıllı qızdır. Müəllimədi... Elə bil Söhüdən törəməyib. Od parçasıdı...

Asim pəncərədən bayıra baxdı. Ağır gövdəli, qırmızısifət bir qadın sol ayağını azacıq çəkə-çəkə pilləkənə sarı gəlirdi.

Əbülfəz kişi boğazını irəli uzadıb boylandı. Sonra Asimə baxıb qəhərlənmiş asta səslə:

– Qızımdı,– dedi.– Zibeydədi...

Kişinin sifəti nədənsə tutuldu.

Asim siqaret çıxarıb alışqanla yandırdı...

# EPİLOQ

– Xoş gördük, Əfsunə xala.

– Xoş baxtın olsun, qızım. Necəsən? Bacıların necədir?

– Sağ olun. Yaxşıdırlar… Deyirlər, Vamiq müəllimin oğlu təzəlikcə sizin xəstəxanaya həkim gəlib?

Əfsunə, Devitbe Söhünün qızı Əfsunənin- öz adaşının üzünə bir xeyli matdım-matdım baxsa da heç nə demədi. Susdu.

Gənc Əfsunə yaşlı qadının tutulduğunu hiss eləyib söhbətin səmtini dəyişdi:

– Vamiq müəllimi beş il qabaq gördüyümdü...

– Harda görürdün ki, onu? Bəs indiyəcən niyə mənə deməmisən bunu?– deyə, qadın tezcə titrək bir səslə soruşdu.

– Nə bilim? Düzü, bu barədə kiməsə bir söz demək heç mənim ağlıma gəlməyib... Onda Vamiq müəllim, bizim instituta tələbələrlə görüşə gəlmişdi. Iki-üç nəfər alim yoldaşı ilə... Onda mən də çıxış elədim. Adımı eşidəndə boylanıb üzümə çox diqqətlə baxdı. Istədim tanışlıq verəm, utandım, özümü itirdim. Dedim, birdən yaxşı düşməz.

– Nahaq yerə... O, sənə heç nə demədi, hə?

– Yox... Alimlə-müəllimlə tələbənin nə söhbəti?..

– Elədir... Bir yana baxanda, elə yaxşı ki, tanışlıq verməyibsən. Gərək o, özü tanıyaydı səni...

Qadın pəncərədən bozumtul dağlara baxıb handan-hana dilləndi:

– Yenə payız gəlir...

Qız sanki üşürgələnib zərif çiyinlərini çəkdi:

– Hə, havalar soyuyub. Nədənsə, mən payızı

xoşlamıram. Qış bundan yaxşıdır min dəfə... Yaxşı, mən getdim. Sağ olun, Əfsunə xala.

– Sağ ol, günün ağ olsun, qızım...

Qadın səmaya baxdı. Göyün üzü qəribə bir rəng almışdı. O, həmin rəngi təkcə yuxularda görürdü. Uzaqlardakı kələ-kötür, nəhəng timsah dişlərinə oxşayan qaya silsilələri, çılpaq təpələr elə bil ki, onun yuxularından dikəlib baş qaldırmışdı.

Payız o payıza oxşamırdı. O payızın rəngi də başqa cür idi, havası da...

Təbiətin qanunları pozulmuşdu. Həmin il dünyaya, Əfsunənin dünyasına payız yox, sanki yeni bir fəsil – beşinci fəsil gəlmişdi.

Dünyanın rəngi dəyişmişdi.

1978—1979

# DƏNİZ KÖÇÜ
## (povest-pritça)


























Kim zərrə ağırlığında bir xeyir etsə, onu(n səvabını) götürəcək və kim zərrə ağırlığında bir şər etsə, onu(n cəzasını) görəcək.

*Qurani-Kərim. Əl-Zəlzələ, 7-8*

Будь верен до смерти…

*Арокалипсис 2:10*

Çiçək özünün bütün ulduzlarını itirmiş səhər səmasına şikayətlənir: “Mən şeh damcımı itirmişəm”.

*R.Taqor*

***

**Ə**lbəttə, sən quşların, heyvanların, balıqların dilini anlayır, onlarla söhbətləşirsən. Hətta, otlarla və çiçəklərlə də danışa bilirsən. Bəs öz ətrafındakı adamların dilini necə, anlaya bilirsənmi? Və eləcə də, inanırsanmı ki, o adamlar səni duyur və anlayır? Niyə susursan? Cavab versənə...

***

***B**u qeyri-adi əhvalat qətiyyən uydurma deyil. Onu qoca bir balıqçının dilindən eşitmişəm*

***

**…** amma indiyəcən Tuqaydan bir soraq yox idi.

Qadın özünə yer tapa bilmirdi.

Hələ gündüz idi. Amma qadına elə gəlirdi ki, hava artıq qaranlıqlaşıb, Günəş nədənsə vaxtından əvvəl batıb.

Qadın vahimələndi. Əvvəlcə pıçıltı ilə, sonra isə ucadan oğlunu haraylamağa başladı: “Tuqay, oğlum…”

Onun titrək səsi özünə də yad gəldi. Elə bil bu səs uzaqlardan, az qala quyunun dibindən gəlirdi.

Vaxt hiss olunmadan, səssiz-səmirsiz ötüb keçirdi. Sanki bu səssizlik hər şeyin üstünə, gözlə görünməsi mümkün olmayan, yalnız ürəyin duya biləcəyi soyuq bir pərdə çəkmişdi.

Tuqaydansa bir xəbər yox idi.

"Tuqay, oğlum… Haradasan?"

***

***K***içik qəsəbənin ucqarında həyətləri az qala bir-birinə bitişik, üstü qırmızı kirəmitli iki balaca ev vardı. Uzaqdan baxanda bu evlərin damları qoşa dovşan qulağına oxşayırdı. Evlərdən birində Tuqay adlı cavan oğlan öz anası ilə yaşayırdı. Qonşudakı evin sakini isə Şəhla adlı bir qızdı. Bu barədə bir qədər sonra... Hələliksə, qəsəbə və Tuqayla bağlı söhbətimizi davam etdirək.

Bu qəsəbənin sakinləri, əsasən, balıqçılıqla məşğul olurdu. Düzdür, qəsəbə dənizdən xeyli aralı idi; hətta, buradan heç dəniz görünmürdü də. Amma nəhəng dənizin ətri, onun nəmişlik və yosun dolu qoxusu bu yerlərdə aydınca hiss olunurdu. Adamlar çox vaxt öz işlərini dənizdən əsən küləyin səmtinə görə qururdular: onlar çalışırdılar ki, balıq ovuna əlverişli hava şəraitində çıxsınlar.

Həmin gün adi günlərdən biri idi.

Tuqayın anası həyətə çıxıb əlini gözünün üstünə qoyaraq, göyə sarı boylandı. Uzaqda ağ yelənli boz buludlar görsənirdi. Amma o boz buludların get-gedə tündləşməsi qadının qanını qaraltdı. Deyəsən, buludlar dənizin üstünə topalaşırdı. Ananın hesabına görə, Tuqay

dənizdən çoxdan qayıtmalı idi. Onun ürəyini nigarançılıq hissi bürüməyə başladı: "Görəsən, oğlum niyə gecikir? Bəlkə dənizdə fırtına qopub? Bəlkə tora balıq düşməyib? Bəlkə nə isə baş verib? Bəlkə..." Ananın gözləri yollara dikilmişdi. Tuqaydansa bir xəbər-ətər yoxdu.

Atasını erkən itirmiş oğlan lap kiçik yaşlarından bərkə-boşa düşmüş, yeri gələndə anası ilə birgə qonum-qonşulara da kömək etmişdi. Ailə cəmi iki nəfərdən ibarət olsa da, dolanışıq çətin idi. Bu tərəflərdə güzəranı xoş keçənlər barmaqla sayılacaq qədər az idi. Sanki yaxınlıqdakı nəhəng dənizi, nəhəng dənizin sahilindəki kiçik qəsəbəni və nəhəng dənizin sahilindəki kiçik qəsəbənin sakinlərini Tanrı özü də birdəfəlik unutmuşdu. "Yox, görünür, biz öz Tanrımızı unutmuşuq, oğlum. Tanrı öz yaratdığını heç vaxt unutmaz... İnsanlar asan yolla dolanmaq istəyirlər. Çoxları başa düşmək istəmir ki, yaşamaq üçün gecə-gündüz tər tökmək lazımdır. Tanrı heç kəsin əziyyətini yerdə qoymaz, oğlum..." Bu, tez-tez Tuqayın anasının təkrar etdiyi sözlər idi.

Tuqay əziyyətdən qorxan deyildi. Anasının bəzən dodaqaltı- pıçıltı ilə, bəzənsə ucadan, avazla oxuduğu dualar onun çalışmağa olan şövqünü daha da artırırdı.

Son vaxtlar Tuqay balıqçılarla dostlaşmışdı. O, bəzən gecələr belə, qayıqla açıq dənizə, balıq ovuna gedirdi. Tora düşən balıqların böyük bir qismi satışa çıxarılırdı. Çox vaxt birgə ova getdikləri yaşlı balıqçının verdiyi kiçik balıqlar evdə onların süfrəsinə də gəlib çatırdı. Belə anlarda öz övladının qazancını görən ananın ürəyi fərəhdən dağa dönürdü.

Qadın çox yaxşı bilirdi ki, oğlu heç də asanlıqla çörək qazanmır. Ona, hətta, o da məlum idi ki, Tuqay dəfələrlə yaşlı balıqçıların yumruq davasının şahidi və

iştirakçısı olub. Əlbəttə, balığın bol olduğu sahələr uğrunda mübarizə apararaq, dənizi "bölmək" istəyən bu yaşlı adamların dəcəl uşaqlar kimi söyüşüb bir-birinin üstünə cumması, əlbəyaxa olub süpürləşməsi çox gülməli və… həm də ağlamalı idi. Hələ olsun ki, bu kobud "dəniz adamları"nın - balıqçıların, dava-dalaşı zamanı, arada fürsət tapan kəmfürsətlər Tuqaya da bir-iki "yağlı" yumruq ilişdirmişdilər. Amma Tuqay evdə bu barədə anasına indiyəcən bircə kəlmə də olsun danışmamışdı; qadın bu dava-şava barədə qonum-qonşulardan eşitmişdi və ürəyinin dərinliyində oğlunun ağzıbütövlüyündən xeyli məmnun qalıb, ona qəlbən "bərəkallah!" da demişdi; axı, ağzıbütöv adamların, adətən, xasiyyətləri də bütöv olur...

Tuqaydansa hələ bir xəbər-ətər yox idi.

«Tuqay, harada qalmısan, ay oğul?…»

***

***T***uqayın gecikməsindən narahat olan təkcə ana deyildi. Həyətdə vurnuxan alabaş da iri-tutqun gözlərini tez-tez uzaq üfüqlərə dikirdi. O, öz "dostu"nun dənizdən nə vaxt qayıdacağını, adətən, əvvəlcədən bilərdi. Belə ki, köpək, Tuqay gəlməmişdən xeyli əvvəl darvazanın ağzında səsiz-səmirsiz dayanar, gözünü yola dikərdi. Əslində, indi Tuqayın yolunu gözləyən təkcə ana və alabaş deyildi. Tuqayın digər "dostları"- qartal və balıq da nigarançılıq içində vurnuxurdu.

Tuqay heyvanları və quşları çox sevirdi. Həyətdə öz "dostları" üçün rahat şərait yaratmışdı. İt özünün palçıq və qamışdan hörülmüş kiçik damında, qartal evin çardağında, balıq isə geniş hovuzda yaşayırdı. İt, qartal və balıq təkcə

Tuqayla deyil, çox qəribədir ki, həm də öz aralarında bir-birləri ilə dostluq edirdilər. Onların həmrəyliyindən xəbər tutan yaxın qonum-qonşular mat-məətəl qalmışdılar; heç belə də iş olar? Səhərdən axşamacan itlə qartalın günü bir yerdə keçirdi. Hələ bu harasıdır! İsti havalarda onlar, yəni it və qartal, balığın qonağı olurdular; belə vaxtlarda onların hər üçü, yəni balıq, qartal və it hovuzda atılıb-düşür, lap bir-biriləri ilə zarafatlaşan dəcəl uşaqlar kimi səs-küy salırdılar. Əvvəllər onların hərəkətinə ciddi məhəl qoymayan ana və Tuqay, artıq "dostlar"ın bir-biri ilə dil tapıb "danışdıqlarına", az qala adam kimi "söhbət elədiklərinə", qətiyyən şübhə etmirdilər. Təbiətin qoynunda bir-biri ilə yola getməyən həmin əcaib canlılar bu həyətdə əsl dost olmuşdular!

Tuqay öz "dostlar"ına ad da qoymuşdu. Ağıllı gözləri par-par yanan balığı – "Yaqut", qanadlarını gen-bol açıb vurnuxan qartalı "Ayqut", həyətdə gəzib-dolaşan alabaşı "Qayut" deyə, çağırırdı. Əgər diqqət yetirirsinizsə, bu adların hamısı Tuqayın öz adından törəmədir. Ən qəribəsi və maraqlısı isə bu idi ki, "dostların" hamısı özünün daşıdığı adı çox gözəl anlayırdı; sanki onlar bu dünyaya elə bu adlarla gəlmişdilər. Tuqay "Ayqut" deyən kimi, qartal uçub onun yanına gələr, çiyninə qonardı. Öz adını eşidən alabaş, yəni Qayut, bir göz qırpımında özünü Tuqaya yetirər, dal ayaqları üstə qalxıb bir-iki ağız hürərdi. Yaqut da əziz dostunun çağırışına diqqətsiz qalmazdı; öz adını Tuqayın dilindən eşidən balıq, qından çıxan gümüşü qılınc kimi sudan siyrilib üzüyuxarı atılar, havada qövs cızıb təzədən üzüaşağı millənərək hovuzun dərinliyinə baş vurardı.

Bəzən həyət-bacada adam olmayanda dostlar hovuzun başına toplaşaraq "öz dillərində" nə barədəsə uzun-uzadı

"danışıb söhbətləşərdilər".

Çox vaxt Tuqay özü də bu dəstəyə qoşular, onların "söhbətinə" qulaq asardı. Kənardan baxan olsaydı, onların həqiqətən də nə barədəsə "söhbətləşdiyini" zənn edərdi.

Tuqayınsa "dostların" hər biri ilə tanışlığının öz tarixçəsi vardı.

Alabaşı ona uzaq qohumlarından biri bağışlamışdı. Məsələ burasında idi ki, həmin qohum vaxtilə meşədən tapıb əhliləşdirdiyi, indi isə qapıda saxladığı itin balalarından yaxa qurtarmaq üçün, onları torbaya yığıb uzaq obaların birinə aparmış, orada meşəyə buraxıb öz evinə qayıtmışdı. Bir neçə gündən sonra küçüklərdən biri uzun yolu qət edib geri dönmüş, təzədən öz sahibini tapmışdı. Həmin adam bundan sonra küçüyü dəfələrlə azdırmaq istəsə də heç bir nəticə hasil olmamışdı; çoxbilmiş küçük hər dəfə, gedər-gəlməz üçün hesablanmış "uzaq səfərlər"dən evə sağ-salamat qayıtmışdı. Onun əlindən bezən sahibi, günlərin bir günü, daha sərt qərar çıxarmaq barədə düşünən vaxt Tuqay onlara qonaq gəlmişdi. Küçüyün "qoçaqlığı" barədə hekayətə qulaq asan Tuqay onu torbaya salıb evə gətirmişdi. Bir-iki gün uzun, paslı zəncir bağda qalan küçük tezliklə ev-eşiyə mehr salmışdı. Az sonra bağdan açılan küçüyün artıq bu mehriban ailəni tərk etmək arzusu, deyəsən, birdəfəlik yoxa çıxmışdı.

Yeniyetmənin qartalla dostluğunun da qəribə tarixçəsi vardı. Tuqay bir dəfə dənizdən qayıdarkən qayalıqlarda xışıltı eşitdi. Əvvəlcə elə bildi ki, bu, ilandır. Ona görə də yolunu dəyişmək istədi. Amma az sonra qayanın dibindəki nəhəng quşu görüb istər-istəməz ayaq saxladı; sərt-boz qayaya sığınmış qartalın kin-qəzəb dolu gözləri Tuqayın üzünə sancılmışdı. Deyəsən, "səma pələngi" yaralı idi. Tuqayla qartal uzun müddət üz-üzə, göz-gözə dayandılar.

Sonra oğlan asta, ehtiyatlı addımlarla quşa yaxınlaşdı, əyilib qartalın başını ehmallıca sığalladı. Quş boynunu irəli uzadıb qanadlarını yana açmaq istədi. Tuqay yalnız indi gördü ki, qartalın bir qanadı açılmır. Açılmayan qanadın altından sızan qanı görəndə oğlan öz qənaətində yanılmadığını anladı. Qartal ayağının birini irəli uzadıb caynağını şəstlə onun qolunun üstünə qoydu. Tuqay bu "jesti", belə ərkyana ədanı, gələcək dostluğa işarə əlaməti hesab edərək əyilib quşu yerdən götürdü, onu qucağına alıb evə gətirdi. Tuqayın anası qartalın qanadına məlhəm qoyub sarıdı. Quş tezliklə sağaldı. Amma, deyəsən, onun bu həyətdən bir daha uçub getmək fikri yoxdu. Hətta, Tuqay onu bir dəfə qoltuğuna vurub vaxtilə tanış olduqları ünvana - dənizsahili qayalıqlara apardı. Oğlan evə gələndə gördü ki, quş evə ondan əvvəl uçub gəlib, artıq həyətdədir və dostlaşdığı alabaşla şirin-şirin "söhbət edir".

Balığı isə Tuqay balıqçı torunun içindən tapıb gətirmişdi. Adətən, ovda tora cürbəcür balıqlar düşür. Amma nə təcrübəli balıqçılar, nə də gənc Tuqay bu sularda indiyəcən bu cür balığa təsadüf etməmişdilər; bu, gümüşü, zərif, gözəl, əsrarəngiz bir canlı idi. Sonralar Tuqayın "Yaqut" deyə, çağırdığı bu su sonasının əcaib hərəkətləri elə ilk dəqiqədən diqqəti cəlb etmişdi: o, əsl rəqqasələr, çevik idmançılar kimi, suda yorulmadan atılıb-düşürdü. Özü də necə? Quyruğunun üstündə dimdik dayanıb fırfıra kimi gah sağa, gah da sola doğru fırlanır, oyunbazlar sayağı məzəli-gülməli hərəkətlər edirdi. Tuqay onu tamahkar balıqçıların əlindən zorla xilas edib evə gətirdiyinə görə daxili bir məmnunluq duyurdu. Əvvəllər bu qəribə balığa qanı qaynamayan, ürəyi yovuşmayan ana da, artıq mehrini Yaquta salmışdı; boş vaxtlarında balığın "rəqsinə" tamaşa etməkdən doymayan qadın, hərdən

özünü saxlaya bilməyib ürəkdən gülərdi...

...Tuqaydan xəbər-ətər yox idi. Nədənsə, heç "dostlar"ın da səs-səmiri gəlmirdi. Adətən, bu vaxtlar həyətə gəlib anaya baş çəkən Şəhla da, tərs kimi, bu gün gözə dəymirdi.

Onsuz da Tuqayın gecikməsindən narahatlıq hissi keçirən qadını, bu "dilsiz-ağızsızların" qəmli, dərdli görünüşü də bir yandan üzürdü. Axı, bunlara nə olmuşdu belə? Bəlkə ürəklərinə nəsə damıb? Bəlkə onlar nəsə bir şey bilirlər?

- Sizə nə olub belə?.. Niyə dinib-danışmırsınız?

Dilindən qeyri-ixtiyari qopan bu sözlər ananın özünü də heyrətləndirdi. Axı, o, kimə müraciət edirdi? Qartala? Balığa? Alabaşa? Bəyəm onlar ananın dediklərindən bir şey başa düşəsi idilər ki?

Qadın daha da heyrətləndi. Belə ki, onun xitabını eşidən "dostlar" hovuzun başına toplaşıb əvvəlcə yavaşdan – "pıçıhapıçla", sonra isə uca səslə "xosunlaşıb" sanki nəyisə "müzakirə etməyə" başladılar.

Az sonra yenə araya sükut çökdü. Alabaş ayaqlarını sürüyə-sürüyə hovuzdan aralanıb hiss olunmadan həyətdən çıxdı. Ana yalnız indi xatırladı ki, bir dəfə də bu cür hadisə baş vermişdi; o vaxt evə gec gələn Tuqayı Qayut "tapıb" evə gətirmişdi. Sən demə, həmin gün dənizdə tufan başlayıbmış və buna görə də Tuqay öz balıqçı dostu ilə meşə gözətçisinin komasında gecələyibmiş... Sonralar Tuqay danışırdı ki, həmin gecə köpək onun pencəyinin ətəyindən yapışıb az qala darta-darta öz evlərinə, anasının yanına gətirib çıxarıb. Bəlkə Tuqay bu gün yenə meşədə - həmin komada gecələyib? Bəlkə alabaş öz dostunu yenə tapıb evə gətirəcək?

Amma it bu dəfə tez qayıtdı. Yəqin bu, o demək idi ki,

Tuqay elə də yaxında deyil. Çünki ana yaxşı bilirdi ki, irsən malik olduğu hissetmə qabiliyyəti alabaşı aldada bilməz.

İt geri qayıdandan sonra qartal ona yaxınlaşdı. Qanadlarını geniş açıb bir xeyli müddət matdım-matdım Qayutu, yəni alabaşı süzdü. İt bir-iki ağız hürdü. Onun yanıqlı-boğuq səsini eşidən Yaqut, hovuzda çırpınmağa başladı. Qartal ürəkdən qıy çəkib ayağını yerdən üzdü, qanad açıb evin üstündə bir neçə dəfə dövrə vurdu.

Bu əsnada darvazadan içəri bir qız girdi; hə, bu, qonşu qız Şəhla idi. Qız elə bil ki, bu qəsəbəyə nağıllar dünyasından qaçıb gəlmişdi. Hürkək, ceyran yerişli, ahu duruşlu, sərvqamətli bir qızdı Şəhla. Necə deyərlər, aya deyirdi sən çıxma mən çıxım, günə deyirdi sən çıxma mən çıxım. Şəhlanın bu dünyada olan-qalan bir anası vardı. Qəribə işdir, elə bil ki, təbiət ana-balanı xasiyyətcə bir-birinin əksinə yaratmışdı: ana adamayovuşmaz, qız isə cazibədar idi... Əslində Şəhlanı nənəsi böyütmüşdü; bir müddət öncə qarı dünyasını dəyişəndən sonra qız, qara-dinməz, qaşqabaqlı anası ilə yaşamağa məcbur olmuşdu. Şəhla darıxırdı. O, göydəki Ay kimi tənha idi; nədənsə ona elə gəlirdi ki, Ay da onun kimi darıxır. Amma Ay göydə, o isə yerdə idi...

Qadın bir anlığa xəyallar aləmindən ayrılıb, irəli yeridi, hiss olunmadan, az qala kölgə kimi səssiz-səmirsiz həyətə daxil olan qonşu qızın qarşısına çıxdı.

- Salam, xala...

- Salam, qızım.

- Mən qartalın qıy səsini eşidib gəldim. Bir hadisə-zad olmayıb ki?..

-Hadisə?.. Yox... Amma Tuqay dənizdən gəlib çıxmayıb. Yaman nigaranam, ay qızım...

- İnşallah, gələr, xala. Darıxmayın...

Nədənsə, qızın səsi azacıq titrəyirdi. Əslində, Şəhla özünün gizli həyəcanını boğmağa çalışırdı; amma, deyəsən, bunu bacarmırdı. Onun həyəcanı səbəbsiz deyildi. Ötən gecə Şəhla öz otağında, açıq pəncərə önündəki yatağında, uzanıb səmada sayrışan ulduzları uzun- uzadı seyr eləmişdi. O, sonra bu sonsuz və sirli səmanın qoynunda, sankı bir-biri ilə him-cimlə "danışan", bir-birinə göz vuran ulduzlara baxa-baxa yuxuya getmişdi. Səhərə yaxın qız qəribə bir yuxu görmüşdü: Tuqayın kiçik qayığı suları yararaq irəliyə doğru şütüyürdü. Mavi, göz yaşları kimi dupduru suların üstünə saysız-hesabsız rəngbərəng güllər səpələnmişdi. Ən təəccüblüsü isə bu idi ki, Şəhlanın üstündə yatdığı çarpayı, daha doğrusu taxt, bu mavi suların qoynunda, Tuqayın qayığının arxasınca üzüb gedirdi. Tuqay gülümsəyərək ona əl edir, arabir qıza "hava öpüşü" göndərirdi. Sanki Şəhlanın çarpayısı qayığa çevrilmişdi. Rəngbərəng suların üstünə səpələnmiş rəngbərəng güllərin ətri qızı yuxuda bihuş etmişdi. Və Şəhla, arada fürsət tapıb o güllərdən bir neçəsini ovuclayıb dəstələmişdi də. Təzə-tər güllərin parlaq ləçəklərindən süzülən su damcıları qızın sinəsinə, üz-gözünə səpələnmişdi. Nədənsə, bu soyuq damcılar onun sifətini odlu zərrələr kimi qarsımışdı. Şəhla yuxudan oyananda önündə yatdığı açıq pəncərədən sifətinə damcılayan yağış damlalarını əli ilə silərkən heyrətə gəldi: aman Allah, pəncərədən çisələyən bu damlalar bir az əvvəl yuxuda gördüyü damçılar kimi isti idi, qaynar idi. Deyəsən bəs, bayaq Tuqayın ona ünvanladığı "hava öpüşləri"nin odu-alovu bu damcılara hopmuşdu. Şəhla yataqdan dikəlib pəncərəni örtərkən tutqun-göyümsov şüşədən ona aysifətli bir gözəlin baxdığını görəndə, bayaqdan ürəyində bulaq kimi

qaynayan heyrət hissi damla-damla artıb gur, qaynar bir şəlaləyə çevrilmişdi; o, az qala özü-özünü tanımayacaqdı! O, necə də böyümüşdü! Sanki həmin anlarda ona kimsə, kənar bir adam da göz qoyurdu. Halbuki Şəhla həmişəki kimi öz otağında tək yatmışdı. Qızın yanaqları od tutub yanırdı.

Qız hələ də o qəribə yuxunun təsiri altında idi. Və yuxuda gördüyü o güllərin xoş ətri hələ də onun burnundan çəkilib getməmişdi. "Görəsən, Tuqayın başına bir iş gəlməyib ki?" Şəhla bu anlarda ağlına gələn qarmaqarışıq fikirlərdən qorxuya düşdü. Amma özünü ələ alıb toxtadı.

Ana bilirdi ki, dənizə gedən Tuqay üçün ən çox darıxanlardan biri də qonşu qız Şəhladır. Bunu bir qadın sövq-təbiiliyi ilə duyan ana, qızın ürəyindən keçənləri, həm də onun bulaq suyu kimi saf-duru gözlərindən, titrək səsinin həyəcanından "oxuyurdu".

- Hə, odur ey, qartal qayıdıb gəldi.

Bunu başını qaldırıb səmaya baxan Şəhla dedi. Həqiqətən də, bu, Ayqut idi. Quş havada dövrə vurub hovuzun üstünə qondu. Başını sudan çıxaran balığın iri, donuq gözləri qartalın üzünə dikildi. Köpək də onlara yaxınlaşdı. Dostların bu hərəkəti Şəhlanın diqqətindən yayınmadı.

Qız:

- Elə bil ki, bunlar söhbətləşirlər, - deyə, təəccüblə dilləndi.

Ana kədərli təbəssümlə dedi:

- Hə, elədir, qızım, düz tapmısan, söhbətləşirlər.

Bu zaman elə bir hadisə baş verdi ki, heyrətdən ana ilə Şəhlanın əlləri üzündə donub qaldı.

Əvvəlcə, alabaş yaydan atılan ox kimi darvazaya sarı

şığıyıb bir andaca gözdən itdi. Az sonra, Yaqut hovuzun sakit- durğun suyunu xəncər kimi yarıb yuxarı tullandı. Bir müddət sanki havada donub qalan balıq, təzədən üzüaşağı istiqamət götürüb suyun dərinliyinə baş vurdu. Balığın bu qəribə hərəkəti bir neçə dəfə təkrar olundu.

Qız çiyinlərini çəkib böyük bir maraq hissi ilə suda çırpınan balığı süzərək:

- Buna nə olub belə? – deyə, soruşdu.

Ana:

- Yəqin Tuqayın xiffətini çəkir, - deyə, kədərlə cavab verdi.

Balıqsa, deyəsən, sakitləşmək istəmirdi. O, gah atılıb-düşür, gah suda çırpınır, gah da özünü hovuzun soyuq divarlarına çırpırdı. Bu mənzərəni seyr edən qartal qəfildən qanadlarını yana açıb ayağını yerdən üzdü, hovuzun üstündə bir neçə dəfə dövrə vurdu və bu anlarda sudan sıyrılıb havaya atılan gümüşü balığı cəld qaparaq caynağına götürüb qıy vurdu.

Qartal bir andaca gözdən itdi.

Ana ilə Şəhla yerlərində donub qalmışdılar. Handan-hana özünə gələn Şəhla dilləndi:

- Yəqin qartal balığı parçalayacaq...

Hələ də gözü göylərdə olan ana sanki öz-özünə danışırmış kimi:

- Yox, ola bilməz, - dedi və əlavə etdi: - Axı, onlar yaxın dostdurlar.

- Bəs elə isə onlar niyə qaçıb aradan çıxdılar?..

- Mən də mat-məəttəl qalmışam. Doğrusu, son vaxtlar Tuqay bəzən evdə olmayanda onun ətrini-qoxusunu bunlardan alırdım. Bunlarsa belə... Yəni bu qədər etibarsız imişlər? Olsun ki, indi bunlar Tuqay yoxdur deyə qaçıb getdilər. Heyif mənim zənnimə.

Bunlara yamanca inanıb mehr salmışdım. Görünür, səhv eləmişəm. Eh, ay bala, indi adamların çoxunun etibarı azalıb, o ki ola Allahın dilsiz-ağızsız quşu-heyvanı... Şəhla, qızım, deyirəm bəlkə oğlumun başına nəsə gəlib?.. Dilim-ağzım qurusun, bəlkə o, tufana düşüb?.. Bəlkə balam dənizdə suitilərinə, yırtıcı balıqlara rast gəlib? Bəlkə... Bəlkə...

Şəhla anaya xeyli ürək-dirək versə də bunun elə bir xeyri olmadı; az sonra qadının göz yaşları onun solğun yanaqlarını "yumağa" başladı. Şəhla hiss edirdi ki, ananı qəm dəryasına düçar edən təkcə oğlunun dəniz səfərində belə ləngiməsi yox, həm də Tuqayın həyətdəki "dostlar"ının - alabaşın, balığın və qartalın qəfildən aradan çıxması, "etibarsızlığı" idi.

Doğrudan da, görəsən, "dostlar"a birdən-birə nə olmuşdu belə? Onlar doğma ocağı niyə tərk etmişdilər?.. Bəlkə onlar Tuqayın yoxa çıxmasından istifadə edib dağılışmaq qərarına gəlmişdilər? Axı, hər necə olsa da onların da öz doğma vətənləri vardı. Balığın vətəni-dəniz, qartalın vətəni-səma, itin vətəni isə meşə idi.

Dərd ananı üzürdü. Şəhla hələ də anaya təsəlli verməkdə idi.

***

***Q***əfil fırtına Tuqayla qoca balıqçını dənizin ortasında haqladı. Bir göz qırpımında hava tutqunlaşdı. Qurğuşun kimi ağır dalğalar onların yüngül qayığını yarpaq kimi atıb-tutmağa başladı. Artıq qayığın içində kiçik su gölməçəsi yaranmışdı. Tuqay avarların dəstəyindən bərk-bərk yapışaraq dalğaların qucağında yırğalanan qayığı sahilə doğru istiqamətləndirmək istəyir, qoca balıqçı isə

dəmir parçla qayığın içinə dolan suyu hər vəchlə boşaltmağa çalışırdı. Amma onların hər ikisinin cəhdi, deyəsən, əbəs idi. Çünki dalğalar qayığı dənizin dərinliyinə doğru çəkib aparırdı. Bir yandan da qayığın içinə dolan su, azalmaq əvəzinə, elə bir yandan hey artmaqda idi.

Duzlu, sərt dalğalar tərs şillələr kimi onların sifətinə çırpılırdı.

Qoca balıqçının boğuq, xırıltılı səsi sanki o biri dünyadan gəlirdi:

- Tuqay!.. Tuqay!.. Möhkəm dayan...

Tufan başlanmazdan bir qədər əvvəl növbəti ovdan əldə edəcəyi gəliri, dodaqaltı mızıldayaraq dönə-dönə hesablayan, arabir amiranə tərzdə Tuqayın üstünə qışqırıb müxtəlif əmrlər verən ("qayığı sağa döndər!", "sürəti artır!", "tora çatanda avarın dəstəyini mənə ver!"-deyə, hayqıran), qoca balıqçının yalvarış dolu nidaları eşidilirdi; indi qocanın səsi küləyin ağzında yaralı quş kimi çırpınaraq get-gedə öləziyirdi. Qoca əməlli-başlı xofa düşmüşdü; o, irəli əyilərək avarın dəstəyindən qoşa əllə bərk-bərk yapışmışdı. Əslində onun bu "köməyi" Tuqaya mane olurdu: avarları bu vəziyyətdə çəkmək, qayığı idarə etmək daha da çətinləşmişdi. Tuqay yumaq kimi büzüşüb qorxudan və soyuqdan tir-tir əsən qocanın halını yaxşı anlayırdı və elə bu səbəbdən də susurdu. Danışsaydı belə, indi kim idi onu eşidən? Daxilən o qədər də xoşlamadığı bu xəsis və zəhmli adama bu anlarda Tuqayın yazığı gəlirdi. Amma nə etməli? Bəyəm yerə-göyə meydan oxuyan bu tufan, bu fırtına qocanın yalvarışlarına məhəl qoyası idi ki?.. Ağır dalğalar, zəlzələdən uçub-dağılan əlçatmaz dağların heybətli- vahiməli uçqunları kimi nərildəyərək onların üstünə yeriyib gəlirdi.

Get-gedə qocanın naləsi eşidilməz olurdu.

İndi nə sahil görünürdü, nə də səma. Sanki özüylə fəlakət gətirən su burulğanı bütün ətrafı, hətta, göy üzünü belə, nəhəng dəyirman daşı kimi fırladırdı.

Növbəti dalğalardan birinin güclü və qəfil zərbəsi qoca balıqçını vurub kükrəyən dənizin, şahə qalxan dalğaların qoynuna atdı.

Qoca bir andaca yoxa çıxdı; sanki bu dünyada heç əzəldən belə bir adam olmamışdı.

Tuqay özünü itirsə də, əlini qeyri-ixtiyari qayığın yan tərəfinə atdı; qocanın bayaqdan qoşa əllə dəstəyindən bərk-bərk yapışdığı avar, indi onun özü ilə birlikdə yoxa çıxmışdı. Deməli, belə çıxırdı ki, ta bu cəhənnəm dəyirmanından yaxa qurtarmağa bir zərrə qədər də ümid qalmayıb.

Görəsən, doğrudanmı artıq hər şey başa çatmışdı?

Tuqayın gözləri önündə qeyri-ixtiyari dəhşətli bir mənzərə canlandı: suların qoynunda ağzı üstə cevrilmiş tənha qayıq, tək avar, balıqlara yem olan ruhsuz cəsəd... Yox, yox, o, ölmək istəmirdi! Düzdür, adətən, yaşlılar deyirdilər ki, ölüm haqdır və dünyada yaşayan hər bir insan övladı günlərin bir günü öz ömrünü Tanrıya bağışlamalıdır. Amma bu cür mənasız ölüm... Tuqay öz qısa həyatının belə bir bayağı və eyni zamanda, faciəli sonluqla başa çataçağını heç vaxt təsəvvürünə gətirməmişdi. Yox, o, indi bu sonluğu elə-belə, sakit-soyuqqanlı bir tərzdə qarşılaya bilməzdi. O, hələ məğlub deyildi. O, əl-qolunu yanına salıb düşmən qılıncı kimi qəfildən başının üstünü alan fəlakətə belə asanlıqla təslim ola bilməzdi.

Birdən-birə Tuqayın gözləri önündə, qorxunc əjdahalar kimi şahə qalxan dalğaların arasından, anasının

mehriban çöhrəsi canlandı. Ananın yanında bir qız da vardı; bu, Şəhla idi. Onların hər ikisi - ana və qız, dənizin sahilində dayanıb əllərini şahə qalxan dalğalara sarı uzadaraq sanki pıçıltı ilə qorxunc sulara dua edirdilər. Ana dənizdən imdad diləyirdi.

Birdən-birə dənizin köksündə əjdaha ağzı kimi açılan dibsiz, qorxunc yarğanın üstünü köpüklü suların ağır "qapağı" örtdü; Tuqaya elə gəldi ki, bayaqdan burulğana düşərək az qala dənizin lap dibinə enmiş qayığı qəfildən hansısa bir gözəgörünməz əl dartıb suların üstünə qaldırdı. Qayıq silkələnib yerində çevrə cızdı.

Tuqay diqqətlə uzaqlara göz gəzdirdi. Hər tərəf boz-bulanıq sularla əhatə olunmuşdu. Nə sahil görünürdü, nə də ana...

***

***S***usuzluqdan dili-dodağı od tutub yanan balıq tez-tez havada ləngərlənən qartalın caynaqları arasında çabalayırdı. Hətta, bir-iki dəfə az qala sürüşüb yerə düşəcək, sərt-sıldırım qayalara çırpılıb tikə-tikə olacaqdı. Qartal onu çətin ki, uzaq dənizə bu minvalla apara biləydi. Məsafənin uzunluğu bir yana, get-gedə Yaqutun nəfəsi təngiyirdi. Qartal hiss edirdi ki, susuzluq onun dostunu əldən salmaqdadır. Su, bu anlarda Yaqut üçün həyat demək idi.

Bir azdan aşağıdan boğuq şırıltı səsi eşidildi. Hə, bu da çay! Çay! Dərə ilə üzüaşağı axıb gedən şəffaf suyun ətri Yaqutu uzaqdan vurdu; onun ürəyi atlandı. Budur, qartal lap aşağıdan, çayın üstü ilə uçmağa başladı! Yaqut çırpınıb qartalın caynaqları arasından çıxdı, havada fırlanıb özünü sürətlə axan dağ çayının qoynuna atdı. Ayqut bir müddət dostunun başı üstündə dövrə vuraraq

dəlicəsinə qıy çəkdi. Balıq sudan başını çıxarıb yuxarı baxdı; o, sanki qartalla vidalaşmaq istəyirdi. Eh, kim bilir, onlar bir də nə vaxt görüşəcəkdilər. Qartal onu görüb qanadlarını daha geniş açdı. Bu, o demək idi ki, Ayqut yüksəkliklərə, göyün dərinliklərinə baş vurmaq istəyir.

Suyun bihuşedici ətri əvvəlcə sanki Yaqutun ağlını başından çıxarmışdı. Amma bu ləzzət uzun çəkmədi. Ömrünün çoxunu böyük sularda keçirən, əvvəlcə okeanın, sonra isə dənizin ənginliklərinə baş vuran balıq dağ çayında özünü elə də rahat hiss etmirdi.

O, bir vaxt təsadüfən balıqçı toruna düşüb Tuqaygilin hovuzuna atılanda da elə bu vəziyyətə düşmüşdü. Hovuzun ılıq, şirin suyu əvvəlcə ona yad gəlmişdi. Amma sonra yavaş-yavaş alışmışdı o yad suyun ətrinə, dadına...

İndi Yaqut xilas olacağına, daha doğrusu istəyinə çatacağına inanırdı. Çünki o, elə bu dağ çayının içindəcə, doğma suyun uzaqlardan gələn xoş ətrini duyurdu; bu, nəhəng bir su idi. Bu, duzlu dəniz suyu idi və Yaqut tezliklə həmin nəhəng, duzlu, tanış suya baş vurmaq istəyirdi. Şübhəsiz ki, indi içində üzüaşağı üzdüyü bu dağ çayı axıb, axıb sonda o nəhəng, duzlu dənizə qovuşurdu. Balıq buna əmin idi. Elə buna görə də o, xırdaca çay balıqlarının, çömçəquyruq və qurbağaların yanından sürətlə ötüb irəliyə doğru şütüyürdü. Buralarda indiyəcən bu boyda, bu gücdə, bu görkəmdə balıq görünməmişdi. Yaqutun iti, möhkəm "qanadlar"ı arabir sualtı otlara, bitkilərə, ağac köklərinə ilişsə də, o, öz yolundan qalmırdı. "Qanadlar"ını gərərək, ona mane olan hər şeyi dəf edir, inamla və inadla irəliyə doğru üzürdü. Uzaqdan doğma dənizin duzlu suyunun xoş ətri gəlirdi.

***

***H***ava qaralmışdı. Amma alabaşın dayanmaq, dincini almaq istəyi yoxdu. O, hər necə olursa-olsun, öz dostunun izinə düşmək istəyirdi. Tuqayın iyi, qoxusu, itin burnunda idi. Tuqaysa yox idi. Əgər Tuqay bu yaxın yerlərdə olsaydı alabaş onu lap asanlıqla tapa bilərdi. Amma indi buralarda Tuqayın heç bir əlaməti hiss olunmurdu; onun nə izi vardı, nə də tozu.

Alabaş dəniz sahilindəki qayalıqlara yetişdi. İri, qorxunc dalğalar, quduz itlər kimi ulayıb hiddətlə nəhəng sal daşlara çırpılırdı. Burada da Tuqayın qoxusu duyulmurdu. Əgər Tuqay buralarda olsaydı, it onun yerini elə həmin andaca müəyyənləşdirər, irəli şütüyüb öz dostunun üstünə atılar, hətta, zarafatla onu qorxuzardı da. Axı, Tuqayla Qayutun özlərinəməxsus zarafatları da vardı.

Bir dəfə də indikinə bənzər hadisə baş vermişdi; dənizə növbəti səfərdən qayıtmalı olan Tuqay evə gəlib çıxmamışdı. Onda da, bax elə indiki kimi, ana narahatlıq içində vurnuxurdu. Qaranlıq düşəndə Qayut özünü saxlaya bilməyib sakitcə həyəti tərk etmiş, öz dostunun axtarışına çıxmışdı. Həmin gecə dənizdə fırtına qopmuşdu, möhkəm yağış yağırdı. Amma alabaş artıq öz dostunun iyini almışdı: o, haradasa yaxınlıqdakı meşədə olmalı idi! O vaxt it özünü meşəyə- ağacların sıx yerinə vurmuşdu. Hə, sən demə, Qayut səhv etməyibmiş: Tuqay qəfil yağışdan qorunmaq üçün meşə gözətçisinin komasına təşrif aparıbmış. Onda Tuqay öz dostunu komanın ağzında görüb əvvəlcə heyrətlənmiş, sonra isə sevincindən qəhərlənib yağışın altında suyu süzülən iti bağrına basmışdı. Az sonra onlar, alabaş və Tuqay, birlikdə evə dönmüşdülər. Ax, onda ana “dostların” sağ-salamat

qayıtdığını görüb necə də sevinmişdi!

Amma indi... Bu yanlarda Tuqayın qoxusu duyulmurdu. İtin isə, evə Tuqaysız qayıtmaq niyyəti yoxdu. Yəqin ki, ana da "dostların" birlikdə gəlməsini gözləyirdi.

***

***Q***artal sürətlə üzüaşağı axan dağ çayının üstündə sonuncu dəfə dövrə vurandan sonra qanadlarını gen-gen açıb, açıq səmaya doğru istiqamət götürdü.

Artıq hər şey arxada qalmışdı: Tuqaygilin evi də, ana da, Şəhla da, balıq da, balığı üzüaşağı aparan dağ çayı da. İndi qartalın əziz dostu alabaş da uzaqlarda idi. Amma qarşıda nəhəng, tanış bir dəniz vardı. O dənizin sahili qayalıq idi. Bir vaxt qartal ovçu gülləsinə tuş gəlib yaralanmış, xilas olmaq üçün bu boz qayaların arasında gizlənmişdi. Onda Tuqay onu görüb mehribancasına başına sığal çəkmiş, sonra evə gətirib yemləmişdi. Ananın qoyduğu məlhəm tezliklə quşun qanadlarını sağaltmışdı. Amma qartal sağalandan sonra da həmin qapıdan getməmişdi. O, qəlbən isinmişdi, bağlanmışdı bu evə, bu ocağa.

İndi Tuqayın birdən-birə yoxa çıxması, hamı kimi onu- Ayqutu da, sanki sarsıtmışdı. Ana ilə Şəhlanın kədərli siması bir an da olsun qartalın gözlərinin önündən çəkilib getmirdi. Yox, daha dözmək olmazdı! "Dostlar"ın hər üçü axtarışa çıxmışdılar; onlar mütləq Tuqaydan bir soraq öyrənməli idilər. Elə bu cür də etdilər: qərara aldılar ki, Tuqayın getdiyi istiqamətə üz tutsunlar. Onlar bir-birini sözsüz belə anlayırdılar... Tuqay dənizə getmişdi. Dənizin isə ucu-bucağı yoxdu.

Qartal dənizin iyini uzaqdan aldı. Onun ürəyi çırpınmağa başldı. Odur, bax orada, dənizin sahilində qayalıqlar vardı və bir vaxt quşa məhz oradan - o qayaların arasından güllə atmışdılar. İndi yəqin ki, qartal öz düşmənini görsəydi heç nədən qorxmaz, ildırım kimi şığıyıb öz intiqamını alar, onun qanadını qıran kəsin ya gözlərini ovar, ya da üz-gözünü cırmaqlayıb şilim-şilim edərdi... Yox, bəlkə də heç nə etməzdi öz düşməninə; axı o vaxt həmin təsadüf olmasaydı Ayqut Tuqayla rastlaşa, sonralarsa dostlaşa bilməzdi. İndi Tuqaysız ona bu sonsuz səma da darlıq edirdi.

Qayalıqlardasa ins-cins görünmürdü. Adətən, yaxınlıqda bir hənir, bir nəfəs duyan quşun- Ayqutun canında qəribə titrəyişlər olurdu. Sanki belə anlarda onun ürəyindən "dalğalar" ötüb keçərdi. Və ən qəribəsi də bu idi ki, hər kəsin öz "dalğası" olurdu: alabaşın, balığın, ananın, Şəhlanın "dalğaları". Bu "dalğa" selində Tuqayın da öz "dalğası" vardı. Əgər indi Tuqay bu sahildə, bu qayalıqlar ətrafında olsaydı, onun içindəki o "dalğalar" mütləq hərəkətə gələr, onu istər-istəməz duyuq salardı.

"Dalğa"larsa yatırdı. Amma dənizin dalğaları sahil qayalarını döyəcləyirdi.

Qartal uca qayalardan birinin zirvəsinə qondu.

Dəniz öz əbədi nəğməsini oxuyurdu. Balıqların sahildə qoyduqları "qulaqları"- balıqqulaqları isə dənizin sirli nəğməsini dinləyirdi.

***

- ***Ş****əhla, qızım, mən bütün gecəni dənizə yalvarmışam. Deyirəm, mənə rəhmin gəlsin, ay dəniz. Kipriyimlə od götürüb bir övlad böyütmüşəm. Qoy onun toyunu edim, qoy nəvə-nəticə görüm, ay dəniz. Yəqin ki, dəniz ana ürəyindən keçənləri duyar, eşidər, qızım. Axı, mən həmişə hamıya yaxşılıq arzulamışam bu dünyada. Elə mənim oğlum Tuqay da hamıya kömək edib, əl tutub. O, tora düşmüş balığı xilas edib, sahibinin azdırmaq istədiyi alabaşı həyətdə böyüdüb, yaralı qartalı sağaldıb... Bax, mənim övladım bu cür oğuldur: həlim, mehriban, xeyirxah...Yəqin ki, dəniz mənim səsimi eşidər, qızım. Axı, deyirlər, dənizin də qulağı olur. Mənə rəhmin gəlsin, dəniz. Mən anayam...

***

***B***ütün bu baş verənlər Tuqaya qorxunc yuxunu xatırladırdı. Və onun ürəyinin dərinliyində belə bir inam vardı ki, tuş gəldiyi bu dəhşətlər, fəlakətlər tezliklə çəkilib gedəcək, Tuqay təzədən sahilə dönəcək, evlərinə qayıdacaq, “dostlarını” görəcək, öz gəlişi ilə ananı və Şəhlanı sevindirəcək. Amma, hələlik, hər tərəf qaranlığa qərq olmuşdu. Fırtına səngisə də uzaqdan yenə tükürpədici uğultular eşidilirdi. Arabir Tuqayın yaxınlığında, qayığın düz burunun ucunda əcaib-qəraib dəniz canlıları atılıb-düşürdü.

O, artıq istiqaməti itirmişdi. Tək avarla hərəkət etmək olduqca çətin idi. Qayıq demək olar ki, dalğaların qovduğu istiqamətə kor-koranə üzürdü. Görəsən, bu minvalla nə qədər üzmək, harayacan gedib çatmaq olardı?

Anasının, adətən, dara düşəndə işlətdiyi bir söz indi qəfildən onun da dilindən qopdu: “Ya Tanrım!”

Qəfildən ağır, yoğun gəmi kəndirləri kimi bir-birinə dolaşıb onun üstünə atılmaq, boğazına dolanmaq istəyən dalğaların üstünə bir əlçim işıq düşdü və elə həmin an o təhlükəli, "düyünlənmiş" "kəndir kələfi" açılmağa başladı; fırtına səngidi; sanki gözəgörünməz bir əl, şahə qalxan dalğaların üstünə "ütü" çəkdi; qayıq sonsuzluqdan asılmış nənni kimi asta-asta yelləndi. Qətran kimi qara dalğaların üstündə bərq vurub par-par yanan o bir əlçim işıq parçası sürüşüb qayığın içinə - Tuqayın üstünə düşdü.

"Ya Tanrım!"

Bəlkə də bu, elə Tanrının göndərdiyi bir işıq töhfəsi idi?!. Bəlkə elə Tanrının özü onun köməyinə, xilasına gəlmişdi?!.

"Ya Tanrım!"

Onu heyrət bürüdü; indi "Ya Tanrım!" – deyə, haray qoparan təkcə Tuqay deyildi; özü və üzü görünməyən ana da öz səsini onun səsinə qoşmuşdu. Tuqay milyonlarla səsin içində asanlıqla tanıya bilərdi bu səsi!..

"Ya Tanrım!"

Bəlkə Tanrı elə ananın harayını eşidib onun oğlunun köməyinə gəlmişdi?

Fırtınanın şahə qaldırdığı nəhəng dalğalar artıq mağarasına qayıdan şir kimi çəkilib gözdən itmişdi...

Hava işıqlaşanda Tuqay hiss etdi ki, artıq yuxusuzluqdan üzülür. O, avarı buraxıb ötəri də olsa dincini almaq üçün, qayığın yaş döşəməsinə uzandı. Bir azdan onu yuxu tutdu...

O, qəribə bir yuxu görürdü. Görürdü ki, öz həyətlərdə oturub anası ilə söhbət edir; qartalla alabaş Tuqayın dizinin üstündə idi. Bu vaxt darvaza döyüldü. Tuqay yerindən qalxmağa macal tapmamış qapıda qəribə bir məxluq göründü: bu, quyruqları üstə yeriyən nəhəng

bir balıq idi! Ən təəccüblüsü isə bu idi ki, balıq əməlli-başlı adam dilində danışırdı! Balıq yuxarı tullanıb az qala hikkədən boğula-boğula soruşdu:

- Mənim balam hanı?

“Mənim balam hanı?” Yəqin ki, balığın övladı da balıq olardı. Bu, bəlkə elə hovuzdakı balığın, yəni Yaqutun anasıdır? Olsun ki, ana öz övladını axtara-axtara onların həyətinə gəlib çıxmışdı.

Tuqayın anası irəli yeriyib dedi:

- Sənin balan hovuzdadır.

Nəhəng balıq yuxarı tullanıb hovuza baxdı. Sonra qəzəblə qışqırdı:

- Bəs hanı?.. Hovuz boşdur ki... Hanı mənim balam?..

Ana və Tuqay hovuza baxdılar. Hovuz həqiqətən boş idi. Orada nəinki balıq, heç su da yox idi.

Nəhəng balıq hiddətlə quyruğunu hovuzun divarına çırpmağa başladı.

Zərbədən nəinki hovuz, az qala bütün həyət yırğalanmağa başladı. Elə bil zəlzələ baş vermişdi. Ala-başla qartal pəncə-pəncəyə, ana ilə Tuqaysa əl-ələ tutub balığın üstünə sarı yeridilər. Nəhəng balıqsa onlara əhəmiyyət belə vermədən quyruğunu qəzəblə oynadıb, hovuzun divarına və yerə daha ağır zərbələr endirməkdə idi...

Tuqay gözlərini açdı. Həqiqətən, yaxınlıqdan taqqıltı səsləri eşidilirdi. Ona elə gəldi ki, evlərinin öz həyətindədir. Hətta, ayağa durub zərblə döyülən darvazanı açmaq istədi.

Amma ətrafa boylananda indiyəcən gördüklərinin bir yuxu olduğunu anladı. Doğru olansa təkcə taqqıltı səsləri idi. O, avardan bərk-bərk yapışıb irəli boylandı.

“Aman Tanrım!”

Bayaq yuxuda gördüyü əcaib tanış varlıq özünün iri,

küt başı ilə qayığın burnunu döyəcləyirdi. Onun bir suyu Qayuta bənzəyirdi. Vəhşi yəqin ki, yad hənirtini duyub bir qədər geri çəkildi, sonra yuxarı atılıb təzədən suyun altına baş vurdu.

İndi dəniz tamamilə sakitləşmişdi.

Qayıq yerində nənni kimi yırğalanırdı.

Tuqay ikiəlli, bərk-bərk yapışdığı tək avarla suya təkan verdi. Qayıq qövs şəkli cızdı. Əzəmətli, nəhəng vəhşinin heybətli başı yenə suyun üzünə çıxdı.

Tuqay yerində donub qalmışdı.

Nəhəngin soyuq və donuq baxışları iti ox kimi onun gözlərinə dikilmişdi. Birdən vəhşi irəli atılıb qayığa kəllə ilə dalbadal zərbələr endirməyə başladı. Su damcıları lülədən püskürən odlu qırmalar kimi ətrafa səpələndi. Qayıq ləngər vurub yerindən tərpəndi.. Tuqay avarı yuxarı qaldırıb var gücü ilə hərləyərək vəhşinin başına endirdi. Amma bu zərbə, deyəsən, nəhəngə o qədər də kar eləmədi; çünki bu heybətli varlıq geri çəkilmək əvəzinə, elə hey irəliyə dartınır, qayığın altına soxulmaq istəyirdi.

Tuqay avarı təzədən başının üstündə fırladıb növbəti zərbəni endirmək istədi və bu an sanki möcüzə baş verdi: vəhşi, yuxarı tullanıb avarın uçunu elə havadaca qapdı; onun iri dişlərinin qıcardısı, möhkəm çənəsinin şaqqıltısı aydınca eşidildi.

Tuqay avarın dəstəyindən daha da möhkəm yapışaraq onu bərk-bərk özünə sarı çəkdi.

***

***D***ərələrlə üzüaşağı şütüyən kiçik dağ çayları birləşərək tədricən güclü bir axına çevrilirdi. Düzənlərə çatanda səngiyən gur suların balıqları da elə çayın özü

kimi get-gedə böyüyürdü. Amma indi sularında üzdüyü bu iri çay, Yaqutu elə də cəlb etmirdi. Düzdür, indi üzmək xeyli asanlaşmışdı; axı, hər necə olsa da, o, artıq dağ çayında deyil, düzən boyu baş götürüb gedən nəhəng bir çayda üzürdü; bax bu anlarda  Yaqut tək bircə şeyə görə həvəslə sürətini artırır, yorulmadan irəli şütüyürdü; axı dənizin doğma- tanış qoxusu get-gedə yaxınlaşmaqda idi . Elə suyun dadının-tamının dəyişdiyi də aydınca hiss olnurdu.

Yaqut, kiçik balıqların yanından sürətlə şütüyərək, içində get-gedə daha da güclənən bir inamla, dənizə doğru üzürdü. Dənizdə yaşayan balıqların öz nəğməsi vardı. Yaqut da dənizə çatandan sonra öz nəğməsini oxuyacaqdı.

O, hələ düzənlik boyu axan çayın dalğalarına qoşulub üzməkdə idi. Yəqin ki, bu çayda yaşayan balıqların da öz nəğmələri vardı. Amma indi Yaqut çay balıqlarının nəğməsini eşitmirdi. Əslində bu anlarda onun qulaqları heç nə eşitmirdi. Bircə istəyi vardı: dənizə tez çatmaq, saysız-hesabsız səslərin içindən doğma bir səsin "izinə düşmək". O səsin sahibini tapmaq! O doğma səsin sahibi bir vaxt Yaqutu balıqçı torundan, daha doğrusu, ölümün cəngindən xilas etmişdi. Sonralar balıq öz xilaskarı ilə dostlaşmışdı. İndi onun başqa dostları da vardı; həmin dostlar - qartal və alabaş da elə onun kimi ağır bir səfərə çıxmışdılar. Onlar öz dostlarını - Tuqayı axtarmaq, əgər lazım gələrsə onu düçar olduğu fəlakətin pəncəsindən xilas etmək niyyətində idilər.

Dənizin duzlu, doğma suyunun ətri yaxınlıqda hiss olunduqca balığın ürəyi riqqətlə, həyəcanla döyünürdü. Bir azdan o, öz nəğməsini oxuyacaqdı! Onun uzaq və yaxın dostları da ağız-ağıza verib xorla o nəğməni oxuyacaqdılar. İndi isə...

*Ehey, doğma dəniz, ana dəniz, okeanın balası dəniz, aç qucağını, mən gəlirəm! Mən öz dostumu axtarıram. İndi onun yolunu gözləyənlər çoxdur. Qartalla alabaş da onun axtarışındadır. Biz öz dostumuzu xilas etməliyik, mehriban dəniz! Axı, o da vaxtilə bizi xilas edib. Qoy sənin dalğaların onun səsini mənə yetirsin. Mən onun səsini bütün səslərin içindən ayırd edib tanıyaram. Ehey, ana dəniz, doğma dəniz!.. İndi sənin şor suyunun ətrini mən duymaqdayam... Eşidirsənmi məni, doğma dəniz, ana dəniz, okeanın balası dəniz?..*

Get-gedə daha da gurlaşan soyuq sular ılıq sulara qovuşdu; sanki dəniz Yaqutu qoynuna aldı. Əvvəlcə baığın qulaqları güyüldəməyə başladı, ağzının tamı dəyişdi. Amma sonra hər şey qaydasına düşdü: o, indi özünü tanış, ılıq sularda rahat hiss edirdi.

Bir azdan sulardan qopub gələn doğma nəğmələrin sədası eşidildi.

Dəniz öz qoynunu Yaquta açmışdı.

***

***A***labaşın ulartısı qayalıqlarda əks-səda verdi.

Gecə idi.

Ay hələ də dalğaların qoynunda yuyunurdu. Qayut qayalıqlardan çıxıb qumlu sahil boyu irəliləməyə başladı. O, dənizin, qayalıqların, qumların, yosunun, balıq-qulaqlarının, yaxınlıqdakı meşənin, dənizdəki balıqların, bir sözlə, ətrafda olan hər şeyin qoxusunu duyur, hiss edirdi. Amma o, təkcə öz dostunun - Tuqayın ətrini ala bilmirdi ki, bilmirdi.

Birdən onun burnuna kəsif, çürüntü qarışıq bir iy gəldi. Diqqətlə ətrafa göz gəzdirdi. Bu ağır qoxu

haradansa lap yaxınlıqdan, dənizlə sahilin kəsişdiyi yerdən gəlirdi.

Alabaş ehtiyatla, asta addımlarla iy gələn tərəfə doğru getdi. Sahildə- dalğaların yuduğu qumların üstündə bir insan uzanmışdı. Həmin adamın əlində zorba bir ağac vardı və o, ağacdan bərk-bərk yapışmışdı.

Qayut özünü uzanmış adamın üstünə atdı. Bu, bəlkə elə Tuqay idi? Yox... O, diqqətlə qumluqdakı adamın üz-gözünə baxdı. Tanıdı. İt həmin adamı nə vaxtsa Tuqayın yanında görmüşdü. Bu, yaşlı, zəhmli bir kişi idi. Kişinin qoxusu o vaxtdan alabaşın burnunda qalmışdı. Amma indi həmin qoxudan əsər-əlamət yox idi. Ətrafı ağır, kəsif, kəskin bir iy bürümüşdü.

İt başını bulaya-bulaya yerə uzanmış kişidən aralandı. O, sövq-təbii hiss edirdi ki, Tuqay haradasa bu yaxınlarda olmalıdır. Axı, o, dənizə yəqin ki, bu zəhmli, qoca kişi ilə birlikdə çıxmışdı!

Əlbəttə, alabaş öz sahibini bu görkəmdə, yerə uzanmış vəziyyətdə görmək istəmirdi. O istəyirdi ki, Tuqay onu yenə öz adı ilə çağıraraq "Qayut!"- deyə, səsləsin, sonra əyilib başına sığal çəksin, hələ bir-iki xoş söz də desin. Alabaş onun dediklərinin mənasını düz-əməlli anlamasa da, adətən, dostunun üz-gözünün ifadəsindən onun ovqatının necə olduğunu əla anlayırdı. İt həyətdəki dostlarının, qartalla balığın, əhvalını da həmişə asanlıqla müəyyənləşdirərdi. Ana ilə qonşu qızın, yəni Şəhlanın da kefinin necə olduğunu hamıdan əvvəl alabaş bilərdi. Amma ananın qəzəbli vaxtlarında Qayut çalışardı ki, gözə çox çarpmasın. Çünki belə çağlarında ana ya onun üstünə qışqırar, ya da əlinə götürdüyü süpürgə ilə onu hədələyib bostana qovardı. Amma indiyəcən nə ana, nə Şəhla, nə də Tuqay ona heç çırtma belə vurmamışdılar.

Əslində alabaş özü də onlara belə bir imkanı verməmişdi. İt olanda nə olar ki?.. O, öz hərəkətlərinin yerini yaxşı bilirdi. Qonşudakı adamların çoxu öz həyət-bacadakı itlərinə Qayutu örnək göstərərdilər. O, az qala hamının sevimlisi olmuşdu.

İt qəfildən ayaq saxladı. Onun burnu tanış bir qoxunu almışdı. Bu, Tuqayın qoxusu idi! Alabaş səhv edə bilməzdi. Köpək var gücünü toplayıb irəli atıldı!

İndi heç bir qüvvə Qayutun qarşısını kəsə bilməzdi.

İt ucadan hürməyə, sonrasa uzun-uzadı ulamağa başladı. Cavab gəlmədi. Olsun ki, indi Tuqay elə də yaxında deyildi. Amma hər halda, o, sağ-salamat idi! Qayut buna əmin idi. Alabaş öz xilaskarının qoxusunu almışdı.

İt sürətini daha da artırdı.

***

**Ç**oxdan ayrıldığı ənginlik, ətrafından uçub gedən seyrək buludlar, açıq-mavi göylər qartalın quş yaddaşını silkələyib oyatsa da, onun bütün diqqəti uzaqlarda idi. O, bu anlarda sonsuz səmanın qucağında özünü nə qədər yüngül hiss etsə belə, içində bir ağırlıq vardı; sanki ürəyindən daş asılmışdı; axı onun dostu evə dönməmişdi. Yəqin ki, Tuqay dara düşmüşdü. Qartal indi öz xilaskarını xilas etmək üçün uzun bir yol qət etməkdəydi.

Qartalın ürəyindən axıb gedən həssas "dalğalar" arabir onu elə göy üzündəcə ani olaraq qanad saxlayıb ətrafa göz gəzdirməyə vadar edirdi. İndi Ayqut öz canında qağayıların, qarğaların, sərçələrin, hətta, nəhəng dəniz heyvanlarının "dalğasını" hiss edirdi. Bu anlarda təkcə Tuqayın "dalğası" yetişmirdi ona. Əvvəllər, o, Tuqayın

evə gəlişini irəlicədən bilər, qanadlarını gen-gen açıb həyət boyu süzər, hətta, hərdən qıy çəkib ananı diksindirərdi. Bu zaman hirslənib özündən çıxan ana süpürgə ilə qartalı kənara qovar, hikkəli-hikkəli deyinərdi...

Uzaqlardan eşidilən səslərin xəfif dalğaları sanki onu öz aləmindən ayırdı, ürəyini riqqətə gətirdi. Səs gələn səmtə sarı uçmağa başladı. Öz doğmalarını uzaqdan tanıdı: bunlar qartallar imiş ki! Səma cəngavərləri... Ata və ana qartal öz balalarına uçmağı öyrədirdilər. Valideynlər öz övladlarına - kiçicik quşlara cidd-cəhdlə qanad açmağın, hücum etməyin, müdafiə olunmağın sirlərini başa salırdılar.

Ayqutun quş yaddaşında bir anlığa özünün körpə, ətcəbala olduğu vaxtlar canlandı. Bir vaxt ona da bax beləcə qanad açmağı, uçmağı öyrətmişdilər. Ata və anası onu- balaca quşcuğazı, az qala öz qanadları üstə alaraq atıb-tutar, şənlənərdilər. Arabir valideynləri onu boş fəzada tənha qoyub müvəqqəti olaraq kənara çəkilər, öz balalarının uçuşuna uzaqdan baxardılar. Belə hallarda onun- körpə qartalın ürəyi həyəcanla döyünərdi; ona elə gələrdi ki, bax indicə müvazinətini saxlaya bilməyib üzüaşağı şığıyacaq, daş parçası kimi yerə düşüb parça-parça olacaq. O anlarda onun ayaqları əsər, boğazı quruyardı. Hətta, o, qorxudan gözlərini yumardı. Amma bu hal uzun çəkməzdi: ata və ana bir göz qırpımında ətcəbalanın başının üstünü kəsdirər, onu təzədən öz güclü qanadları üstə alıb süzər, qanad-qanada verib dövrə vurar, qıy çəkərdilər.

O, sonralar tək-tənha uçmağa alışdı... Elə ova da tək getməyi sevirdi. Uca dağlar, qayaların şiş zirvəsi, açıq səma onun ürəkdən sevib rahatlıq tapdığı yerlər idi. O,

yüksəkliklərin dəli-divanəsi idi! Sanki Tanrı səmanı məhz onun üçün yaratmışdı. O, son vaxtlar Tuqaya pənah aparmışdı; amma bununla belə, yenə də fürsət tapan kimi ənginliklərə baş vururdu və yəqin ki, zamanı çatanda o, günlərin bir günü elə səmada da öləcəkdi...

O, sahillə dənizin kəsişdiyi xətt boyunca uçurdu. Geniş səmadan, uca yüksəklikdən torpaqla suyun təmasına baxmaq necə də gözəl idi. O, əvvəllər də bu istiqamətdə çox uçmuşdu. Amma o zamanlar dənizlə sahilin bu cür qol-boyun olmasının fərqinə varmamışdı; onlar, yəni dənizlə sahil, bir-birinə necə də yaraşırmış! Qırçın dalğalar kəhrəba qumluqları öpərək geri çəkilir, sanki dənizin qoynunda azacıq dincələrək, təzədən irəli şütüyürdü. Hər yeni cəhd - yeni bir öpüş idi!

Birdən Ayqutun iti gözləri aşağıdakı qaraltıya sancıldı. Qanadlarını yanlarına sıxıb yerə sarı enməyə başladı. Deyəsən, sahillə dənizin birləşdiyi yerdə kimsə uzanmışdı. Qartalın ürəyi şiddətlə döyünməyə başladı: birdən... Yox... Bu, mümkün deyildi! Onun xilaskarı heç kəsə belə asanlıqla təslim ola bilməzdi!

Qartal qaraltıya yaxınlaşdı. Qumluğa uzanmış, ayaqlarını dənizin xəfif ləpələri döyən adamın sifəti ona bir qədər tanış gəlsə də, qəti əmin oldu ki, bu, Tuqay deyildir!

O, qıy çəkib qanadlarını geniş açdı.

Ürəyindən qəribə "dalğalar" ötüb keçməyə başladı.

Bəlkə Tuqay yaxında idi?

Qartal sürətini artırdı.

***

***A***xşam düşmüşdü.

Həyətə ağır bir sükut çökmüşdü.

Gözü yollarda qalan ana ağlayıb-sızlamaqdan üzülüb öz otağına çəkilmişdi. Ananın yanında özünü şux tutmağa çalışan, deyib-gülən Şəhlanın ürəyi bu anlarda kədərin ağır məngənəsində əzilirdi. Qız fikirləşəndə ki, bir daha Tuqayı görməyə bilər, dəhşətə gəlirdi.

Tuqayın "dostlarının"- qartalın, alabaşın və balığın qəflətən baş götürüb getməsi də qızı bir yandan təsirləndirmişdi. İndi həyət suyu sovrulmuş dəyirmanı xatırladırdı.

Qızın gözləri önündə Tuqayın surəti canlandı.

Cəmi bir neçə gün öncə axşamüstü həyətə gəlib ananı səsləyən Şəhlanı Tuqay özü qarşılamışdı. Ana qonşuya gedibmiş. Oğlan darvazanın önündə dayanmışdı. Son vaxtlar az-az gözə dəyən Tuqay bu qısa zamanda necə də dəyişmiş, böyüyüb kişiləşmişdi; ucaboy, qədd-qamətli oğlanla üz-üzə gələn qız, nədənsə bir anlığa çaşsa da tez özünü ələ aldı; o, oğlanla salamlaşdı və elə tez-tələsik də xudahafizləşdi. Bu vaxt Tuqay irəli gəlib diqqətlə qızın üzünə baxdı; sanki Şəhlanı ilk dəfə idi ki, görürdü. Axşam alatoranında qızın zərif boynundakı zərif incilər-boyunbağı dənələri par-par yanırdı; bu, yəqin ki, qıza öz nənəsindən qalan ən qiymətli yadigar idi. Şəhla diksinib geri çəkildi, dönüb qapıdan çıxmaq istədi. Bu vaxt heç bir kəsin, ən çox da qızın, ağlına gəlməyən bir möcüzə baş verdi: bayaqdan sanki ağızlarına su alıb susan dostlar - qartalla alabaş səs-səsə verib haray-həşir qopardılar. Şəhla üçün ən maraqlısı bu idi ki, hovuzdakı balıq da yuxarıya sarı tullanıb qəribə səslər çıxarmağa başladı. Görəsən, nə olmuşdu bunlara?

"Dostlar"ının istəyini Tuqay özü açıqladı:

- Bax, bunlar da sənin getməyinə etiraz edirlər. Əgər indi sözə baxmayıb geri qayıtsan dostlarım başqa tədbirlər də görə bilərlər.

Şəhla qeyri-ixtiyari soruşdu:

- Nə tədbir?..

Tuqay gülüb dedi:

- Məsələn, etiraz nümayişi keçirərlər.

Tuqayın zarafatyana dediyi bu sözə hər ikisi güldü.

Şəhla təzədən geri döndü.

"Dostlar" qızın ayaq saxladığını görüb susdular. Sanki qurbağa gölünə daş atıldı; hər tərəfə sükut çökdü.

Tuqayla Şəhla əl-ələ tutub hovuza yaxınlaşdılar. Tezliklə "dostlar" da hovuzun ətrafına cəm oldular.

Ana qonşudan qayıdıb gələndə Ay doğmuşdu. Ana üzünü göyə tutub dedi:

- Ey yerin-göyün sahibi, sən mənim balalarımı xoşbəxt elə!

Görəsən ana "balalarım" deyərkən kimi nəzərdə tutmuşdu? Axı, onun cəmi bir balası vardı.Qızın ürəyi atlandı...

İndi o xoş anlar arxada qalmışdı. Tuqayın xəbər-ətərsiz yoxa çıxması ana kimi qızı da kədərləndirirdi...

Şəhla başını qaldırıb göyə baxdı. İndi Ay görünmürdü. Şəhla pıçıldadı:

\- *Ay gözəl Ay, sən niyə görünmürsən?..*
*Nə üçün gizlənmisən?*
*Üzünü göstərsənə...*
*Nurunu dənizə yaysana...*
*Qoy, Tuqay səni görsün;*
*Sən onun qayığına yol göstər!*
*Sən onun üzünü nura qərq elə!*

*Sən onun dostlarını hifz elə!*
*Sən onun anasına rəhm elə!*
*Sən mənim kədərimi qəhr elə!*
*Niyə görünmürsən, ay tənha Ay?..*
*Üzünü göstərsənə...*

Sanki göylər Şəhlanın pıçıltısını eşitdi. Qəfildən Ay göründü, göy üzü nura qərq oldu.

Şəhla baxıb gördü ki, Ay hovuzda çimir. Göylər gözəli indi Aydan daha çox suda yuyunan şahanə, qənirsiz su pərisinə oxşayırdı. Qız əyilib hovuza baxdı: oradan Ayla yanaşı ayüzlü bir qız da boylanırdı. Şəhla öz əksini suda görüb diksindi.

Bu vaxt ana qapının ağzında göründü. Ana əllərini göyə açıb dodaqaltı dua etməyə başladı. Şəhla əmin idi ki, göylər ananın səsini eşidir.

***

***Q***ızmış nəhəng irəli soxulub avarı onun əlindən qapmaq istəyirdi. Söz yox ki, bu qəzəbli vəhşi, dəniz canavarı idi. Tuqay, əlbəttə, əvvəllər dənizdə uzaqdan da olsa akula görmüşdü. Amma bu, onun indiyəcən gördüyü dəniz canavarlarından heç birinə bənzəmirdi. Çünki, əvvəla, Tuqaya məlum idi ki, akulaların boynu ilə bədəni az qala eyni ölçüdə, eyni biçimdə olur; qəfildən zühur etmiş vəhşininsə boynu uzunsov idi. Digər tərəfdənsə, balıqçı qayıqlarını görən akulalar, adətən, sövq-təbii olaraq canlarını insanlar tərəfindən törədilə biləcək hər hansı xəta-bəladan qurtarmaq üçün aradan çıxmağa üstünlük verər, suyun dərinliklərinə çəkilib gedərdilər. Akulaların hansısa növünə aid olan bu heyvərəninsə, deyəsən, heç bir yana getmək niyyəti yoxdu.

Tuqay döyüşarası fasilə zamanı çağırılmamış qonağı gözaltı süzdü: akulanın sarı-bozumtul belinin düz ortasında qılıncı xatırladan sivri qanad vardı; vəhşinin qarnının yan tərəfində də həmin "qılıncabənzər" qanadların iti ucları parıldayırdı. Akulanın mişar kimi iti dişləri, enli çənəsi, zəhmli gözləri, möhkəm quyruğu onu balıqdan daha çox, düşmən üstünə hücuma keçmiş yaraqlı-yasaqlı döyüşçüyə bənzədirdi. Su yırtıcısının hərəkətləri o qədər ölçülü-biçili idi ki, hətta, Tuqay özlüyündə bir xeyli tərəddüd etməli oldu: görəsən, bu "döyüşçü"- akulaya nə lazım idi? Avar? Qayıq? Yoxsa Tuqay?

Elə bil min illərin düşmənləri indi qəfildən bu sonsuz su səhrasında üz-üzə gəlmişdilər. Axı, bu yaramaz, yırtıcı vəhşi, ondan niyə əl çəkmək istəmirdi? Bəyəm bu əngin dənizin qoynunda yem əldə etmək onunçün bu qədər çətin idi? Bəlkə balıqlarla adamlar arasında, səbəbi Tuqaya məlum olmayan qədim, gizli bir düşmənçilik tarixi vardı? Bəlkə lap elə Tuqayın tanıdığı balıqçılardan hansısa, haçansa bu zalım balasının övladını və ya anasını ovlayıb? Bəlkə də vəhşi, sadəcə olaraq, üz-üzə gəldiyi bu qərib qonağa öz gücünü göstərmək istəyirdi?.. Axı, hər necə olsa da buralar onun - akulanın öz vətəni idi. Tuqayınsa vətəni indi uzaqlarda qalmış sahil - böyük torpaq idi.

Qəzəbdən oğlanın dişi bağırsağını kəsirdi.

Bir yandan da susuzluq... Tuqay su qabının dibindəki sudan bir-iki qurtum alıb azacıq nəfəs dərdi. Sanki bir qədər yüngülləşib avarın dəstəyini təzədən sinəsinə sıxdı.

Yırtıcının iti dişləri şaqqıldayanda Tuqayın canından soyuq dalğalar keçdi. Onun qançırlamış enli kürəyindən, əzələli boyun-boğazıdan şor dəniz suyuna qarışmış tər damlaları axırdı.

Deyəsən, dəniz canavarı ondan qətiyyən əl çəkmək niyyətində deyildi.

İndi Tuqay bircə şeydən təskinlik tapırdı ki, artıq boz-çəhrayı "tül"ə bürünmüş sahil qismən də olsa görünməyə başlamışdı. Amma o, yaxşı anlayırdı ki, tək bir avarla lazım olan istiqamətə üzmək mümkün deyil...

Başına dəyən zərbələr dəniz canavarını daha da hiddətləndirmişdi. O, qayığın ətrafında fırlanıb manevr edir, sanki irəli atılmaq üçün özünə əlverişli mövqe seçirdi. Vəhşinin gözlərində ilan kimi qıvrılan sonsuz qəzəb açıqca hiss olunurdu.

Tuqay, əlbəttə, indiyəcən təcrübəli balıqçılardan akulalar haqqında müəyyən şeylər eşitmişdi. İndi bu qəzəbli dəniz heyvanı ilə qarşılaşan oğlanın ürəyindən qeyri-ixtiyari qəribə fikirlər keçdi: "Deyəsən, adamlar balıqları yediyi kimi, balıqlar da adamları yeməyə can atır. Allah bilir, bu sonsuz su səhrasının dibində nə qədər insan cəsədi uyuyur? Hələ zaman-zaman baş verən fəlakətli su basqınları nə qədər həyata son qoyub?.." Tuqay bir zamanlar- hələ necə illər bundan öncə, uşaq olarkən, anasından və qəsəbədəki digər yaşlı adamlardan su basqınları nəticəsində sellərin - suların altında qalan kəndlər- şəhərlər barədə az şeylər eşitməmişdi; oğlan Nuhun gəmisi, dünyanı basan suların qoynunda batmayan gəmi ilə bağlı söylənilən əfsanəni də indiyədək yaxşı xatırlayırdı... Deyəsən, balıqlarla adamlar bir-birilərini elə əzəldən ya anlamır, ya da anlamaq istəmirdilər. Yəqin elə ona görə də su və quru yaranan vaxtdan bəri balıqlarla insanlar arasında amansız müharibə gedirdi…

Tuqayla akula arasındakı ixtilaf da, güman ki, tərəflər arasındakı köhnə düşmənçiliyin yeni şəraitdə davamı idi; bu böyük su səltənətinin – dənizin

müəyyən bir hüdudu olsa da, onların, yəni insanla balığın bir-birinə olan nifrətinin həddi-hüdudu yox idi. Deyəsən, indi qəfil fürsət qazanmış yırtıcı, bütün balıqların qisasını açıq dənizdə yaxaladığı bu köməksiz insandan almaq istəyirdi.

Baxışları tez-tez su heyvanının qəzəbli gözlərinə sancılan Tuqay onu da hiss edirdi ki, rəqibi qayığın içinə atılmağa tələsmir, daha doğrusu, hələlik buna cürət etmirdi. Yəqin bunun səbəbi onda idi ki, akula qayığa atılmağın acı nəticəsini sövq-təbii hiss edirdi; orada onu gözləyən, artıq "ləzzətini" daddığı ağır zərbələr, istər-istəməz vəhşini ehtiyatlı olmağa təhrik edirdi. Amma, o, dənizin qoynunda rastlaşdığı belə qiymətli ovu, qayıqdakı adamı, yəni bu yağı düşməni qətiyyən əldən vermək niyyətində deyildi. Axı, su canavarı nə vaxtacan kiçik balıqlarla başını qatmalı idi?.. Onun iti dişləri təzə ət istəyirdi. Onun geniş, iri mədəsi ləzzətli yem tələb edirdi.

Qəzəbli akula suların qoynunda əsl ovçu kimi gərdiş edir, Tuqaya qəfil zərbə endirmək üçün əlverişli fürsət axtarırdı. Vəhşi, bir-iki dəfə qayığın altına soxulub ağır, möhkəm taxtalara güclü zərbələr endirmişdi.Ləngər vuran qayığın müvazinətini tək avarla saxlamaq çətin olsa da, Tuqay buna birtəhər müvəffəq olmuşdu. Bu anlarda qayığın aşması və ya onun özünün büdrəyib suya yıxılması hər şeyin sonu demək idi. Buna görə də o, hər vəchlə özünün və qayığın müvazinətini qoruyub saxlamağa çalışırdı.

Vəhşi arabir dişlərini şaqqıldadaraq gözlənilməz hücum "taktikası" seçir, açıq-aşkar, nümayişkaranə bir şəkildə Tuqayı əzmək üçün yeni-yeni üsullara əl atırdı; o, qıcıq doğurah hərəkətiynən sanki öz düşməninə həm meydan oxuyur, həm də təzyiq göstərirdi. Akula ilə göz-gözə qalıb iti, davamlı baxışlarla onu altdan-altdan süzən

Tuqay, hərdən az qala acı-acı gülmək istəyirdi: vəhşi, bu anlarda özünü su heyvanından daha çox, hikkəli, dalaşqan dənizçilər kimi aparırdı. Amma nə edəsən ki, onunla qanlı döyüşə girən bu heybətli canlı, adam deyil, su canavarı idi. Görünür, su səltənətinin də, qurudakı kimi, öz təkəbbürlü ağaları olur.

Tuqay səhv etməkdən qorxurdu. Ona görə də hər ehtimala qarşı avarı əlində hazır vəziyyətdə saxlamağa çalışırdı; o, zərbəyə zərbə, hücuma hücumla cavab vermək istəyirdi. Belə anlarda yalnız tələsik qərar çıxaranlar, təmkinini itirənlər uduza bilərdi.

Tuqayın artıq xeyli balıqçılıq təcrübəsi vardı. O, yaşlı balıqçı dostlarından dəniz canavarlarının öz düşmənlərinə və eləcə də, adamların dəniz yırtıcılarına qarşı hansı hücum fəndlərini işlətmələri barədə az eşitməmişdi. Onun, hətta, balıqçıların itiuclu nizə ilə akulanı necə ovlamaları barədə məlumatı da vardı. Amma açıq dənizdə vəhşi ilə ilk dəfə idi ki, belə üz-üzə, göz-gözə gəlirdi.

Tuqay tək avarla, az qala yalın əllə, vuruşmağın çətinliyini anlasa da, düşdüyü bəladan xilas olmağın yolunu hələ özü üçün tam aydınlığı ilə təsəvvür edə bilmirdi. O, sarsılmışdı. O, xilas yolu arayırdı.

Sanki bu anlarda içindən vulkan kimi püskürən zülməti qəzəb və hikkə dolu gözləri ilə anladan bu əcaib məxluq da öz düşməninin ürəyindən keçənləri duyub anlayır və bəlkə də buna görə növbəti hücuma hazırlaşır, özünə əlverişli mövqe seçməyə çalışırdı.

Amma Tuqay bu sular səltənətinin yırtıcı ağasına heç də asanlıqla təslim olmaq niyyətində deyildi.

***

***O***, özünü göz yaşları kimi şəffaf, duru çayda yox, suyu şor olan dənizin qoynunda daha rahat, azad və yüngül hiss edirdi. Amma bunu da yaxşı bilirdi ki, hətta, qoynunda yaşadığı o dəniz belə, ona tam doğma deyil. Çünki Yaqut dünyaya okeanda göz açmışdı. Onu təsadüflər gətirib dənizin qoynuna atmışdı.  O, heç də kürüdən törəmiş dəniz balığı deyildi. Məsələ burasındadır ki, kürüdən əmələ gələn balıqların sonradan nə anası məlum olardı, nə də atası. Amma, o, öz doğma anasını yaxşı tanıyırdı: onu doğan, onun qayğısını çəkən ananı! Ana balıq onu dünyaya gətirəndən sonra bir çox başqa analar kimi harayasa çəkilib qeyb olmamışdı. Ana öz balasına böyük okeanda üzmək öyrətmişdi. Ana ona yırtıcı okean balıqlarının qəfil hücumundan necə yayınmağın, sualtı səltənətdə necə gizlənməyin yolunu da başa salmışdı!

Yaqut hələ körpəlikdən dəcəl idi. Anasından xəlvət sualtı qayaların dəlmə-deşiklərinə baş vurar, yosunların içində gizlənərdi. Qəribə burası idi ki, o, nə qədər uzaqlara üzüb getsə də, ana öz körpəsini böyük okeanın sonsuz sularında asanlıqla axtarıb tapardı. Elə Yaqutun özü də istədiyi vaxt üzüb anasının yanına gedər, onun güclü qanadları altına sığınardı. Bir az böyüyəndən sonra okeanın sonsuzluğu sanki onu bezdirdi. O, günlərin bir günü yaxınlıqda üzən "dəmir balığın" - köhnə gəminin qanadları altında gizlənib uzaq, uzaq, çox uzaq bir səfərə çıxdı. Köhnə gəmi onu bu şor sulu  dənizin qoynuna gətirib çıxartdı. O, əvvəl-əvvəl yad dənizdə darıxsa da, öz anası üçün, okean üçün qəribsəsə də, get-gedə bu ögey sulara alışmağa başladı. Hətta, hiss etdi ki, dəniz bəzi

cəhətlərinə görə okeandan üstündür. İş burasında idi ki, Yaqut okeanda kiçik balıqlardan biri hesab olunurdu. Oranın- okeanın yırtıcı balıqları, nəhəng balinaları vardı. Amma o, burada – dənizdə, sayılan-seçilən balıqlardan biri idi. Və yəqin ki, o, bu dənizdə yaşayan yeganə okean balığı idi. Yaqut burada hətta, yırtıcı dəniz balıqlarının onun yanından ehtiyatla ötüb keçdiklərini də aydınca hiss edirdi. Onun bədəninin şəffaf-gümüşü rəngi su altında çoxlarını cəlb etsə də, cürətlənib başqa fikrə düşənlərə təsadüf olunmurdu. Çox güman ki, dəniz heyvanları da dünyanın bütün canlıları kimi sınaqdan, təcrübədən keçməyən bir işə baş qoşmağa hələm-hələm cürət etmirdilər. Arabir Yaqut bir vaxt qanadlarına sığınıb uzun yola çıxdığı gəmini bu sularda yenə görürdü. Yəqin ki, qocalıb əldən düşmüş bu bozumtul gəminin bir daha okeana qayıtmaq şansı qalmamışdı; axı, okeanda adətən, güclü, möhkəm, cavan, qasırğaya-tufana sinə gərən gəmilər üzürdü. Bu gəmininsə rəngi qaçmışdı; bir vaxtlar Yaquta bələdcilik etmiş o “dəmir balıq” son vaxtlar tez-tez təmirə dayanır, sonra yedəyə alınıb daxili sularda üzmək üçün təzədən dənizin qoynuna atılırdı.

Yaqut “öz gəmisini” uzaqdan tanıyırdı. Əslində onu tanımağa elə xüsusi ehtiyac da yox idi. Çünki köhnə gəminin mühərrikinin boğuq səsini sualtı “dalğalar” ətrafa yayırdı. Yaqutun həssas qulağı həmin “dalğaları” elə həmin andaca qəbul edirdi. O, nədənsə qocalıb əldən düşmüş gəmini özünə çox məhrəm, doğma bilirdi. Axı, Yaqut məhz bu gəminin qanadlarına sığınıb okeandan dənizəcən uzun bir yol qət etmişdi.

Bir vaxt balıq yuxuda tez-tez böyük, nəhəng bir su hövzəsi görərdi: buralar onun vətəni idi. O, özünün şipşirin dəniz yuxusundan oyanıb dik atılar, suyun üzünə

çıxıb uzaqlara baxardı. Amma okeana gedən yol uzaq, çox uzaq, həm də təhlükəli idi. O, yolda yırtıcılara tuş gələ bilərdi. Burada - dənizdə isə onunla heç kəsin heç bir işi yoxdu. Buralar suyunun balığına bənzəmədiyinə görə hətta, çoxları ondan ehtiyat edirdi.Yaqutun bıçaq kimi iti qanadları, par-par yanan gümüşü dərisi dənizdəki əksər balıqların ürəyini səksəkəyə salırdı. Suyun altında onunla üz-üzə gələn iri, vəhşi balıqlar belə, çox vaxt qorxub hərəkət istiqamətlərini dəyişirdilər; heç kəs lovğalıq ucbatından güdaza getmək istəmirdi. Əslində isə, Yaqutun heç kəslə vuruşmaq niyyəti olmazdı. O, bu şor suların qoynunda sərbəst, azad yaşamaq istəyirdi. Amma, görünür, azadlığın da öz ömrü və öz hüdudu olur. Yaqut günlərin bir günü balıqçı toruna düşüb, ölüm təhlükəsi ilə üz-üzə qaldı. Xoş bir təsadüf onu balıqçı torundan xilas etdi. Gənc balıqçı qoca balıqçını dilə tutub gümüşü gözəli onun əlindən aldı, balığın sürüşkən bədəninə sığal çəkib onu ehtiyatla qayığın döşəməsinə uzatdı; evə gətirib hovuzdakı suyun içinə buraxdı. Hətta, xilaskarı ona sonralar gözəl bir ad da verdi: Yaqut! İndi mudhiş bir faciə baş vermişdi: onun xilaskarı dənizə növbəti səfərdən qayıtmamışdı.

Budur, artıq Yaqut dənizdədir!

Uzaqda- suyun altında qurulan iri tor, balığın nəzərindən qaçmadı. Amma o, artıq əvvəlki sadəlövh, təcrübəsiz balıq deyildi. İndi o, ağıllı, ehtiyatlı Yaqut idi!

Balıq, istiqamətini dəyişərək düz balıqçı torunun yanından siyrilib keçdi.

Həssas "dalğaların" çəkib gətirdiyi küt taqqıltı səsləri onu qanad saxlamağa vadar etdi; suyun tərkində arxası üstə çevrilib ətrafa diqqət kəsildi: elə bil ki, haradasa gəmi, ya da qayıq divarlarına aramsız zərbələr endirirdilər.

Yaqut həmin istiqamətə doğru üzməyə başladı. O, arabir sudan baş çıxarıb havaya atılır, uzaqlara diqqət yetirirdi. Ətrafda heç nə görünməsə belə, suyun altı və üstü ilə axıb gələn həssas-görünməz "dalğalar" onu həyəcana gətirirdi!

Yaqut sürətini artırdı…Axır ki, suyun üstündə yırğalanan qaraltı şəkil kimi onun gözlərinə köçdü: bu, qayıq idi! O qayıqdakı Tuqay idi! Yaqut öz qənaətində haqlı olduğuna tamamilə əminlik duyurdu. İti gözləri, həssas qulaqları, ələlxüsus da həyəcanla vuran qaynar ürəyi, onu aldada bilməzdi.

Balıq, suyun təkinə baş vurub sürətlə irəli şığıdı.

Yaqut qaraltıya çatanda sürətini bir qədər azaltdı; suda bir qayıq yırğalanırdı. İri kötüyə bənzəyən heybətli su canavarı sudan baş qaldıraraq qayığa növbəti zərbəni endirməyə fürsət axtarırdı. Qayıqdakı isə, həqiqətən, Tuqay idi! Ürəyi onu aldatmamışdı. Yaqut sudan sıyrılıb fişəng kimi havaya atıldı. Tuqay ani olaraq yana çevrildi və az qala yerindəcə donub qaldı; o, tutqun suların üstündə süzərək bərq vuran Yaqutu görüb tanıdı! Oğlan heyrətini gizlədə bilməyib ucadan, həyəcanlı- boğuq səslə qışqırdı:

- Yaqut!

Balıq, bir daha suya baş vurub yenidən üzə çıxdı. Deyəsən, akula çaş-baş qalmışdı: vəhşi, özünün ağalıq etdiyi sularda indiyəcən bu cür görkəmdə balığa rast gəlməmişdi. Dəniz canavarı ilə okean balığı bir müddət burun-buruna, göz-gözə dayanıb ağır, sınayıcı tərzdə bir-birinə baxmağa başladılar. Sanki əngin su səhrasının qəzəbli övladları üçün bu anlarda zaman donmuşdu və onlar ətrafdakı hər şeyi, o cümlədən, yaxınlıqdakı Yer övladını - Tuqayı da unutmuşdular.

Akulanın qəzəb və nifrət dolu gözlərinin dərinliyinə kükrəməyə hazırlaşan qorxunc bir dənizin

vahiməsi çökmüşdü.

Yaqut öz dostunun, öz xilaskarının yanında heç nədən, heç kimdən qorxub çəkinə bilməzdi.

Tuqay avarın kürəyini suya salıb dəstəyi sürətlə özünə sarı çəkdi. Qayıq kəskin şəkildə yana fırlandı. Dənizdən qopan su damcıları kənara sıçradı.

Yaqut sapand daşı kimi göyə atılıb qayığın içinə tullandı.

- Yaqut! Bu, sənsən?

Tuqayın matı-qutu qurumuşdu. Oğlan əyilib diqqətlə balığın gözlərinə baxdı.

Doğrudan da, indi balığın par-par yanan gözləri əsl yaquta bənzəyirdi.

***

***E***lə bil kimsə ona kənardan göz qoyurdu. Qayut sürətini azaldıb ətrafa boylanmağa başladı. Gözə heç bir ins-cins dəymirdi.

Sahil sıx kollar və ağaclarla örtülmüşdü. Qayut hansısa sövq-təbii bir hissin təsiri altında özünü ağacların arasına verdi. Bura soyuq və nəmişlik idi. Deyəsən, yerə heç günəş şüaları da düşmürdü. Alabaş boynunun arxasında isti bir hənir duyub geri boylandı. Üzünə sancılmış bir cüt zəhmli göz onu çaşdırdı. Vahimələndi. Hürmək istədi. Amma nədənsə səsi çıxmadı. Sanki boğazı qurumuşdu.

Onların baxışları yenə eyni nöqtədə çarpazlaşdı. Qayutun ürəyi həyəcanla döyündü; qəribə idi, alabaşın özünün də bir suyumu bu qəzəbli gözlərin sahibinə oxşayırdı. Onlar xeyli müddət sınayıcı nəzərlərlə bir-birini süzdülər. Deyəsən, bu sıx kolların və ağacların sahibi

çağırılmamış qonağı öz əcdadlarından hansınasa bənzədirdi. Amma alabaş ləngiyə bilməzdi. İt yerindən sıçrayıb təzədən sahilə sarı götürüldü. Hiss etdi ki, arxadan təqib olunur. Sürətini daha da artırdı. Elə bil ki, Qayut indi qumlu sahillə qaçmır, göyün üzü ilə uçurdu. Arada dönüb arxaya baxdı. Qəzəbli gözlərin sahibi onu qovmaqda idi.

Qayut qıy səsi eşidib addımlarını yavaşıtdı. Ona elə gəldi ki, qulağı səsə düşüb. Amma tanış, doğma səs hələ də onu təqib etməkdə idi. O, ayaq saxlayıb arxaya döndü, ətrafa boylandı. Gözlərinə inanmadı: Ayqut qanadlarını çətir kimi açıb iti, qorxunc gözlərin sahibinin başı üstə uçurdu.

Qartal, artıq Qayutun onu gördüyünü hiss edib, sürətlə aşağıya doğru şığıdı. Bayaqdan alabaşı qarabaqara qovan vəhşi, çaşıb qalmışdı: o, qəzəbli-qəzəbli ulayıb göyə tullandı - sanki başının üstüylə uçan qartalı havada qapıb parçalamaq, beləliklə də, özünün kükrəyən qəzəb və hiddətini söndürmək istəyirdi. Qartal zarafat edirmiş kimi alabaşı qovan qəzəb sahibinin düz burnunun ucunda atılıb-düşür, arabir qıy çəkirdi. Vəhşi lap özündən çıxmışdı. Bir onunla zarafat edən yekəxanaya bax! Qəzəblənmiş vəhşi, nədənsə, istiqamətini dəyişib qalın kolluğa doğru götürüldü. Deyəsən, o, qartalı aldadıb yolundan döndərmək istəyirdi. Sanki onun bu kələyini başa düşməyən Ayqut da həmin istiqamətə uçmağa başladı. Alabaş çaşıb qalmışdı: indi qartal vəhşinin belinə qonmuşdu. Deyəsən, Ayqut ağlını itirib! Heç bu cür də zarafat olar? Vəhşi onu parçalaya bilərdi!

Alabaş hiss olunmadan yolunu dəyişdi. O, ulayıb vəhşini qəzəbləndirmək, duyuq salmaq istəmirdi. Buna görə də yumşaq addımlarla qaçırdı; o, Ayqutu öz

yolundan döndərmək istəyirdi. Kolluğa çathaçatda qartal qanadlarını gərib qıy vurdu və vəhşinin belindən sıçrayaraq Qayuta doğru istiqamət götürdü. Qəzəbli gözlərin qorxunc sahibi təzədən arxaya dönüb onların ardıyca xeyli qaçsa da, sonra nədənsə ehtiyatlanıb ayaq saxladı, zingildəyə-zingildəyə yenə geri qayıdıb kolluğa soxuldu; yəqin ki, bu yerlər onun vətəni idi.

Qartal havada dövrə vurub alabaşa sarı uçdu, şən-şən qıy vurub Qayutun belinə qondu. It ucadan uladı. Onların səsi bir-birinə qarışdı. Köhnə dostlar bir-birini yaxşı anlayırdı.

İsti, mehriban görüşdən sonra qartal təzədən havaya qalxdı. Axı, yüksəklikdən sahil də, dəniz də ovuc içi kimi apaydın görünürdü. İndi alabaş sahillə, qartalsa göyün üzü ilə tanış bir ətrə, qoxuya doğru irəliləyirdi...

Uzaqda, dənizin qoynunda yırğalanan qaraltını ilk olaraq qartal gördü; onun iti gözlərindən heç nə, hətta, kiçik nöqtə belə yayına bilməzdi: o qaraltı qayıq idi! O qayıqdakı Tuqay idi! Qartal bunu da gördü ki, Tuqay əlindəki avarla zırpı bir dəniz vəhşisini geri təpir. Qartal qıy çəkdi. Alabaş öz dostunun həyəcanını onun harayından anladı. O da ucadan ulamağa başladı. Az sonra qartal dənizin üstündə qanad çalmağa başladı.

Alabaş qayığın tuşuna çatanda qartal özünü döyüş meydanına çatdırmışdı. Qayut dal ayaqları üstə şahə qalxıb var gücü ilə ulamağa başladı.

Tuqay qeyri-ixtiyari qışqırdı:

- Ayqu-u-u-uuut!..

Tuqay onun - öz etibarlı dostunun ulartısını eşidib əlindəki avarı yuxarı qaldıraraq hay verdi:

- Qayu-u-u-uuut!..

İt geri-geri çəkilib birdən irəli atılaraq ox kimi

havaya sıçradı. Sonra irəli şığıdı. Kiçik dalğalar itin sinəsini yaladı. Qayutun canından soyuq dalğalar ötüb keçdi.

Balıq dostlarını görüb bir göz qırpımında qayıqdan dənizə tullandı. İndi Yaqutla Qayut suda, Ayqut isə havada idi. Tuqay əlindəki avarı həyəcandan körük kimi enib-qalxan sinəsinə sıxmışdı.

Sanki yeni güc və qüvvə toplamış vəhşi, dişlərini şaqqıldadıb irəli atıldı. Onun başına və quyruğuna, habelə, belindəki iti "qılınc"a müxtəlif cinahlardan ağır zərbələr endirilsə də, vəhşi qətiyyən geri çəkilmək istəmirdi.

Artıq dənizdə qanlı döyüş gedirdi...

***

***G***örəsən, göylər ananın səsini eşidirdimi?

Bəs dəniz necə? Eşidirdimi ananı?

Ana özünə nə həyətdə yer tapa bilirdi, nə də evdə. Bu gen dünya ananın başına dar gəlirdi. Ana əzab-işgəncə məngənəsində sıxılırdı. Onun ürəyi az qala partlamaq dərəcəsinə gəlib çatmışdı. Şəhla bir an da olsun ananın yanından getmir, onu gözdən qoymurdu. Qız anaya tez-tez təskinlik verirdi:

- Darıxma, xala... Özünü üzmə. Vallah, mən əminəm ki, Tuqay tezliklə sağ-salamat evə qayıdacaq.

Axır ki, ana dözə bilmədi. Yır-yığış edib Şəhlaya yaxınlaşdı:

- Qızım, ta mən dözə bilmirəm. Evə göz-qulaq ol...

- Xala, hara getmək istəyirsən? - deyə Şəhla təəccüblə anadan soruşdu.

- Oğlumu axtarmağa...

- Xala, onda mən də səninlə gedirəm.

- Sən evdə qal, qızım... Birdən mən gedərəm, Tuqay qəfildən gələr, evdə məni görməz, narahat olar.

Şəhla qəlbən onunla razılaşmasa da, istər-istəməz deyilənlərə tabe oldu; ana getdi, qız qaldı. Şəhla ananın arxasınca bir qab su atdı.

Ana yolu sap kimi əlinə alıb dənizə sarı irəliləməyə başladı. Uzaqdan dənizin əsrarəngiz xışıltısı eşidilirdi. Ana, ürəyində yenə dənizə dua oxuyur, ona yalvarırdı ki, tək balasına - Tuqaya qıymasın.

*Sən də anasan, dəniz..*
*Sənin də balaların var.*
*Mənə yazığın gəlsin, dəniz*
*Qıyma mənim Tuqayıma...*

Ana gəlib sahilə çatdı. Dənizin üstündəki qağayılar halay vurub səs-səsə verərək vahiməli səslə qağıldaşırdılar; yəqin ki, bu, səbəbsiz deyildi: adətən, dənizdə tufan qopanda qağayılar bu cür əcaib, vahiməli səslər çıxarırlar. Ana qəhər içində ətrafa göz gəzdirdi. Sahil boyu uzanan ensiz yola çıxdı. Bu yol meşə və sahil zolağının kəsişdiyi yerlə uzanıb gedirdi. Azacıq nəmişlik hopmuş qumsallıqda zorla seçilən heyvan ayağının izləri də ananın diqqətindən yayınmadı. Ana əyilib zəndlə izlərə baxdı.Aman Allah, bu ki, Qayutun izi idi! Ana tam əmin oldu ki, alabaş məhz bu yolla hərəkət edib. Sanki ananın dərdli ürəyinə bir sərinlik, sakitlik çökdü. Onun gözlərinin işığı, dizlərinin taqəti artdı. Ana addımlarının sürətini artırdı.

Arabir alabaşın ləpirləri ensiz yoldan kənara çıxır, it-bata düşürdü. Amma ana öz yolundan çıxmaq niyyətində deyildi. O, əmin idi ki, bu yol onu düz oğlunun yanına

aparır.

Yenidən alabaşın izinə düşən ananı sanki qəfildən ildırım vurdu. Sahillə dənizin birləşdiyi yerdə - nəm qumların üstündə hərəkətsiz uzanmış adamı görüb ayaq saxlayan ananın sinəsindən dəli bir fəryad qopdu. Nəhayət, ana ağlaya-ağlaya yerə uzanmış cəsədə yaxınlaşdı. Bu, qoca balıqçı idi. Dalğaların sahilə atdığı bu qoca zavallını ana yaxşı tanıyırdı; Tuqay çox vaxt dənizə bu kişi ilə gedərdi. Bəs görəsən Tuqay indi harada idi? Bəlkə o da haradasa bu yaxınlıqdadır? Bəlkə dalğalar onu udmuşdu? Bəlkə o da bu qoca balıqçı kimi... Ana fəryad qoparmağa başladı: "Tuqay, mənim balam, haradasan?.." O, ağladıqca əlləri ilə dizinə, başına vururdu...

Nəhayət, ana özünü ələ aldı. Balıqçının xilas edib özü ilə sahilə çıxartdığı avarı yerdən götürdü; bu, Tuqayın avarı idi. Qadın əvvəlcə ağacı sinəsinə sıxıb onu öpdü, oxşadı, sonra avarın kürək hissəsi ilə qumsallığın sinəsində dərin bir yarğan açdı. Gücünü toplayaraq qoca balıqçını ustufça çəkib həmin yarğana - bu müvəqqəti məzara uzatdı. Üstünü qumla örtdü ki, qurd-quş yeməsin. Dodaqaltı qocanın ruhuna dua oxuyub əllərini göyə qaldırdı, salavat çevirdi. Məzarın baş hissəsinə nişanə kimi bir daş parçası qoydu; axı, qəbrin yerini- qoca balıqçının uyuduğu bu boz qumsallıgı yadda saxlamaq lazım idi. Ana oğlunu tapıb kəndə qayıtdıqda bu "qəbr"in yerini qoca balıqçının qohumlarına bildirəcək və söz yox ki, tezliklə, indi qumların altında uyuyan bu cəsəd ümumi qəbristanlıqda dəfn ediləcəkdi.

Ana, balıqçını dəfn edəndən sonra əl-üzünü duzlu dəniz suyu ilə yuyub yenə yoluna rəvan oldu. İndi o iri kürəkli avarı da çiyninə atmışdı.

Yol uzanır, uzanırdı.

***

Əvvəlcə, müxtəlif cinah və istiqamətlərdən aldığı qəfil zərbələrdən çaşıb qalan dəniz canavarı, tədricən özünü ələ alıb, yeni döyüşə atılmaq niyyətinə düşmüşdü. Deyəsən, vəhşini ən çox hiddətləndirən bu qədər gücün az zaman içərisində bir yerə cəm olub onu əzmək, lap elə məhv etmək arzusuna düşməsi idi. O, bir qədər geri çəkilib suyun altında güc toplayandan sonra qəti qərara gəlmişdi: dənizə yad olan düşmən qüvvəni darmadağın etmək!

Tuqay qarmaqarışıq düşüncələrin məngənəsində çırpına-çırpına qalmışdı.

İndi quru ilə suyun barışmaz təmsilçiləri göz-gözə dayanmışdılar. Bəlkə də elə bu dünyada baş verən bütün fəlakətlərin kökündə quru ilə su arasında gedən əbədi müharibələr dayanır? Axı, deyilənlərə görə, nə zamansa bütün dünya yalnız sudan ibarət imiş. Olsun ki, o zamanlar insanlarla balıqlar eyni yerdə- eyni sularda birgə yaşayırmışlar. Sonralar quru sudan üz döndərib, ondan aralanıb. Bunun səbəbi insanlara, o cümlədən Tuqaya da, məlum deyildi. Bəlkə bu "ayrılma"nın nə ilə bağlı olduğunu akula bilirdi? Bəlkə insanlar bir vaxt balıqlara xəyanət ediblər? Bəlkə balıq elə bu səbəbdən insanla haqq-hesab çürütmək istəyir?

Dəniz vəhşisi açıq-aşkar öz gücünü göstərmək istəyirdi. Bu, təsadüfi təhlükədən daha çox, məqsədli qisasçılığa bənzəyirdi...

Akula üçün buradakı - onun burnunun ucundakı, bu qorxulu qisasçıların hamısı gəlmə və yad idi. Hətta, öz çevik və işvəli hərəkətləri ilə onun diqqətini əsas hədəfdən yayındırıb çaş-baş salan, hərdən havaya tullanıb iti qanadları ilə onun başına zərbələr endirən o uzunsov,

şəffaf-gümüşü balığın belə, bu sulara qətiyyən dəxli yoxdu! Axı, o, dünyaya bu dənizdə göz açmışdı və ətrafındakı su heyvanlarının hamısına yaxşı bələd idi. Akula, bu sularda ilk dəfə idi ki, bu cür əcaib balıq görürdü. O, arada girəvəyə salıb bu özündənmüştəbeh axmaqla ayrıca haqq-hesab çəkmək istəyirdi. Amma hələlik belə bir əlverişli fürsəti qazana bilmirdi ki, bilmirdi; çünki o yaramaz-hiyləgər balıq, akulanın niyyətini duyan kimi havaya tullanırdı. Balığın arxasınca havaya atılan vəhşinin təpəsini elə həmin andaca onun başının üstündə dövrə vuran qartal dimdikləyirdi. Döyüşçü dostları gəlib çıxandan sonra dəniz canavarının əsas rəqibinin - qayıqdakı adamın işi xeyli asanlaşmışdı; indi həmin rəqib, əlindəki avarı tez-tez irəli uzadaraq sanki onu əsəbiləşdirib özündən çıxarmaq istəyirdi; qəzəblənib hücuma atılmaq istəyən akula, belə anlarda başqa cinahdan zərbə alırdı; tüklü heyvərə- Qayut, əlüstü ulayıb irəli şığıyırdı. Hətta, dəniz canavarı ilə alabaş bir neçə dəfə üz-üzə, kəllə-kəlləyə gəlmişdi. Çox qəribə idi: onların hər ikisinin- akula və itin uzunsov, zəhmli sifətləri, iti gözləri bir-birinə çox bənzəyirdi. Sadəcə olaraq , Qayutun bütün bədəni, eləcə də başı, tükün içində itmişdi; dəniz canavarı isə başdan-ayağa tüksüz və sabun kimi sürüşkən idi.

Akula indiyəcən heç bir döyüşdə məğlub olmamışdı. O, həmişə öz rəqibini parçalayıb məhv eləmişdi. Düşmənlə sonacan vuruşmaq istəyi onun qanına, canına hopmuşdu.

Növbəti həmlə zamanı akulanın təpəsindən endirilən güclü zərbə nəticəsiz ötüşmədi: bu dəfə qartalın iti dimdiyi, onun vəhşi meşə ağaclarının qabığı kimi tarım-bərk, qaba dərisinin altına işləmişdi. Az sonra suların

üstündə tutqun qan ləkələri göründü. Hansısa dəniz canlısının bu qədər qanı olduğuna Tuqay inanmaq istəmirdi. Amma nə edəsən ki, hər şey göz qabağında idi: dalğaların üstündə oynaşan qan izləri get-gedə çoxalmaqda idi.

Dəniz, vəhşinin başına hərləndi; üstünə qıpqırmızı ağır, qorxunc dalğalar yeridi. Su canavarı qəzəblə fınxırıb qartala sarı tullansa da heç bir şey hasil olmadı; çünki Ayqutun qanad çaldığı yüksəklik sadəcə olaraq fəthedilməz idi. Bax onda akula qanad açıb uça bilmədiyi üçün bəlkə də ömründə ilk və son dəfə peşmançılıq duydu. Amma özünə təskinlik verdi: eybi yoxdur, qartal uzağa çəkilsə də, onun tüklü dostu lap yaxınlıqdadır! Dəniz canavarı kəlbətin dişlərini şaqqıldadıb itin üstünə atıldı. Onun növbəti hücumu ilə eyni vaxta düşən həmlədən - qarnının altından vurulan və başına endirilən zərbələrdən, vəhşinin gözləri qaraldı; qayıqdakı adamla suyun altındakı balığın-Yaqutun qoşa zərbəsi onu geri təpdi. Amma məsələ bununla başa çatmadı; başını təzədən suyun üstünə çıxarıb özünə yeni hücum mövqeyi seçmək istəyən dəniz canavarı kürəyində dəhşətli ağrı duydu; bu dəfə vəhşini zahirən onun özünə bənzəyən tüklü rəqibi qapmışdı.

Dənizin suları üzərindəki qan ləkələri get-gedə artmaqda idi...

Ətrafda baş verənlər Tuqaya hələ də əcaib bir yuxu və ya möcüzə kimi görünürdü; ”dostlar”ının qəfildən dənizdə peyda olması- onların bir andaca akulanın başının üstünü qara bulud kimi alıb “müdafiə səddi” qurması, zahirən elə də ağlabatan məsələ deyildi. Amma kor-kor, gör-gör: hamının dilsiz-ağızsız, ağılsız-kamalsız hesab etdiyi balıq, qartal və alabaş

dənizin qoynuna sanki Tuqayın yuxularından qaçıb gəlmişdilər və indi bu baş verən işlər də elə o qorxulu yuxuların davamı idi. Di gəl ki, bütün bunlar hec də yuxuda yox, həyatda, özü də qanlı suların qoynunda baş verirdi. Bəzən insan öz yuxularında belə, görə bilmədiyi dəhşət və fəlakətləri həyatda yaşamalı olur.

Artıq Tuqayın xilas olacağına olan inamı xeyli artmışdı. Vəfalı “ dostlar” - balıq, qartal və alabaş onun əhatəsində idilər. Onlar dişlərini qəzəblə şaqqıldadan canavara suyun altından, eləcə də öndən, arxadan və havadan ağır zərbələr endirirdilər.

İndi vəhşi ilə döyüşmək, onun aramsız və amansız hücumlarını dəf etmək Tuqayın özü üçün də xeyli asanlaşmışdı. Başı qayıqdakı adamın “dostları” ilə vuruşmağa qarışan akulanın iri kəlləsinə endirilən avar zərbələrinin sayı və sambalı da artmışdı. Dəniz canavarı kortəbii şəkildə hiss edirdi ki, onun əsas düşməni qayıqdakı adamdır; buna görə də o, hər vəchlə bu diribaş, cəld, qəzəblənmiş adamı vurub qayıqdan suya salmaq, didib-parçalamaq istəyirdi. Amma nə quyruğu ilə qayığa vurduğu zərbələrin bir nəticəsi hasil olurdu, nə də onu-ikiayaqlı düşməni şil-küt etmək istəyinin.

Bu qanlı döyüşdə tərəflərdən heç biri digərinə zərrə qədər də güzəştə getmək, geri çəkilmək istəmirdi. Dəniz vəhşisinin qarşısında əyilmək, ona təslim olmaq Tuqay üçün ölümdən daha betər idi; nə qədər qəribə də olsa onun öz ağlına və gücünə olan inamı get-gedə daha da artmaqda idi; o, əmin idi ki, bu ağır sınaqdan yalnız soyuq ağılla çıxa bilər. Tuqay təbiətən dinc, həlim bir adam olsa da, indi içindən bir hiddət, kin alovlu vulkan kimi püskürüb çıxmaqdaydı. Hər necə olsa da o, əli-ayağı, ağlı-kamalı yerində olan bir insan idi və onun yaxasından əl çəkmək

istəməyən bu vəhşinin dərsini əməlli-başlı verməli idi.

Tuqay əvvəlcə ürəyində, sonra isə ucadan öz düşmənini söyməyə başladı:

-Balıq libası geymiş şeytan! Sən məni parçalaya bilməyəcəksən! Lənətə gələsən səni... Şeytan! İblis! Şeytan!..

Tuqay şeytanın özünü həyatda görməsə də, anasının nağıllarından onun barəsində çox eşitmişdi. Indi o, həmin qorxulu, məkrli, yırtıcı şeytanla təhlükəli bir yerdə - açıq dənizin qoynunda, üz-üzə gəlmişdi. Sanki elə nağıllardan gəlmiş bu balıq sifətli amansız şeytan onu məhv etmək istəyirdi. Amma o, məhv olmayacaqdı...

“Məni öldürə bilməyəcəksən! Mən səndən güclüyəm!” Yox... Bu cür özünəarxayınlıq onun həyatını güdaza verə bilərdi... O, hələ döyüşməli idi... Qarşıda onu ağır sınaq gözləyirdi...

Akula arabir geri çəkilib, qurğuşun kimi ağır suların girdabında görünməz olsa da, Tuqay özünün sayıqlığını bir an da olsun itirə bilməzdi. Oğlan, hətta, dincini azacıq almaq istəyəndə belə, avarı dizinin üstünə qoyub onun dəstəyindən bərk-bərk yapışırdı.

Tuqay hiss edirdi ki, yuxusuzluq və yorğunluq onu üzüb əldən salmaqdadır. O, dincəlmək istəyir, amma bunun necə təhlükəli olduğunu düşünəndə səksəkəyə düşüb diksinir, qayığın döşəməsində göllənən şor sudan üz-gözünə vuraraq yuxusunu qovmaq istəyirdi.

Tuqay başını qaldırıb bozaran üfüqlərə baxdı. Sonra ətrafına nəzər saldı. Qəribə idi: akula gözə dəymirdi;o,qəfildən yoxa cıxmışdı.Bəlkə dəniz canavarı döyüşdən bezərək geri çəkilmişdi? ”Dostlar”sa yaxınlıqda idi. Deyəsən, onlar açıq dənizdə qanad çalmaqdan usanmış, vəhşi ilə döyüşdən yorulmuşdular; yəqin ki,

dincəlmək istəyirdilər. "Dostlar"ın niyyətini hiss edən Tuqay onları haraylayıb yanına çağırmağa başladı:

-Ehey! Yaqut! Qayut! Ayqut!.. Qayığa doluşun! Gəlin bir az dincəlin! Ehey-y-y...

" Dostlar" özlərini Tuqaya çatdırdılar. Az sonra onlar qayıqda - Tuqayın yanında idilər. Hamısının üz-gözü, bədəni suya və qana bələnmişdi. Tuqay kövrəldi. Onu qəhər boğdu. "Dostlar" ağır dəniz döyüşlərində, ilk dəfə idi ki, qısa fasilə əldə edib bir yerə toplaşa bilmişdilər. Oğlan əli ilə Yaqutun, Qayutun və Ayqutun başına sığal çəkdi, oxşadı; asta, həzin səslə danışmağa başladı:

- Heç gözlərimə inanmağım gəlmir. Doğrudanmı bu sizsiniz, mənim vəfalı dostlarım? Məni necə axtarıb tapmısız?.. Yaqut... Qayut... Ayqut... Əzizlərim. Bəs anamın xəbəri oldumu sizin gəlişinizdən?.. Bəs Şəhla necə, o da agah oldumu sizin bu qəfil səfərinizdən?.. Hə?.. Niyə susursunuz? Eşidirsiniz məni?.. Əlbəttə, eşidirsiniz! Mən sizinlə ömrümün sonunacan dost olacam! Biz bundan sonra da həmişə bir yerdə olacağıq... Elə deyilmi? Hə?.. Anlayırsınızmı məni? Əlbəttə, anlayırsınız! Mənim əziz dostlarım... Könül sirdaşlarım...

Tuqay elə söhbət edə-edə mürgüləməyə başladı. Ötəri çimir zamanı onun gözlərinin önündən ananın və Şəhlanın siluetləri ötüb keçdi. O, öz evlərini, hovuzu gördü bu ötəri yuxuda. Sonra gördü ki, dostları - alabaş, qartal və balıq evdən çıxıb dənizə sarı üz tutublar. Tuqay dostlarını səsləməyə başladı: "Ehey! Yaqut... Qayut... Ayqut..."

Bu əsnada zəlzələ qopdu. Tuqayın ayağının altından yer qaçdı.

Tuqay gözlərini açıb yerindən dik atıldı: sən demə, onun ayağının altında yer yox, dəniz yırğalanırmış.

Qayıq ləngər vurub titrədi. Akula təzədən hücuma keçmişdi. Tuqayın dostları yeni döyüşə atılmışdılar. Qanlı-köpüklü dalğalar qayığın yanlarına çırpılırdı.

Tuqay sinəsinə sıxdığı avarı yuxarı qaldırıb boynunu qayığın içinə doğru uzadan vəhşinin sürüşkən kürəyinə endirdi. Akula fısıldayıb geri çəkildi. Alabaş iti dişlərini bayaq Tuqayın zərbə endirdiyi yerə- dəniz canavarının kürəyinə sancdı. Akulanın belindən fışqıran qan ətrafa - dənizə, qayığa və alabaşın üzünə səpələndi. Vəhşi ağrının şiddətindən özünü itirsə də mövqeyini əldən vermək istəmirdi: o, quyruğu ilə Qayutun başına zərblə vurub təzədən qayığa sarı tullandı. Qayıq fırlanıb yerində qövs cızdı.

***

***Ş***əhla, qadını evdən tək-tənha yola saldığına görə özünü heç cür bağışlaya bilmirdi. Gərək o da dərd yükünü özüylə götürüb naməlum ünvana üz tutan anaya qoşulub gedəydi. Düzdür, qadın ev-eşiyi onun ümidinə qoyub getmişdi və gedəndə də bərk-bərk tapşırmışdı ki, heç yana tərpənməsin. Amma indi kimsəsiz həyət-bacada qalmağın bir mənası vardımı?

Şəhla bir xeyli götür-qoydan sonra yola çıxmağı qərara aldı. Getməzdən əvvəl öz anasına baş çəkdi, həyət-bacanı süpürdü, ev-eşiyi səliqəyə saldı, yuyulmuş pal-paltarları ütülədi...

Hə, indi getmək olardı.

Başına örtdüyü qalın, qara şal onu cavan qızdan daha çox, yaşlı qadına bənzədirdi. Əlinə aldığı qabığı soyulmuş, səliqəli ağac parçası isə "qarı"nın əzəlki natamam əlamətlərinə indi nəsə bir tamlıq, bitkinlik verirdi.

Şəhla həyət-bacaya bir də göz gəzdirib qapını bağladı, xeyli götür-qoy etdi. O, dənizə sarı getməyi qərara aldı. Amma dəniz elə də yaxın deyildi. Qız isə öz istəyində qəti idi; ona görə də inamlı addımlarla yola çıxdı.

Şəhla Tuqayla qonşu həyətdə böyümüşdü. Uşaq vaxtlarında tez-tez savaşan, mübahisə edən oğlanla qız, zaman keçdikcə nədənsə bir-birləri ilə ehtiyatla, çəkinə-çəkinə davranmağa başlamışdılar. Onlardan heç biri bu utancaqlığın səbəbini heç cür aydınlaşdıra bilmirdi. Rastlaşanda hər ikisi pörtüb qızarır, başları ilə salamlaşıb tezcə aradan çıxmağa tələsirdilər. Sanki belə anlarda lal olurdular. Əslində isə oğlanla qız daxilən daim bir-birini görmək arzusu ilə alışıb-yanırdılar. Tuqay arabir evlərinin damına çıxıb oradan qonşu evin həyətinə baxardı. Axı, Şəhla orada - həyətdə ola bilərdi. Qızı hər görəndə onun içindən qəribə, izahı çətin olan xoş bir gizilti keçirdi.

Elə Şəhla da qonşu oğlanı görməyəndə darıxardı. O, bəzən öz evlərinin eyvanında dayanıb gizlicə qonşu həyətə tamaşa edərdi; həyətdə öz "dostlar"ı ilə oynayan Tuqayın hərəkətlərini izləmək qız üçün çox maraqlı idi. Hətta, Tuqay evdə olmayanda qız onlara gedib qadınla görüşər, sonra "dostlar"la oynamağa başlayardı. O da ana kimi Tuqayın ətrini-qoxusunu onun "dostlar"ından alardı. Elə "dostlar" da, yəni qartal, alabaş və balıq da öz mehrini qıza salmışdı.

Bu balaca obada elə bir yaxın qohumu və rəfiqəsi olmayan Şəhla, Tuqayın "dostlar"ını görməyəndə darıxırdı. Qızı bircə gün görməyən ana da elə "dostlar" kimi onun xiffətini çəkərdi. Arabir Şəhlaya altdan-altdan diqqətlə göz qoyan qadının ürəyindən nələr keçdiyini anlamaq çətin olsa da, qız sövq-təbii hiss edirdi ki,

Tuqayın anası onu hər gün görmək, onun səsini-gülüşünü hər gün eşitmək istəyir.

İndi yolu əlinə alıb öz qonşularının arxasınca yola düşən qızı nədənsə birdən-birə ağlamaq tutdu. Görəsən, bu qorxulu səfərdə onu nə gözləyir? Görəsən, o, Tuqayı, onun anasını, “dostlar”ını bir daha görə biləcəkdimi?

Qız əllərini eyzən ana kimi buludlu-tutqun göyə açıb pıçıltı ilə dua etməyə başladı: “Tanrım, mənə yar ol...”

Sanki Tanrı onun səsini eşitdi. Şəhla öz duasını deyib başa çatdıranacan göyün üzündəki qara-boz buludlar dəvə karvanı kimi çəkilib sonsuzluqda gözdən itdilər. Və bu anlarda göyün üzü birdən-birə açıldı, işıga qərq oldu. Bu gur işıq seli, yeri də nura boyadı. Qıza elə gəldi ki, göyün üzündən yerə süzülən o işıqdan onun ürəyinə də şəffaf zərrələr axmağa başlayır.

Şəhla addımlarının sürətini artırıb həniri uzaqdan duyulan, xışıltısı uzaqdan eşidilən dənizə sarı üz tutdu. Bu anlarda qız, yenə də Tuqayın anası kimi cani-dildən dənizə dualar etməyə başladı: “Ay anam dəniz, qəlbim dəniz, ruhum dəniz. Dalğalarına de ki, qəzəblənməsinlər. Vəhşi balıqlarına de ki, Tuqaya toxunmasınlar. Gəmilərinə de ki, Tuqayı xilas etsinlər. Rəhmini bizdən əsirgəmə, anam dəniz... Aman dəniz. Məni eşidirsənmi, dəniz?”

Görəsən, dəniz qızın duasını eşidirdimi?

***

***T***uqay şilimlənmiş köynəyini əynindən çıxarıb qayığın bir küncünə atdı. Oğlanın solğun Günəş şüaları altında mis kimi parlıdayan bədənindən axan tər damcıları qıpqırmızı qana qarışmışdı; bu, yəqin ki, akulanın qanı idi.

Tuqay sövq-təbii hiss edirdi ki, aldığı yaralardan daha

da qəzəblənmiş dəniz yırtıcısı yenə hücuma hazırlaşır. Düzdür, hələ akulanın özü görünmürdü; o, aldığı növbəti zərbədən sonra dənizin dərinliyinə çəkilmişdi. Amma çox güman ki, bu müvəqqəti hal idi. Yəqin ki, bir azdan hər şey- qanlı savaş, ölüm-dirim mübarizəsi yenə təkrar olunacaqdı.

Tuqay tək avarı nə qədər fırlatsa da bir nəticə hasil olmurdu: qayıq sanki qıra-saqqıza yapışmışdı, onu yerindən tərpətmək get-gedə daha da çətinləşirdi. "Dostlar" yorulub qayığın içinə yığışmışdılar. Onlar məlul-məlul Tuqaya baxır, sanki ondan nəsə yeni bir məsləhət umurdular. Oğlan qərar verməkdə çətinlik çəkirdi. Axı, o, neyləyə bilərdi? Buradan sahil görünsə də, onun üzüb getməsi mümkünsüzdü. Yox, məsələ təkcə belə uzun məsafəni qət etməkdə deyildi; əsas məsələ yırtıcının hər an gözlənilən qəfil hücumu ilə bağlı idi. Akulanın "dostluğu"na etibar etmək olmazdı!

Düzdür, "dostlar" qayıqdan enib lap elə bu an rahatca sahilə doğru gedə bilərdilər. Amma qırımlarından hiss olunurdu ki, onlardan heç biri Tuqayı tək qoyub qayığı tərk etmək istəmir.

Bu lənətə gəlmiş qayığı isə yerindən tərpətmək olmurdu!

Bir yandan da susuzluq... Tuqayın özü ilə götürdüyü ehtiyat su artıq tükənmişdi. O, son qətrələrini başına çəkdiyi dəmir qabı qayığın küncünə atmışdı. Bu qədər suyun əhatəsində bir içim suya həsrət qalmaq həm ağlamalı, həm də gülməli idi.

O, arabir çatlamış dil-dodağını qayığın içinə dolmuş duzlu-şor su ilə isladır, di gəl ki, bunun hec bir xeyri olmur, ciyəri susuzluqdan od tutub yanırdı.

Tuqayın gözü dostlarının üzündə olsa da, xəyalı tez-

tez qanad açıb uzaqlara uçurdu. Ana ilə Şəhla onun yadından bir an da çıxmırdı. O, öz doğmalarının indi necə böyük ağrı və kədər içində vurnuxduqlarını bütün aydınlığı ilə təsəvvür edirdi. O, tezliklə evə dönmək - gözü yollarda qalan ana və Şəhlanı sevindirmək istəyirdi! O, evə döndükdən sonra indi qayıqda cəmləşmiş dostlarının hər birini öz "vətəninə" yola salmaq istəyirdi. Qoy balıq dənizə, qartal səmaya, alabaş isə meşəyə üz tutsun! Axı, hər kəsə öz vətəni əzizdir! Hər kəs özünə doğma olan yerdə yaşamalıdır. Bəs görəsən "dostlar"ı onu tərk etməyə, ondan ayrılmağa razı olacaqdılarmı? Çətin... Eh, bir də ki, hələ onun özü - Tuqay, doğma ocağa sağ-salamat qayıda biləcəkdimi? Bir Allah bilirdi ki, onu və onun dostlarını qarşıda hansı sınaqlar gözləyir.

Qəzəbli ilan fışıltısına bənzəyən səs onu xəyallardan ayırdı. Yırtıcının parçalanmış kəlləsi təzədən suyun üstündə zühur edəndə, qayıqdakıların hamısı bir anda hərəkətə gəldi: qartal qıy vurub havaya qalxdı, alabaşla balıq isə suya atıldı. Dəniz vəhşisi quş kimi yuxarı atlanıb qayığın içinə doğru istiqamət götürdü. Tuqay düşməni ilk dəfə idi ki, belə yaxın məsafədən görürdü; onlar az qala burun-buruna, kəllə-kəlləyə gəldilər. Oğlan cəld geri çəkilib əlindəki avarı havada fırladaraq vəhşinin başına endirmək istədi. Dəniz canavarı bir göz qırpımında avarın enli kürəyini dişləri arasına alıb geri sıçradı. Tuqay onun ağ, iri, iti dişlərini görüb qeyri-ixtiyari qışqırdı:

- Yaqut! Qayut! Ayqut!..

Dəniz canavarı avarı qapıb təzədən dənizə baş vurdu: elə bil ki, avarı - bu qorxulu silahı, dənizdə - dalğaların altında gizlətmək istəyirdi. Həqiqətən, "qorxulu silahı"- avarı suda "basdırıb gizlədəndən" az sonra akula yenidən üzə çıxıb havaya tullandı; deyəsən, silahsız düşmənlə

döyüşməyin daha asan olduğunu dəniz yırtıcısı yaxşı anlayırdı. Amma akula suyun üstündə görünən kimi, qartalın iti dimdiyi təzədən onun təpəsinə sancıldı. Elə bu vaxt dalğaların altında - dənizin dibində "gizlədilmiş" avar suyun üstünə çıxdı. Alabaş irəli şığıyıb avarı qapdı və qayığa doğru üzməyə başladı.

Balıq cəld suyun altına baş vurub iti qanadları ilə yırtıcının körük kimi enib-qalxan sinəsinə çəpəki zərbə vurdu.

Alabaş başını bir neçə dəfə hərləyib dişləri ilə sıxdığı avarı qayığa sarı atdı. Tuqay "silahı" göydə qapdı.

Akula özünü itirmişdi. Lakin onun iradəsini belə tezliklə sındırmaq olmazdı: o, yenə vuruşacaq, öz düşmənlərindən qisas alacaq, onları iti dişləri ilə parçalayıb tikə-tikə edəcəkdi. Bu böyük suyun böyük sahibini məğlub etmək, əzmək, öldürmək məgər belə asan işdir?.. Yox, o, öz məğlubiyyəti ilə belə asanlıqla barışa bilməzdi!

Akula var gücünü toplayıb yenə qayığa sarı atıldı. O, artıq öz əsas düşməninin məhz qayıqdakı əliavarlının olduğunu dəqiqləşdirmişdi! Dəniz canavarı özlüyündə əmin idi ki, o, "silahlı" adamın işini bitirsə yerdə qalanlar- onun "dostları" asanlıqla təslim olacaqlar. Qartal qanadlarını açıb təzədən irəli şığıdı, dimdiyini vəhşi dəniz heyvanının kürəyinə sancdı. Alabaşın iti dişləri akulanın quyruğunu sıyırdı. Balıq yuxarı atılıb başı ilə yırtıcının sinəsinə iti, ağır zərbələr vurdu. Tuqay geri çəkilərək əlindəki avarı havada fırlayıb amansız düşmənin başına endirdi. Amma... Amma gec idi. Yırtıcı artıq qayığın içinə düşmüşdü; o, iti dişlərini şaqqıldadıb hiddətlə irəli soxuldu. Tuqay qeyri-ixtiyari geri sıçradı, kəlləmayallaq aşıb dənizə - soyuq, ağır, duzlu dalğaların qoynuna düşdü;

axı, qəzəblənmiş vəhşi su heyvanı ilə əlbəyaxa vuruşmağın mənası yox idi. Bu cür döyüş, həyatını risqə atmaq demək idi.

Akula "zirehli" qanadlarını qayığın taxta döşməsinə söykəyərək suyun içində çabalayan düşmənlərinə baxırdı. Sanki o, daxilən gülüb onlara rişxənd edir, artıq hər şeyin sona çatdığını bildirmək istəyirdi. Onun dişlərinin şaqqıltısı da aydınca eşidilirdi. Deyəsən, yırtıcı qət etmişdi ki, onun əsas düşməni - qayıqdakı əliavarlı kəs, bu soyuq suların qoynunda uzun müddət qala bilməyəcək, bir az çabalayandan sonra dənizin dibinə qərq olub boğulacaq, nəhayət, onun üçün ləzzətli yemə çevriləcəkdi! Əsas düşmən öləndən sonra yerdə qalanlarla haqq-hesabı üzmək asandır!

Tuqay dalğaların qoynunda çabalayırdı. Bu anlarda qayığa əl uzatmaq, onun hansısa bir hissəsindən yapışmaq da qorxulu idi: akula iti dişlərini onun bədəninə batırmağa fürsət gəzirdi.

İndi dostların hamısı dənizdə idi. Soyuq dalğalar onları yarpaq kimi atıb-tuturdu.

Dəniz canavarı, deyəsən, qazandığı qələbənin ləzzətini yaşayırdı: o, quyruğu üstə qalxıb qəzəb dolu gizli bir məmnunluqla öz düşmənlərini süzməyə başladı; onun qapqara, qəzəbli gözələrinə sanki sonsuz bir zülmət çökmüşdü. Tuqaya elə gəldi ki, akulanın gözlərindən püskürən zülmət vəhşinin daxilindən-içinin dərinliyindən axıb gəlir. Deyəsən, balıqlarla adamlar arasında düşmənçilikdən savayı, qəribə bir oxşarlıq da vardı: onların bəzilərinin içi zülmətlə, bəzilərininki isə işıqla dolu olurmuş. Və çox güman ki, balıqlar və adamlar deyil, lap elə bu dünyanın özü də zülmət və işıqdan yoğrulmuşdu. Çünki dünyanın da bir

tərəfində zülmət, digər tərəfində isə işıq hakim idi. İşıqla zülmət heç vaxt bir yerdə ola bilmirdi və yəqin ki, heç bir zaman ola bilməyəcəkdi də.

İndi zülmətlə işıq üz-üzə gəlmişdi.

Deyəsən, dənizdə əl-qol atıb çabalayan, üzləşdikləri qəfil təhlükədən çaşıb qalan "dostlar"dan fərqli olaraq, qartal ilk qəti qərarı qəbul etdi. Gözlərindən qəzəb və hiddət yağan səma pələngi – Ayqut, qanad çalıb bir qədər yüksəkliyə qalxandan sonra, sürətlə üzüaşağı şığıyaraq qayığa - dəniz canavarının üstünə hücum çəkdi. Sanki dənizdə şimşək çaxdı, ildırım şaqqıldadı.

***

***S***ahil boyu uzanan yol, qadını sərt qayalıqların, tikanlı kolların arasından keçirib narın qum təpəciklərinin yan-yana düzüldüyü bomboz bir yerə çıxartdı. Bu yerlərdə nə bir iz vardı, nə də bir ləpir. Alabaşın ayaq izləri isə artıq çoxdan gözə çarpmırdı. Ana, avarın kürəyini qum təpəciklərinə söykəyib ətrafa göz gəzdirirdi. Hər tərəf - dəniz də, sahil də, səma da bomboz idi.

Yaxşı ki, ətrafa sükut çökmüşdü. Əgər külək əsməyə başlasaydı dəniz çalxalanacaq, ağır dalğalar bir-birinin belinə qalxıb dünyaya meydan oxuyacaqdı. Ana üzünü dənizlə üfüqün kəsişdiyi səmtə tutub pıçıltıyla küləyə yalvarmağa başladı:

-*Ay külək, qurban olum sənə,*
*Hələ bir dayan, əsmə.*
*Qanadlarını gərməyə tələsmə...*
*Axı, mənim əziz balam*
*sənin qəzəbinə tuş gələ bilər,*

*qayığı dənizdə qərq ola bilər. .*
*O, dənizə gedib, evə dönməyib.*
*Bax, ana ürəyim mənə deyir ki,*
*o, mavi suların qoynundadır,*
*özü də sağ-salamatdır...*
*Mənim Tuqayım əzablara, ağrılara*
*sinə gərən bir övladdır.*
*Onun qoca balıqçı yoldaşı*
*tufana- qasırğaya düşüb həlak olub.*
*Mənim balam dənizdə tənha qalıb.*
*Mənə, mənim Tuqayıma rəhmin gəlsin, külək...*

Bundan sonra ana eyni qayda ilə üzünü Günəşə, dənizə, göyə tutub dua etməyə başladı. Ana, dənizin qoynunda halay vuran qağayıları da unutmadı: bu azad, xoşbəxt səma quşlarından iltimas etdi ki, əgər xəbərdardırlarsa ona, yəni anaya, öz övladının yerini bildirsinlər.

Ana öz duasını oxuyub avarı çiyninə götürdü. Elə bu dəm sanki kimsə ona, dönüb arxaya baxmağı işarə etdi. Və ana səksəkə içində qanrılıb geri baxdı. Bir qaraltı uzaqdan sürətlə ona sarı gəlirdi. Elə bil ananın ayaqları qumsallığın dərinliyinə işlədi. Yerindəcə quruyub qaldı. Qaraltı düz onun üstünə gəlirdi. Ana xoflandı. Görəsən, bu, kim ola bilərdi? Qaraltı ona əl etdi. Ananın dizləri əsməyə başladı. Onu həyəcan hissi sardı. Bəlkə bu gələn adam anaya nəsə müdhiş bir xəbər gətirirdi?

Üz-gözünü qara şalla bərk-bərk bürümüş qaraltı gəlib yetişəndə ana onu gözlərindən tanıdı: bu, Şəhla idi!..

Ana qeyri-ixtiyari qışqırdı:

- Şəhla...

-Ana!..

Qız həmişə “xala” deyə, müraciət etdiyi qadını, ilk

dəfə idi ki, “ana” deyə çağırırdı.

Onlar bir-birinin üstünə atılıb qucaqlaşdılar. Sonra hər ikisi əl-ələ tutub hönkürdü: sanki qoşa simdə həzin-kövrək bir musiqi səslənirdi; bu, gözlənilməz sevinc və kədərin yaratdığı sirli bir ovqat idi.

Ana qızı çox da sorğu-suala tutmadı. Şəhlanın onun arxasınca gəlməsinə bir yandan əsəbiləşsə də, o biri yandan fərəhlənmişdi. Deməli, qız ananı sevirdi! Deməli, Şəhla Tuqayın yolunda hər bir çətinliyə sinə gərməyə hazır idi! Deməli, Şəhla, anaya və Tuqaya layiq bir qız idi...

Onlar əl-ələ tutub təzədən yola düzəldilər...

Uzaqda, üfüqlə suların bir-birinə qovuşduğu yerdə qaraltılar görünəndə qızla ana ayaq saxlayıb maraqla dənizə tamaşa etməyə başladılar.

Ana həyəcanla dilləndi:

- Qızım, dənizin qoynundakı o qaraltıları görürsən?..

- Bəli, ana...

- Deyəsən, oradakı qayıqdır, hə?..

- Bəli, elədir, ana...

-Bəs o qayıq niyə suyun ortasında sakitcə dayanıb?.. Bəlkə... Bəlkə mənim balam...

Ananı hıçqırıq boğdu. Şəhla başını ananın köksünə sıxdı. İndi onların hər ikisinin ürəyi tora düşmüş balıq kimi çırpınırdı.

Dənizdən sahilə doğru sərin meh əsirdi.

***

***Q***artalın hücumundan sövq-təbii qorxuya düşüb cavab zərbəsi endirmək istəyən qəzəbli dəniz canavarı

quyruğunu qayığın döşəməsinə söykəyib başını irəliyə doğru əydi; o, öz iti dişlərini rəqibinin qanadına sancıb onu aşağı endirmək, sonra isə didib-parçalamaq niyyətində idi. Qartal düşmənin məkrli niyyətini duyubmuş kimi, hücum istiqamətini bir andaca dəyişdi; Ayqut bu dəfə dimdiyini vəhşinin başına yox, gözlərinə, düz bəbəyinin içinə sancdı. Dəniz canavarı səntirləyib yana əyildi. Amma Tuqay hişş etdi ki, "dostlar" əməliyyatı bununla başa vurmaq, bitirmək istəmirlər. Çünki akula qayığın yan tərəfinə əyilərkən, bayaqdan hücum üçün əlverişli fürsət axtaran Yaqut suyun içindən yuxarı atılıb vəhşinin o birisi gözünə quyruğu ilə çəpəki zərbə vurdu.

Sanki Tuqayın özü kimi , "dostları" da bu döyüşün həlledici anının yetişdiyini hiss etməkdə idilər; indi həmlələrin sayı və kəsəri artmışdı.Bəlkə də zərbələr səngisəydi hər şey onların istək və iradəsinin əksinə nəticələnə bilərdi. Elə buna görə də amansız və güclü düşmənə yeni məkrli tədbirlər tökməyə imkan və vaxt vermək olmazdı; elə buna görə də zərbə dalınca yeni zərbələr gəlirdi.

Çox güman ki, artıq gözləri heç bir şey seçməyən yırtıcı, hiddətlə çırpınıb suya – öz etibarlı "səngərinə" atılmaq istəyirdi. Ona bu işdə Tuqay özü kömək etdi: oğlan qayığın yan taxtasından ikiəlli yapışıb onu özünə sarı dartdı. Qayıq ləngərlənib yana əyildi. Akula şappıltı ilə suya düşüb çırpınmağa başladı. O, hələ də təslim olmaq niyyətində deyildi.

Artıq özünü qayığın içində rahatlamış Tuqay avarı qaldıraraq, son nəfəsinəcən vuruşmaq niyyətindən əl çəkməyən dəniz canavarının zəifləməkdə olan bədəninə çırpmağa başladı.

Hər iki gözünü itirmiş vəhşi sanki daha da quduzlaşmışdı. İndi bütün dünya ona zülmət kimi görünürdü. Bu zülmətin içində, o, hələ qismən eşitməkdə oldugu - qulağında əks-səda verən qarışıq səslərə sarı hərəkət edir, özünün növbəti hücum istiqamətini dəqiq müəyyənləşdirməyə çalışırdı.

Dəniz canavarı yenə də mübarizə aparmaq, vuruşmaq niyyətində idi. Onun xislətində geri çəkilmək, qismətinə çıxan ovdan imtina etmək duyğusu yoxdu. O, həmişə hücumda olmuşdu. O, həmişə didib-parçalamışdı. Ömrü boyu özündən zəiflərlə döyüşmək, onları məhv etmək, onu - dəniz canavarını lap bezdirmişdi. O, nə vaxtdan bəri güclülərlə üz-üzə gəlmək, onlarla çarpışmaq istəyirdi. Hə, bax bu da onun haçandan axtardığı güclü rəqib! Özü də bütöv bir dəstə ilə... Akula bütün gücünü toplayıb indi yalnız qaraltısını zorla seçdiyi qayığa doğru şığıdı; kəlləsi ilə qayığın yan divarlarına güclü zərbələr endirdi. Onun qəfil hücumu əks-hücumla qarşılandı: "dostlar"ın zərbəsi dolu kimi dəniz canavarının başına yağmağa başladı.

... Zərbələrin sayı və gücü artdıqca dəniz canavarının bədəni kütləşir, heyi azalırdı. Get-gedə, elə bil ki, o, öz bədənindən uzaqlaşır, harayasa- dibi görünməyən qorxunc dərinliklərə çəkilib gedirdi. İndi onun yırtıb dağıtmaq, əzib parçalamaq ehtirası da tədricən öləziyir, sulara qarışıb əriyirdi.

Axır ki, alabaşın qəti hücumu hər şeyə son qoydu. Qayut iti dişlərini akulanın boğazına sancıb geri dartındı. Bayaqdan hiddəti yerə-göyə sığmayan, qəzəblə fınxıran dəniz canavarı kəsik-kəsik xırıldayıb kürəyi üstə çevrildi. Dalğaların atıb-tutduğu vəhşinin bayaqkı aşıb-daşan hikkəsindən əsər-əlamət qalmamışdı: o, sanki dərin

yuxuya getmişdi. Arabir vəhşinin quyruğu titrəyirdi.

Bir qədər sonra isə yırtıcı tamamilə sakitləşdi. Dalğalar vəhşini təzədən ağzıüstə çevirdi. Qartal qanadlarını gərib dəniz canavarının belinin ortasına - iti qılıncı xatırladan qanadın üstünə qondu. Amma indi bu "qılınc" kəsərdən düşmüşdü.

Alabaşla balıq sevincdən atılıb-düşürdülər. Amma bu sevincin ömrü çox çəkmədi. Çünki qayıq hələ açıq dənizdə idi və tək avarla onu çəkib sahilə aparmaq mümkün deyildi. İndiki halda təkavarlı qayıq təkqanadlı quşa bənzəyirdi. Tək qanadla nə qədər ucmaq olardı?

Qəfildən elə bil möcüzə baş verdi: qartal qıy vurub səmaya qalxdı. Alabaş ulayıb sahilə doğru üz qoydu. Balıq da suda atıla-atıla cəld, alabaşın arxasınca üzməyə başladı.

Tuqayı təəccüb və həyəcan hissi bürüdü. O, qışqırmağa başladı:

- Ehey! Yaqut! Ayqut! Qayut!.. Dayanın, haraya gedirsiniz?..

"Dostlar" onu ya eşitmir, ya da eşitmək istəmirdilər. Oğlanın diqqətli baxışları onlar gedən səmtə, oradan da sahilə yönəldi: sahildə bir cüt qaraltı vardı; geyimlərindən onların hər ikisinin qadın olduğu hiss olunurdu. Qadınlardan biri yaylıq yellədirdi. O biri qadının əlində nəsə əcaib bir alət vardı, deyəsən, bu, avar idi - qayıq avarı.

Tuqayın ürəyi həyəcanla vurmağa başladı.

Dəniz canavarı titrək dalğaların üstündə uzanılı vəziyyətdə qalmışdı. Dəniz öz vəhşi balasını astaca yırğalayır, sanki öz dilində ona ağı deyirdi. Bu anlarda Tuqayın nədənsə akulaya yazığı gəldi, ürəyi ağrıdı. Hətta, kövrəldi də…

Allah özü şahiddir ki, Tuqayın bu hikkəli, qəzibli dəniz cəngavəri ilə heç bir ədavəti olmamışdı. Akula onu

və onun köməyinə gələn dostları parçalamaq niyyətinə düşmüşdü. Suların qoynunda gedən bu qanlı döyüşdə tərəflərdən biri qalıb kimi çıxmışdı.

Dəniz canavarı öz tükənməz hikkəsinin qurbanına çevrilmişdi.

"Əgər günahım varsa bağışla məni, Tanrım…"- deyə, Tuqay pıçıldadı.

"Dostlar"ın qayıtmağı çox da uzun çəkmədi. Gedənlərin hamısından tez balıq gəldi; o, öz "nənni"sində - doğma suların qoynunda, dəcəl uşaq kimi atılıb-düşürdü. Sonra qartal da göründü. O, qanadlarını çətir kimi açıb səmada geniş bir dövrə vuraraq caynağında tutduğu iri şalı, dəqiq nişançı kimi yuxarıdan düz qayığın içinə atdı. Tuqay şalı tanıdı: bu, Şəhlanın şalı idi. Az sonra alabaş gəlib çıxdı. O, dişləri ilə dəstəyindən yapışdığı avarı bir neçə dəfə fırladıb qayığa sarı atdı... Tuqay avarı göydə qapdı. Diqqətlə baxdı: bu, onun öz avarı idi...

Dostlar bir göz qırpımında qayığa doluşdular.

Artıq hava qaralmışdı.

Tuqay avarları çəkib qayığın istiqamətini müəyyənləşdirdi.

Sahildəki qadınlar səs-səsə verib onları haraylayırdılar:

-Ehey... Tuqay! Oğlum! Məni eşidirsənmi?

-Tuqay! Mənəm, Şəhlayam… Qayığı sahilə döndər!

-Yaqut!

-Ayqut!

-Qayut!

-Ehey! Qorxmayın! Biz buradayıq! Biz sizinləyik!..

***

***S***ahilə yan alan qayığın burnu qumsallığa ilişib xırçıldadı.

Tuqay cəld yerə atılıb heykəl kimi yerində donub qalmış qadına sarı qaçdı.

Ana sevincindən hönkürüb ağlayırdı.

Şəhlanın baxışları yerə dikilmişdi.

Az sonra qadın Tuqaydan aralanıb sahil sularının yellədiyi qayığa doğru addımladı.

Oğlanla qız gözaltı bir-birini süzdü. Şəhlanın zülmət gecə kimi qapqara saçları gündüz kimi ağ sifətinə tökülmüşdü. Qızın al-zərif dodaqları xəfifcə titrəyirdi.

Tuqay bu anlarda suların qoynundan siyrilib çıxan, dalğaların illər uzunu yonub yapdığı qranit heykələ bənzəyirdi; onun cod-dalğalı saçları kürəyinə tökülmüşdü; gərilmiş qaşlarının altından maraqla qızı süzən gözlərinin dərinliyində bir uşaq məsumluğu sezilirdi. Oğlanın enli alnında, əzələli qollarında və həyəcanla enib-qalxan geniş köksündə puçurlanan damcılar qızın boynundakı boyunbağının inci dənələri kimi bərq vururdu.

Onların hər ikisi qamətli, boy-buxunlu, yaraşıqlı idi. Onlar bu anlarda dünyanın ən xoşbəxt insanları idi.

Bayaqdan bəri qayığın ətrafında vurnuxan "dostlar" az sonra qadını dövrəyə aldılar.

Şəhla ilə Tuqay da anaya yaxınlaşdı.

Dalğalar sahili yalayırdı.

Qayıq nənni kimi yırğalanırdı.

Onların hamısı baş-başa verib bir müddət səssiz-səmirsiz, dənizə tamaşa elədilər. Sonda ananın pıçıltısı eşidildi. Qadın dənizə alxış eləyirdi. Bir azdan xəfif külək qalxdı. Ana səsini bir qədər qaldırıb küləyə xitabən dedi:

*Balamı mənə qaytardın, külək…*
*Sənə minnnətdaram,*
*Sənə borcluyam, külək…*

Ananın zümzüməsi get-gedə şirin bir nəğməyə

çevrilirdi. Şəhla ilə Tuqay da ana ilə birlikdə oxumağa başladılar. Sonra sanki möcüzə baş verdi; onların səsinə yeni səslər qoşulmağa başladı: Yaqut, Ayqut və Qayut onlarla birgə səs-səsə vermişdi. Bir qədər sonra dənizlə külək də onlara qoşuldu. Hərə öz dilində oxuyurdu bu mahnını; amma bu çoxsəsli "xor"da hamı bir-birini yaxşı başa düşürdü…

Bu kainatda hər canlının və hər ovqatın öz səsi var. Bədbəxtliyin öz səsi olduğu kimi, xoşbəxtliyin də öz səsi olur…

İndi xoşbəxtlik öz nəğməsini oxuyurdu…

***

***A***y doğmuşdu. Dənizin qoynu ilə bir qayıq şütüyürdü. Əvvəlcə o qayığın içində üç adam vardı: qadın, qız və oğlan. O qayıqdan bir az aralıda - böyük torpaqda, sahil boyu bir it qaçırdı.

O qayığın üstü ilə bir qartal qanad açıb irəliyə doğru uçurdu.

Həmin qayığın düz burnunun ucu ilə gümüşü bir balıq üzürdü və sanki həmin balıq o qayığa yol göstərirdi.

Etibarlı və sədaqətli "dostlar" qayığı və qayığın içindəkiləri qurudan, havadan və sudan müşahidə və müşayiət edirdilər.

Parlaq Ay dalğaların qoynunda çimirdi.

Bir müddət sonra "dostlar" - qartal, balıq və it, yaydan atılan ox kimi şığıyıb bircə anda qayığın içinə doluşdular. İndi qayığın içində altı canlı vardı: Tuqay, Ana, Şəhla, Yaqut, Ayqut, Qayut. Onların hamısı bir ailənin, bir ocağın üzvü idilər. Hər biri yorulub əldən düşmüş, süstləşmisdı. Amma yorulan təkcə bədənləri idi; əslində onlar, həmin anlarda, bayram edirdilər. Bu bayram

onların içində- qəlbində idi...

Avar tərpəndikcə suların asta, sehrli pıçıltısı eşidilirdi. Kiçik dalğaların üstündəki parlaq ulduzlar sanki sevincdən atılıb-düşürdü...

Qayıqda sakitlik idi. Nədənsə hamı susurdu. Kənardan baxan olsaydı, düşünərdi ki, yəqin "dostlar" da öz sirli dünyasına qapılıb. Tuqay artıq nə vaxtdan bəri beynini məşğul (bəlkə də işğal) edən suallara yenə də cavab axtarmaqda idi: görəsən, günlərin bir günü onlar öz vətənlərinə, yəni qartal səmaya, balıq dəryaya, alabaş isə meşəyə üz tutub gedəcəkdimi? Görəsən, bu sədaqətli "dostlar"ı qarşıda nə gözləyirdi: ayrılıq, yoxsa?..

Tuqay əyilib "dostlar"ının üzünə baxdı; Ay işığında onların hamısının gözləri par-par yanırdı. Oğlan heyrətə gəldi: təbiətin bu qorxmaz övladlarının gözləri qayğılı, qüssəli insan gözlərinə necə də bənzəyirmiş!

Tuqay düşüncələr dənizində üzürdü. O, özünün bu qısa həyatında insanlardan çoxlu zərbələr almışdı. Sonuncu zərbəni isə ona dəniz canavarı endirmək istəmişdi. Amma "dostlar" vaxtında köməyə çatmışdılar. O, öz "dostlar"ından hədsiz dərəcədə razı idi. Bunlar, hətta, onun - Tuqayın balıqçı dostlarının bir çoxundan sədaqətli çıxmışdı. O, adi, mənasız şeylər üstündə mübahisə edən, küsüşən, vuruşan insanları az görməmişdi. Balıqçı dostları arasında da belələri vardı. Amma bunlar... Tuqay öz "dostlar"ını ömrü boyu sevəcəkdi. "Dostlar"ı ona ana qədər, Şəhla qədər əziz və doğma idi.

*Tuqay dənizdə ölümlə həyatın çarpışmasının şahidi olmuşdu. Və özü üçün qəti bir qənaətə gəlmişdi: sən demə, insanlarla digər canlıların arasında elə də böyük bir fərq yoxmuş; hətta, ilk baxışda "dil anlamayan" kimi təsir bağışlayan heyvanlar belə, əsl həqiqətdə ədalət və rəhm hissinə malik olurmuşlar. Sən demə, həqiqətin*

*mövcudluğunu və onun hər kəs üçün məhz həqiqət olduğunu anlamaq üçün kim və ya nəçi olmağın elə bir mühüm fərqi yoxmuş. Həqiqəti təkcə insan dərk etmir ki! Tuqay indi tamamilə əmin idi ki, kainatda baş verən bütün hadisələr bir-biri ilə görünən və görünməz tellərlə bağlıdır və kainatın özü belə, haradansa idarə olunur; o idarəedən varlığın mövcudluğunu dərk etmək üçünsə, heç də uzun bir ömür yaşamağa ehtiyac yoxdur; bəzən həqiqət bircə anda üzə çıxır. Dünyada heç nə izsiz-soraqsız ötüb-keçmir; hər kəs keçmişdə etdiyinin, indi elədiyinin və gələcəkdə edəcəklərinin haqqını alır. Pislik pislikdən, yaxşılıqsa yaxşılıqdan doğur. Deyirlər ki, balığı at dəryaya, balıq bilməsə də xaliq bilər. Amma, sən demə, hərdən, hər şey tamamilə ayrı cür də olurmuş: bəzən balığın dəryaya atılmasını xaliq yox, təkcə balıq özü bilirmiş. Belə çıxırdı ki, yalnız sənin haçansa xilas etdiklərin bir vaxt sənin xilaskarın ola bilər. Sənin məhv etdiklərin isə, günlərin bir günü təzədən zühur edib səni o dünyaya- gedərgəlməzə göndərə bilər. Bütün canlıların həyatı bir-birinə bənzəyir. Yəqin ki, bu sonsuz aləmdə külldən zərrəyə, zərrədən külləcən hamı, hər kəs, lap elə hər şey, eyni qanunlarla yaşayır. Lakin insan nə qədər güclü olursa-olsun, o, heç də hər şeyə qadir deyildir. Tuqay özlüyündə əmin oldu ki, dünyanı düçar olduğu bünün bəlalardan xilas etmək üçün təkcə insanların bir-birilə dostluğu və əlaqəsi bəs edə bilməz; kainatı hər cür fəlakət və müsibətdən yalnız bir* yolla- *cansızlarla canlıların həmrəyliyi, bir sözlə, külldən zərrəyəcən mövcud olan hər nə varsa, məhz onların, bəli, yalnız onların hamısının birliyi vasitəsi ilə xilas etmək mümkündür. Bəs əzəldən var olan, ömrü bu dünyanın ömrünə bərabər olan bu birliyi görənlərin, hiss edənlərin, qavrayanların sayı çox idimi? Və bu anlarda, Tuqaya*

*sanki birdən-birə o da əyan oldu ki, əslində, bu dünyada "cansız", "dilsiz-ağızsız" heç nə yoxdur; insanlar kimi lap elə daşın, ağacın, otun, küləyin, suyun da təkcə onların özlərinə bəlli olan sirli bir aləmi var. İnsan bu aləmə hələ yetərincə bələd deyil. Yerdə çiçəklər, göydə isə ulduzlar bir-birilə söhbətləşir. Lap insanlar kimi... Heç şübhəsiz ki, zaman gələcək "canlılar" və "cansızlar" bir-birilə dil tapıb danışacaq, bir-birlərinin halından xəbərdar olacaq... Tuqayla "dostlar"ı kimi...*

"Şükür olsun sənə, Tanrım!"

Avarları asta-asta çəkib şirin xəyallar dənizində üzən Tuqayın özü kimi yorğun qayığı, nəhəng dənizin ağır sularını yararaq irəliyə doğru üzürdü.

Qayığın içindəkilər isə, deyəsən, artıq yuxuya getmişdilər.

Tuqay mürgü dənizində uyuyan anasına gözucu nəzər saldı: qadının ürəyində çağlayan sonsuz xoşbəxtliyin, yalnız ürəklə duyula biləcək, xəfif izləri bu parlaq Ay işığında onun gün kimi aydın sifətinə yayılmışdı.

Sonra oğlanın baxışları qeyri-ixtiyari boynu zərif qərənfil kimi yana əyilmiş Şəhlanın üzünə sancıldı. Qızın tutqun saçları zərif sifətinə dağılmışdı; elə bil ki, Ayın qabağını buludlar ötrmüşdü. Tuqay ürəyi uçuna-uçuna əlini irəli uzadıb qızın sifətinə kölgə salmış ipək kimi yumşaq, bənövşə kimi ətirli telləri ehmalca yana "daradı". Qız yuxuda şirin-şirin gülümsəyərək, oğlanın cod-qabarlı əllərini sığallayıb özünün balıq kimi çırpınan zərif sinəsinə sıxdı .

Qayığın arxa hissəsində göllənmiş suda mürgüləyən Yaqut yerindən dikəlib ani olaraq gözlərini açıb-yumdu.Tuqay ömründə ilk dəfə idi ki, gözünü qırpan balıq

görürdü; axı, balıqlar, hətta, suyun təkində yatanda belə, gözlərini yummurlar.

Ayqut qanadlarını gərib təzədən çətir kimi yığdı.

Qayut quyruğunu yüngülcə tərpətdi.

Ana hələ də yuxuda idi; o, indi özünün ən gözəl vaqeələrindən birini görürdü: görürdü ki, nəhəng dənizin üstü ilə iki nəfər əl-ələ tutub sahilə sarı qacır. Ana sahildə dayanmışdı; o, gələnləri siluetlərindən tanıdı: bunlar Tuqayla Şəhla idi. Heyrətdən ananın gözləri böyüdü: qəribə idi, qızla oğlan dənizin üstü ilə qaçsalar da belə, suda batmırdılar. Onlar sanki dalğaların səthi ilə yerimir, qanad açıb suların üstü ilə uçurdular. Amma ana ürəyi səksəkədə idi. O, yuxuda da dua edirdi: ”Tanrım, özün kömək ol...” Cavanlar, bəlkə də lap Tanrının özü, ananın xitabını eşitdi deyəsən; az sonra Tuqayla Səhla qaçaraq sahilə cıxdılar və ananı qucaqlayıb öpməyə başladılar. Ana necə də xoşbəxt idi...

Tuqay yenə əyilib Şəhlanın üzünə baxdı: qız hələ də yuxuda gülümsəyirdi. Şəhla bu anlarda bir neçə gün əvvəlki qəribə, yarımçıq yuxusunun davamını görürdü; görürdü ki, laciverd sulara səpələnmiş rəngbərəng güllər indi Tuqayın qayığının arxasınca üzüb gedir. Və bu qəribə yuxuda Şəhla başını Tuqayın çiyninə qoyaraq, heç özü də bilmirdi ki, nədənsə ağlayırdı. Sanki qızın gözlərindən leysan axırdı; bu, bəlkə də sevincin gətirdiyi göz yaşları idi. Hə, bir də ki, adətən, yuxularda çox şey tərsinə olur.

Göyün sinəsinə sancılmış qızılı Ay, bu anlarda özünün dənizdə yuyunan əksinə baxıb xumarlanırdı.

İndi bu ucsuz-bucaqsız su səltənəti nəhəng bir səhranı xatırladırdı. Qayıq bu səhrada karvandan aralı düşmüş yorğun dəvə kimi ağır-ağır irəliləyirdi. Arabir qayığın sinəsini öpüb keçən kiçik dalğalarsa bomboz qum səhra-

sında qıvrılan qum ləpələrinə bənzəyirdi.

Elə bil ki, balaca bir köç uzun, ağır bir səfərdən geri dönürdü. Bu, müqəddəs ziyarətdən qayıdan zəvvar köçünə də bənzəyirdi.

Bu köç, dəniz köçü idi.

Bir azdan Günəş doğacaqdı.

Dəniz köçü qızaran dan yerinə doğru üzürdü.

Artıq dəniz də mürgüləyirdi.

***

***M***ənim sizə söyləmək istədiyim bu qeyri-adi əhvalat bax, buradaca başa çatır.

Doğrusu, bu hadisəni mənə başqa adam, qoca bir balıqçı danışıb. Biz onunla dəniz sahilində balıq tutarkən tanış olmuşduq. Nədənsə, onda mənə elə gəldi ki, bu əhvalat nə vaxtsa elə onun öz başına gəlib. Çünki... Mən xudahafizləşib qocadan ayrılanda, o, avar kürəyi kimi iri, möhkəm əlini irəli uzadıb astadan öz adını dedi:

- Tuqay...

Mən qocadan ayrıldım.

Həmin vaxtdan bəri, o dəniz köçü, görünməz rəssam əlinin çəkdiyi füsunkar bir tablo kimi gözlərimin önündən asılıb.

Bəli, dünyada dəniz köçü də olurmuş.

**Firuz MUSTAFANIN**
***"Dəniz köçü" əsəri haqda rəylər***

"Dəniz köçü" povesti müasir dünya nəsrində aparıcı rol oynayan, bədii-fəlsəfi təmayüllərlə səsləşən, bir ümumiləşdirmə tərzində qələmə alınmışdır.

**İ. Abbasov,**
*ədəbiyyatşünas*

Firuz Mustafanın "Dəniz köçü" əsəri mənə Heminqueyin "Qoca və dəniz"ini xatırlatdı. Amma burada tamamilə başqa bir məsələ- insanla təbiətin harmoniyası, birliyi önə çəkilib uğurla təsvir olunmuşdur.

**C. Əlibəyov,**
*Yazıçı*

Firuz Mustafa ənənəviliklə müasirliyi öz yaradıcılığında və həyatında üzvi surətdə uzlaşdıran şəxsiyyətdir. Bu vəhdət “Dəniz köçü”ndə də qabarıq nəzərə çarpır.

**Ə.Abbasov,**
*Filosof*

Dostluq və məhəbbət haqqında olan bu dəyərli əsərin ideyası illərin sınağından çıxmış bir fikrin təsdiqidir ki, şərdən şər, xeyirdən xeyir törəyir, bürün canlılar təbiətin bir hissəsidir.

**Sabir Bəşirov,**
*filosof-tənqidçi*

"Dəniz köçü" povest-pritçası … bir neçə əsərini dilimizə çevirdiyim, indi dünyanın ən çox oxunan müəlliflərindən olan Paulo Koelyonun roman-pritçalarının havasını xatırladır, heç də bədii siqləti sarıdan o əsərlərdən geri qalmır.

**Nəriman Əbdülrəhmanlı,**
*yazıçı*

Sizi sevinc və kədər dalğalarından keçirəcək "Dəniz köçü" əsəri heyrətamiz dərəcədə gözəldir.

**İlyas Tapdıq,**
*Şair*

"Mən Firuz Mustafanın yaradıcılığı timsalında Azərbaycan ədəbiyyatına və xarakterinə bir daha vuruldum və qərara aldım ki, onun əsərlərini orijinaldan oxuyum. Və buna nail oldum. Azərbaycan dili necə şirin, zəngin və əsrarəngizdir! İndi bu dildən tərcümələr edirəm. Firuz Mustafanın bütün əsərləri mənə çox doğmadır."

**Şahlo Kasumova**
*(Özbəkistan tərcüməçisi)*

Firuz Mustafanın "Dəniz köçü" povesti Ernest Heminqueyin "Qoca və dəniz" əsəri ilə müqayisə oluna bilər.

**Tofiq Şahtaxtinski**
*(ABŞ, Vaşinqton)*

“Hörmətli Firuz Mustafa, Siz parlaq bir pritça yazmısınız. Təbiətlə insanın əlaqəsi qarşılıqlı xeyirxahlığa əsaslanmalıdır. Nə yaxşı ki, Siz bu humanist ideyanı insanlara çatdırmaq istəyirsiniz. Əsərinizi maraqla oxudum, Sizin bütün qəhrəmanlarınızın əvəzinə həyəcanlı hisslər keçirdim. Sizə təbiətin özü kimi sadə və səmimi olan bu maraqlı əsərə görə təşəkkür edirəm.”

**İrina Qrisuk-Qalitskaya**
*(nasir)*

“Olduqca gözəl fəlsəfi pritçadır. Əsərdə gözəl dil, mətnaltı dərinlik, poetik obrazlar var. Pritçanın zirvəsi- yeganə oğlunun geri qayitması üçün ananın dənizə dua etməsidir. Misilsiz bir yazıdır. Akula ilə qartalın döyüş səhnəsinin elə bir dərin fəlsəfi vəhdəti var ki, onu “Qoca və dəniz”dəki qoca və balıqla müqayisə etmək olar. Əsərdən doğan məna belədir: sər həmişə cəzalandırılacaq, doğru yol sahibi isə öz doğma evinə dönəcək. Əsərin tərcüməsi də çox gözəldir.”

**Yulya Molçanova**
(*rus yazıçısı)*

"Mən sarsılmışam. İnsanın xeyirxahlığa olan bütün inamını özünə hopdurmuş bu ciddi və gözəl pritça-hekayəni daxilən yaşadım. Sanki bu hadisəni mənə canına və yaddaşına dənizin, balığın qoxusu hopmuş, sifətini qırışlar doğrayan qoca dənizçi danışdı.

Çox sağ olun, batano Firuz."

**Nino Sakvareladze**

*(gürcü yazıçısı və riyaziyyatçısı)*

"Yer üzündə yaşayan hər bir canlı üçün yaxşılıq et, o, etdiklərinin əvəzini sənə qaytaracaq. Bu, böyük ürəyi və xeyirxah qəlbi olan müdrik bir insanın yazdığı olduqca müdrik bir pritçadır."

**L. Lyubov**

"Sizin bu əsəriniz olduqca fəlsəfi bir mahiyyət kəsb edir və istər-istəməz adamı başqa əsərlərinizi də oxumağa sövq edir."

**Viktor Xajilov**

“Heyrətamiz dərəcədə gözəl əsərdir. Heminqueylə müqayisə etmək olar.”

**F. Passo**

“Olduqca gözəl və insanidir.”

**L. İşbulatova**
*(çeçen nasiri)*

“Sizin əsəriniz insanı heyrətə gətirir.”

**Taisiya İrs**
*(nasir)*

“...Bütün canlıların həyatı bir-birinə oxşayır.

...Kainatda zərrədən külləcən hər şey təbiətin vahid qanunları ilə yaşayır.

...Şərdən şər, xeyirdən xeyir doğur.

Mənə elə gəlir ki, Sizin bu fikirləriniz əsərin açarıdır.

Siz tamamilə haqlısınız: həqiqətən, insanlar hələ bir çox mətləblərin mahiyyətini öyrənə bilməyiblər.”

**Lena Sever**

“Qeyri-adi dərəcədə gözəldir; çoxdandır ki, bu cür əsər oxumurdum.

Mən istərdim ki, Sizin bu əsəriniz uşaq və gənclər üçün ixtisaslaşmış çox mötəbər nəşriyyatlardan birində sap olnaydı.”

**Vladimir Taşpetov**

“Çox poetik bir pritçadır.

“Tuqay, oğlum, haradasan?”-nidası bir nəqərat kimi adamın qulağında səslənir.

Dəniz köçü- qeyri-adi, fəlsəfi mahiyyət daşıyan gözəl bir dildə qələmə alınmış əsərdir.

P.S. İntəhasız dərəcədə gözəl bir əsərdir. Dilinin zənginliyi adamı heyrətə gətirir.”

**Yelena Çernışeva**

“Olduqca gözəl əsərdir, olduqca.
Dərin ehtiramla”

**Alyona Dançenko**

“...Əsər məzmununa görə qeyri-adidir, ilk dəfədir ki, belə bir süjetlə tanış oluram. Olduqca gözəl, romantik əsərdir. Bu cür dostları olan insan xoşbəxtdir. Ana və qız obrazı sadəcə olaraq klassikadır. Düzdür, bəzi yerləri təzədən işləmək olar. Məsələn, həddindən artıq müasir sözlərə rast gəlirik ki, bu da qədim dövrün üslubu ilə

harmoniya yaratmır. Maraqla oxudum. Çox sağ olun. Qeydlərə görəsə inciməyin. Bu, mənim şəxsi qeydlərimdir.”

**Anna Yerşova**

“Misilsiz dərəcədə gözəl əsərdir. Bu, tərcümədirmi? Çox xoşuma gəldi.

Sağ olun. Ehtiramla.”

**Aleksandra Ploxova**

“Dostluq və məhəbbət haqqında adamı titrədən bir odadır. Əsl dostluq, sədaqət, ana məhəbbəti, sevimli qadına məhəbbət möcüzələr yaratmağa qadirdir. Eşq olsun Sizə!”

**Saule Karabayeva**
(Qazaxstan)

“Hörmətli Firuz Mustafa, bu gözəl pritçani böyük bir həvəslə oxudum. Etiraf edim ki, mən bu əsəri oxumağa başlayarkən düşünürdüm ki, o, həcmcə böyükdür; hətta, qorxuya düşdüm. Amma sanki əsəri oxumağa başlamağımla başa çatdırmağım bir göz qırpımında oldu. Bunu da etiraf edim ki, oxuduqca, hətta, mənim sifətimə göz yaşları ilə birgə təbəssüm də yayılırdı... Mən bu əsəri oxumaqdan böyük ləzzət aldım. Çoxdan idi ki, bu cür ağıllı-düşündürücü əsər oxumamışdım. Deyim ki, az

qala mən Sizin bütün fikirlərinizlə şərikəm.(...)

Mən də belə bir qənaətdəyəm ki, bir vaxt gələcək- insanlar təbiəti və canlı aləmi öyrənərək onlarla vəhdətdə yaşayacaqlar. İndinin özündə elə adamlar var ki, onlar ağacların necə ağladığını eşidir, bitkilərlə söhbət edirlər. Mən inanmaq istərdim ki, məhəbbət və dostluğun hər şeydən yüksək olduğu bir zaman gələndə zəka-ağıl iddiaların (ambisiyaların) üzərində qələbə çalacaq. Yalnız məhəbbətə və dostluğa sədaqətinə görədir ki, əsərinizin baş qəhrəmanı sonacan çətinliklərə sinə gərir, düşmən üzərində qələbə çalır."

**Yevgeniya Şendrika**
(Riqa, şairə)

"Dəniz köçü", bu gözəl poetik pritça mənim hədsiz dərəcədə xoşuma gəldi. Bu dünyada hər bir canlının öz səsi var. Hətta, kədərin və sevincin də öz səsi var. Sizin bu fikirləriniz isə məni olduqca məmnun etdi.

Əsərin qəhrəmanı Tuqay çox xeyirxah bir insandır və elədikləri xoş əməllərin əvəzində xeyirxahlıqla üzləşir.

P.S. Sizin pritçada mənim daha çox bəyənib təqdir etdiyim məsələ, qəhrəmanların bir-birini anlayıb dərk etməsidir. Əsərin qəhrəmanları isə insanlar və digər

canlılardır. Amma bəzən həyatda insanlar belə, bir-birini başa düşmürlər. Bu, çox kədərli haldır.”

**Yelena Kazyanina**

“... necə də əsrarəngiz bir əhvalatdır.

Çox maraqla, məmnunluq hissi ilə oxudum.

Kaş ki, hər kəsin həyatda Tuqayın “dostları” kimi sədaqətli dostlar olaydı.

Hədsiz dərəcədə bəyəndim.

Hörmətlə...”

**Valentina Mixaylova**

“Maraqlı və parlaq bir əsərdir!

Qoy yaradıclılğınız daim çiçəklənsin.”

**Svetlana Şimanskaya**

“Olduqca təsirli və gözəl bir əsərdir.

Qoy sizin ədəbi yaradıcılığınıza səadət gülümsəsin...”

**Lüçana Azarova**

" Sizin əsəriniz hədsiz dərəcədə xoşuma gəldi və məni çox təsirləndirdi."

**S. Tan**

"Dəniz köçü"nü çox böyük bir maraq hissi ilə oxudum. Sağ olun.

Ehtiramla..."

**Svetlana Qromina**

**"**Mənim bu günkü axşamım məhz Sizin sayənizdə qeyri-adi dərəcədə gözəl keçdi. Mən bu əsəri oxuduqca sifətimdə göz yaşları giləlınirdi. Yox, mən qətiyyən sadəlövh bir qiz deyiləm, kifayət qədər təcrübəli insanam. Firuz Mustafa, Sizin qəlbinizdə nə qədər xeyirxahlıq, ülvilik, işıq vardır. Siz Həqiqətə necə də yaxinsız. Çoxdan, lap çoxdan mən belə işıq və həyəcanla dolu əsər oxuyub sevinməmişdim; orada sıralanmış sətirləri oxuduqca özümü məbəddəki kimi hiss edirdim- ürəyimə bir yüngüllük və işıq axırdı.

Allah Sizin canınızı sağ və sağlam etsin- sağlamlığın çoxluğundan heç kəsə ziyan gəlməz; qalan şeylər isə elə öz qədərində olsa bəsdir."

**Lyudmila Kurışeva**

(Krasnodar, şairə,həkim)

“Hekayət xeyirxahlıq üzərində köklənib. Onun başlıca məğzi ondan ibarətdir ki, su, torpaq və səmanın vəhdəti – bizim planetimizin başlıca mahiyyətidir.”

**Artem Qriqorens**
(Rusiya)

“Olduqca əsrarəngiz bir əhvalatdır. Çox böyük bir ləzzətlə oxudum və hətta, bu povesti bir bir kino əsəri- triler kimi təsəvvür etdim. Əsərdəki fikirlər mənim dünya haqqındakı təsəvvürlərimlə üst-üstə düşür. Hətta, bəzən maşın işə düşməyəndə mən tam ciddiyyətlə ona dil tökürəm ki, belə etməsin, hərəkətə gəlsin.

Prodüser axtarın! Mən bu sözləri Sizə tamamilə ciddi bir şəkildə deyirəm.

P.S. Bu dünyada Sizin qələmə aldığınız səviyyədə müdrik və xeyirxahlıq dolu hekayətlər yoxdur. Ən başlıcası da odur ki, çox ustalıqla yazırsınız.

Sizə yeni uğurlar arzulayıram.”

**Marina Xovanskaya**
(Yeni Zenlandiya)

“Mən indi Sizin əsərinizdən daha çox , mənim özümün dərk etdiyim bir şəkildə, Sizin daxili aləminizdən söz açmaq istəyirəm. Çünki hər bir əsərdə hər bir yaradıcı adam öz daxili aləmini bu və ya digər şəkildə açır, onu narahat edən, ilgiləndirən cari və gələcək məsələlrdən danışır.

Mən əsərinizi oxuyarkən şəxsən Sizin özünüzün xeyirin şər qüvvələr üzərindəki təntənəli qələbəsinə olan təmiz və işıqlı inamınızı çox aydın hiss etdim. Bu, çox sevindirici bir haldır ki, bu qəliz zəmanədə işıq şüası zülməti yarır.

Mən Sizə yaradıcılıq uğurları, həmişə belə işıqlı fikirlər arzu edirəm.

Hörmətlə...”

**Valentina Karpova**
(Rusiya)

Mən bütün qəlbimlə sənə, belə gözəl bir əsər yaratdiğina ğörə sağ ol deyirəm. Mən onu oxuyarkən bütün varlığım Gözəllik, Təmizlik, Harmoniya və Məhəb-bət şəfəqlərində yuyundu.

Böyük ehtiramla

**Natalya Kolopenyuk**

Bu əsər müasir Azərbaycan ədəbiyyatı haqqinda təsəvvür yaradır… O ədəbiyyata eşq olsun!

Hal-hazırda filmlər animatorlar tərəfindən fərdi qaydada çəkilir. Qoy oxucular arasında multfilm çəkməyi bacaranlar varsa bu əsərəmüraciət etsinlər.

**P.S.** …canlı aləmə bələd olanların qeydləri: dəqiq bilinir ki, böyük quşların əksəriyyəti (və itlər) tibbi müayinədən keçirilərkən əllərini insanlara uzadırlar. Balıqlar həqiqətən digər canlılarla ünsiyyətəgirir, öz adları ilə çağırıldıqlarını anlayır və drassirovka olunurlar. Vəhşilərin dilini anlamaq asandır, bu, onların digər mürəkkəb və təhlükəli canlılarla -məsələn, insanlarla – ünsiyyət yaratmasında bir mərhələdir. Buna görə də uşaqlar təbii olaraq heyvanlarla dostluq etməyə can arırlar, çünku bu, asandır və onların inkişaf səviyyəsinə uyğundur.

**“Vek İskusstva”**

“Mən Sizin əsərlərinizi oxuyarkən onlarda həmişə dərin fikirlər tapıram. Biz adətən bizi kimlərin əhatə etdiyi və onların bizi nə üçün dərk etdikləri barədə düşünmürük.

Mən Sizin yaradıcılığınıza mütləq yenidən qayıdacağam.

Sağ olun, ehtiramla…”

**Taliya Abitova** (tatar şairəsi)

"Firuz Mustafanın "Dəniz köçü" əsəri dostluq və məhəbbətin hər şeyə qadir olduğunu göstərən bir hekayətdir. Əsərin qəhrəmanı Tuqay, Ananın fəxr etdiyi gözəl oğul, habelə öz dostlarının (Yaqut Ayqut və Qayutun) güvəndiyi sədaqətli dostdur. Mənim xoşuma xüsusilə ananın oğula olan sonsuz məhəbbəti və o məhəbbəti ifadə edən dualar oldu; Tuqayın dənizdən sağ-salamat qayıtması uçun oxunan həmin dualar zənn edirəm ki, bir çox anaların ürəyində əks-səda verib. Bu əsəri oxuyarkən istər-istəməz Heminqueyi və onun "Dəniz və qoca" əsərini xatırlamalı olursan. Canlıların personajı, onların qorxu və Tuqayın sağqalacağına olan inamı çox ekspressiv və xüsusi bir məharətlə qələmə alınmışdır.

**Mədinə İbadova**
(Moskva, ədəbiyyatşünas)

"Gözəl və ibrətamiz bir pritçadır. Bu əsərdə çoxlu simvol və metoforalar vardır."

**Aliya Ali**
(Macarıstan)

"...inanılmaz dəcədə gözəl əsərdir.

... mən böyük həyəcan və heyrət

içindəyəm.

...nə yaxşı ki, bu əsəri oxudum."

Mariya Maqdalina Kostadinova.

(Bolqaristan)

"Nice story. Glad to see you here, cos i'm too from Azerbaijan. Do you live there now? or actually was born there? P.S.

Sağ olun."

**Sevil Əzizbəyova**
(Balkanlar)

"Olduqca həyəcan doğuran və insanı düşündürən bir hekayətdir".

**Kifayət Zeynalova**
(ABŞ)

Çox istedadla yazılmış bir əsərdir. Düşünürəm ki, bizdən ikiyüz il sonra gələnlər bu mətndən ("Dəniz köçündən") çıxış edərək bəşər sivilizasıyasını mif kimi, məsələn Gilqamışda və İlya Murometsdə olduğu kimi deyil, bir mövcudat kimi oxuyub öyrənəcəklər. Mən buna çox İnanıram.

**Marina Severyanka**

"Dəniz köçü" ilk baxışdan dostluq və sevginin böyük gücü haqda bir hekayətdir. Əsərin əsas qəhrəmanı Tuqay gözəl övlad, etibarlı dost, qorxmaz döyüşçüdür. Dostların hərəkəti, onların qorxu və inamı, ananın oxuduğu dualar, sevimli qızın həyəcanları Tuqayın təhlükəli səfərdən geri dönməsinə yardımçı olur. Tuqay ölümə qalib gəlir. Bununla belə, hadisələrin dərinliyini duymaq insanı dərin düşüncələrə sövq edir; səbəb isə doğrudan da sarsıdıcıdır. Əsəri oxuyarkən istər-istəməz dənizin qoxusunu, stixiyasını, qəhrəmanın heybətli canlı ilə döyüşünü hiss edirsən.

Bu mürəkkəb yolu qəhrəmanlarla birgə addımlayarkən anlayırsan ki, ən zəruri, gərəkli olanlar lap yaxında, gözünün qabağındadır. Açıq ürəklə, yaxın və doğmalarla birgə istənilən düşmənə, hətta, ölümə də qalib gəlmək olar.

Bu pritça dərin fəlsəfi mahiyyət daşıyır. Əsas qəhrəmanın-Tuqayın obrazı Azərbaycan nağılının məşhur qəhrəmanını, bütün düşmənlərə qalib gələn Məlikməmmədi xatırladır. Ananın oğluna olan hisslərinin təsviri, onun Tuqayın geri dönməsi üçün oxuduğu düalar məni heyran etdi. Belə hesab edirəm ki, hər bir oxucu bu əsərdə öz düşüncələri, mənəvi aləmi ilə səsləşən fikirlər tapa bilər. Əsər bu gün çox aktualdır. Bu pritça öz dərin və fəlsəfi məzmununa görə Paulo Koelyenin bu gün

dünya bestsellerinə çevrilmiş "Kimyagər" əsərindən geri qalmır. Firuz Mustafanın əsərini hər dəfə oxuyarkən yeni maraqlı fikirlər tapıram. Azərbaycan layıqli filosof-mütəfəkkirləri ilə tanınır ki, onlardan biri də müasirimiz Firuz Mustafadır.

**Gülbəniz Qəmərlinskaya**
(Almaniya)

Belə gözəl əsərə görə Sizə öz təşəkkürümü bildirirəm.

Hörmətlə,

**Yelena Koyuşeva**

# PAYIZ SÜVARİSİ
## (kinopovest)



Ən adi günlərin birində Paris şəhərində, lap dəqiq desək, Parisin cənubundakı Monparns məhəlləsində yaşayan iş adamı Jüsten Bursenin başına çox qeyri-adi bir əhvalat gəldi. O, bu cür hadisəni heç yatsa yuxusunda belə görə bilməzdi. Elə həmin hadisədən sonra Jüstenin həyatı büsbütün dəyişdi.

Hələlik tələsməyin. Bu barədə bir qədər sonra.

***

... həmin günün axşamı, ayaqqabı dükanları şəbəkəsinin sahibi, parisli Jüsten Burse öz ofisində əyləşib dostu İbrahim Çeviklə qəhvə içə-içə söhbət edirdi. Onların hər ikisi sarışın, ortayaşlı adamlar idi. Hər ikisinin saçına dən düşmüşdü. Jüsten ağ köynəkdə və cins şalvarda idi. İbrahim bəy isə ciddi kostyum geymişdi.

Arada elə onlar yaşda, ciddi sifətli, asta yerişli bir qadın görünür, sonra həmin qadın nəzərə çarpmadan ofisə bitişik kiçik otağa çəkilirdi. Bu qadın həm Jüstenin şəxsi köməkçisi idi, həm də ofisin təsərrüfat işlərinə baxırdı.

Sizin tanış olacağınız qeyri-adi, gözlənilməz əhvalatın “giriş hissəsi” elə həmin günün o yağışlı axşamı baş verdi.

Bayırda payız idi.

Yağışlar başlayandan bəri Jüstenin içində bir kədər, qüssə havası səslənirdi. O, nədənsə bu son günlər özünü daha tənha hiss etməyə başlamışdı. Sanki payız onun ürəyinə, ruhuna öz soyuq boyalarını çəkmişdi.

Otaqda televizor işləyirdi. Orada türk mahnıları səslənirdi.

-İbrahim bəy, işlər belə getsə, mən tezliklə yüz faiz türk olacağam. Hər dəfə İstanbula gedib gələndən sonra nə qədər dəyişdiyimin fərqinə varıram, hətta, bəzən özümü

fransızadan daha çox, türk kimi hiss edirəm.

Jüsten bu sözləri deyib ucadan güldü.

-Bunun nəyi pisdir ki?

Bunu da gülə-gülə İbrahim bəy dedi. Və sonra əlavə etdi:

-Müsyö Jüsten, doğrusu, buraya, yəni Parisə gəlib təzədən İstanbula qayıdanda elə mən də özümdə bu cür dəyişikliyi duyuram. Hərdən öz-özümə düşünürəm ki, əcaba, bəlkə dönüb fransız olmuşam?

Hər ikisi güldü.

Jüsten dedi:

-Hə, İbrahim bəy, bu, onu göstərir ki, dünya get-gedə kiçilir. Əvvəllər heç yatsam yuxuma da girməzdi ki, hansısa bir türklə dost olacaq, nə vaxtsa onunla İstanbulda şirkət, dükan açacağam.

-Hələ Bakını desəniz...

Jesten ucadan:

-Ta deməyin... Bakı... Bakı... –Və birdən sanki nədənsə ehtiyat edirmiş kimi səsini hissolunacaq dərəcədə alçaldaraq soruşdu: - Deyirsiniz, gözəl şəhərdir hə?

-Bəli. Belə getsə, Bakı bir azdan Parislə yarışacaq.

Jüsten ətrafına nəzər saldı, sanki onun gözləri kimisə arayırdı.

-İbrahim bəy, bəlkə bir az viski içək. Qəhvə içməkdən lap şişib qurbağaya dönmüşəm.

-Elə mən də o gündəyəm.

-Madam ki, etiraz yoxdur, onda yüz-yüz viski içək.

Jüsten bu sözləri ucadan dedi. Bayaqdan qapısı açıq olan qonşu otaqda nəsə vurnuxan qadın təbii ki, bu sözləri eşidib divardakı “barın” şüşə qapısını ehtiyatla açdı, qədəhlərə viski süzdü, asta- ehtiyatlı addımlarla onlara yaxınlaşdı.

Dostlar bala-bala, qurtum-qurtum viskidən vurmağa başladılar.

Televizorda türk musiqisi səslənməkdə idi.

-Qəmli melodiyadır, -deyə, Jüsten mahnını dinləyərək dilləndi.- Lap adamın içini sökür.

İbrahim bəy dedi:

-Doğrudur. Bu mahnı məni çox uzaqlara aparır.

Səslənən musiqi payız axşamının özü kimi hüznlü və həzin idi.

Onlar bir müddət, musiqini dinləyə-dinləyə fikrə getdilər.

Sonra Jüsten televizora baxa-baxa dedi:

-Yaxşı, İbrahim bəy, bəs Bakıdan təzə nə xəbər-ətər?

-Nə mənada?

-Orada işlər gedir?

-Niyə də getməsin?Allah qoysa, orada yaxşı bir iş qurulacaq.

-Deyirsiz, yəni müasir şəhərdir hə?

-İnanmırsız?

-Yox. Niyə ki? Sizə inanıram.

-Bakıdakı əhali yaxşı geyim-kecimi çox yaxşı seçə bilir.

-Məni geyim-gecimdən çox, ayaqqabı maraqlandırır.

-Elə məni də...

-Bilirsiz də, mənim belə bir sözüm var: adam başdan yox, ayaqdan tanınır... Daha doğrusu, hər şey ayaqdan başlayır...

Hər ikisi gülüb əllərini bir-birinə vurdu.

Jüsten ciddiləşib dedi:

-Əslində, məni Bakı ilə bağlı maraqlandıran başqa bir məsələ də var.

İbrahim bəy:

-Bu gün Bakı bütün Avropanı, hətta, mən deyərdim ki, bütün dünyanı maraqlandırır-dedi və sınayıcı nəzərlərlə dostunu süzdü:- Bakı həm də bir neft şəhəridir. Bəlkə neft alış-verişinə keçmək istəyirsiniz, müsyö? Sizi bu, maraqlandırır?

Jüsten güldü:

-Yox, canım, nə neft, neft mənlik deyil. Mən sizə sonra deyərəm Bakı məni nə üçün maraqlandırır.

-Bu, sirdir?

Jüstenin cavabı bir qədər ləngidi:

-Sirr deyəndə ki... Bunu sizə sonra deyərəm.

İbrahim bəy:

-Oldu. Nə zaman istəsəniz ürəyinizdən keçəni mənə deyərsiniz. Amma ürəyimə damıb ki, sizi orada nə maraqlandıra bilər.

-Sizcə, bu, nə ola bilər?

-Arabir televizorda gödüyünüz Bakı gözəlləri.

Jüsten ciddi görkəm aldı:

-Yox... Bəlkə də düz deyirsiniz... Sonra izah edərəm bu səbəbi.

-Mənim etirazım yoxdur, müsyo.

-Hər şeyin öz vaxtı var.

-Elədir, müsyö,-deyə, İbrahim bəy dilləndi və ətrafa göz gəzdirib kimisə axtarirmiş kimi dilləndi: -Bura bax, müsyö, Fransuaza gözümə dəymir, haradadır?

Jüsten bir qədər susub könülsüz halda dilləndi:

-Doğrusu, heç bilmirəm bu qız hansı tərəfə çəkib.

-Nə mənda?

-Elə hər mənada. Xasiyyətdə nə mənə oxşayır, nə də Sabinaya. Mənə elə gəlir ki, o, çox kobuddur. İpə-sapa yatmır heç...

-Yox, elə qız deyil bizim Fransuaza. O, çox ağıllı,

tərbiyəli bir qızdır. Təki bizim xanımların hamısı onun kimi kültürlü olsun.

-Axı siz vəziyyəti bilmirsiz, İbrahim bəy.

-Hansı vəziyyəti?

-Sabina onu istəyən oğlanla savaşıb.

İbrahim bəy gülümsədi:

-Necə yəni savaşıb?

-Sadəcə. O, Viktoru döyüb.

-Kimi? Viktoru? Nə edib? Əzişdirib? Ha-ha-ha... Bu, ola bilməz, canım...

İbrahim bəy şaqqanaq çəkib güldü.

Jüsten ciddi şəkildə dedi:

-Siz gülürsüz... Amma bu, həqiqətən belədir. Oğlanı əməlli-başlı əzişdirib.

-Bunu Fransuaza özü dedi?

-Bəli. Amma oğlan ondan yenə əl çəkmir.

-Canım, heç belə şey olar?

-Olub də. Mən ona dedim ki, qızım, onda əl çək Viktordan. Fransuaza deyir ki, mən əl çəkirəm, o, məndən əl çəkmir.

-Biz tərəfdə bir məsəl var, deyir ki, it əl çəkir, motal əl çəkmir.

Deyəsən, İbrahim bəyin çəkdiyi məsəl bir qədər kobud çıxdı. Və görünür, elə bu səbəbdən də Jüsten öz dostunu tərs-tərs süzüb susdu. Sonra hər ikisi gülümsəyib mənalı-mənalı bir-birinə baxdı.

Televizorda klassik bir melodiya səslənirdi...

Jüsten üzünü İbrahim bəyə tutub fikirli halda dedi:

-Fransuaza mənə Sabinamdan qalan yeganə yadigardır.

İbrahim bəy dostunun dediklərini təsdiq etdi:

-Əlbəttə... Amma, doğrusu, mən onun hansısa bir

oğlanı əzişdirməyini heç cür təsəvvür edə bilmirəm.

Jüsten gülümsədi:

-O, vaxtlə idmana gedib. Atletdir. Əlləri də güclüdür. Elə uşaqlıqda dalaşqan olub. Dedim də, bizim nəsildə heç belə adam olmayıb... Düzdür, Sabina da idmanı sevirdi, atların dəlisi idi, saatlarla cıdırda qaçan atlara tamaşa edərdi. Amma o, belə dəcəl, dalaşqan olmayıb. Fransuaza lap od parçasıdır.

-Elə bir yana baxanda belə yaxşıdır. Çox sakit olmaq da də bir şey deyil, müsyö. İndiki oğlanların çoxunda centelmenlik çatışmır. Əzişdirmək lazımdır belələrini. Ha-ha-ha... Amma doğrusu, o oğlana yazığım gəlir...

-Elə mənim də.. Deyirəm, qızım, birdən o döydüyün oğlan axmağın biri olar, verər səni polisə. Deyir ki, elə polisi də onun gününə salaram. Deyirəm, onda biz bütün Fransada biabır olarıq. Deyir ki, biz niyə, qoy kim günahkarsa, kim döyülürsə o da biabır olsun...

-Doğrudan belə deyir?

-And olsun Allaha...

-Ha-ha-ha... Düz deyir... Xoşum gəldi Fransuazadan. Görüşəndə onun alnından öpəcəyəm bir əmi kimi... Mən elə bilirdim ki, təkcə bizim İstanbulda olur belə amazonkalar. Əhsən... Ha-ha-ha...

Jüsten də ona qoşulub gülməyə başladı.

İbrahim bəy cibindən çıxartdığı ağ dəsmalla yaşarmış gözlərini silə-silə dedi:

-Müsyö, mən son vaxtlar pis bir vərdiş qazanmışam.

Jüsten təəccüblə çiyinlərini çəkdi.

-O, nə vərdişdir elə?

-Adamların ayağına baxıram yalnız...

-Adamların, yoxsa təkcə qadınların...

-Hə də... Qadınların.

Gülüşdülər. Jüsten lap uğunub getdi:

-Paho... Hələ məni desəniz... Gözümü qadınların ayağından çəkə bilmirəm. Hiss edirəm ki, onlar təəccüblə mənim üzümə baxırlar. Mənim gözlərim isə onların ayağında... Mən bu vərdişə bir ad qoymuşam: “ayaqqabı xəstəliyi”. Qadın ayaqqabının ticarəti ilə məşğul olan adam daha hara baxmalıdır ki? Biz dəllək, ya papaqçı deyilik ki, adamın başına baxaq. Yəni bizim “xəstəliyimizin” səbəbi anlaşılandır.

-Elədir.

Jüsten pəncərədən bayıra boylandı:

-Bərk yağır. Qorxuram eşiyə çıxa bilməyək.

-Parisin yağışı ötəri olur...

-Saxta sevgilər kimi...

İbrahim bəy də pənçərədən eşiyə boylandı.

-Belə getməz. Hava bir azdan açılar.

Jüsten:

-Hə, Bakıdan danışırdıq.

-İnşallah, tezliklə orada böyük bir dükanı kirayəyə götürəcəyik. Yerinə baxmışam. Yaxşı, gur yerdədir. Allah qismət etsə, gedib birlikdə baxarıq.

Jüsten soruşdu:

-Əlaqəniz var Bakı ilə?

-Əlbəttə. Bir də ki, əlaqəyə nə ehtiyac? Budur, televizor burda, biz burda.

-Axır ki, istəyinizə çatdınız, İbrahim bəy. İndi bizim “teleboşqabımız” Bakını da tutur. Arabir baxıram.. Hətta, siz burada olmayanda belə...

-Diqqətli olsanız, orada nə danışdıqlarını da anlaya bilərsiz. Türk dili ilə Azərbaycan dili çox yaxındır. Sanki eyni bir dildir. Axı siz türkcə anlayırsız.

-Hə, mən dillərin bu yaxınlığını hiss edirəm. Amma

canlı ünsiyyət olmadığına görə hələ anlamağa bir az çətinlik çəkirəm.

-Yeri gəlmişkən, bəlkə elə kanalı dəyişib bir az da Bakıya baxaq.

-Olar. Bu, çətin bir iş deyil ki. İndi dünya ovcumuzun içindədir.

Jüsten pultu götürüb kanalı dəyişdi.

Ekranda Bakı mənzərələri göstərilirdi.

-Əla. Görürsüz də, müsyo...

-Orada hava günəşlidir deyəsən.

-Hə, orada il boyu Günəş çıxır.

-Günəş yurdu...

-Odlar yurdu... Azərbaycanı çox vaxt belə adlandırırlar.

-Mən gəzməyi çox sevirəm... Amma özünüz bilirsiz, Sabinanı itirəndən sonra buradan heç yana çıxmıram. Ax, Sabinam mənim... Bəlkə də təsəvvür etməzsiz ki, mən necə üzülürəm, İbrahim bəy?

-Allah səbr versin. Müsyö, hələ bilmək olmaz..

-Nəyi?

-Sabinanın taleyini deyirəm.

-Üzülürəm, offf, üzülürəm, İbrahim bəy...

Televizorda səslənə musiqi sədası sanki küçədə yağan yağışın davamı idi: səslər damcı kimi bir-birinə qovuşub həzin bir melodiyaya çevrilir,o həzin melodiya sonsuzluğa sarı üz tutub axır, axırdı.

Bir azdan musiqi dəyişdi. Sanki indi çöldəki yağış o melodiyanın davamı kimi səslənirdi: şırrr, şırrrr, tup-tup....

Televizorda yenə kadr və musiqi dəyişdi. Oradakı kamera hansısa böyük bir auditoriyanı (bəlkə də fənn kabinəsini), seyr etməyə başladı. Qəfildən ekranda iri planda qadın sifəti göründü. Bu kadrı əvvəlcə İbrahim bəy

gördü; o, cibindən dəsmalını çıxararaq gözünü bir0iki dəfə sildi, boynunu irəli uzadıb diqqətlə, get-gedə artan bir heyrətlə ekrandakı qadına baxmağa başladı. Sonra onun baxışları divardan asılmış şəklə dikildi. Məsələ burasında idi ki, nəhəng ekranda görünən və şəkli divardakı çərçivəyə salınmış qadın bir almanın iki dilimi kimi bir-birinə bənzəyirdi. Bəlkə də bu təsvirlərdəki qadınların hər ikisi eyni adam idi. İbrahim bəy əlini ürəyinin üstünə qoydu.

-Əfəndim... Müsyö...

Heç nə anlamayan Jüsten əyilib diqqətlə dostunun rəng verib rəng alan sifətinə baxdı.

İbrahim bəy eləcə donmuş vəziyyətdə idi: irilənmiş, az qala hədəqəsindən çıxan bəbəkləri ekranda bir nöqtəyə sancılıb qalmışdı.

Jüsten qorxuya düşdü. “Buna nə oldu görəsən? Bu nə işdir başımıza gəlir?”

-İbrahim bəy... Əfəndim... Nə oldu sizə? Niyə cavab vermirsiniz?

İbrahim bəy elə həmin vəziyyətdə, gözləri az qala hədəqədən çıxmış, rəngi qaçmış halda dinməz-söyləməz əlini ekrana sarı uzatdı.

Jüsten cəld çevrilib televizora sarı baxdı. Sanki kişini qəfil ilan çaldı. O, kresloya çökdü. Aman Allah, ekranda danışan qadın onun illərdən bəri yolunu gözlədiyi sevimli, gözəl arvadı Sabina idi. İbrahim bəy kimi Jüstenin də nitqi bir anlığa tutuldu.

“Sabina” auditoriyada dərs deyirdi.

Jüsten istər-istəməz bir ekrandakı qadına, bir də elə televizorun üstündəki fotoya baxdı. Fotodakı qadın gülümsəyirdi, amma ekrandan boylanan xanımın sifəti bu anlarda çox ciddi idi; yəqin ki, gülümsəyəndə o da eyzən Sabina kimi cazibədar olacaqdı. Necə yəni, “Sabina

kimi”? O qadın Sabinanın özü idi. Buna heç bir şəkk-şübhə ola bilməzdi. Yox... Amma... Axı bu, necə ola bilərdi?

Kadr dəyişdi. İndi televizorun ekranında yallı gedən gəncləri göstərirdilər.

Sanki bayaqdan heyrətlə susub ekrana baxan, nitqi tutulmuş İbrahim bəyin dili indi açıldı.

-Müsyö Jüsten, özünüz gördünüz də...

Jüsten ekranda qol götürüb oynayanlara baxaraq üzgün halda dilləndi:

-İbrahim bəy, görəsən bu, yuxu deyil ki?

-Düzü, əvvəlcə mən də elə bildim ki, yuxu görürəm. Ona görə də sakitcə bu “yuxunun” necə qurtaracağını gözləməyə başladım. Yaxşı ki, siz yanımda idiniz. Yoxsa bunu kimə desəydim, məni doğrudan da dəli hesab edərdi. Axı Bakı hara, Sabina hara?

-Mən də heç nə anlamıram. Amma Sabina idi ekrandakı, İbrahim bəy. Onun özü idi... Buna qətiyyən şübhəniz olmasın.

Jüsten şokdan ayılmamışdı. “Axı, bu, necə ola bilər?”

...Araya uzun bir sükut çökdü.

Bu anlarda Jüstenin qulağındamı, beynindəmi uğultunu xatırladan bir melodiya səslənməyə başladı. Amman Allah, deyəsən bu səs musiqidən çox, boğuq təyyarə uğultusuna bənzəyirdi.

Onun gözləri önündə Sabinanın gülər, şad, cazibədar çöhrəsi canlandı.

Hə, Jüstenin yaxşı yadındadır həmin anlar. Onlar Fransanın cənubundakı kurortlardan birinə dincəlməyə hazırlaşırdılar. Sabına səfərə daha tez yollanmalı oldu. Bunun da özəl bir səbəbi vardı. Kurort şəhərində həm də onların ayaqqabı mağazaları şəbəkəsinin yeni bir dükanı açılacaqdı. Ailədə məsləhətləşib belə qərara gəldilər ki,

dükanın açılışında Sabinə iştirak etsə daha yaxşı olar. Axı hər necə olsa da, bu, qadın ayaqqabısının satışı üçün nəzərdə tutulmuş bir dükan olacaqdı. Onda Fransuazanı təhsil aldığı universitetdən praktikaya göndərmişdilər; axşamlar evə gec gələn qız iki gündən sonra işlərini yekunlaşdıracaqdı. Ata ilə qızın bileti elə bu səbəbdən iki gün sonraya alınmışdı.

Həmin anlarda Sabina necə də xoşbəxt idi. Onun üz-gözündən sanki işıq süzülürdü. Jüsten Fransuazanın evdə olmamasından istifadə edib arvadını bərk-bərk sinəsinə sıxdı. Sonra onu üstufca qucağına alıb böyük divanın üstünə uzatdı. O anlarda Sabina cavan qız kimi şıltaqlıq etsə də, onun qıyılmış gözəl, ala gözləri par-par yanırdı. Bu gözlər, bahar səhərində açılıb gecədən yadigar qalan şəffaf şeh damlalarını özünə çəkmək istəyən bir cüt çiçəyə bənzəyirdi. Hələ onun təbəssüm ilğımında tətrəyən dodaqları... Sabinanın elə dodaqları da bir-birinə sıxılmış ətirli bahar çiçəklərinin ləçəklərinə bənzəyirdi. Jüsten öz məlahətli görünüşü ilə təpədən-dırnağa bir dəstə çiçəyi xatırladan arvadını sinəsinə sıxdı. Sanki bu anlarda bu azman kişinin qucağında nəhəng bir gül dəstəsi, ətirli bir buket vardı.

Yaxşı yadındadır, onda Jüsten zarafata keçdi:

-Məni tənha qoyub haraya gedirsən, vəfasızım mənim?..

Sabina nazlandı:

-İki gündən sonra sən də gələcəksən.

-Mənə sənsiz keçən hər il əbədiyyət qədər uzundur, canım.

-Baho! Yeni dövrün köhnə komplimenti.

-Komplimentin yenisi-köhnəsi ola bilər. Elə ayaqqabının da dəbi mövsümə görə dəyişə bilər. Amma

əsl məhəbbət heç vaxt köhnəlmir. Bir sözlə, əsl sevgi həmişə dəbdə olur.

Sabina ərinin qolları arasından pişik kimi sivişib çıxaraq dedi:

-*Daim dəbdə olan bir şey var, o da,*
*Sevgidir, qocalmır qoca dünyada.*

-Əla sözlərdir, Sabina. Elə özün də əlasan bu gün..

Sabina əlini ərinin çiyninə qoydu:

-Yox, ta qocalıram, Jüsten...

-Fransuaza yenə ipə-sapa yatmır. Həyətin bütün adamları ondan şikayət edirlər.

Sabina həmin anlarda bir qədər fikrə gedib duruxdu.

-Niyə ki?

-O, hamıya divan tutur.

- Qızımız çox emosionaldır. Ondan muğayat ol, Jüsten.

Onda Jüsten ürəkdən gülmüşdü:

-Hər halda bizim nəsildə belə dəlisov adam yoxdur. Xüsusən də qadınlarımız arasında.

Jüsten indi də xatırlayır, o vaxt Sabina mənalı tərzdə demişdi:

-Elə bizimkilər də sakit adamlardır.- Və sonra əlavə etmişdi: -Görünür, qızımız əcdadlarımızdan hansınasa çəkib...

-Sabina, təkcə onu bilirəm ki, Fransuaza çox dəcəldir.

-O, təkcə səninlə mənim qızım deyil ki. O, həm də öz zəmanəsinin qızıdır, Jüsten.

Susdular.

Sonra Jüsten soruşdu:

-Elədir, Sabina. Bura bax, ananla görüşdün?

-Əlbəttə.

-İrma xalanın səhhəti necədir?

-Pis deyil.

-Sənin kurorta getməyinlə bağlı bir söz demədi ki?

Sabina duruxdu:

-Yox... Nə deyəsidi ki?

-Heç, elə-belə deyirəm.

-O, mənə yaxşı istirahət arzuladı.

-Yaxşı, əzizim, sənin təyyarənin uçmağına az qalır. Tərpənək. Bu, bizim bu il üçün, yəqin ki, sonuncu səyahətimizdir. Təzə ildən bəri üç ölkədə olmuşuq... Ta gəzməkdən yorulduq.

-Yox, Jüsten. Hələ bir səfərimiz də qalır.

-Haraya?

-Qafqaza.

-Qafqaza?

-Bəli. Azərbaycana, Bakıya.

Jüsten:

-Azərbaycan? Bakı? Hə, bildim Rusiyanı deyirsən.

Sabina:

-Azərbaycan indi müstəqil ölkədir.

Jüsten:

-Təxminən bilirəm. Bu şəhər haqqında İbrahim bəydən eşitmişəm.

Sabina:

-Hə, oraları İbrahim bəy daha yaxşı tanıyar. Hərdən deyir ki, orada da bir iş qurmaq olar...

-Hə, pis təklif deyil. Amma mən bir şeyi anlamadım: bəs Bakıya getmək sənin birdən-birə haradan ağlına gəldi, Sabina?

Sabina sirli-sirli gülmüşdü onda:

-Səbəbini sənə sonra deyərəm. Biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq. Gedişimizin məqsədini sən mənim arxamca gələndə deyərəm. Bu, hələlik bir sirdir.

-Oldu, mənim mələyim. Haraya desən mən səninlə məmnuniyyətlə gedərəm. Nəinki Bakıya, lap dünyanın o başına da.

Sabina:

-İndi isə gəl görüşüb ayrılaq, canım. Hələlik.

Jüsten:

-Hələlik. Qoy bir səni öpüm.

O, Sabinanı bir daha bağrına basmışdı.

Həmin söhbətdən bir müddət sonra, artıq Sabina olmayanda Jüsten bir neçə dəfə onunla olan söhbəti xatırlamışdı. Arvadının dedikləri hələ də onun qulaqlarında, beynində əks-səda verirdi: "Biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq. Bunun səbəbini sən mənim arxamca gələndə deyərəm. Bu, hələlik bir sirdir".

...Bu anlarda araya çökən sükutu İbrahim bəyin boğuq, qəhərlənmiş səsi pozdu.

-Gör aradan nə qədər vaxt keçib, amma o, zərrə qədər də dəyişməyib. Heç belə şey olar? Mən şokrayam, vallahi...

-Doğrudan da... Sanki o, məndən dünən ayrılıb. Bu ötən illərdə mən çox dəyişmişəm, amma o, elə əzəlki kimidir. Gözəl, incə, təravətli...

-Müsyö, mən yaxşı xatırlayıram, onda Fransuaza təzəlikcə universitetə gedirdi. Amma indi, maşallah, böyük qız olub. Hətta, özündən deyən oğlanlara belə divan tutur. Ha-ha-ha...

-İbrahim bəy, zarafatı qoyaq bir kənara. Biz Sabinanı tapmalıyıq.

-Necə? Allah, Allah, gör heç onu kameraya almaq gəldimi bizim ağlımıza.

-Onu görəndə ağlım çaşdı. Düzü, elə bildim məni qara basır.

-Müsyo Jüsten, o, hansı kanalda danışırdı elə?

-Necə yəni hansı kanalda? Bu, Azərbaycan kanalıdır.

-Doğrudan da... Amma o, fransızca danışırdı axı.

-İbrahim bəy, qəribə sözlər danışırsan ha... Bəs o, hansı dildə danışmalıdır ki?

-Axı o, fransız kanalında çıxış etmirdi.

-Hansı kanal olur olsun. Bunun nə dəxli var ki? Mənim arvadımın bildiyi yalnız bir dil var...

-Fransız dili...

-Bəli, mən bunu dəqiq bilirəm. O, öz dilimizdə danışırdı. Amma heyif ki, çox az danışdı. Mən cəmi bir-iki cümlə eşitdim.

-Müsyö, bəlkə bizim bayaq baxdığımız kadrlar elə burada, Parisdə çəkilib. İndi orada göstərilir...

-Nə vaxt çəkilib?

-Elə o vaxtlar... Bəlkə...

Jüsten ani fikrə getdi:

-Yox, belə şey olmayıb. Olsaydı mən bunu mütləq bilərdim. Bu, bir. İkincisi, o kadrlar burada çəkilsəydi belə, inanmıram ki, kimsə onu aparıb Bakıda yayımlayaydı. Bir də ki, siz fikir verdinizmi, Sabina auditoriyada idi.

-Müsyö, mən bilən o, heç vaxt dərs deməyib. Elədirmi?

-Elə söhbət də ondan gedir.

-Bəs bunu necə müəyyən etmək olar?

-İbrahim bəy, bu, artıq sizdən asılıldır.

-Məndən?

-Bəli. Sizdən.

-Mən hazır, müsyö Jüsten.

-Mən də hazıram, İbrahim bəy.

Jüstenin rəngi qaralmışdı. Bu sarışın adamın sifətində

indi tünd kölgələr oynaşırdı.

İbrahim bəy ona ürək-dirək vermək istədi:

-Müsyö, özünüzü çox üzməyin. Siz hələ lazımsınız, gərəksiniz. Fransuaza üçün... Dostlarınız üçün. Lap elə İrma xala üçün; axı qaynananızın da sizdən başqa heç kəsi yoxdur.

Jüsten:

-Elədir,-dedi və duruxa-duruxa əlavə etdi: -Sizə bir şey demək istəyirəm, İbrahim bəy.

-Buyurun.

-Mən bəlkə də bunu deməməli idim.

İbrahim bəy dedi:

-Müsyö, necə istəyirsinizsə... Məsləhət deyilsə heç deməyin.

-Yox, deyəcəyəm.

Araya uzun bir sükut çökdü.

Sanki Jüsten ürəyində nəyisə götür-qoy edirdi.

-Məsələ belədir, İbrahim bəy. Sonuncu dəfə Sabina məndən ayrılanda...

Yenə sükut.

İbrahim bəy sakit bir səsə:

-Müsyö, həyəcanlanmayın, özünüzü ələ alın,-dedi.

-Hə, oldu... Yox, mən indi sakitəm... O, məndən ayrılanda dedi ki, istirahətdən qayıdandan sonra biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq.

İbrahim bəy tutulub təəccüblə soruşdu:

-Necə? Bakıya?

Jüsten boğulurmuş kimi dərindən nəfəs alıb astadan:

-Bəli, dedi ki, Bakıya...

-Bəs demədi nə üçün getməliyik?

-Yox.

-Qəribədir. Çox qəribədir.

-Hə, o, sonra dedi ki, mən bunun səbəbini sən mənim arxamca gələndə deyəcəyəm.

-Düzü, mən təəccüb edirəm. Bu, necə ola bilər?

-Bilmirəm. Mən sonralar onun sözlərini özümçün çox təhlil etdim. Axı o, Bakıya getməyi nə üçün arzulaya bilərdi?

-Sizcə nə üçün?

-Nə bilim? Ağlıma min cür şey gəlirdi.

-Məsələn?..

-Məsələn... Bildiyiniz kimi, Sabina at azarkeşi idi. O, bütün cıdır yarışlarına gedirdi. Hətta, son vaxtlar özünə at almaq fikrinə düşmüşdü. Düşünürdüm ki, bəlkə o, Qafqaza cins at almağa getmək istəyir. Axı Qafqaz atları bütün dünyada məşdurdur. Deyirdim, bəlkə...

-Yox, bu, inandırıcı görünmür... Bəlkə nəsə daha ciddi bir səbəb varmış...

Jüstenin sifəti tutuldü:

-Ciddi bir səbəbin olduğuna inanmıram.

İbrahim bəy dedi:

-Müsyö, gec-tez bütün sirlər açılır. Bir az səbrli olaq. Amma siz mənə indiyəcən bu söhbət barədə heç nə deməmişdiniz.

-Doğrudur.

-Çox qəribədir.

-İbrahim bəy, əgər xatırlayırsizsa, siz Bakıda bizim şəbəkənin bir nöqtəsini yaratmaq, daha sonra bizim televizorun "tarelka"sını Azərbaycan kanalına kökləmək təklifi ilə yanıma gələndə mən çox tez razılıq verdim. Hiss etdinizsə, hətta, bunadan məmnum oldum o vaxt. Həmin vaxt mənim beynimdə Sabinanın dedikləri təkrar-təkrar əks-səda verirdi: "İstirahətdən qayıdandan sonra biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq"...

-Bəli, mən elə onda hiss etmişdim bunu... Bakı adı çəkiləndə üzünüzdə əmələ gələn titrəyişi, gözünüzdə parıldayan odu mən onda görmüşdüm..

-Elə o vaxtdan içimdə bir həyəcan, bir tufan da var idi.

-Anlaşılandı, müsyö.

-Bəlkə də inanmazsanız, bu ötən illərdə mənə həmişə elə gəlirdi ki, günlərin bir günü məhz bu ekrandan Sabina haqda nəsə bir xəbər eşidəcəyəm. Ürəyim səksəkədə idi həmişə. Dünyanın işlərinə bax ki, mən televizorda nə vaxtdan bəri gözlədiyim xəbəri yox, Sabinanın özünü gördüm. İndi gördüyüm kadr, daha doğrusu, Sabinanın Bakıda peyda olması mәni varımdan yox elədi, İbrahim bəy. Axı bu necə ola bilər? Onun yad şəhərdə nə işi? Sabina məndən ayrılanda o sözləri nəyə görə demişdi?

-Mən sizi yaxşı anlayıram, müsyö.

-İndi mənim beynimdən nə qədər qarmaqarışıq fikirlər keçdiyini siz bəlkə də heç təsəvver edə bilməzsiniz, İbrahim bəy.

-Mən təsəvver edirəm bunu...

-Yaxşı, bəs Səbinə Bakıya, necə, nə üçün gedə bilər?

-Bəlkə...

-Ta bunun bir "bəlkəsi" yoxdur ki. Necə deyərlər, fakt göz qabağındadır. O, Bakıya kimin dəvəti ilə, hansı məqsədlə, nə üçün gedə bilər?

-Gəlin hələlik nəticə çıxarmağa tələsməyək, müsyo.

-Məsələ həm də burasındadır ki...

Jüsten susdu. Onun qulağında Sabinanın vidaqabağı dediyi sözlər əks-səda verdi: "Biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq. Bunun səbəbini sən mənim arxamca gələndə deyərəm. Bu, hələlik bir sirdir".

Sanki bu anlarda İbrahim bəy də öz dostunun arvadının dediyi həmin sözləri öz qulağı ilə eşitdi. Hər

halda Jüsten Burseyə elə gəldi.

İndi onların ürəyindən eyni bir sual təkrar-təkrar keçirdi: “Axı bu necə ola bilər? Bakı hara, Sabina hara?”

***

Həmin günün səhəri Jüsten öz qızı ilə mətbəxdə çay içə-içə ordan-burdan söhbət etməyə başladı. Ata qızının davranışında bir əsəbilik duyurdu. Çox güman ki, Fransuaz yenə Viktorla mübahisə etmişdi. Amma Jüsten bunun üstünü vurmaq istəmirdi. İndi onu bir şey düşündürürdü: qızına yeni səfərə hazırlaşdığını necə izah etsin? Əlbəttə, onun hansı bir ölkəyəsə səfərə çıxmağında qeyri-adi bir şey yox idi. Jüsten birinci dəfə deyildi ki, uzaq bir ölkəyə uçurdu. Sadəcə olaraq, o, indi qızına bu səfərin məqsədini açıb deməyə cəsarət etmirdi. Daha doğrusu, bundan qorxurdu. Axı qızına necə deyəydi ki, dünən ananı televizor ekranında görmüşəm. Özü də hansı televiziyanın kanalında? Azərbaycan adlı ölkənin. İlahi, görəsən Fransuaza indiyəcən Azərbaycan adlı bir ölkənin, Bakı adlı bir şəhərin adını eşidibmi?

Amma Sabinanın ondan ayrılarkən dediyi son sözlər ekranda gördüyü kadrlardan sonra onun beynində bir lent yazısı kimi təkrar-təkrar səslənməkdə idi: “Biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq. Bunun səbəbini sən mənim arxamca gələndə deyərəm. Bu, hələlik bir sirdir”.

Bayaqdan bəri ordan-burdan söhbət salan Jüsten handan-hana özündə cəsarət tapıb yavaş-yavaş mətləb üstünə gəlməyə başladı:

-İstəyirəm səni gəzməyə aparım.

Qız zorla gülümsədi:

-Ata, onsuz da mən hər gün şəhəri gəzirəm. Parisi dalan-dalan, küçə-küçə tanıyıram az qala...

-Fransuaza, mən səni səyahətə aparmaq istəyirəm.

-Səyahətə? Haraya?

-Bir Şərq ölkəsinə.

-O hansı ölkədir elə?

-Azərbaycan... Bakı... Heç bilmirəm eşitmisənmi bu yerlərin adını?

-Hə, bildim. İbrahim bəy deyirdi ki, orda bir mağaza açmaq fikriniz var.

-Ay sağ ol. Deyirəm, elə üçümüz də gedək Azərbaycana. Necə deyərlər, həm ticarət, həm də ziyarət.

-Bəlkə bir az düşünüm, ata?

-Biz bilet almaq istəyirik.

-Belə tezliklə niyə?

-Sonra zamanımız olmayacaq. İndi fürsət var ikən gedək.

-Mən bəzi işlərimi yekunlaşdırmaq istəyirdim bu günlərdə.

-O hansı işlərdi elə?

-Şəxsi işlərimi nəzərdə tuturam...

Jüsten ehtiyatla və eyhamla soruşdu:

-Yaxşı, bəs Viktor neyləyir?

Qız sualdan tutuldu. Udqunub yavaşdan dilləndi:

-Mən onunla tamam qurtardım. Xahiş edirəm, bir də bu mövzuya qayıtmayaq.

Jüsten dedi:

-O ki sakit adam idi.

Fransuaza:

-Mən yalanı heç vaxt bağışlaya bimərəm.

Jüsten:

-Özün bilərsən, qızım, mən sənin işlərinə qarışmaq istəmirəm. –dedi və bir az susub əlavə etdi:- Yaxşı, bəs mənə öz qərarın barədə nə vaxt deyə bilərsən?

-Hansı qərar?

-Sənə bilet alım, ya yox?

-Axşam deyərəm bu barədə.

-Onda nənəyə də baş çək. Gör İrma xala neyləyir.Amma səyahətə çıxacağımız barədə hələlik nənəyə heç nə demə. Qayıdıb gələndən sonra təəssüratımızı ona da danışarıq.

Jüsten qabağındakı boş stəkanı kənara itələyib öz otağına keçdi. Dünəndən oxumağa başladığı kitabı götürüb vərəqləməyə başladı.

Sabina şəkildən ona baxıb gülümsəyirdi.

***

Jüsten qarışıq, təlatümlü hisslərin pəncəsində vurnuxurdu. O, bu son günlərdə özünə müxtəlif məzmunlu suallar verməkdən yorulmuşdu. Həmin sualların bəzilərinə cavab tapsa da, bir çox suallar hələ də açıq qalmaqda idi. Onun bütün düşüncələri Sabina ilə bağlı idi.

Jüsten mistikaya inanan adam deyildi. Amma fakt bu idi ki, Sabina sağ-salamatdır, ucqar, uzaq bir ölkənin- Azərbaycanın televiziya kanalında çıxış etmişdi. Özü də fransız dilində. Bəlkə də Jüsten evdə tək olsaydı bütün bunların qarabasma olduğunu zənn edərdi. Yaxşı ki, həmin vaxt İbrahim bəy də onunla birlikdə idi. Ən maraqlısı isə orasında idi ki, Sabinanı ekranda ilk görən məhz İbrahim bəy olmuşdu. Bütün bunlardan sonra sən gəl həyatda möcüzəyə inanma görüm, necə inanmırsan. Onlar, Jüstenlə İbrahim bəy, həmin anlarda şoka düşmüşdülər, ekranda danışan Sabinanı, təəssüf ki, lenrə ala bilməmişdilər. Əgər bu “dəlil-sübut” əllərində olsaydı, alimlər demiş, məsələ daha konstruktiv mahiyyət

daşıyardı. İndilikdə isə ortada fakt yox idi. Yox, əslində fakt vardı, amma o faktı təsdiq etmək üçün imkan yox idi. Jüsten belə bir imkanı yalnız "hadisə yerində", Bakıda əldə edə bilərdi.

Onu İbrahim bəyin səsi ağır düşüncələrdən ayırdı.

-Müsyö, biletləri aldım. "Fransa Hava Yolları" ilə əvvəlcə İstanbula, oradan da Bakıya uçacağıq. Dediyim kimi, iki gün İstanbulda gəzinti, sonra da ki, Bakı... Hə, necədir?

- Yaxşı marşrutdur. Üç bilet, hə?

İbrahim bəy:

-Əlbəttə, üç... Dediniz ki, Fransuaza da razılıq verdi uçmağa.

Jüsten:

-Elədir, bəli... Amma Bakıya gedişimizin məqsədini hələlik Fransuazaya açıqlamayın. Mən ona demişəm ki, biz oraya yeni ayaqqabı mağazasının açılışına gedirik. Ayın neçəsinə bilet aldınız, İbrahim bəy?

-Ayın iyirmi birinə, saat iyirmi birə...

-Aman allah, bu, mənim Sabinamın doğulduğu gündür. İyirmi bir... Mənim ən sevimli rəqəmimdir...

Fransuazanın son vaxtlar qəm-qüssə yağan sifətindən həmin gün sevinc tökülürdü; sanki buludların arxasından Günəş çıxmışdı. Jüsten üzə vurmasa da bir ata kimi sövq-təbii hiss edirdi ki, qızı bu axşam özünü çox yüngül və rahat hiss edir. Fransuaza deyəsən, Viktorla məsələni "həll edib" qurtarmışdı. Amma nəticə necə idi? Jüsten bu barədə qızından heç nə soruşmaq niyyətində deyildi.Yox, indiyəcən onların arasında sirli, gizli heç nə olmamışdı. Arvadı öləndən sonra Jüsten öz atalıq məsuliyyətini başa düşərək qızının az qala bütün hərəkət və davranışlarını nəzarətə götürmüşdü.

Doğrudur, Fransuazanın boya-başa çatmasında, təlim-tərbiyəsində nənəsi İrma Satinin də rolu az olmamışdı. Amma son illər Jüstenin qaynanası tez-tez xəstələndiyi üçün qızın bütün məsuliyyəti atasının üzərinə düşmüşdü.

Onsuz da həyat get-gedə mürəkkəbləşirdi və bu mürəkkəb dünyada övlad, özü də qız övladı tərbiyə edib böyütmək heç də asan məsələ deyildi. Atanın narahatlığının səbəbini yaxşı ki, Fransuaza da dərk edirdi. Elə buna ğörə də o, öz şəxsi fikir və mülahizələrini hər zaman Jüstenlə bölüşməyə çalışırdı. Jüsten elə Viktoru da yaxşı tanıyırdı. Amma nədənsə ona lap əvvəldən elə gəlirdi ki, qızı ilə bu sakit oğlanın izdivacı baş tutmayacaq. Məsələ burasında idi ki, Viktor təkcə sakit təbiətli deyil, həm də qapalı, qaradinməz birisi idi. Jüsten təxminən bilirdi ki, qızı son günlər Viktoru, bu sakit, bu qaradinməz oğlanı hansı qızlasa küçədə qol-qola görüb. Ata öz qızının bu hərəkətə heç də sakit reaksiya verəcəyinə inanmırdı. Sakit, qaradinməz Viktor çılğın, emosional Fransuazanın suallarına çətin ki, cavab verə biləydi.

Deyəsən, elə bu cür də olmuşdu.

Bayaqdan atasının qayğılı sifətinə baxaraq uzun müddər susan qız, durub mətbəxə keçdi, sonra yenə böyük qonaq otağına  qayıdaraq handan-hana, sanki özü-özü ilə danışırmış kimi astadan dedi:

-Daha Viktorla qurtardım. Ta mənimçün o, yoxdur. Yaxşı ki, mən onu vaxtında tanıdım.

Jüsten susurdu. Axı bir də nə deyəydi? Bəzən həyat övladlara ata-anadan daha çox valideynlik edir. Yaxşı deyiblər ki, hər bir övlad təkcə öz valideynlərinin yox, həm də öz zəmanəsinin övladıdır.

-Ata, mən nənəgilə də getdim. O, öskürürdü. Gedib

dərman aldım. Amma özü heç nədən şikayət etmir. Deyir ki, yaxşıyam, məndən nigaran olmayın. Ata, mən sənin dediyin kimi etdim. Bizim səyahət planımız haqda nənəyə heç nə demədim.

-Oldu, qızım. Düz etmisən...

Bir səs onu kösöv kimi tüstülətməkdə idi: “Biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq. Bunun səbəbini sən mənim arxamca gələndə deyərəm”.

Bu, Sabinanın səsi idi.

Jüsten qovrula-qovrula qalmışdı.

**

İstabnulda ata və qız hoteldə düşdülər. Amma İbrahim bəy bütün günü onlarla birlikdə olurdu. Onlar İbrahim bəyin vaxtilə açılışında iştirak etdiyi qadın ayaqqabısı dükanına da baş çəkdilər. Orada alver pis getmirdi. Amma dükan darısqal idi. Qərara aldılar ki, Bakıdan qayıdanbaş bu məsələ ilə yenidən maraqlansınlar, imkan olarsa ya yeni bir geniş sahəli dükan yeri tapsınlar, ya da, qonşuluqda yerləşən dükanı alıb bu kiçik dükanla birləşdirsinlər.

Bakıya uçmağa hazırlaşarkən İstanbul hava limanında toplaşmış şən, deyib-gülən bir dəstə yəqin ki, hamının diqqətini cəlb etmişdi. Şıq, müasir dəbdə geyinmiş bu qadın və kişilərin elə ilk baxışdan harayasa, toya və ya ziyafətə getdiklərini düşünmək olardı. Bir azdan məlum oldu ki, onlar həqiqətən toya gedirmişlər.

Mavi zolaqlı kostyum geymiş kök kişi həmin şən dəstədən ayrılıb İbrahim bəyə yaxınlaşdı.

-İbrahim bəy, salamlar olsun.

Bayaqdan Jüstenlə söhbət edən İbrahim bəy öz adını eşidib geri qanrıldı.

-Oooo, Aydın bəy... Canım, necəsən? Nə xoş təsadüf?

Deyəsən, sən də Bakıya uçursan.

Onlar qucaqlaşıb öpüşdülər.

Kök kişi ətrafa ötəri göz gəzdirib dedi:

-Bəli, İbrahim bəy. Deyəsən biz eyni istiqamətə uçuruq.

-Düz tapmısan. Biz də Bakıya gedirik. Tanış olun, bu, mənim parisli dostum müsyö Jüsten, bu isə onun sevimli qızı xanım fransuaza. –Sonra İbrahim bəy üzünü Jüstenlə Fransuazaya çevirib dedi: -Bu isə mənim köhnə dostum Aydın bəydir. Tanış olun.

Onlar bir-birini yüngülcə təzim etdilər.

Aydın bəy bir daha özünü təqdim etdi, fransızca dedi:

-Aydın Sağlam. İbrahim bəyin dostuyam. Tanışlığa çox şad oldum.

Jüsten türk dilində cavab verib:

-Mən də şad oldum, əfəndim,-deyə, dilləndi.

Aydın Sağlam təəccüb qarışıq bir tonda dedi:

-Mən indi ikiqat şad oldum.

Hamısı gülüşdü.

İbrahim bəy:

-Müsyö Jüsten mənim şərikimdir. Gördüyünüz kimi, o, türkcə öyrənib.

Jüsten gülümsəyib dedi:

-Yox, türkcəni elə də dərindən bilmirəm. Məni çox tərifləməyin, İbrahim bəy.

Yenə xorla gülüş.

İbrahim bəy fransız dostunu tərifləyə-tərifləyə təqdim etməkdə idi:

-Mən olan şeyi deyirəm, nəyisə azaldıb-artırmıram ki... Müsyö Jüsten ingilis və italyan dillərini də əla bilir. Dil öyrənmək onda fitri bir istedaddır. Dostum özünü dünya vətəndaşı hesab edən bir insandır. Səyahət etməyi

çox sevir. Parisdə və İstanbulda ayaqqabı satışı ilə məşğul olan birgə şirkətimiz və dükanımız var. Bakıda da bir dükanımız olacaq... İnşallah.

Aydın Sağlam dedi:

-Uğurlar diləyirəm.

İbrahim bəy ətrafa göz gəzdirib dedi:

-Deyəsən, səfərə tək çıxmamısan, Aydın bəy.

Aydın Sağlam gülümsəyib dedi:

-Bəli, düz tapmısan, İbrahim bəy. Mən öz qohum-əqrəbalarımla birgə gedirəm Bakıya. Bunun da çox mühüm, ilginc bir səbəbi var.

İbrahim bəy dostunu qabaqladı:

-Təki yaxşı istəklə, xoş niyyətlə gedəsiz.

Aydın bəyin gözlərində sevinc ifadə edən işartılar parladı:

-Xoş niyyətlə gedirik. İnşallah, biz bacım oğlunun toyunu edəcəyik Bakıda. - Aydın Sağlam əlini uzadıb bir kənarda deyib-gülən dəstəyə işarə etdi: -Bax, o ucaboy xanım mənim bacımdır. Qalanlar da yaxın qohumlardır. Allah sizin subaylara da toy qismət eləsin.

İbrahim bəy zarafatyana soruşdu:

-Yaxşı, bəs bəy özü hanı?

-Canım, bəy ta bizi saymır ki. Bakıda xanımının yanındadır,-deyə, Aydın bəy gülə-gülə cavab verib Jüstenə göz vurdu.

Jüsten ciddi şəkildə dedi:

-Bəy düz edir. Adam öz sevdiyini gözdən qoymamalıdır.

Fransuaza mənalı tərzdə atasının üzünə baxdı.

Aydın Sağlam əlini yan cibinə atıb oradan bir qalaq vizit vərəqi və dəvətnamə çıxarıb İbrahim bəyə uzatdı:

-İbrahim bəy, mən sizi qonaqlarla birgə baçım

oğlunun toy məclisinə dəvət edirəm. Sizin gəlişinizdən çox məmnun olaram. Siz mənim şəxsi qonaqlarımsız. Bu, dəvətnamə, bu da mənim vizit vərəqim, İstanbuldakı və Bakıdakı telefon nömrələrim yazılıb. Çox məmnun oldum. Müsyö Jüsten, sizi də qızınızla birgə toya dəvət edirəm. Hamınızı gözləyəcəyəm. Görüşümüzdən çox məmnun oldum. İnşallah, toyda görüşərik.

Jüsten:

-Təşəkkür edirəm.

İbrahim bəy:

-Allah mübarək eləsin.

Repreduktordan gur səs eşidildi.

Təyyarəyə minik başlanmışdı.

Hərə keçib öz yerində əyləşdi.

Bir azdan sərnişinlərə yemək payladılar.

Jüstün mürgüləyib bir azdan yuxuya getdi.

O, qəribə bir yuxu görürdü. Görürdü ki, harayasa uzaq bir səfərə uçur. Nəhayət, uçuş başa çatdı. Təyyarə yerə enəndə Jüsten kiçik pəncərədən meydançaya göz gəzdirdi. Aşağıda, düz uçuş meydançasının ortasında ağ at üstə bir adam dayanmışdı. Jüstenə əvvəlcə elə gəldi ki, bu, meydançada qoyulmuş bir süvari heykəldir. Amma az sonra belə məlum oldu ki, “heykəl” canlıdır. Ağ at yerindən tərpənib təyyarəyə sarı addımladı. Jüsten yalnız indi gördü ki, atın üstdəki ağ geyimli bir qadındır. Atlının ağ yaylıq altından sifətinə tökülmüş xurmayı saçları, iri-parlaq gözləri kimisə xatırladırdı. Jüsten dözə bilməyib tez irəli atıldı. Adamlar növbəyə düzülüb qapıdan çıxmağa tələsirdilər. Stüardessa çıxanlara xoş bir təbəssüm bəxş edərək əl edirdi. Jüstenin növbəyə durmağa səbri çatmadı. O, ayağını yerə möhkəm basıb təyyarənin içindəki adamların başı üstdən bir quş kimi şığıyaraq irəli atlandı.

Yox, o, indi uçurdu, həqiqətən uçurdu. İçəridəki adamlar təəccüblə başlarının üstündən uçub gedən Jüsteni süzürdülər. Jüsten içəridə dövrə vurub təyyarənin çıxış qapısına sarı istiqamət götürdü. Qapının ağzındakı stuardessa xanım onu tutub saxlamağa cəhd etsə də heç bir şey edə bilmədi. Jüsten uçub meydançaya çıxdı. O, hələ də uçurdu. Amma... Amma meydançanın ortasında döyükən ağ atın belində heç kəs yox idi. Bəs qadın haraya yox olmuşdu birdən-birə? Elə yuxuda ikən Jüstenin ürəyi bərk-bərk vurub sanki sinəsindən çıxmaq istəyirdi. Deyəsən, at da öz sahibi üçün narahat idi: heyvan boynunu irəli uzadıb mağmın-mağmın trapla enən sərnişinlərə baxırdı. Jüsten bir göz qırpımında istiqaməti dəyişib geri "uçmağa" başladı. O, təzədən təyyarəyə daxil oldu. Öz səfər çantasını götürüb növbəyə dayandı. Qapıya çatanda heyrətindən az qala qışqıracaqdı. Stuardessa geyimində olan xanım elə indicə gördüyü süvari qadın idi. Qadın onun Sabinasına necə də bənzəyirdi, ilahi... O, qollarını açıb həmin qadıını öpmək istədi. Bayaqdan gülümsəyən, Sabinaya bənzəyən qadın qaş-qabağını töküb geri çəkildi. Qadın gənc, gözəl, cazibədar idi. Sabina da gəncliyində eyzən bu cür idi. Jüsten yuxuda inildədi: "Sabina".

Haradansa səs eşidildi:

-Təyyarə Bakı hava limanına enməkdədir.

Jüsten gözlərini açıb yana baxdı.

Fransuaza əlindəki dəsmalla onun alnında puçurlanan tər dənələrini silərək gülümsədi:

-Deyəsən, yuxu görürdün, ata.

Jüsten dillənmədi. O, hələ də gördüyü qəribə yuxunun təsirindən çıxa bilmirdi.

Təyyarə hava ilmanına enməkdə idi.

Uğultu eşidildi.

Təyyatə beton meydançada dövrə vurub dayandı. Jüsten illüminatordan yerə boylabdı. İndi onun baxışları qeyri-ixtiyari bayaq “gördüyü” ağ atı axtarırdı.

Təyyarənin qapısı ağzında dayanıb düşən şərnişinlərlə vidalaşan stüardessa xanımın sifətinə bu payız günündə nədənsə baharı xatırladan işvəli bir təbəssüm qonmuşdu.

Jüsten gülümsəyərək stüardessaya “sağ ol” deyib vidalaşdı.

Onlar yalnız trapı enəndə havanın küləkli olduğunu hiss etdilər.

Sabınanın səsi yenə onun qulağında əks-səda verməkdə idi: “Biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq. Bunun səbəbini sən mənim arxamca gələndə deyərəm”.

***

İbrahim bəy şəhəri yaxşı tanıyırmış. Onlar- Jüsten, İbrahim bəy və Fransuaza Bakının mərkəzində, Xəzərin sahilində yerləşən hotellərdən birində qalmağa qərar verdilər. Bir qədər dincəlib nahar etdikdən sonra şəhərlə tanış olmağa başladılr. Xüsusən, ata-bala Burselər Bakının tarixi abidələrinə böyük heyranlıqla tamaşa edirdilər.

Amma burası vardı ki, Jüstenin gözü elə qadınların ayağında idi. Aradabir onların satdıqları ayaqqabıları geyən xanımlar gözə dəyəndə Jüsten yüngülcə gülümsəyib dostunun üzünə baxırdı. Belə hallarda İbrahim bəy də qarşılıqlı gülümsəmə ilə “cavab” verirdi.

Az bir müddətdən sonra Jüsten qadınların ayağına baxmaq “mərəzindən” xilas olmaq üçün diqqəti qadınların üzünə yönəltməyə başladı. O, artıq altda-altdan qarşısından gəlib keçən qadınlara göz qoyurdu. Onun

gözləri sanki qiymətli bir itiyi axtarırdı. Axı Sabina bu şəhərdə olmalı idi. O, indi hər cür təsadüfə, hər cür möcüzəyə hazır idi.

Arada onlar gələcəkdə götürmək istədikləri dükana da baş çəkdilər. Bu, böyük bir pal-paltad dükanı idi. Amma ayaqqabı satışı üçün də yarayardı. Gur yerdə idi. Sahibi bir neçə ay əvvəl İbrahim bəylə sövdələşmişdi. Amma indi həmin kişini, dükanın sahibini tapa bilmədilər; dükandakılar sahibin xaricdə müalicədə olduğunu dedilər. İnciməyə dəyməzdi. Axı onlar Bakıya qəfildən, xəbər-ətərsiz gəlmişdilər.

Sonra onlar hotelə qayıdıb şam etdilər.

Hötelin eyvanına çıxdılar.

Sən demə, Bakının gecələri daha füsunkar imiş.

Bu anlarda Jüstenə elə gəlirdi ki, şəhər təkcə onun dinlədiyi, məxsusi onun üçün səslənən bir nəğməni oxuyur. Bu, nəsə qəmli, köhnə bir şərq nəğməsi idi. Jüsten yüz faiz əmin idi ki, bu səsləri, bu melodiyanı ondan başqa heç kəs eşitmir. Allah bilir, bəlkə elə doğrudan da yalnız onunçün çalırdılar bu "sirli" musiqini. Bu möcüzəli Şərq şəhərində hər nə desən ola bilərdi. O, daxilən hər cür gözlənilməzliklərə hazır olmalı idi.

Arvadının son səfərə yollanarkən dediyi sirli kəlmələr get-gedə bu səslərin hamısından bərk səslənib əks-səda verməyə başladı onun qulağında: "Biz mütləq Bakıya getməliyik, Jüsren. Mütləq. Bunun səbəbini sən mənim arxamca gələndə deyərəm. Bu, hələlik bir sirdir".

Jüsten öz-özünə pıçıldayırdı: "Hə, bu da Azərbaycan. Mən indi Bakıdayam, Sabina. Bəs sən haradasan, mənim mələyim? Hasradasan? Kim açacaq mənə sənin vəd etdiyin sirri. Axı o nə sirdi elə? Gəl məni bu sualların əlindən qurtar, Sabina".

Jüsten gecəni çox narahat yatdı.

Coşqun cavanlıq çağlarını artıq arxada qoymuş fransız qonaq, bu son günlərin hadisələrini dönə-dönə xəyalına gətirir, gözünün önündə canlandır, soyuq ağılla mühakimə etməyə çalışırdı.

Jüsten Sabinanı televizorda gördüyünü hətta ən yaxın tanışlarına belə, desəydi, çox güman ki, onun ağlının yerində olduğuna şübhə edərdilər.

Bəlkə doğrudan da onun səhhətində nəsə bir problem yaranmaqda idi? Bu, necə ola bilərdi: arvadını Fransada itirən Jüsten indi onu Azərbaycan adlı uzaq bir ölkədə axtarır.

Yaxşı ki, o, bu axtarışa tək çıxmamışdı. Tək çıxsaydı bu, daha gülməli, bəlkə də daha ağlamalı olardı.

Ən maraqlısı burasında idi ki, o, arvadını ekranda öz dostu ilə görmüşdü. Nə yaxşı ki, bu, belə olmuşdu.

Jüsten yenə tərəddüd və şübhə divarları qarşısında aciz qalmaqda idi. Bəlkə elə onun dostunu da qarabasma qarabaqara izləməkdə idi?

Maraqlıdır, görəsən iki adamı eyni vaxtda eyni qarabasma haqlaya bilərdimi? Görəsən, elmdə belə bir tədqiqat aparılıbmı indiyəcən? Doğrudan da, bəlkə hər iki dostun ağlı eyni vaxtda çaşıb? Bəlkə paralel hallüsünasiyala da baş verir bu dünyada? Nə desən olar bu zəmanədə.

O, az qala bütün gecəni yerində ilan kimi qıvrılıb açıldı. Sabinanın əksi, xəyalı onu bir an da olsa tək buraxmırdı. Xüsusən, son dəfə ekranda gördüyü “Sabina” onun gözləri önündən çəkilib getmirdi.

“İlahi, bəlkə mən dəli oluram? Bəlkə mən ağlımı itirmək ərəfəsindəyəm? Özün mənə kömək ol, ya Rəbbim. Mənim övladıma, mənim Fransuazama yazığın gəlsin,

ilahi. Mənim hələ arzularım çoxdur".

Yalnız səhərə yaxın Jüstenın gözündən yuxu süzülməyə başladı.

O, yuxudan duranda İbrahim bəy geyinib-gecinmişdi, dəhlizdəki kresloda əyləşib qarşısındakı iri dəftərə nəsə qeydlər edirdi.

Jüsten yuyunub üzünü qırxı, odekalonla ətirləndi, təzə dümağ köynəyinin boynuna qırmızı qalstuk bağladı. Axı onlar bu gün həm də toya gedəcəkdilər. İbrahim bəyin dostu Aydın bəy onları bu axşam toya çağırmışdı.

Hə, o dəqiqə hiss olunurdu ki, bayırda hava da xoşdu. Dünənki küləkdən əsər-əlamət qalmamışdı. Bu cənub ölkəsinin havası deyəsən tez-tez dəyişirdi.

İbrahim bəylə Jüsten qəlyanaltı etməyə hazırlaşarkən Fransuaza hələ şirin-şirin yatırdı, yuxu bişirirdi. Allah bilir, bəlkə elə qız da səhərəcən öz anası barədə düşünmüşdü?

Jüsten çay içib otağa qayıdanda Fransuaza gözlərini açmışdı, amma qızın hələ də yuxulu olduğu aydınca hiss olunurdu.

Jüsten ehtiyatla:

-Mənim qızım, oyanmısan? -deyə, soruşdu.

Fransuaza mələfəni sinəsinəcən çəkib mızıldandı:

-Hə... Ata, amma hələ yuxudan doymamışam.

-Yaxşı, onda bir az da dincəl. Oyananda restoranda nahar edərsən.

-Bəs siz?

-Biz İbrahim bəylə qəlyanaltı etdik.

-Həəə... Nə tez?

-Yox, elə də tez deyil. Hava çoxdan açılıb.

-Mən hələ yatmaq istəyirəm, ata.

-Onda belə danışaq. Mən İbrahim bəylə şəhərə çıxım.

Bir-iki dükana baxmaq istəyirik...  Tez qayıdacağıq. Açar qapının üstündədir. Onda biz gedirik.

-Oldu, qızım. Elə hoteldə gözləyərsən.

-Oldu, ata.

Jüsten dəhlizə çıxanda İbrahim bəy gəzişirdi.

-İbrahim bəy, Fransuaza hələ yatır.

İbrahim bəy sualdolu nəzərlərlə onu süzüb susdu.

Jüsten gülümsədi:

-Bəlkə də elə bu cür yaxşıdır.

-Nə mənada, müsyö Jüsten?

-O mənadaki bu axtarışın nə ilə yekunlaşacağı hələ heç birimizə məlum deyil. Fransuazanı niyə indidən öz aləmindən ayırırıq axı? Elə deyilmi? Bəlkə heç bu məsələni açıb-ağartmağa ehtiyac qalmadı.

-O da doğru fikirdir, müsyö Jüsten.

***

İbrahim bəylə Jüsten taksidən düşüb geniş səkini keçdilər. Onları televiziya binasının dar-ensiz girişində tutqun-ciddi sifətli, ucaboy, gənc bir polis nəfəri qarşıladı.

İbrahim bəy irəli keçdi. Axı hər necə olsa da bu ölkənin qayda-qanunlarına, buradakı adamların davranışına, dilinə o, daha yaxşı bələd idi.

-Buyurun, eşidirəm.

Bu sözləri deyən polis nəfəri  yeriş-duruşundan buralar adamına bənzəməyən müsafirləri diqqətlə süzdü.

İbrahim bəy bir qədər duruxub dedi:

-Biz buraya bir məsələ üçün gəlmişik.

-Sizə kim lazımdır?

İbrahim bəy tutuldu. Bir az fikrə gedib gülümsədi.

-Doğrusu, heç bilmirəm biz burada kimə müraciət

edək.

-Siz kimi axtarırsınız?

-Biz... Biz bir qadını axtarırıq.

-Qadın burada hansı vəzifədə çalışır?

-Biz bilmirik qadın harada çalışır.

Oğlan təəccüblə onları başdan-ayağa süzdü:

-Burada çalışmayan qadını burada nə üçün axtarırsınız?

İbrahim bəy Jüstenə işarə ilə:

-Biz burada qonağıq,-dedi.

Polis çiynini çəkdi:

-Nə olsun ki?

İbrahim bəy bir qədər əsəbi halda dedi:

-O olsun ki, bizə kömək lazımdır. Biz bu televiziyanın böyüyünü görmək istəyirik.

-Buranın rəhbəri indi xaricdədir.

-Olsun onun müavini ya köməkçisi.

Gənc polis əlini yuxarıya sarı uzatdı:

-Onlar da iclasdadır.

-Bizi burada bir adamla görüşdürün.

-Kimlə?

-Burada çalışan birisi ilə.

-Mən elə burada çalışıram də...

-Bizə polis yox, buranın bir müxbiri, bir reportajçısı lazımdır.

-Məsələn, kim?

Müsafirlər tutuldu. Doğru sözə nə deyəsən?

İbrahim bəy daxilən hiddətlənsə də, polis nəfərinin də haqlı olduğunu düşünürdü.

Onların qapıdakı mübahisəsi xeyli uzandı. Bəlkə də bu söhbət hələ də uzanacaqdı və qanqaraldıcı bir finalla bitəcəkdi. Amma yaxşı ki, içəri keçmək fürsəti yarandı.

Bayaqdan qapının ağzında var-gəl edib kimisə gözləyən ortayaşlı, qaraşın bir kişi onlara yaxınlaşıb özünü təqdim etdi; sən demə bu kişi buranın aparıcı müxbirlərindən biri imiş.

Onlar tezliklə içəriyə daxil olma izni aldılar.

Ortayaşlı adam müsafirləri siqaret tüstülədən ucaboy, çalsaç, qarabığ bir kişinin yanına apardı. Kişi özünü təqdim etdi:

-Proqram direktoru Şamil Qayıbov.

İbrahim bəy əlini irəli uzatdı:

-İbrahim bəy. Bu isə müsyö Jüstendir.

Onları bura gətirən qaraşın kişi üzünü proqram direktoruna tutub:

-Şamil müəllim, xahiş edirəm, bu qonaqlara kömək edin,-dedi.

-Oldu. Baş üstə, bəy.

Qaraşın kişi qonaqlara əl uzadıb üzrxahlıq edərək otaqdan çıxdı.

Onlar, İbrahim bəylə Jüsten, televiziyaya gəlişlərinin məqsədi barədə proqdam direktoruna yerli-yataqlı məlumat verdilər.

Proqdam direktoru onları diqqətlə dinləyib bir xeyli fikrə getdi, sonra tərəddüdlə dedi:

-Mən sizi anladım. Olsun ki, bizim verilişlərin hansındasa belə bir çıxış olub. Amma biz həmin xanıma birbaşa deyə bilmərik ki, tez durun bura gəlin, sizi axtaran adamlar var.

İbarahim bəy cəld dilləndi:

-Yox, canım, xanımı niyə dəvət edirsiniz? Biz özümüz gedərik onun arxasınca.

Direktor ciddi tərzdə dedi:

-Rəhmətliyin oğlu, bunun nə fərqi? Ya Həsən keçəl,

ya keçəl Həsən... Söhbət heç də ondan getmir ki, kim kimin arxasınca gedir və ya getməlidir?

İbrahim bəy emosional halda dilləndi:

-Bəs söhbət nədən gedir?

Proqram direktoru təmkinlə dilləndi:

-Söhbət ondan gedir ki, yad ölkədən iki nəfər gəlib üzünü görmədikləri bir qadını axtarırlar.

İbrahim bəy yenə dilini dinc qoymadı:

-Üzünü görmədikləri niyə, canım? Biz o xanımı sizin televiziyadakı verilişdə görmüşük.

Kişi əlindəki siqaret kötüyünü külqabıya basdı.

-Olsun. Görün. İnanıram. Biz elə o adamları görünmək üçün veririk. Amma baxır kim o verilişlərə hansı niyyətlə tamaşa edir.

İbrahim bəy incik halda dedi:

-Bizim heç bir pis niyyətimiz olmayıb.

Kişi qutudan yeni siqaret dənəsi çıxartdı:

-Mən fikriki sizə anlatdım məncə...

İbrahim bəy:

-Yaxşı, bəs onda biz nə yapaq, kimə müraciət edək?

Kişi siqareti yandırdı.

-Heç kəsə üz tutmaq lazım deyil. Bizimlə əlaqə saxlayın.

-Biz əlaqə saxladıq də, canım. Elə bunun üçün gəldik bura.

Kişi siqaretinə qullab vurdu:

-Biz gərək bir məsləhətləşmə aparaq. Vəziyyətlə tanış olaq. Müəyyən bir qərara gələk. Gəldiyimiz qənaəti sizə bildirərik. Məndən inciməyin, mən məsləhətsiz sizə bir şey deyə bilmərəm. Mən özbaşına deyiləm ki?

İbrahim bəy təəccübləndi:

-Siz kiminlə məsləhətləşməlisiz axı?

Proqram direktoru şəhadət barmağını başının üstə sarı tutub astadan dedi:

-Əlbəttə, yuxarılarla. Hər halda bilinməlidir ki, axtaran kimdir, axtarılan kimdir.

-Bunu kim bilməlidir?

Direktor yenə təmkinlə cavab verdi:

-Əlaqədar qurumlar.

İbrahim bəy Jüstenə işarə etdi. Onlar ayağa durdular.

Jüsten göz qoyub gördü ki, müsahiblərinin sifəti daş kimi donuqdur. Kişinin səsi də donuq, boğuq idi.

-Oldu.

-Hələlik.

-Əlaqə saxlayın.

-Saxlayarıq.

Kişi stolun üstündən götürdüyü iki vizit vərəqini onlara uzadıb, yenə siqaretinə dərindən bir qullab vurdu:

-Bax, bu da mənim telefon nömrəm. Xahiş edirəm siz də öz qaldığınız hotelin telefon nömrəsini deyin.

İbrahim bəylə Jüsten televiziyanın həyətinə çıxanda sərin payız küləyi əsirdi.

***

Jüstenlə İbrahim bəy mehmanxanaya gələrkən yolboyu taksidə heç nə danışmadılar. Sanki onlar bir-birinə söz deməkdən ehtiyat edirdilər.

İndi Jüsteni dərd almışdı.

Bundan sonra necə hərəkət etməli?

Kimdən kömək udmalı?

Jüsten özlüyündə yüz faiz əmin idi ki, bu anlarda elə İbrahim bəy də özlüyündə həmin suallara cavab axtarır.

Televiziyadakı proqram direktorunun soyuq, daş sifəti

onun gözlərinin önündən çəkilmirdi. Bu adamın səsi, ədaları da elə sifəti kimi idi.

Söhbət efə-edə hotelə çatdılar. Artıq çoxdan oyanmış Fransuaza qəlyanaltı edib mehmanxanada Jüstenlə İbrahim bəyi gözləyirdi.

Yaxşı ki, onlar öz “axtarışları” barədə Fransuazya bir söz deməmişdilər. Yoxsa qızda bir könül qırıqlığı yara bilərdi.

Fransuaza mehmanxananın qənşərindəki gözəllik salonuna getdi. Axşamkı toya hazırlaşmaq lazım idi.

Arada Aydın bəy onlara zəng vurub hal-əhval tutdu. Hiss olunurdu ki, o, çox diqqətli adamdır.

İbrahim bəyin gözlərində nəsə bir sevinc işartısı sezilirdi. O,fransız dostunun qulağına astadan dedi:

-Müsyö, çox fikir etməyin.

Jüsten çiyinlərini çəkdi:

-Yox, fikir etmirəm, İbrahim bəy. Mən əminəm ki, hər şey yaxşı olacaq.

-O proqram direktorunu da qınamaq düzgün deyil. Bəlkə də o, müəyyən mənda haqlıdır. Axı o, haradan bilsin ki, biz buraya nə məqsədlə gəlmişik.

-Biz öz məqsədimizi ona dedik. O, özü şübhəkar adama oxşayır. Hər yerdə belə adamlar olur, İbrahim bəy, onlar hər şeyə bir şübhə ilə yanaşırlar.

-Bu, görünür adamların həm də peşə xüsusiyyətindən irəli gəlir.

-Yəqin ki...

-Amma mən bu axtarışın yaxşı bir sonluqla başa çatacağına inanıram.

İbrahim bəy gülümsədi:

-Elə mən də inanıram.-Və əlavə etdi:- Bilirsinizmi, burada Aydın bəyin dostları çoxdur. Mən ona deyəcəyəm,

qoy bu işdə bizə yardımçı olsun.

-Onda hələlik qalsın toydan sonraya.

-Mən də elə düşünürəm.

Onlar dəhlizdə söhbət edirdilər.

Buradan dəniz, şəhər aydın görünürdü.

Fransuaza gözəllik salonundan qayıdıb gəldi. Qız çox cazibədar olmuşdu. O, təbii ki, kişilərin söhbətinin nədən getdiyini qətiyyən bilmirdi.

Toy mərasimi şəhərin kənarında sıx ağaclarla əhatə olunmuş nəhəng bir şadlıq evində təşkil edilmişdi.

Aydın bəy Fransadan gələn qonaqları əsl ev sahibi kimi qarşıladı.

Qonaqlar Aydın bəyin yaxın qohumları ilə birgə geniş masanın arxasında əyləşdilər.

Əcnəbilərdən heç biri indiyəcən belə təmtəraqlı, şən toy məclisi görməmişdilər. Süfrəyə ən ləziz nemətlər düzülmüşdü.

Arada Fransadan gələn müsafirlərin də şərəfinə tost deyildi.

Onları, hətta, bal rəqsinə də dəvət etdilər.

Toyda vaxtaşırı hörmətli qonaqlara da söz verirdilər. Tanınmış elm və incəsənət adamlarından sonra İbrahim bəyə də söz verdilər. O, təzə ailə quran gənclərə qısaca ürək sözlərini, arzularını söylədi.

Bu şən toy, xüsusən, Fransuazanın çox xoşuna gəlmişdi deyəsən; qız rəqs meydançasından çıxmaq istəmirdi.

Gənclər əl-ələ tutub yallı gedirdilər.

İbrahim bəylə Jüsten stol arxasında üzbəüz əyləşmişdilər. Onlar yemək yeyir, şərab içir, şənlənirdilər. Aydın bəy tez-tez onlara baş çəkir, zarafatlaşır, dolu badəni başına çəkib yenə uzaqlaşırdı. Axı o, toyun

sahiblərindən biri idi, gərək hər şeyə nəzarət eləyə, gələnləri gülərüzlə qarşılaya, gedənlərə dil-ağız edib xoş əhvalla yola salaydı.

İbrahim bəy arada üzbəüz divardan asılmış nəhəng ekranlı televizora baxırdı. Birdən elə bil ki, onu ildırım vurdu. Kişinin gözləri böyüdü. Alnını tər basdı. Çəngəl əlindən yerə düşdü.

Jüsten bu anlarda öz işində idi, gözlərini bərk-bərk yumub əlindəki dolu badəni başına çəkməkdə idi. Kişi sanki çox acı bir dərman həbinin üstündən su içirdi.

Operator kameranı fırladıqca ekranda üzlərindən təbəssüm yağan, deyib-gülən, yeyib-içən insanların sifəti nəhəng ekrandan ötüb keçirdi.

Bəs İbrahim bəyin qanını donduran, onu həyəcana salan nə olmuşdu?

O, hələ də öz gördüyünə inanmaq istəmirdi.

Məsələ burasında idi ki, bu anlarda ekrandan ani olaraq boylanan qadınlardan biri Sabina idi. Əvvəlcə qadını uzaqdan seyr edən kamera get-gedə təsviri böyütdü: bir anlığa qadının iri gözləri, çatılmış qaşları ekranı “zəbt elədi”.

İbrahim bəy dönüb Jüstenə baxdı. Fransız qonaq əlindəki çəngəli pendir parçasına sancırdı.

İndi ekranda başqa təsvirlər göstərilirdi.

Sabina qeyb olmuşdu.

İbrahim bəy təşvişə düşdü.

Bəlkə onu neçə gündən bəri bu mərhum qadının ruhu təqib edir?

Yox, bu, ola bilməzdi. O, hələ ağlını itirməyə tələsmirdi. Axı o, bir neçə gün öncə Sabinanı Azərbaycan televiziyasının kanalında görmüşdü. Budur, indi onlar Bakıdadırlar. Və axtardıqları qadının bu məclisdə

olmağında nə qeyri-adilik ola bilərdi ki? O, "Sabina" idi. Buna şəkk-şübhə ola bilməzdi.

İbrahim bəy baxışlarını uzun müddət ekrandan çəkmədi. O, Sabinanı yenə görmək ümidində idi. Artıq oradan başqa kadrlar, başqa sifətlər boylanırdı. Qadın toy əhli arasında "əriyib" qeybə çəkilmişdi.

Toysa davam edirdi.

Jüsten sanki Şərq nağıllarında təsvir olunan bir aləmə düşmüşdü.

Atəşfəşanlıq.

Şampan köpükləri.

Yallı.

Oğlanların rəqsi.

Bal rəqsi.

Hələ səsini zilə çəkib qıyya vuran müğənnilər.

Bu toy həm də maraqlı bir teatr tamaşasına bənzəyirdi.

Fransuaza ucaboy bir oğlanla rəqs edirdi. Arabir onlar nə barədəsə danişıb gülürdülər. Deyəsən, oğlan fransızca bilirdi.

Jüsten növbəti şərab badəsini başına çəkib rəqs maydançasına çıxdı. İbrahim bəy də ona qoşuldu. İndi hamı onları alqışlayırdı.

***

Həmin günün axşamı, lap dəqiqi gecəsi, toydan sonra hotelə gələndə İbrahim bəy Jüsteni öz otağına dəvət etdi. Jüstün bir az hallı olsa da dostunun gözlərində oynaşan sevinc qığılcımlarını duyaraq zarafatla dedi:

-İbrahim bəy, məncə toydan sonra özünüzü çox yaxşı hss edirsiniz.

İbrahim bəy gülümsünüb dedi:

-Əlbəttə, müsyö. Niyə də yaxşı hiss etməyim ki? Nəinki yaxşı, hətta deyərdim ki, lap əlayam.

Jüsten:

-Toy da əla keçdi.

İbrahim bəy:

-Əlbəttə. Mən heç ömrümdə bu qədər oynamamışdım.

-Gözəl rəqs etməyiniz varmış, müsyo.

-Sizin rəqsiniz də əla idi, İbrahim bəy.

-Xüsusən, qadınlar sizin oyununuzu maraqla seyr edirdilər.

Jüsten gülüb dedi:

-Mənsə onların üzünə baxmırdım. Gözüm həmişəki kimi xanımların ayağında, daha dəqiqi, ayaqqabısında idi. Ha-ha-ha... Hətta, bir-iki nəfər qadın bizim ayaqqabıları geymişdi. Siz buna fikir verdinizmi?

-Yox,-deyə, İbrahim bəy qısaca cavab verdi. Hiss olunurdu ki, o, mövzunu dəyişmək istəyir.

-Heyif. Gərək baxaydınız.

-Bəlkə də...

Jüsten başını tərpətdi:

-Siz bununla çox şey itirmisiz.

İbrahim bəy:

-Ola bilər.

Jüsten:

-Mən ciddi deyirəm bunu.

İbrahim bəy:

-Mən sizə inanıram, müsyö- dedi və sonra dostunu diqqətlə süzdü: -Sizə bir xəbər deyəcəyəm. Amma özünüzü bu şok xəbərə indidən hazırlayın.

Jüsten bir qədər tutulub tərəddüdlə dilləndi:

-Eybi yox, deyin. Mən möhkəm adamam.

-Biz bir daha televiziyaya gedəsi olmadıq.

-Nə üçün, İbrahim bəy?

-Biz ta orada Sabinanı axtarmayacayıq, müsyö.

-Anlamadım.

-Məncə biz Sabinanı özümüz axtarıb tapmalı olacağıq.

-Onda bunu Aydın bəyə də deyək.

-Əlbəttə. Bu işdə bizə onun köməyi çox olacaq.

***

Aydın Sağlam təzə qohumlarının şərəfinə restoranda qonaqlıq vermək istəyirdi. Qonaqlıq axşamüstü olacaqdı. Aydın bəy məclisə Parisdən gələn tanışlarını da dəvət etmişdi. Bu barədə söhbət sübh tezdən olmuşdu. Amma deyəsən, bir qədər sonra bu qonaqlığın "formatı" dəyişmişdi. Çünki Aydın bəy günortaya yaxın təzədən zəng vurdu. O, bildirdi ki, qonaqlıq təzə qohumların bağ evində baş tutacaq.

Əvvəlcə Jüsten nəm-nüm etdi. Qonaqlığa getmək istəmirdi. İbrahim bəy onu kənara çəkib dilə tutmağa başladı.

-Müsyö, biz oraya mütləq getməliyik.

-Doğrusu, mən getmək istəmirəm.

-Siz nə danışırsız, canım? Bu, bizə hava-su kimi lazımdır.

-Nə mənada?

-Müsyö, mən toyda Sabinanı gördüm...

Jüsten heyrətləndi:

-Harada?

İbrahim bəy sakit tonda dedi:

-Toyda... Daha doğrusu, orada divardan asılmış televizor ekranında gördüm Sabinanı.

Jüstenin səsi titrədi:

-Bu, ola bilməz...

-Müsyö, məncə gözüm məni yenə aldatmadı. Sabina toyda idi...

-Aman Allah... Bəs mən niyə görmədim onu?

-O, ekranda ani görünüb qeyb oldu.

Jüsten əli ilə başını tudu:

-Axı bu, necə ola bilər.-Sonra tərəddüdlə dilləndi:-Yəni deyirsiniz onu tapa bilərik?

-Əlbəttə.

-Necə?

-Sadəcə.

-Anlamadım. Biz bunu onlara, toy sahiblərinə necə deyə bilərik?

-Çox sadə. “Biz Sabinanı axtarırıq”.

Jüsten fikrə getdi:

-Onlara bunu necə izah edək?

İbrahim bəy nəsə fikirləşib gülümsədi:

-Axı sizdə Sabinanın şəkli olmalıdır.

-Əlbəttə, var.

-Həmin şəkli də özünüzlə götürün.

-Sonra?

-Ta nə sonra? Biz onlara deyərik ki, bu xanımı axtarırıq.

-Yox, yaxşı çıxmaz bu.

-Onda başqa cür edərik.

-Nə cür?

-Xahiş edərik ki, toy lentinin bir nüsxəsini bizə versinlər. Bu toydan bir xoş xatirə kimi həmin lenti özümüzlə Parisə aparmaq istəyirik. Axı Sabinanın özünü mən özüm orada, toyda görmüşəm.

-Hə. Bax bu yaxşı versiyadır. O lentə elə burada, hoteldə də baxmaq olar.

-Təbii. Biz lentə baxarıq, vəziyyəti müəyyən edərik. Sonra faktı qoyarıq ortaya. Bu meydan bu da şeytan.

-Yəni ki, bu, şəkildəki Sabinadır, bu isə toydakı.

İbrahim bəy güldü:

-Əla ideya oldu.

-Birdən...

-Nə birdən?

-Heç...

-Nəsə demək istəyirsiz, müsyö?

-Yox, İbrahim bəy. Deyirəm, sadəcə bu Sabina birdən bizi tanımaq istəməz.

-Tələsməyək gəl, müsyö Jüsten.

-Onda evlənən çütlüyə hədiyyə alaq.

-Qıza elə öz ayaqqabımızdan götürərik.

-Oğlan üçün də fransız adekolonu. Hə, necədir?

-Əla.

Bu əsnada Aydın bəy yenidən zəng vurdu. Qonaqların arxasınca maşın gələcəyini bildirdi.

Onlar hazırlaşıb hotelin həyətinə endilər.

Günəşli bir gündü.

***

Aslan bəygilin yeni qudalarının bağ evi elə də təmtaraqlı deyildi. Amma həyət böyük və səliqəli idi. Nar və heyva ağaclarının dolu budaqları sallanmışdı. Stolların üstündəki iri, yaraşıqlı vazlar müxtəlif meyvələrlə dopdolu idi.

Bağ evinin sahibi, təzə gəlinin babası yaşlı, nuranı bir ağsaqqaldı. Kişinin adı Rəhmandı. Hamı ona Rəhman dayı deyə müraciət edirdi. Söhbət əsnasında məlum oldu ki, Rəhman Əsgərov uzun illər neft sənayesində çalışıb.

Kişinin gur, qar kimi ağ saçları arada dalğalanıb alnına tökülürdü. Danışığından, oturuş- duruşundan şən, zarafatcıl adama oxşayırdı. O, hamıya suallar verir, yeri gələndə zarafatyana replikalar atırdı.

Rəhman Əsgərov qonaqlarının Fransadan gəldiyini eşidəndə nədənsə bir qədər tutuldu. Bayaqdan deyib-gülən kişinin sifətindən sanki bir tutqun bulud layı ötüb keçdi. Hətta, araya bir müddət sükut çökdü. Handan-hana bu sükutu yenə Rəhman kişi özü pozdu. Dodaqaltı, sanki öz-özüylə danışırmış kimi astadan:

-Hə... Fransa, Paris,-dedi.

Az sonra kişi başını qaldırıb Jüstenin üzünə baxdı. Heç kəsin gözləmədiyi halda fransız dilində danışmağa başladı:

-Deməli, Parisdənsiniz. Paris gözəl şəhərdir. Mən oranı gəncliyimdə görmüşəm.

Jüsten heyrətləndi:

-Doğrudan? Siz orada olmusuz?

-Əlbəttə, doğrudan. Mən Fransa partizanları ilə birgə döyüşmüşəm. Orada müqavimət hərəkatının üzvü olmuşam... Bizim ailədə fransız dilini məndən də yaxşı bilənlər var...

Hamının diqqəti Rəhman Əsgərovda idi. Məclisdəkilərin bir çoxu fransızcanı bilmədikləri üçün onun nə barədə danışdığını anlamırdılar. Amma buradakı qohumların hamısı yaxşı bilirdi ki, Rəhman kişi vaxtilə Fransa partizan hərəkatının iştirakçısı olub.

İbrahim bəy söhbətə müdaxilə etdi:

-Biz çox şadıq ki, belə bir insanla yaxından tanış olduq. Buna görə Aydın bəyə öz minnətdarlığımızı bildiririk.

Sonra yeni evlənənləri məclisə dəvət etdilər.

Dünən Fransuaza ilə rəqs edən ucaboy oğlan da bəyin yanında idi; oğlan əcnəbi qonaqları fransızca salamladı.

İbrahim bəy öz hədiyyələrini yeni ailə quranlara təqdim edib onların əlini sıxdı.

Rəhman kişi üzünü bayaqdan ayaq üstə dayanıb sanki əmr gözləyən ortayaşlı bir kişiyə tutub dedi:

-İmran, sən evdəkilərin hamısını süfrəyə dəvət et. Ta o dövr deyil ki, kişilər ayrı, qadınlarsa bir ayrı məclisdə əyləşsinlər. Hələ üstəlik məclisimizdə ən müasir bir ölkədən-Fransadan qonaqlar iştirak edir. Qoy deməsinlər ki, Şərq Qərbdən çox fərqlənir.

Hamı gülüşdü.

İmran bağ evinə keçdi.

Bir azdan içəridən-bağ evindən çıxan qadın və uşaqlar da göründü, onlar qonaqlara "xoşgəldin" edib süfrə başında əyləşdilər.

Lap sonda içəridən yaraşıqlı, gülümsər çöhrəli, hələ sifətində incə gənclik təravəti yaşayan bir qadın çıxdı. O, sanki bu bağa kinolarda olduğu kimi yavaşıdılmış kadrlardan  addımlayıb gəlirdi. Qadın başını tərpədib qonaqlarla salamlaşdı.

Qadını görəndə Parisrən gələn qonaqların hər üçü qəfildən elektrik cərəyanına qoşulubmuş kimi cəld ayağa durdu. Onlar heyrət içində idilər.

Jüsten özünü saxlaya bilməyib astadan:

-Sabina,- deyə, dilləndi.

Fransuaza ozünü qadının üstünə atıb hıçqırdı:

-Ana... Mənim anam...

Jüsten qəhərini zorla boğaraq yenə:

-Sabina,-deyə, dodaqaltı mızıldandı.

Qadın sakitcə qızın başını tumarlayıb eyni təmkinlə fransız dilində dedi:

-Sakit ol, qızım.

İbrahim bəy ayağa durub onlara yaxınlaşdı:

-Fransuaza, qızım, bir sakit ol.

Rəhman kişi təcrübəli adam imiş. Sanki nəsə hiss edibmiş kimi dedi:

-Yəqin ki, bu uşaq Səbinəni kiməsə bənzədib.

İbrahim bəy Fransuazanın əlindən tutub stulda əyləşdirdi. Qız hələ də hıçqırırdı.

Uzaqdan həzin musiqi səsi gəlirdi. Yəqin ki, maqnitofon oxudurdular.

Məclisə təzə gələn qadın sanki qonaqlardan utana-utana keçib boş stullardan birində əyləşdi. İndi onun sifətindəki təbəssümü bir həyəcan qızartısı əvəz etmişdi.

Rəhman Əsgərov özünü əvvəlcə yeni gələn xanıma, sonra isə qonaqlara tutub dedi:

-Səbinə mənim qızımdır. Ali məktəbdə çalışır. Fransız dili müəllimidir. O ucaboy isə oğlan isə nəvəmdir, adı Ceyhundur. O, həm də öz anasının, yəni Səbinənin tələbəsi olub. Özü də toyda göz qoyurdum, görürdüm ki, Parisdən gələn bu qəşəng qızla yaman rəqs edir.

Məclisdəkilər gülüşdü.

Rəhman kişi davam etdi:

-Dünən mənim o biri nəvəmin toyu idi...

Rəhman Əsgərov bir az susub, sözünə davam etdi:

-Bax, yəqin hiss etdiniz ki, bizim ailədə fransız dili bilənlər üstünlük təşkil edir. Bunun da müəyyən səbəbləri var. Yeri gəlsə, lazım olsa mən bu sirri də açaram. Hələliksə, mən bəri başdan Ceyhundan xahiş edərdim ki, bu günkü məclisdə Fransadan gələn qonaqlarla buradakı qohumlar arasında tərcüməçilik etməyin yükünü o, öz boynuna götürsün. Etiraz yoxdur ki? Yox. Masabəyiliyi isə mən özüm icra edəcəyəm. Razısız? Susmaq razılıq

əlamətidir.

Qonaqlar hələ də heyrət içində idilər.

***

Qonaqlar dağılışıb getdi.

Bağ evində Rəhman Əsgərov və qızı Səbinə, bir də ki, Fransadan gələn qonaqlar qaldı.

Bütün bu baş verənlərdən, Jüstenin həyəcanından, Fransuazanın göz yaşları axıtmasından, İbrahim bəyin mənalı baxışlarından hiss olunurdu ki, onlar bu məclisə təkcə yeni evlənənləri təbrik üçün deyil, həm də çox sirli bir məsələlərnin açılmasında dəstək almaq üçün gəliblər.

Qonaqlar gedəndən sonra onlar bir qədər ordan-burdan danışdılar.

Söhbətin şirin yerində Jüsten cibindən çıxartdığı şəkli Əsgərovlara göstərəndə az qala ata və qız şoka düşdülər. İlahi, bu dünyada iki damla su kimi bir-birinə oxşayan insanlar varmış. Ən heyrətamizi isə bu idi ki, bu oxşar insanlar ayrı-ayrı, bir-birindən çox uzaq məmləkətlərdə yaşayırdılar.

Rəhman kişi şəkli əlinə aldı, qeyri-ixtiyarı ayağa durub bir fotodakı, bir də qarşısındakı qadına, öz qızına baxa-baxa həyəcanla dilləndi:

-Yox, bu ola bilməz. Ola bilməz...

Rəhman kişinin öz səsi öz qulağında rezonans verdi: "Ola bilməz...ola bilməz...ola bilməz..."

Jüsten kövrəlmiş halda dedi:

-Bu, mənim Sabinamın şəklidir. Fransuazanın anasının...

Rəhman kişinin bağındakı qohum-əqrabanın hamısı şəklə baxıb içini çəkdi. Heyrət, həyəcan dolu səslər,

pıçıltılar eşidildi:

-Bıy, bu ki, Səbinədir...

-Adam adama necə oxşayarmış...

-Adam inanmaq istəmir heç...

Səbinə yad qonağın əlində “öz” şəklini görüb pərt halda gülümsədi; qadının dodaqları səyriyirdi. İndi onun ürəyindən buradakı adamların ucadan dediyi, amma onun özünün dilinə almaq istəmədiyi bir sual keçirdi: “Doğrudanmı bu şəkildəki qadın mən deyiləm, hansısa fransız xanımdır?”

Sonra araya sükut çökdü.

Rəhman kişi handan-hana Jüstenin üzünə baxıb bığaltı gülümsədi:

-Yaxşı, bəs o, indi haradadır?

Jüsten fikirdən ayrılıb soruşdu:

-Kimi soruşursunuz?

-Arvadınızı.

-Doğrusu, mən özüm də bilmirəm o, indi haradadır?

Ata-bala Əsgərovlar təəccüblə fransız qonağın üzünə baxdılar.

İbrahim bəy istər-istəməz söhbətə qoşuldu:

-Mən bu söhbətə bir aydınlıq gətirmək istəyirəm. Məsələ burasındadır ki, müsyö Jüstenin xanımı Sabina bir neçə il öncə Fransa səmasında qəzaya düşən təyyarədə olub.

-Həlak olub?-deyə, Rəhman kişi hiss olunacaq bir həyəcanla soruşdu.

İbrahim bəy dedi:

-Təyyarədəki sərnişinlərin hamısı həlak olmuşdu. Amma orada bir adamın nə ölüsü tapıldı, nə də dirisi. Bu, Sabina idi.

Səbinə də söhbətə müdaxilə etdi:

-Bıy... Bəs bu necə ola bilər?

İbrahim bəy dilləndi:

-Bu hadisə baş verəndə mən də Parisdə idim. Sabina Rivyera deyilən yerə uçurdu. Bu yerlər dünyada çox məşhur Laciverd Sahili kurortlar şəbəkəsi kimi tanınır. Özü də Nissa şəhəri yaxınlığında yerləşir. Buda dünyaca məşhur bir şəhərdir.

Rəhman kişi öz-özünə danışırmış kimi dilləndi:

-Xatırlayıram... Belə bir şəhərdə mən olmuşam. Amma mənim əsas döyüş yolum Tuluza yaxınlığındakı Albi şəhərindən keçir.

İbrahim bəy sanki araya çökən gərginliyi götürmək üçün gülə-gülə dedi:

-Hə, Rəhman dayı, biz indi bildik sizin ailənin Fransa ilə əlaqələrinin kökü haradan başlayır.

Rəhman kişi quru, asta səslə dedi:

-Hə, siz mənim müdaxiləmə fikir verməyin, davam edin.

Jüstünlə İbrahim bəy mənalı tərazə bir-birlərinin üzünə baxdılar.

Nəyə görəsə hadisənin davamını Jüsten danışasmağa başladı.

-Sabinanın uçduğu təyyarə Monblan dağının üstündən aşarkən yüksək zirvəyə dəyib partlamışdı. Meyitlərin bir çoxu yanıb külə dönmüşdü. Hamısı eksperizadan keçirildi. Bunların arasında bir adam tapılmadı. Məncə, bu tapılmayan elə Sabina idi. Onun boğazında mənim bir zamanlar Sabinaya hədiyyə etdiyim boyunbağı olmalı idi. Maraqlıdır ki, bu boyunbağı tapılmadı. Sanki qeybə çəkilmişdi...

Rəhman Əsgərov təəccüblə soruşdu:

-Kim qeybə çəkilmişdi?

Jüsten:

-Həm Sabina, həm də boyunbağı.

Rəhman kişi titrək səslə dedi:

-Boyunbağı itə də bilər, öğurlana da...

İbrahim bəy dedi:

-Əlbəttə, bu versiya da vardı. Həqiqətən, boyunbağı itbata düşə bilərdi. Amma o da yüz faiz sübuta yetirildi ki, sərnişinlərdən biri yoxdur.

Jüsten dərdli-dərdli dilləndi:

-Mən əminəm ki, mənim Sabinam salamatdır.

Rəhman kişi dedi:

- Monblan dağında çoxlu yarğanlar var. Bəlkə də Sabinanın meyiti...

Kişi nəsə duruxdu, susdu.

Araya əsrarlı bir sükut çökdü.

Səbinə durub həyətdə qaynayan samovardan çay süzdü. Jüsten altdan-altdan qadını süzürdü.

İbrahim bəy söhbətin istiqamətini dəyişirmiş kimi zarafata keçdi:

-Yaxşı, biz birinci sirr haqqında eşitdik. Yəni sizin vaxtilə Fransada olmağınız barədə... Qaldı ikinci sirr...

Rəhman kişi gülümsədi:

-Nədir o ikinci sirr?

İbrahim bəy:

-Sabina ilə Səbinə xanımın bir cüt su damlası kimi birbirinə bənzəməsi...

Hamı üçün maraqlı idi, görəsən, Rəhman Əsgərov indi nə deyəcək, bu sualı nə cür cavablandıracaqdı?

Amma qoca uzun müddət susdu.

Səbinə sanki atasının yerinə cavab verirmiş kimi dedi:

-Yəqin eşitmisiz, belə bir məsəl var, deyirlər ki, bu dünyada hər bir kəsin öz oxşarı olur.

İbrahim bəy dedi:

-Doğrudur, insan insana oxşaya bilər. Amma ta bu qədər yox.

Səbinə yenə söhbətə qoşuldu.

-Atam Fransada müharibə vaxtı olub, orada partizan hərəkatında iştirak edib.

-Aha... Bəlkə...

Bu sözləri Jüsten dedi və udqunub susdu.

İbrahim bəy dostunun üzünə baxdı.

-Nə "bəlkə", Jüsten? Bəlkə nəsə demək istəyirsiniz?

-Yox,-deyə, Jüsten cavab verdib susdu.

Rəhman Əsgərov öz döyüş yolu haqda qısaca məlumat verdi:

-Bəli, mən müqavimət hərakatında faşistlərə qarşı vuruşmuşam. Əvvəlcə məni Ukraynada əsir götürmüşdülər. Sonra bizi Fransaya etap etdilər. Orada əsirlikdən qaçıb partizanlara qoşulduq. Ağır günlər yaşadıq. Müharibə bitəndən sonra bir müddət Tuluzada qaldım. Doğrusu, vətənə qayıtmağa qorxurdum. Axı əsir düşənləri burada ya güllələyir, ya da Sibirə göndərirdilər. Mən ara sakitləşəndən sonra qayıtdım vətənə. Amma burada uzun müddət məndən əl çəkmədilər. O vaxtkı enkevedinin nümayəndəsi məni hər il dəniz sahilində yerləşən binaya çağırır, sorğu-suala tutur, əcaib-qəraib suallar verirdi. Şükür, ta yada düşmürəm. İndi başqa zamandır.

İbrahim bəy zarafatla dedi:

-Yaxşı, bəs Fransada sizin heç bir nişanəniz qalmayıb ki?

Rəhman kişi bic-bic gülümsədi:

-Nə mənada?

İbrahim bəy:

-Dostlarınız olubmu Fransada?

Rəhman Əsgərov:

-Əlbəttə. Olub.

İbrahim bəy:

-Rəhman dayı, o vaxt cavan oğlan olmusuz. Bəlkə sevgiliniz də olub?

Yüngül bir gülüş dalğası keçdi.

Səbinə sinəsinə qısılmış Fransuazanın başımı sığalladı.

Jüsten İbrahim bəylə Rəhman kişi arasında gedən dialoqa maraqla qulaq asırdı.

Rəhman kişi bir xeyli susub astadan dedi:

-Mən niyə gizlədim, orada qadın tanışım da olub.

İndi kimsə əlavə sual verməyə cəsarət etrmirdi.

Rəhman kişi gülümsəyib araya çökən sükutu pozdu:

-Çayları soyutmayın. İçin. Bu barədə sonra danışaram.

Daha sonra Rəhman Əsgərov əlinin işarəsi ilə Fransuazanı yanına çağırdı. Qız qocaya yaxınlaşdı. Rəhman kişi əlini Fransuazanın çiyninə qoyub qızın alnından öpdü.

-Mənim balam.

Qız qollarını qocanın boynuna doladı.

Hamının gözü yaşarmışdı.

Bayaqdan şux görünən, zarafat edən Rəhman kişi cibindən çıxartdığı ağ dəsmalla  gözlərində gilənən yaş damcılarını sildi.

***

İrma Sati Parisin məşhur məhəllələrindən birində - Monmartda yaşayırdı.

Onun ailəsində bir neçə il öncə ard-arda baş verən faciələr qadını sarsıtmışdı. O, əvvəlcə əri Dominik Satini itirdi. Kişi elə yuxudaca canını tapşırmışdı. Həkimlər Dominikin şəkərdən və ya qan təzyiqindən öldüyünü ehtimal etmişdilər. Əslində nədən ölməyin elə bir əhəmiyyəti də yox idi. Fakt bu idi ki, kişi ölmüşdü. Zəlzələdən, ya vəlvələdən. İrma Sari özlüyündə əmin idi ki, bu faciədən sonra o, uzun müddət yaşaya bilməyəcək. Amma deyir sən saydığını say, gör bir fələk nə sayır.

Ərinin ölümündən sonra İrma uzun müddət özünə gələ bilmədi. Həmin günlərdə qızı Sabina onu bir gün də tənha qoymadı. Elə Fransuaza da nənəsinin sağalması üçün əlindən gələni əsirgəmirdi. Ailəlikcə qəbristanlığa baş çəkirdilər.

Onlar üçlükdə olanda Sabina öz anasına arabir Fransuazanın dəcəlliyindən şikayət edirdi:

-Ana, mən bilmirəm sənin bu nəvən kimə oxşayıb? Bunun Dominik babası sakit bir adam idi. Sən də onun kimi.Həlim xasiyyətin var.  Elə Jüstenin ata-anası da fağır adamlardır. Amma bu qız od parçasıdır. Qonum-qonşuda döymədiyi uşaq qalmayıb. Qızlar bir yana, oğlanlara da göz verir, işıq vermir. Kimə oxşayıb sənin bu nəvən görəsən?

İrma xısın-xısın gülərdi.

-Yəqin əcdadlarının hansındasa dəli-doluluq olub də...

Bu yaxınlarda kürəkəni ilə nəvəsinin səfərə çıxması İrmanın qəlbində illərdən bəri yuva qurmuş mübhəm hissləri sanki təzədən oyatmışdı.

Fransuaza nənəsinə deyəndə ki, atamla səyahətə gedirik, qadın nəsə tutulmuşdu. O, bir dəfə ürəyində

illərdən bəri gəzdirdiyi bir sirri qızı Sabinaya açıb demişdi. İndi Sabina yox idi. Yəqin ki, o, bildiyi sirri gec-tez öz nəvəsinə də deyəcəkdi. Amma nə vaxt? Ömrə-günə etibar qalmamışdı axı. "Qoy səfərdən geri dönsünlər, mən hər şeyi Fransuazaya açıb deyəcəyəm. Ta yekə qızdır. O, məni anlayar yəqin".

Yaxşı yadındadır, o, bu barədə Sabinaya danışanda qız əvvəlcə az qala dəli olacaqdı. Amma sonra sakitləşmişdi. Əlbəttə, elə o vaxt da bu barədə danışmaq ona çətin başa gəlməşdi.

Yadındadır, o, əvvəlcə ordan-burdan söz salmış, sonra mətləb üstə gəlmişdi:

-Səbinə, Dominikdən sonra yaşamaq mənə çox çətin olub.

Qız təəccüblə anasının üzünə baxmışdı; axı o, heç vaxt Sabinanın yanında əri barədə söhbət açarkən onu öz adı ilə, "Dominik" deyə çağırmamışdı. Adətən, bu vaxtlarda o, "sənin atan" deyərdi.

Söhbətin gedişində öz mərhum əri haqda danışarkən qadın yenə bir neçə dəfə "Dominik" sözünü işlətdi. Əslində zahirən burada qəribə heç nə yoxdu və Sabinanın atasının adı doğrudan da Dominik idi. Məsələ burasında idi ki, indi "sənin atan" deməmək bir yana, üstəlik ana bu "Dominik" sözünü həm də sanki xüsusi bir vurğu ilə nəzərə çarpdırırdı.

Qız istər-istəməz anasına təskinlik verməyə maşladı:

-Ana, hamı sonda eyni yerə gedəcək.

-Bax, elə söhbət də bundan gedir.

-Bizdən asılı bir şey yoxdur ki. Nə edək, indiyəcən belə olub, innən sonra da belə olacaq.

-Amma biz bəzən bizdən asılı olanları da qəbul etmirik.

Qadının ikibaşlı söhbəti deyəsən Sabinanın o qədər də xoşuna gəlməmişdi: o, ayağa durub getmək istəyəndə ana israrla qızını saxlamışdı:

-Dayan, Sabina. Bilirəm, sənin təyyarənin uçmağına hələ çox qalıb.

-Yorğunam, ana. Gedim bir az dincəlim.

-Tələsmə, sənə sözüm var. Sonra gedib dincələrsən...

O vaxt Sabina təəccüblə anasının üzünə baxmışdı.

Qadın sanki danışmağa özündə güc tapmaq üçün qarşısındakı fincandan bir-iki qurtum qəhvə içib gülümsəmişdi.

-Amma möhkəm ol. Mən bunları sənə gec-tez deməli idim. -Qadın sözünə ani fasilə verib titrək səslə dedi: -Dominik sənin doğma atan yox, atalığındır.

Sabinaya bu anlarda elə gəldi ki, bayaqdan gülümsəyən sifəti bu anlarda birdən-birə əyilməyə başlamışdı. "Görəsən, anam dəli olmayıb ki?"

Amma Sabina susurdu.

İrma Sati söhbətini davam etdirdi:

-Sənin atan başqa adamdır.

Sabina özünü saxlaya bilmədi:

-Bəlkə mənim anam da sən deyilsən, bir başqasıdır.

Qadın təmkinlə dilləndi:

-Yox, mən sənin doğma ananam... Qulaq as, Sabina. Müharibə zamanı mən poçtalyon işləyirdim. Hərdən Tuluza yaxınlığındakı partizanlara poçt aparırdım. Oradakıların çoxu əsirlikdən qaçmış, ölümü öz gözləri ilə görmüş oğlanlar idi. Onlar o vaxt mənə balaca bir qız uşağı kimi baxırdılar. Axı onda mən heç məktəbi də bitirməmişdim. Amma onlardan biri elə o vaxtdan mənim xoşuma gəlirdi. Həmin oğlan mənə qətiyyən əhəmiyyət vermirdi. Eh, Sabina, o vaxtkı kişilərin çoxunda bir

mərifət deyilən şey vardı. Nə isə... Müharibə başa çatdı. Mən məktəbə qayıdıb təhsilimi davam etdirdim. Aradan bir müddət keçmiş yenə həmin oğlanla təsadüfən rastlaşdım. Təbii ki, birinci mən onu tanıdım. Tanışlıq verdim. Çox sevindi. Onun adı Rəhman, soyadı Əsgərov idi.

-Əsgərov?

-Hə, Əsgərov. Mən bu soyadı hər zaman yadda saxladım. Bilirsən, nə üçün?

-Nə üçün?

- Bir dəfə mən ona dedim ki, Əsgər nə deməkdir? O, mənə izah etdi ki, "əsgər" fransızca "soldat" deməkdir. Mən sonralar ona hərdən zarafatla "monsieur le soldat"-deyə, müraciət edirdim. Yəni "cənab əsgər". Bəli, o vaxt biz "mənim əsgərimlə" evləndik. Tuluzada yaşayırdıq.

Hələ də heyrət içində olan Sabina qeyri-ixtiyari soruşdu:

-O, rus idi?

-Yox. O, əslən azərbaycanlı idi. Mən Bakı haqda eşitmişdim. Bu, Qafqazda ən böyük şəhərdir. Mənim əsgərim çox cəsur idi, qorxmaz idi. Doğusu, bir az da davakarlığı vardı. Qafqaz dəliqanlısı idi. Yalan sözə görə adamı, hətta, öldürə də bilərdi. Mən indi boynuma alıram ki, Rəhmana heç bir zaman yalan bir söz demədim. Müharibə qurtarsa da, o, vətənə qayıtmaqdan çəkinirdi. Onda oralarda böyük bir repdessiya başlamışdı. Sanra deyəsən, ara sakitləşdi. O, buradan gedəndə sən ikiaylıq idin.

Qadın susdu.

Sabina anasının üzünə baxdı. Sakitcə:

-Bəs sonra?-deyə, soruşdu.

İrma Sati ah çəkdi:

-Sonra mən həyatımı yenidən qurası oldum. Dominik Sati ilə tanış oldum. Onda sənin iki yaşın vardı. Biz Tuluzadan Parisə köçdük. İnsafən, Dominik sənə öz doğma qızı kimi baxırdı. Əsl atadan onun elə bir fərqi yoxdu. Yəqin ki, sən onun ögey ata olduğunu heç vaxt hiss etməmisən.

-Deməli, belə çıxır ki, mənim damarımda azərbaycanlı qanı axır.

-Bəli, həqiqəti bilmək istəsən, bu, belədir.

Deyəsən, bayaqdan od püskürməyə hazırlaşan Sabina indi nədənsə bir qədər sakitləşmişdi.

-Bəs sonra sizin əlaqəniz oldumu?

-Onunla? Yox. Haradan? Mən onu əbədi itirdim. Allah bilir, bəlkə də o artıq çoxdan ölüb. Axı mənim əsgərim döyüşdə ağır yaralar almışdı.

-Bəlkə də sağdır.

-O da ola bilər... Mən bu həqiqəti sənə gec-tez deməli idim. Bu fikir məni daim narahat edirdi. Mən əzab çəkirdim. Düşünürdüm ki, illər uzunu gizlətdiyim həqiqəti Sabinaya deyim, ya yox? Axı bütün bunları günlərin bir günü sənə bir başqası da deyə bilərdi? Onda mən nə edərdim? Sən mənim barəmdə nə düşünərdin? Lap mən öləndən sonra da sən bu əhvalat haqda eşidə bilərdin. Onda istər-istəməz məni qınayacaqdın. Götür- qoy edib belə qərara gəldim ki, qoy elə həqiqəti mən özüm deyim öz qızıma. Qoy lap Jüsten də bilsin əsl həqiqətin necə olduğunu. Fransuaza da bilsə pis olmaz. Qoy bilsin ki, onun əsl babası qafqazlı olub.

Bundan sonra Sabina öz atası barədə yenə suallar verdi. Görəsən, onu atası ilə bağlayan ümumi cəhətlər vardımı? İrmanın dediyindən belə çıxırdı ki, Sabina sanki öz atası ilə bir almanın iki dilimidir. Sonra İrma zarafat

etməyi də unutmadı:

-Amma xasiyyətdə ona Fransuaza daha çox oxşayır. O da babası kimi dəliqanlıdır. Öz tay-tuşlarına qan uddurur. Mənim əsgərim də faşistlərə divan tuturdu.

Hər ikisi güldü.

İrma ayağa durub otaqdakı köhnə, böyük şkafın siyirməsini çəkdi. Oradan iri bir albom çıxartdı. Səhifələr arasından tapdığı fotonu əvvəlcə özü gözdən keçirdi, sonra Sabinaya uzatdı.

-Sən bu şəkli görmüsən?

Sabina şəkli diqqətlə nəzərdən keçirdi.

-Hə. Məncə uşaq vaxtı görmüşəm. Bilirəm, bu sənsən, bunlar da sənin partizan dostların olmalıdır.

-Doğrudur. Mən yeni poçtu gətirmişdim onda. Bunlar qafqazlı döyüşçülərdir. Hamısı əsirlikdən qaçan adamlardır. Bax, bu, sənin atandır.

-Bu?

Qadın şəhadət barmağı ilə şəkildəki gənc bir oğlanı göstərdi:

-Hə, bax bu. Ağsifət, qarabığ, ucaboy. -Sonra saniki kiminsə boyunu oxşayırmiş kimi asta, yumşaq səslə dedi: -Mənim əsgərim. Mənim qartalım...

Sabina anasından ayrılanda bir-biri ilə vuruşan ziddiyyətli düşüncələrin çarpaz nöqtəsində vurnuxub qalmışdı. Amma anasından ayrılarkən onu öpüb belə demişdi: "Bu səfərdən geri qayıdan kimi mütləq Bakıya, Azərbaycana gedəcəyəm. Hamımız Bakıya birlikdə gedərik, ana. Sən, mən, Jüsten, Fransuaza. Bəlkə sənin əsgərin sağdır?"

Amma Bakını görmək qismət olmadı. Təyyarə qazası baş verdi.

İrma nədənsə son günlər Sabinanı və öz ilk eşqinin

ünvanını-Rəhmanı tez-tez xatırlayırdı.

Rəhmanla ilk tanışlığı da indiki kimi yadında idi. Onda qız partizanlara yeni poçtu aparmışdı. Zərfli, zərfsiz məktublar əldən-ələ keçib dolaşırdı. Partizanların arasından bir nəfər, yekəpər, sifəti çapıq oğlan irişə-irişə yeniyetmə, çəlimsiz qıza söz atdı:

-Bura bax, gözəlçə, bəs mənə niyə məktub gətirməmisən?

Qız çəkinə-çəkinə dedi:

-Kimə məktub yazırlarsa mən onu vaxtlı-vaxtında çatdırıram.

Yekəpər irişdi:

-Deməli, belə çıxır ki, mənə məktub yazan yoxdur.

Qız çiynini çəkdi:

-Bəli, belə çıxır.

Yekəpər oğlan İrmaya yaxınlaşıb əlini onun çiyninə qoydu:

-Yazmırlar? Onda sən özün yaz. Yaza bilmirsən?

-Mən niyə yazım ki?-deyə, qız hirslə kənara çəkildi.

"Çapıq" əlini-əlinə vurub qəhqəhə çəkdi:

-Maşallah, böyük qızsan. Məndən yaxşısına yazacaqsan bəyəm?

Kazarmanın qapısı ağzında dayanıb bayaqdan bu söhbətə qulaq asan ucaboy, ağbəniz partizan onlara yaxınlaşmasaydı bu dialoq yəqin ki, hələ uzanacaqdı.

-Qızdan nə istəyirsən?-deyə, ağbəniz oğlan "Çapıq"dan soruşdu.

-Sənə nə var, Rəhman? Mən özüm bilirəm nə soruşmaq lazımdır,-deyə "Çapıq" tərs-tərs ona yaxınlaşan partizanı süzdü.

-Bura bax, Artyom, ağlına gələni danışma.

Hə, deməli, bu ağsifətin adı Rəhman, "çapığınki" isə

Artyom imiş.

-Rəhman, get öz işinlə məşğul ol. Mənə mərifət dərsi keçmə.

-Artyom, mərifət dərs kimi keçilmir, o, adamda ya olur, ya da olmayır.

Artyom qabağa yeridi:

-Belə çıxır ki, mənim mərifətim yoxdur hə?

-Madam ki, sən belə düşünürsən, deməli, belədir.

İndi onlar döyüşməyə hazırlaşan iki xoruz kimi döş-döşə dayanmışdılar.

Artyom əl atıb Rəhmanın yaxasından yapışdı.

Rəhman əlinin arxası ilə Artyomu geri təpdi.

Artyom əlini bir də irəli uzadanda Rəhman bir yumruq zərbəsi ilə “rəqibini” yerə sərdi. Artyom ayağa durub əlini qurşağındakı avtomat bıçağına atdı.

Bayaqdan bu dialoqa maraqla qulaq kəsilən partizanlar onların arasına girdi.

Nədənsə İrmaya elə o vaxt elə gəldi ki, Rəhmanla Artyomun köhnədən ədavəti var.

Qəribədir ki, sonradan onun gümanı düz çıxdı. Rəhmanla İrma bir dəfə ilk tanış olduqları günü xatırlayarkən qız ondan soruşdu:

-Bura bax, mənim əsgərim, sənin o dostunun sonrakı taleyi necə oldu?

-Hansı dostumun?

-Sənin bir zərbə ilə çul kimi yerə sərdiyin “dostunun”.

-Hə, yəqin Artyomu deyirsən.

-Hə, onun adı Artyomdu deyəsən.

-O “çapığı” haradan saldın yadına?

-Heç... Elə-belə... Bəlkə də o olmasaydı bizim səninlə sonrakı tanışlığımız da baş tutmayacaqdı.

Rəhman təəccübləndi:

-Necə bəyəm?

İrma güldü:

-Sən onun cavabını verəndən sonra mənim yaddaşıma həmişəlik həkk oldun.

Rəhman güldü:

-Hə, düz deyirsən, bizi daha yaxından o alçaq "tanış etdi".-Sonra ciddiləşib əlavə etdi:- Sən demə, o bizim aramıza faşistlərin atdığı casus imiş.

-Doğrudan?

-Həqiqətən.

-Bəs sonra necə oldu?

-Necə olacaqdı ki? Məsələnin üstü açıldı. O da öz layiqli cəzasını aldı.

İrma heyrətləndi:

-Həbs etdilər?

-Yox. Hərbi səhra məhkəməsinin qərarı ilə güllələndi.

-Aman Allah...

-Nədir? Yoxsa yazığın gəldi ona?

-Yox. Sadəcə müharibənin insanları necə həşarata çevirdiyinə təəssüf edirəm.

-Müharibədə həşaratlarla birgə pələnglər də üzə çıxır.

-Doğrudur, mənim əsgərim.

İrma qolunu Rəhmanın boynuna doladı...

**

Budur, İrma yenə Rəhman haqda düşünürdü.

Telefon zəngi qadını düşüncələrdən ayırdı.

Dəstəyi götürdü.

-Alo, eşidirəm.

-İrma xala, mənim. Jüstendir. Eşidirsiniz?

-Bəli, eşidirəm, Jüsten.

-İrma xala, mən Bakı şəhərindən, Azərbaycandan

zəng edirəm.

-Bakı? Azərbaycan? Sən orada nə axtarırsan, Jüsten? Bəs haraya getdiyinizi mənə niyə deməmisiz?

Araya sükut çökdü.

Jüsten:

-Bağışlayın, bir az tələsik oldu... İrma xala, eşidirsiniz məni? Deyin görüm, sizin nə vaxtsa Bakıdan tanışınız olub?

Yenə sükut.

-Eşidirsiniz, İrma xala?

-Eşidirəm.

-Mən soruşuram ki, sizin nə vaxtsa azərbaycanlı tanışınız olubmu?

-Mənim Bakıdan tanışım yox, çox sevdiyim bir adam olub.

Görünür, belə bir cavabı gözləməyən Jüsten dili dolaşa-dolaşa sualı sual ardıyca yağdırmağa başladı:

-Zarafar etmirsiz ki, İrma xala?

-Yox, ciddi deyirəm.

-Axı bu, necə ola bilər?

-Olur, bu dünyada hər şey olur, Jüsten.

-Sizin tanışınızın adı nə idi?

-O, "mənim əsgərim" idi.

-Anlamadım...

-Nəyi anlamadın? O, mənim üçün "monsieur le soldat" olub.Yəni mənim əsgərimin soyadı elə Əsgərov idi. Rəhman Əsgərov...

-Hə? İrma xala... Doğrudan?

-Bəli. Yəqin ki, bu barədə sənə Sabina deyib o vaxt. Axı mən ona bu barədə ölümündən bir qədər əvvəl danışmışdım.

-Yox, Səbinə mənə bu barədə heç nə deməyib. Amma

xatırlayiram o, məndən sonuncu dəfə ayrılanda demişdi ki, bizim növbəti səfərimiz Azərbaycana olacaq.

-Bax, görürsənmi?..

-Sabina xala, indi isə qulaq asın...

-Eşidirəm, Jüsten.

-Elə isə möhkəm olun.

-Mən həmişə möhkəm olmuşam. Gözüm çox bəlalar görüb, qulağım çox ağır xəbərlər eşidib.

-Bilmirəm bu deyəcəyim xəbər ağırdır, ya yüngül. Məsələ burasındadır ki, mən burada Rəhman Əsgərovla görüşmüşəm.

-Kimlə?

-Rəhman Əsgərovla.

Dəstəkdə sükut.

-Rəhman... Əsgərov, hə?

-Bəli. Deyəsən, xatırladın.

-Jüsten, sən zarafat etmirsən ki?

-Qətiyyən.

-Bu ki, bir möcüzədir. O, indi haradadır?

-Burada, mənim yanımdadır. Daha doğrusu, biz onun bağ evindəyik.

-Doğrudan o, sənin yanındadır?

-Bəli.

-Aman Allah, bu, nə gözlənilməz xəbər oldu. Dəstəyi ona ver, Jüsten. İlahi...

Telefonda xışıltı və bu xışıltının ardınca doğma, həm də yad bir kişi səsi eşidildi.

-İrma...

-Mənim əsgərim...

-Mən heç cür inana bilmirəm, İrma...

-Mən də. Görəsən, bu, yuxu deyil ki?

-Özünü ələ al, İrma...

- Heç bilmirəm, nə deyim, nə soruşum. Sənin övladların var?

-Əlbəttə. Qızım yanımdadır. O, fransız dilini əla bilir. Sənə salam deyir. O, universitetdə işləyir. Öğlumla kürəkənim bir neçə il əvvəl maşın qazasına düşüb həlak oldu.

-Mənim qızım, daha doğrusu, sənin qızın Sabina da təyyarə qəzasına düşdü. Yəqin ki, Jüsten sənə deyib bu barədə. O, sənin yeganə yadigarın idi.

-Bəli, Jüsten hamısını deyib. Mən bundan çox üzüldüm. Mənim buradakı qızımın adı da Sabinadır, daha doğrusu, Səbinə. Xatırlayırsanmı, mən o vaxt sənə demişdim ki, qızım olsa adını Sabina qoyacağam. Elə də oldu. Tanrı mənim ürəyimin səsini eşitdi.

-Bəs arvadın necə, yanındadırmı?

-O, vəfat edib. Ta tək qalmışam, İrmacan. Vaxtımın çoxu bağ evində keçir. Ağaclara, güllərə qulluq edirəm. Hərdən qızım, nəvəm gəlir yanıma. Sabinanın oğlunun, yəni mənim nəvəmin adı Ceyhundur. O da salam deyir sənə.

-Mən hamınızı öpürəm, Rəhman.

-Mən də, İrma...

-Mən sənin səsini eşitməkdən çox məmnun oldum.

-Mən də çox sevindim. Heç yatsam yuxuma da girməzdi ki, biz haçansa bir-birimizin səsini eşidə bilərik.

Qadın qəhərləndi:

-Sənin partizan dostlarınla çəkdirdiyin şəkil indi mənim stolumun üstdə, gözümün qabağındadır, Rəhman. Mən də o şəkildəyəm. Xatırlayırsanmı? Aman allah, hara uçub getdi o illər? Heç bilirsən mən hər dəfə o şəklə baxanda nə qədər göz yaşı tökürəm? Bu dünya necə də qəddar imiş, mənim əsgərim. Gör bir biz neçə il bir-

birimizdən soraq tuta bilmədik.

-Bu, bizdən asılı deyildi. Zaman belə idi. İndi dünya dəyişib. Dünyamız çox kiçilib. Bu balaca dünyada nə yaxşı bir-birimizlə danışa bildik. Mənə çox xoş oldu, İrma.

-Mən elə bil ki, təzədən o illərə qayıtdım. İndi heçliyə qovuşmuş o ağır, o şirin illərə.

-Demə, bu dünyada doğrudan da tale, qismət deyilən bir şey varmış.

-Mən indi özümü o illərin qanadında hiss edirəm.

Rəhman kişi qəhərləndi.

-Necə də xoş oldu,İrma. Mən sənə yenə zəng edəcəyəm. Telefon nömrəni Jüstendən alacağam.

-Oldu, mənim əsgərim.

Onlar xudahafizdilər.

Telefon dəstəyi İrmanın əlindən düşdü.

Qadının xəyalı uzaqlara uçub getmişdi.

***

Jüsten yuxudan gec durdu. O, bütün gecəni yatmamış, yalnız səhərə yaxın çimir ala bilmişdi.

Fransuaza artıq geyinib-kecinmişdi.

-Ata, deməli, Rəhman Əsgərov mənim babamdır hə?

Jüsten bic-bic qımışdı:

-Bəli, belə çıxır.

Qız incik halda dilləndi:

-“Belə çıxır” nədir ata? Ax o...

Jüsten bir qədər ciddiləşdi:

-Yox, bir az düzgün demədim, o, sənin dostdoğma babandır.-Və yenə gülümsəyib əlavə etdi:- Yəqin ki, elə sən də ona oxşamısan.

Frransuaza dedi:

-O, anama daha çox oxşayır.

-Elədir, sifətdən anana oxşayır. Amma məncə sən xasiyyətcə ona oxşamısan. Bilirsən niyə?

-Niyə?

-Axı qafqazlılar dəliqanlı olurlar. Sən də bir az dəlisovsan axı...

Fransuaza güldü.

Jüsten mövzunu dəyişdi:

-Görəsən, İbrahim bəy öz otağındadır?

-Yox, ata. O, bayaqdan durub getdi.

-Haraya?

-Dedi ki, Aydın bəylə görüşüm var.

-Hə, bildim. Dünən demişdi.

-Sən hələ yatacaqsan, ata?

-Yox. İndi duracam ayağa.

-Mən şəhərə getmək istəyirəm.

-Tək çıxırsan?

-Hə. Narahat olmağa dəyməz. Sakit şəhərə oxşayır.

-Baxma. Yad yerdir, qızım.

-Qorxma, ata. Heç nə olmaz. Unutma ki, mən həm də idmançıyam.

Jüsten qəhqəhə çəkib güldü, əli ilə qızının saçına sığal çəkdi.

Ata qızının hoteldə qalması üçün çox da israr etmədi. Məslə burasında idi ki, Jüsten də bir görüş planlaşdırmışdı. Onun ürəyi həyəcanla titrəyirdi. Görəsən, bu görüş baş tutacaqdımı?

Fransuaza qapıdan çıxan kimi, Jüsten, dəstəyi qaldırıb Səbinəyə zəng vurdu:

-Salam, Səbinə xanım. Mənəm, Jüstendir. Necəsiz?

-Salam, müsyö. Yaxşıyam. Təşəkkür. Haradasınız?

-Hələlik hoteldəyəm. Əminəm ki, şəhərlə yaxından tanış olmağımda yardımçı olacaqsız.

-Əlbəttə, olaram.

-Təşəkkür edirəm.

-Hoteldə gözləyin.

-Zəhmət çəkirsiz.

-Xoşdur, müsyö. Gözləyin. İndi gələcəyəm.

-Baş üstə. Mən sizi foyedə gözləyəcəm.

-Aha. Oldu. Gözləyin.

Jüsten cəld geyindi.

***

Səbinə Jüsteni foyedə gözləyirdi. O, maşınla gəlibmiş. Qadın keçib sükan arxasında əyləşdi. Jüsten onun yanında oturdu. Onlar bir müddət ordan-burdan danışdılar. Jüsten Bakının onu valeh etməsindən, şəhərdəki adamların qonaqpərvərliyindən söhbət açdı. Səbinə qısa cavablarla onun dediklərini təsdiq edirdi. Arada onların söhbətində kiçik fasilələr yaranırdı. Hər ikisi susurdu. Sanki onlar öz şəxsi talelərindən söhbət açmağa ehtiyat edirdilər.

Nəhayət, Jüsten cəsarətini toplayaraq:

-Siz çoxdan tək yaşayırsiz? -deyə, sual etdi və dönüb qadına baxdı.

Aman Allah, bu qadın doğrudan da Sabinanın özü idi. Bu qədər oxşarlıq ola bilərdimi?

Səbinə gülümsədi:

-Tək niyə? Mən oğlumla birgə yaşayıram.

Qadının təbəssümü də eyzən Sabinanınkı kimiydi. Onların səsə də eyni idi sanki.

-Ağllı oğlunuz var, o dəqiqə hiss olunur, -deyə, Jüsten

söhbətə, daha doğrusu girişmək istədiyi mövzuya, lazımlı bir "körpü" atdığına görə daxilən özündən razı halda gülümsədi.

Səbinə dedi:

-Elə sizin qızınız da gözəl və incədir.

Lüsten güldü:

-O, xasiyyətcə daha çox qafqazlılara oxşayır. Rəhman dayı cavanlığında dalaşqan olmayıb ki?

Sabina çiynini çəkdi:

-Deyə bilmərəm. -Və əlavə etdi: -Bir də ki atamın gəncliyi müharibə dövrünə düşüb. Onun həmin vaxtlarını İrma xanım daha yaxşı xatırlaya bilər.

Hər ikisi ürəkdən güldü.

Jüsten ehtiyatla dedi:

-Sizin əriniz vəfat edib...

Səbinə maşının sürətini azltdı.

-Mənim ərim qardaşımla birgə maşın qəzasında həlak olub. Atam bu barədə danışdı ki...

-Bəli, Rəhman dayı bunu dedi. Bəs qardaşınızın arvadı...

-O, çox cavan idi. Biz razı olmadıq ki, o, həyatının sonunacan evdə qalsın. Ərə getdi. Onun qızını atamla anam böyütdü. Siz onun toyunda iştirak etmisiz.

-Bəs ananız?

-Bir neçə il əvvəl o da rəhmətə getdi.

-Belə çıxır ki, evin, ailənin ağırlığı sizin çiyninizə düşüb, Səbinə xanım.

-Bəli, belə çıxır, müsyö, -deyə, Səbinə yenə gülümsədi.

-Bu, çox çətindir. Mən öz təcrübəmdən bilirəm.

-Bəli. Çətindir. Amma nə etməli? Axı insan heç nədən, heç bir bədbəxtlikdən sığortalanmayıb.

-Doğrudur. Sizin nikbinliyiniz tədricən mənə də sirayət edir.

-Bəyəm siz bədbin adamsız, müsyö?

-Hər halda nikbin də deyiləm.

-Tale ilə barışmaq lazımdır.

-Mən tale ilə barışıram. Amma dünya ilə barışmağa çətinlik çəkirəm, Səbinə xanım.

-Necə bəyəm, müsyö?

-Bu yaşadığımız dünya mənim iç dünyamı viran elədi. Mənim Sabinam əlimdən getdi.

Səbinə bir qədər fikrə getdi. Sonra yanakı dönüb soruşdu:

-Müsyö, mən belə başa düşdüm ki, sizin arvadınız təyyarə qəzasında həlak olub.

Jüsten nəyisə dəqiqləşdirmək istəyirmiş kimi, bir qədər susub nəhayət dillədi:

-O, həm də sizin bacınızdır... Ögey də olsa belə.

Səbinənin yanaqlarına xəfif qızartı çökdü:

-Doğrudur...

Jüsten dedi:

-Bəli, təyyarə dağın yüksəkliyinə dəyib parçalanmışdı. Amma onun qalıqları arasından heç də hamının cəsədi tapılmadı.

-Bu, necə ola bilər?

-Bu, bir möcüzə idi.

-Siz buna əminsiniz?

-Əlbəttə. Mən taleyə inanan adamam. Niyə də inanmayım? Sizi televizorda görəndə az qala huşumu itirib dəli olacaqdım.

Qadın güldü.

-Yox, müsyö, elə şey etməyin.

Jüsten:

-Mən doğru deyirəm.

Səbinə:

-Elə mənim də düz sözümdür.

Jüsten qımışdı:

-Yəqin ki, hər şey sizinçün gözlənilməz oldu.

-Nəyi nəzərdə tutursunuz, müsyö?

-Atanızın Fransada evli olmasını, orada onun qızının qalmasını...

Sabina:

-Elədir. Bütün bunlara yatsaydım, mənim yuxuma belə girməzdi, -dedi və təbəssümlə soruşdu: -Müsyö, doğrudan məni televizorda görmüsüz, özü də Parisdə?

Jüsten nədənsə ah çəkib dedi:

-Bəli. Bu, həqiqətən belədir. Mənim televizorum Bakını da göstərir. Hesab edirəm ki, mənim sizi ekranda görməyim, buraya gəlməyim, bu görüş, bunların heç biri təsadüf deyil. Bu, mənə bir tale töhfəsidir. Görünür, insan bu dünyada nəyi itirirsə, əvəzində bəlkə ondan az qiymətli olmayan başqa bir şey tapır.

-Qəribədir,-deyə qadın dilucu dillənib susdu.

Qarşıdan toy karvanı, bərbəzəkli maşınlar keçirdi. Sabina əyləci basıb maşını yolun kənarında saxladı. Jüsten başını maşının pəncərəsindən çıxarıb maraqla toy karvanına baxmağa başladı:

-Toydur.

-Bəli.

Karvan ötüb keçdi.

Qadın maşının qazını artırıb sükanı yana burdu.

Az sonra maşın dar, sakit küçələrdən biri ilə üzüaşağı şütüyürdü.

Doğru deyiblər ki, dünyanın bir üzü güləndə bir üzü ağlayır. Küçənin sonunda bir dəstə adam dayanmışdı.

Yaxınlıqda böyük bir çadır-palatka qurulmuşdu. Dəstə hərəkətə gəldi. Səbinə maşını yenə saxlamalı oldu. Adamların çiyninə götürdüyü tabutun önündə molla gedirdi. Adamların sayı get-gedə artırdı.

Jüsten dedi:

-Kimsə vəfat edib.

Sabına könülsüz halda:

-Bəli,- dedi və bir qədərdən sonra əlavə etdi: -Bir yanda roy, bir yanda yas. Bax, həyat belədir...

Dəstə ötüb keçəndən sonra Sabina maşını işə saldı.

Uzun müddət susdular.

Jüsten sanki araya çökmüş qəmli sükutu pozmaq üçün mövzunu  qəsdən dəyişmək istədi:

-Sabina xanım, siz fikir verdiniz, baba ilə nəvə bir-birinə necə sarılmışdı?

Sabina cavab verdi:

-Hə, bu hər ikisi üçün bir sürpriz oldu.

Jüsten ətrafa göz gəzdirdirərək dedi:

-Mən Bakını ürəkdən sevdim. -Və sonra əlavə etdi: -Siz Parisdə olmusuz?

-Yox.

-Təəssüf.

-Amma mən Fransanın bölgələrini, Parisin küçələrini, məhəllələrini az qala adbaad, qarış-qarış tanıyıram.

-Doğrudan? Yəqin coğrafiyanı da yaxşı bilirsiz.

Səbinə güldü:

-Müsyö, unutmayın ki, mən fransız dili və ədəbiyyatını tədris edirəm. Gərək sevdiyin, öyrəndiyin, öyrətdiyin dilin mənsub olduğu xalqı yaxından tanıyasan. Eləcə də onun mədəniyyətini, ədəbiyyatını. Mənim Fransa ilə tanışlığım onun coğrafiyasından yox, onun böyük ədəbiyyatından başlayıb. Flöber, Hüqo, Balzak,

Mopassan, Düma mənə bu işdə bələdçilik edib.

Qonaq Səbinəyə sarı dönüb qəfildən:

-Mən çox qorxuram,-dedi.

Qadın dönüb təəccüblə onun üzünə baxdı:

-Nədən?

Jüsten ciddi tərzdə:

-Vurulmaqdan, -deyə, dilləndi.

Sabina susdu.

Maşın geniş prospektə çıxdı.

***

Ceyhunla Fransuaza gəzə-gəzə gəlib dəniz sahilinə çıxdılar.

-Sizin nə gözəl bulvarınız var,-deyə, qız uzaqlara, dənizlə səmanın kəsişdiyi çəhrayı üfüqə göz gəzdirərək dilləndi.

-Bəli, gözəldir,-deyə, oğlan cavab verdi.

-Bəs dənizdə çimməyi sevirsən?

-Əlbəttə.

-Bəlkə gedək.

-Haraya?

-Sizin çimərliyə.

-İndi çimmək mövsümü deyil axı.

-Mən çimməyi çox sevirəm. Hansı ölkəyə gedirəmsə, mütləq onun dənizi, gölü, çayı ilə maraqlanıram. Anam həmişə mənə deyərdi ki, sən balıq olmalı idin, səhvən qız olmusan.

-Bizdə belə olanda deyərlər ki, lap su quşusan.

-Ceyhun, mən sənin ananı görəndə lap şoka düşdüm... Bilirsən də niyə? O, sanki mənim anamın özüdür. Bəlkə də onlar ekizdilər, sadəcə bunu gizlədirlər.

Ceyhun gülümsədi:

-Onlar bacıdırlar də...

Fransuaza dedi:

-Bunu bildim. Biz xalauşağıyıq. Amma mənə elə gəlir ki, onların hər ikisi, Sabina ilə Səidə, yəni bizim analarımız elə Rəhman baba ilə İrma nənənin qızlarıdır.

-Anlamadım.

-Burada çətin anlaşılan nə var? Olsun ki, həmin ekizlərdən biri, yəni mənim anam qalıb Fransada, o birini, yəni sənin ananı Rəhman baba Azərbaycana gətirib. Olmaz bəyəm?

-Yox. Bu, mümkün deyil.

-Niyə ki?

-Mən bilirəm ki, mənim anam burada doğulub.

-Nədən bilirsən?

-Mən hətta, onun hansı xəstəxanada doğulmasını da bilirəm.

Qız güldü:

-Haradan bilirsən? Bəyəm sən onun yanında olmusan?

Oğlan duruxdu.

-Yox, elə deyil. Bir dəfə mən uşaq olanda nənəm bizi bir qohumumuzun evinə qonaq aparırdı. Anam da bizimlə idi. Yolda bir səliqəli, ağ binanın qarşısından keçəndə yaşlı bir qadın bizə yaxınlaşdı. Nənəmlə görüşüb öpüşdü. Nənəm üzünü anama tutub əli ilə həmin ağ binanı göstərərək dedi:” Bax, sən bu doğum evində dünyaya gəlmisən”. Sonra da əlini görüşdüyü qadının çiyninə qoyub dedi ki, bu xanım isə sənin ilk həkimin olub, sənin bu dünyaya rahat gəlməyində onun zəhməti olub.

Fransuaza dedi:

-Mən bir şeyi bilirəm ki, o, mənim anamla bir gülün iki ləçəyidir.-Sonra qız çantasından çıxardığı şəkli oğlanın

üzünə sarı tutdu:-Bu şəklə bir də bax, Ceyhun.

Oğlan diqqətlə şəklə baxıb dedi:

-Mən sənin ananı görməmişəm. Amma doğrudan da onlar, Sabina ilə Səbinə, bir-birlərinə siyam ekizləri kimi oxşayırlar.

Ceyhun:

-Bilirsən, babam nə deyir?

-Rəhman baba?

-Hə də... Bizim ayrı babamız yoxdur ki.

Fransuaza:

-Elədir. Hə, o, nə deyir?

Ceyhun:

-O, deyir ki, Fransuaza etiraz etməsə onu burada, yanımda saxlayacağam. De görüm, qalarsan burada?

Qız duruxdu:

-İndi dəqiq bir söz deyə bilmərəm. Mənim orada işlərim çoxdur. Amma mən səni mütləq Fransaya dəvət edəcəyəm. Gələrsən, Ceyhun?

Ceyhun gülümsəyib qızın dediyi sözləri təzədən onun özünə ünvanladı:

-"İndi dəqiq bir söz deyə bilmərəm. Mənim burada işlərim çoxdur".

Qız incik halda dodaqlarını büzdü.

Ceyhun ehtiyatla dilləndi:

-Zarafat edirəm. Əlbəttə, Fransuaza, dəvət etsən, məmnuniyyətlə gələrəm.

Fransuaza:

-Hə, bu, başqa məsələ,-dedi və əlindəki şəkli yenidən çantasına qoyaraq əlavə etdi:

-Yaxşı, biz nəhayət çimərliyə gedəcəyik, ya yox?

-Fransuaza, axı mən dedim sənə. İndi su soyuqdur, çimərlik mövsümü deyil. Qoy bu qalsın yaya. Olar?

Qız qaş-qabağını töküb nazlandı:

-Mən bilmirəm bu tərəflərə nə bir də vaxt yolum düşəcək?

-Dənizə pul at, onda yenə qayıdacaqsan.

Qız cibindən çıxartdığı xırda metal pulları dənizə atıb gülümsədi.

-Bax, pul atdım. Amma gərək çimərliyə gedib oraya da pul atam. Hə, necə bilirsən, bu mümkündürmü?

Oğlan diqqətlə qızın üzünə baxıb dedi:

-Madam ki, belə isrsr edirsən, onda gedək.

Fransuaza əyilib oğlanın üzündən öpdü:

-Sağ ol, Ceyhun.

Oğlan bunu gözləmirdi. O, çaşıb qıpqırmızı oldu.

Dənizin üstündə qağayılar dövrə vurub qıy çəkirdi.

Fransuaza soruşdu:

-Hə, getdik?

-Getdik, -deyə, oğlan taksi dayanacağına sarı addımladı.

***

Rəhman Əsgərov şəhərdəki mənzilinə gələn kimi dəstəyi götürüb Jüstenin verdiyi nömrəyə, Parisə, keçmiş sevgilisi İrmaya zəng vurdu.

Dəstəkdə qadın səsi eşidildi. Bu səs doğma və doğma olduğu qədər də uzaq idi.

-Salam, mənim gözəlim.

Qadın titrək səslə dedi:

-Ah, mənim əsgərim, bu, sənsən?

-Mənəm. Düz tapmısan, indi səninlə sənin əsgərin danışır.

-Aman Allah, adamın heç inanmağı gəlmir. Necəsən,

Rəhman?

-Yaxşıyam. Sənin həyatın haqqında Jüstendən bəzi şeylər öyrənə bildim.

-Jüstenin oraya necə, nə üçün gedib çıxmasından mənim heç xəbərim yox idi. O, zəng edəndə bildim ki, artıq Bakıdadır.

-Sabinanın başına gələn müsibəti eşidib üzüldüm. O, mənim ciyərparam idi.

-Bəs qızın sənə çoxmu oxşayır?

-Hər iki Sabina sanki ekizdir. Öz aramızda qalsın, İrma. Jüsten öz dostu ilə buraya həm də Sabinanı görməyə gəlib.

-O, haradan tanıyır sənin qızını?

-İbrahim bəylə Parisdə televizorda görüblərmiş. Təsadüfən. Sabinanı Səbinəyə oxşadıblar. Mənim qızlarım sanki ekizdir.

-Demək televizorda görüblər? Belə de.

-Onlar mənim nəvəmin toy günü gəldilər. Çox sevindim.

-Təbrik edirəm, Rəhman.

-Təşəkkür edirəm.

-Ta əldən düşmüşəm, Rəhman. Yoxsa uçub gələrdim Bakıya.

Dəstəkdə gülüş eşidildi. Rəhman Əsgərov zarafata keçdi:

-Sən gəlməsən də mən gələcəyəm, mənim gözəlim.

İrma ah çəkdi:

-Ta sənin gözəlin şam kimi əriyib. Mən indi bir dəri, bir sümüyəm, Rəhman.

-Nə olsun ki?

-O olsun ki, ta qocalmışam.

-Məhəbbətsə heç zaman qocalmır, İrma. Özü də ilk

məhəbbət.

-Bax, bunu düz deyirsən. Nə yaxşı ki, səsini eşitdim. Bu ötən illərdə hərdən səninlə xəyalən söhbət edirdim.

-Hə? Nə barədə?

-Elə hər şey barədə... Sənsə məni yenə o zamankı kimi oxşayır, sinənə sıxır, qulağıma bu dünyanın ən şirin sözlərini pıçıldayırdın.

-Qəribədir, elə bu son günlərdə nədənsə mən də səni tez-tez xatırlayırdım. Demək bunun bir səbəbi varmış. Xəyal həqiqətə çevrildi...

-Aman Allah,bilsəydin ki, mən sənin sağ-salamat olduğunu eşidib necə də şad oldum.

-Mən də, mənim gözəlim.

-Sağ ol, mənim əsgərim.

Onlar xudahafizləşdilər.

İrma Sati dəstəyi asdı.

Rəhman Əsgərov pəncərədən küçəyə boylandı.

Payız beton səkiyə sanki "xına çəkmişdi", üst-üstə qalaqlanmış qızılı yarpaqlar xalı kimi yerə sərilmişdi.

***

Səbinə maşını yolun kənarında saxladı.

Qadın qonaqla şəhəri piyada gəzməyə başladı.

İçəri şəhərə getdilər.

Şirvanşahlar sarayında oldular.

Xalça-palaz, əntiq şeylər satılan dükanlara baş çəkdilər.

Çayxanada çay içdilər.

Qız qalasına çıxıb oradan ətrafı seyr etdilər.

Nəhayət, onlar dəniz sahilinə gəldilər.

Yüngül meh əsirdi.

-Səbinə xanım, bəlkə birlikdə Parisə gedək,-deyə, Jüsten bayaqdan bəri araya çökmüş sükutu pozdu.

-Yəqin ki, zarafat edirsiz, müsyö.

-Zarafat niyə? Ciddi sözümdür.

Səbinə ayaq saxlayıb diqqətlə onun üzünə baxdı:

-Mən sizə söz verirəm ki, Parisə gələcəyəm. Buna əmin ola bilərsiz.

Jüsten diqqətlə qadının üzünə baxdı:

-Amma mən istərdim ki, siz Parisin payızını görəsiz. Lap elə bu ilki pazızını...

-Biz bütün payızları görə-görə gəlirik, müsyö. Artıq ömrün payızına gəlib yetmişik.

-Təbiətdə olduğu kimi elə ömrün də bütün fəsilləri gözəldir, Səbinə xanım.

-Amma unutmaq olmaz ki, bütün çiçəklər baharda açır.

-Payızın da öz çiçəkləri olur, Səbinə xanım.

-Payızda açan çiçəklərin ömrü qısa olur, müsyö.

-Nə üçün?

-Çünki o vaxtsız açan çiçəkləri qarşıda qışın sərt şaxtası, sazağı gözləyir.

-Elə bəyaz qışın da öz gözəlliyi var, Səbinə xanım..

Səbinə sahildəki çəmənlikdə əkilmiş al-əlvan çiçəklərə baxaraq dedi:

-Əslində, bir mahnıda deyildiyi kimi, təbiətdə pis hava olmur, müsyö. Amma nə edəsən ki, ömrün fəsilləri təkrarlanmır. Yəni bundan sonra heç zaman qışdan sonra baharı görmək bizə qismət olmur.

Jüsten qadını diqqətlə süzərək dedi:

-Mən sizin simanızda solmayan bir baharı görürəm.

Qadın həmsöhbətinin nəyə işarə vurduğunu anlamayırmış kimi gülümsədi:

-Komplimentinizə görə təşəkkür edirəm, müsyö.

Jüsten ayaq saxladı.

-Bu, kompliment deyil, Səbinə xanım.

İndi onlar üz-üzə dayanmışdılar.

Qadın susurdu.

Sahildə adam az idi.

Jüsten Səbinənin əlini əlinə aldı.

Qadın sakitcə əlini geri çəkdi.

***

-Hə, bu da sənin görmək istədiyin çimərlik.

Bu sözləri Fransuazaya Ceyhun dedi.

Dənizin sahilində təkəmseyrək qaraltılar gözə dəyirdi.

Onlardan bir qədər aralıda bir ağ minik maşını dayanmışdı.

Fransuaza bir-birini sahilə qovan dalğalara maraqla baxaraq:

-Mən çimmək istəyirəm,-dedi.

-Fransuaza, sən dəli olmusan? Belə havada çimmək nədir? Gör bir dənizdə adam var?

- Bəlkə adamlar heç yayda da çimmirlər? Adamlardan mənə nə? Sənə dedim axı: mən balıq kimi susuz yaşaya bilmirəm.

Fransuaza çiynindəki çantanı yerə atdı.

Ceyhun narazı halda başını buladı.

-Fransuaza, bura bax, tərslik etmə, hava da soyuqdur, su da.

Qız yerdə çömbəlib bir ovuc qum götürdü.

-Amma qum istidir.

Sonra qız əynindəki paltarları, cins şalvarı soyunmağa başladı.

-Sən nə edirsən?-deyə, Ceyhun qışqırdı.

-Ceyhun, sənə nə olub axı?

-Bura səninçün Paris deyil.

-Bilirəm Paris deyil.

-Hamı sənə baxır.

-Hamı? Kim?

-Çimərlikdəkilər.

-Bəs bayaqdan deyirsən ki, çimərlikdə adam yoxdur.

-Adam deyəndə ki... Bunlar milçək kimi şeylərdir.

Qız güldü:

-Yəqin şirəyə yığışırlar.

Oğlan ciddi tərzdə:

-Hə də,-dedi. -Ona görə də lazım deyil.

-Qoy onda sahildə bir az qaçıb gərdiş edim. Milçəklərin vızıltısını vecinə alma...

Oğlan susdu.

Qız paltarlarını soyunub dənizə sarı addımladı.

Ceyhun gözaltı Fransuazaya göz qoydu. Qızın kağız kimi dümağ bədəni, möhkəm ayaqları, dik sinəsi vardı. Onun bədənindən sağlamlıq və güc tökülürdü.

Fransuaza dalğaların yuduğu qumsal sahil boyu qaçmağa başları.

Ceyhun əsəbi halda cibindən bir siqaret çıxarıb damağına qoydu.

Qız geri dönüb suya girdi. Boz dalğalar Fransuazanın ayaqlarını öpdü.

Yaxınlıqda dayanmış ağ minik maşınından iki cavan oğlan düşdü. Onlar  Fransuazaya baxaraq qəşş edib güldülər.

Ceyhun qanrılıb geri baxdı. Oğlanlad hələ də gülməkdə idilər.

Ceyhun əsəbiləşsə də susdu, dinmədi.

Qız yavaş-yavaş dənizin dərinliyinə doğru addımlayırdı.

Ceyhun qıza sarı gedib qışqırdı:

-Fransuaza, geri qayıt! Sən nə edirsən?.. Su buz kimi soyuqdur...

Qız ucadan dedi:

-Mən üşümürəm...

Oğlanlardan biri o birisinə baxıb elə gülə-gülə:

-Aaaa, bunlar xaricdən bura kayfa gəliblər ki...

-Hə, Paris əhlinə oxşayırlar. Mən fransızca beş-on söz bilirəm də... Qız əla şeydir, özü də diridir, amma oğlan əfələ oxşayır.

Deyəsən, oğlanlar Fransuaza ilə Ceyhunun fransızca danışmasına görə, onların hər ikisini fransız hesab etmişdilər.

Ceyhunun dişi bağırsağını doğrasa da susmağa üstünlük verdi.

Oğlanlardan biri:

-Bəlkə də qız buralı, oğlansa fransızdır,-dedi.

O birisi:

-Nə üçün belə hesab edirsən?-deyə, soruşdu.

-Eşitmişəm fransız kişiləri fağır olur.

-Yox əşi... Bəyəm Napoleon fağır kişi idi? Mənsə əksini düşünürəm.

-Necə bəyəm?

-Məncə qız buralı, oğlansa fransızdır.

-Ola bilməz...

-Olar, olar... Ta bizim qızlar bizimlə gəzmək istəmirlər ki... Onlara indi əcnəbilər əl verir... Pul onlarda, mal onlarda, bahalı maşın onlarda... İndi hamısı pula gedir də...

-Yox ey... Bu səfehin maşını yoxdur deyəsən... Bayaq

taksidən düşəndə özüm gördüm.

-De, sən öl.

-Sən öl, qardaş canı...

-Amma əla şeydir. Zalımın balası elə bil ki, şüşədən düzəlib.

-Ta demə... Ayağa bax, qola bax, belə bax...

Ceyhun özünü saxlaya bilməyib oğlanlara sarı döndü:

-Ayıb olsun sizə. Tərbiyəli olun bir az...

Oğlanlardan biri irəli yeridi:

-Nə dedin? Kimə ayıb olsun?

-Sizə,-deyə, Ceyhun ötkəm səslə dilləndi.

-Ayıb sənə olsun ki, öz dilində danışmağı özünə ar bilirsən,- deyə, o birisi oğlan da irəli yeridi.

Ceyhun hirslə dilləndi:

-Hansı dildə danışmaq lazım olduğunu mən özüm yaxşı bilirəm. Gedin, işinizlə məşğul olun.

Oğlanlardan biri:

-Biz öz işimizi yaxşı bilirik,- dedi. -Ağıl vermə bizə.

-Gərək adamın öz ağlı ola ki, başqalarına da ağıl verə, -deyə, ikinci birincinin dediyinə qüvvət verdi.

Ceyhun acı-acı güldü:

-Elə mən də bu cür fikirləşirəm.

-Bura bax, nə yekə-yekə danışırsan -deyə, birinici oğlan əlini Ceyhunun yaxasına atdı.

Oğlanın ağzından ucuz araq qoxusu gəlirdi.

“Mən nahaq yerə bu sərxşlara baş qoşuram”, -deyə, Ceyhun ürəyindən keçirdi.

İkinci oğlan da onlara yaxınlaşdı.

Ceyhun geri-geri addımladı.

Onlar əlbəyaxa oldular.

***

Jüsten hotelə qayıdanda İbrahim bəy foyedə gəzişirdi. Onlar salamlaşıb otağa keçdilər. Bu zaman telefon zəng çaldı.

İbrahim bəy dəstəyi götürdü.

Sən demə televiziyadan proqram direktoru imiş.

Salam-kalamdan sonra direktor mətləbə keçdi:

-İbrahim bəy, biz sizin axtardığınız qadının kimliyini müəyyənləşdirmişik. Yəni ki, onun barəsində müəyyən məlumatımız var.

İbrahim bəy Jüstenə göz vurub telefon dəstəyini qulağına sıxdı:

-Hansı qadını deyirsiz?

-Televiziyada çıxış edən qadından söhbət gedir. Fransız dili müəllimısi...

-Səbinə Rəhman qızı Əsgərovanı deyirsiniz?

Dəstəkdə ani fasilə.

-Bəli. Belə başa düşdüm ki, siz artıq onu tapmısız?

İbrahim bəy gülümsədi:

-Bəli, biz onunla tanış olduq. Daha doğrusu, bu, təsadüfən belə alındı.

-Uğurlar.

-Sizə də uğurlar arzu edirəm, bəy əfəndi.

İbrahim bəy telefonun dəstəyini yerinə qoydu.

-Səbinə ilə maraqlanır. "Onun barəsində məlumatımız var". Ta sizin məlumata bizim ehtiyacımız yoxdur.

Gülüşdülər.

-Hə, müsyö, işlər necədir? Gün necə keçdi?

-Hər şey gözəldir.

-Səbinə xanımla görüşə bildiniz?

-Bəli. Görüşdüm, söhbətləşdim.

İbrahim bəy zarafatla dedi?

-... və əmin oldunuz ki, Səbinə heç də Sabina

deyilmiş.

-Əksinə. Əmin oldum ki, Səbinə Sabina ilə eyni bir xanım imiş.

-Bu, necə olur, canım?-deyə, İbrahim bəy ciddi tonda soruşdu.

Jüsten də həmin tonda cavab verdi:

-Bu, Allahın işidir.

-Təbii. Hər şey Allahın əlində. İnsanların bu cür zahiri eyniyyəti heyrət doğurur.

-Yox, İbrahim bəy, burada söhbət zahiri oxşarlıqdan getmir. Sabina ilə Səbinə ruhən, qəlbən eyni adamdır. Mən yüz faiz bu qənaətdəyəm.

-Axı onlar eyni kişinin övladlarıdır.

-Bu oxşarlıq onların bütün xasiyyətlərində özünü göstərir. Hətta, ən adi məişət söhbətlərində belə...

-Müsyö, görünür, gen deyilən bir şeyin təsirsiz ötüşdüyü sahə yoxdur.

-Bəli, bu, bir möcüzədir, İbrahim bəy. Mən bir daha əmin oldum ki, bu dünya möcüzələrlə doludur.

İbrahim bəy:

-Doğrudur, müsyö, -deyə, müsahibinin dediklərini təsdiqləyərək əlavə etdi: -Mən bu gün ayaqqabı dükanında işləmək üçün bir müdir də müəyyən etdim. İstəsəniz sabah görüşüb söhbət edərik onunla.

Jüsten fikirli halda dedi:

-Həmin adam əvvəllər bu sahədə işləyibmi?

-Bəli. Siz də onu görmüsüz. Rəhman kişinin bağında bizə qulluq edən adamı yəqin ki, xatırlayırsınız.

-İmranı deyirsiniz?

-Bəli. Yaxşı yaddaşınız var.

Jüsten güldü:

-Yox, bu, yaddaşla bağlı məsələ deyil. Sadəcə olaraq,

İmran sözü nədənsə İrma sözü ilə assosiasiya doğurur. Oxşar sözlərdir.

-Düz deyirsiz, müsyö, mən buna heç diqqət yetirməmişəm. Hə, İmran əvvəllər ayaqqabı satışı ilə məşğul olub. Özü də yaxşı, səliqə-sahmanlı adama oxşayır.

-Mən ikiəlli razı. Düz etmisən. Hər necə olsa da İmran öz yaxın adamımız hesab olunur.

-Elədir.

Jüsten fikirli halda:

-Nəsə Fransuaza gəlib çıxmadı. Nigaran qaldım.

-Yəqin ki, indilərdə gələr. Fransuaza elə zəif qız deyil ki, biz ondan nigaran qalaq.

***

Fransuaza tez şalvarı əyninə keçirib mübahisə edənlərə sarı qaçdı.

-Ey, siz nə edirsiz? Ceyhun, bunlar səndən nə istəyirlər?

-Bilmirəm,-deyə, Ceyhun qıza sarı dönüb cavab verdi.

Birinci oğlan geri çəkilib güldü:

-Yenə başladınız? Niyə öz dilinizdə danışmırsız?

İkinci oğlan birincinin qolundan tutub dedi:

-Axmaq, görmürsən, qız fransızdır?

Birinci oğlan:

-Axmaq sən özünsən, bir də sənin bu fransızların.

İkinci oğlan sərxoş dostunun qolundan tutub geri dartdı:

-Yaxşı, yaxşı, çərənləmə.- Öz-özünə mızıldanırmış kimi əlavə etdi: -Axı sənə dedim ki, içmə. İçəndə sarsaqlayırsan.

Birinci oğlan:

-Çərənçi də özünsən, sarsaq da. Mən fransız, ingilis, ərəb-filan hərləmirəm. Əlini çək...

İkinci ilə birinci oğlan əlbəyaxa oldular.

Fransuaza yerində donub qalmışdı.

Ceyhun gülməyini zorla saxlayırdı.

Oğlanlar bir-birinə yumruq, təpik atmağa başladılar.

Fransuaza irəli yeriyib onların arasına girdi.

Dalaşan oğlanlar yenə bir-birinə sarı atlanmaq istəyəndə Ceyhun da irəli çıxdı.

Ceyhun ikinci, Fransuaza isə birinci oğlanı tutub saxladı.

İkinci oğlan sakitləşdi. Ceyhun onun qolunu buraxdı.

Birinci hələ hə havaya- ikinicinin qarasıyca yumruq atmaqda idi.

Fransuaza birinci oğlanın sərxoş olduğunu duymuşdu, qızın ürəyindən onu "ayıltmaq" istəyi keçdi və elə buna görə də onu az qala sürüyə-sürüyə düz ləpədöyənə gətirdi. Deyəsən, oğlan suya girməkdən çəkinirdi.

Fransuaza Ceyhuna sarı baxıb dedi:

-Bu, sərxoşdur, məncə suya girsə ayıla bilər...

Ceyhun güldü. Onun yanındakı oğlan da güldü.

Birinci oğlan dartınsa da artıq gec idi. Fransuaza onu dənizə sarı itələdi. Oğlan səntirləyib yıxıldı. Qız gülə-gülə ovucladığı duzlu suyu oğlanın üz-gözünə çilədi. Bir qədər sonra dişi dişinə dəyən oğlan dözə bilməyib əllərini yuxarı qaldırdı:

-Mən təslim...

Sahildəkilər gülüşürdülər.

Az sonra onlar sahildə tonqal çatıb islanmış paltarlarını qurudurdular.

İkinci oğlan maşının yük yerindən çıxartdığı şərabı

yerə sarılmış qəzetin üstünə qoyub dedi:

-Mən sükan arxasındayam, içə bilmərəm. Amma üşüyənlər qızışmaq üçün içə bilər. Həm də tanışlığı qeyd etmək pis olmaz...

Birinci oğlan altdan-altdan Fransuazanı süzüb dedi:

-Mən bu qızdan qorxuram. Deyəsən idmançıdır. Olsun ki, boksla məşğul olur. Güclü əlləri var.

Ceydun dedi:

-Hə, idmançıdır. Amma qorxma. Lazım olsa, biz səni müdafiə edərik. Sadəcə, özünü yaxşı apar.

Gülüşdülər.

Sonra maşındakı maqnifofonu işə salıb, orada ifa olunan melodiyanın ritminə uyğun olaraq şıdırğı rəqs etməyə başladı.

Alqış səsləri çalınan melodiyaya və ləpələrin səsinə qarışdı.

İndi onların hamısı dostlaşmışdılar.

***

İrma Sati hələ də Bakıdan gələn xəbərlərin təsiri altında idi. Qadın qarışıq hisslərin məngənəsində sıxılsa da daxilən özündə bir rahatlıq tapmışdı. O, Dominiki itirəndən sonra nədənsə öz ilk məhəbbəti barədə tez-tez düşünməyə başlamışdı. Rəhman Əsgərov onun gənclik həyatının günəşi olmuşdu. Sən demə, o günəş hələ sönməyibmiş. Bir bu dünyanın işlərinə bax. İllər, onillər ötəndən sonra qadın "öz əsgərinin" səsini yenidən eşitmişdi. Allah bilir, onlar bir də görüşə biləcəkdilərmi? Əslində İrmaya elə Rəhmanın səsini eşitmək kifayət idi. Qadın son zamanlar tez-tez xəstələnirdi. Yorulub əldən düşmüşdü. Sifətini doğrayan qırışlar daha da

dərinləşmişdi. Əlləri əsirdi. Hər xırda şey ona təsir edirdi. Qocalıq öz işini görməkdə idi. Satı az qala bu dünyadan əlini üzmüşdü. Sabinanın faciəli aqibəti isə onu çox sındırmışdı. İndi budur, Bakıdan yeni xəbərlər gəlməkdə idi. Sanki bütün bunlar kinoda, dramatik filmdə baş verirdi.

Qadının ürəyindən bir anlığa Rəhmanın səsini eşitmək hissi keçdi. Əlini dəstəyə atıb nömrəni yığdı. Kişi səsi eşidildi:

-Alo...

-Salam.

-Ah, İrma, bu sənsən?

-Mənəm, mənim əsgərim.

-Səsini eşitdiyimə görə necə sevindiyimi təsəvvür edə bilməzsən.

-Elə mən də çox sevinirəm, mənim əsgərim.

-İrma, bəlkə təyyarəyə minib gələsən Bakıya.

-Mən?

Rəhmanın gülüşü eşidildi.

-Əlbəttə, sən, İrma. Niyə təəccüb edirsən ki?

-Rəhman, ta mən qocalmışam.

-Elə mən də... Amma ürək qocalıqla heç cürə barışmaq istəmir. O, yenə əvvəlki hisslərlə döyünür.

-Hə, doğrudur. Ürək yaşa baxmır ki...

-Eh, İrma, İrmacan... Biz od-alovun içindən sağ-salamat çıxdıq, amma illərin qarşısında əl qaldırıb təslim oluruq... Ürəyimizsə yenə gəncdir. Qəribədir...

-Elədir, Rəhman. Qocalıq müharibədən də betərmiş.

Pauza.

-İrma, məni ən çox yandıran bizim Sabinamızın itkisidir.

-Ta demə. Ah, Sabina, Sabina...

-Mən bu son günlərdə sarsılmışam.

-Bəs sənin qızın necədir, Rəhman?

-Yaxşıdır.

-Şükür... Deyirsən, fransız dili müəllimidir hə? Bir onun da səsini eşitsəydim...

-Evdə yoxdur indi. Bir dəfə calaşdıraram sizi, söhbət edərsiz.

-Bəs görəsən, Jüsten nə vaxt qayıdacaq Parisə?

-Bax bunu dəqiq bilmirəm. Amma o, hələlik Bakıdadır. Şəhərlə tanış olur.

Qadın maraqla soruşdu:

-Yəqin Fransuaza ilə birlikdədir.

-Yox, məncə Jüstenin müşayətçisi Səbinədir. Axı qızım şəhəri yaxşı tanıyır. O, həm də əla maşın sürür.

İrma deyəsən, nədənsə tutuldu.

Araya ani sükut çökdü.

Qadın özünü ələ alıb:

-Oldu, mənim əsgərim, hələlik,-deyə, Rəhmanla xudahafizləşdi.

-Hələlik, İrma.

***

Bu dəfə Jüstenlə Səbinə sahildə görüşdülər. Funikulyorla Bakının Dağüstü parkına qalxdılar. Amfiteatrı xatırladan meydançadan keçərək ikimərtəbəli tikilinin qarşısına gəldilər. Bu nöqtədən bütün şəhər apaydın görünürdü. Onlar buradan dənizi, sahili, uzaq üfüqləri seyr edib yaxınlıqdakı çayxanaya getdlər. Bu nəhəng, geniş salonlu çayxanada adam az idi.

Onlar ordan-burdan söhbət edirdilər.

Səbinə bu gün həmişəkindən daha şən görünürdü.

Jüsten isə, əksinə, bikef və fikirli idi.

Həzin, qüssəli bir melodiya eşidilirdi.

Qadın qonağı iti nəzərlərlə süzərək dedi:

-Müsyö, nəsə çox qayğılı görünürsüz.

-Elədir, -deyə, Jüsten qısaca cavab verdi.

Sonra onlar pəncərədən bayıra, sanki eyni bir nöqtəyə baxmağa başladılar. Bayırda payız küləyi əsirdi. Yaxınlıqdakı ağacın başında boş bir yuva görünürdü.

Sonra onların baxışları bayırdan "yığıldı", bir-birinin üzünə dikildi.

Səbinə dedi:

-Payızı çox sevirəm. Çox...

Jüsten könülsüz halda dilləndi:

-Payız gözəldir. Amma bir az kədər doğuran fəsildir. Pis olan budur ki, bəzən bu fəslin ovqatı insanın ruhuna da təsir edir.

-Bu, necə olur ki?

-Çox sadə... Sanki fəsil bütün çalarları ilə insanın ıçinə çökür.

-Payız mənim uşaqlıq xatırələrimi yada salır. Xəzəl toplamağımız, tonqal çatmağımız düşür yadıma.

-Amma bu son illərdə payız mənə öz yaşımı daha tez-tez xatırladır.

-Nə mənada, müsyö?

-O, sanki mənim qulağıma pıçıldayır ki, sən də bu yerə tökülən yarpaqlara bənzəyirsən. Külək səni qabağına qatıb qovmaqdadır. Sən tezliklə qışa çatacaqsan, qarın altında qalıb torpağa qarışacaqsan. Mən bütün bunları düşünəndə dəli olmaq dərəcəsinə gəlirəm.

-Bu, hər kəsin yaşadığı bir ömürdür, müsyö. Bizdən asılı olmayan şeylərə biz müqavimət göstərə bilmərik.

-Bilirəm, Səbinə xanım. Amma bildiklərimlə daxilən

razılaşa bilmirəm... Bir yandan da tənhalıq.

-Tənha niyə? Sizin qızınız var yanınızda.

-Tezliklə o da uçub başqa bir yuvaya gedəcək. Mən yenə tək qalacam.

-Bu, hər kəsin alın yazısıdır. Necə deyərlər, nəsillər bir-birini əvəz edir...

-Fəsillər kimi...

-Elədir.

Araya yenə sakitlik çökdü.

İndi bayaqkı həzin musiqini ritmik melodiya əvəz etmişdi.

***

Fransuaza ilə tanış olduqdan sonra Ceyhunun qəlbində yeni hisslər, yeni duyğular baş qaldırmışdı. Daxili bir istək oğlanı bu şıltaq, yaraşıqlı fransız qızına sarı çəkirdi. Sanki Fransuazada gizli bir cazibə vardı. Onlar bir-birlərinə yalnız son günlər mehr salsalar da, uzun illərin tanışları kimi mehriban idilər.

Oğlunda baş verən dəyişikliyi Səbinə də hiss edirdi. Amma qadın bunu onun üzünə vurmurdu.

Səbinə oğlu ilə qonaq qızın görüşdüyünü də eşitmişdi. Və təbii ki, bütün bunların adi, keçəri gənclik duyğuları ilə bağlı olduğunu zənn edirdi.

Ceyhun yenə narahat idi.

Ana arada oğluna zarafatla sataşmağı da unutmamışdı:

-Son günlər yamanca səliqəli geyinib-kecinirsən. Yosa vurulduğun qız-zad var?

Oğlu azacıq pörtüb qızarsa da susmuşdu.

Ceyhun çıxıb gedəndən sonra Səbinə özü özünü ittiham etməyə başlamışdı: "Ceyhun cavandır, onu başa

düşmək olar. O, bu yaşda sevə də bilər, vurula da bilər. Bəs mən özüm? Mənim hərəkətlərimə kim bəraət verə bilər? Bu yaşda mən nə edirəm?"

Sonra qadın özü-özünə bəraət verməli olurdu: "Axı mən qeyri-adi nə edirəm ki? Yad qonqdır, şəhərlə tanış olmaq istəyir. Mən onunla kobud davrana bilmərəm ki..."

Amma qadın yaxşı anlayırdı ki, Jüsten öz münasibətini bir az başqa səmtdən qurmaq istəyir. Necə? Nə cür? Bunu anlamaq elə də çətin deyildi. Fransız qonaq bəzən öz Sabinasına bənzəyən Səbinəni uzun, sınayıcı baxışlarla süzür, aşkar-gizli ah çəkirdi.

Artıq Jüsten vətənə dönməyə hazırlaşırdı. Bunu qonaq səhər-səhər zəng edərkən bildirmişdi. Jüsten qadınla görüşmək istəyirdi. Səbinə görüşə razılıq vermişdi. Axı o, bu yad qonağın ürəyini nə üçün qırmalıydı ki?

Bu, bəlkə də onların son görüşü olacaqdı. Amma bu dünyanın işlərini nə bilmək olar, bəlkə qarşıda yeni görüşlər də olacaqdı?

Səbinə fransız qonaqla bulvarda görüşdü.

Külək yerə tökülən sarı-qızılı yarpaqları dənizə sarı qovurdu.

Jüsten nəsə tərəddüd edir, qırıq-qırıq ifadələrlə danışırdı. Bu, Səidənin nəzərindən qaçmadı.

Qadın müsahibinin üzünə baxıb gülümsədi.

-Deyəsən, darıxırsız getməyə...

-Hara? Hotelə?

Qadın güldü:

-Yox, vətənə.

- Məsələ darıxmaqda deyil... Mən bir söz demək istəyirəm sizə, Səbinə xanım...

-Buyurun. Eşidirəm...

-Məni qınamayın, cəsarətim çatmır. Üstəlik ağlım da

mənə deyir ki, demə o sözü, sus... Amma ürəyim... Ürəyim israr edir ki, susma, de.

Səbinə güldü:

-Siz seçim edin. Görün onlardan hansı rasionaldır...

-Bəzin ikisi də səhv edir.

-Amma ikisi də eyni şey desə daha yaxşı olar.

-Təəssüf ki, bu, nadir hallarda baş verir.

-Onda bir az səbr edin. Bəlkə ürəyiniz də ağlınızın dediklərini qəbul etdi.

-Oldu... Dostlarımın dediyinə görə, mən səbr etməkdə şərqlilərə oxşayıram. Görünür, bu, ondan irəli gəlir ki, şərqli dostlarım çoxdur.

***

Jüsten hotelə gəlib kresloya çökdü.

Fransuaza ilə İbrahim bəy hələ gəlib çıxmamışdılar.

Jüsten dəstəyi qaldırıb qaynanasının nömrəsini yığdı.

Qadının səsi titrəyirdi. “Bəlkə xəstələnib”-deyə, Jüsten ürəyindən keçirdi.

-Salam, İrma xala. Necəssiniz? Yaxşısınızmı?

-Salam, Jüsten. Yox, yaxşı deyiləm.

-Bəlkə təzyiqiniz var. Həkimə müraciət edin.

-Mənimki həkimlik deyil.

Jüsten vahimələndi:

-İrma xala, bədbinliyə qapılmayın. Xəstəlik ötüb keçən şeydir.

-Mən xəstə deyiləm.

-Şükür Allaha... Yoxsa qorxutmuşdunuz məni...

-Məsələ başqa cürdür.

-Hansı məsələ?

-Mən deməyə də çətinlik çəkirəm.

-Nəyi?

-Bu gün eşitdiklərimi. Yaxşı ki, özün zəng vurdun, Jüsten. Bayaqdan fikir içində qovruluram.

-Axı nə olub?

Dəstəkdə sükut. Jüsten ucadan qışqırdı:

-Sizə nə oldu, İrma xala?

Qadının xırıltılı səsi eşidildi:

-Bura bax, Jüsten, gələndə deyərəm...

-Yox, indi deyin. Xahiş edirəm. Nə olub, nə baş verib?

-Sabinadan yeni xəbər var.

Sanki Jüsteni eliktrik cərəyanına qoşdular.

-Nə? Sabina? Necə yəni? Heç nə anlamıram. O nə xəbərdir elə?

-Onun boyunbağı tapılıb.

-Kimin?

-Necə yəni kimin? Sabinanın.

-Harda tapılıb ki?

-Təyyarə qəzaya düşən yerdən.

Jüstenin nəfəsi təngidi. Az qala boğulacaqdı. Elə boğula-boğula soruşdu:

-Bəs Sabina?..

-Sabina göyərçinə çevrilib yəqin.

“Yəqin bu qadının başına hava gəlib”-deyə, Jüstenin ağlından keçdi.

-İrma xala...

-Yox, mən dəli-zad olmamışam, Jüsten. Məsələ burasındadır ki, Sabinanın boyunbağı bir dağılmış göyərçin yuvasından tapılıb. Yadındadırmı, Sabina uçan təyyarə Monblan dağındakı yüksəkliyə çırpılmışdı. Geoloqlar bu yaxınlarda oraya qalxıbmış. Təyyarənin qırıntılarınıdan bir az yuxarıda dağ göyərçininin yuvasında bir boyunbağı tapıblar. Boyunbağının üstündə də belə bir

yazı: “Sabina Satiyə Jüsten Bursedən”. Bu, sənin ona verdiyin hədiyyədir, Jüsten.

Jüstenin canından soyuq bir dalğa keçdi.

-Siz bunları haradan eşitdiniz, İrma xala?

-Qəzetdə oxudum. Televiziyada da bu barədə məlumat verdilər. Bir də ki, dünən baş kəşfiyyat idarəsindən zəng vurmuşdular. Sən demə, o vaxt qəzaya düşən təyyarədəki sərnişinlərin siyahısı “Fransa Hava Yolları”nda qalırmış. Oradan da zəng etdilər. Əvvəlcə səni arayıblar. Sənin burada olmadığını öyrənəndən sonra məni tapıblar. Soruşdular ki, Sabina Sati sənin nəyindir? Dedim ki, qızım idi. Əhvaları danışdım. Dedilər ki, Jüsten Burse ilə səfərdən qayıdanda əlaqə saxlayarıq. Yəqin ki, boyunbağını sənə vermək istəyirlər, Jüsten.

Jüsten inildədi:

-Aman Allah...

-Hə, Jüsten, Sabinamız göyərçinə dönüb... Onun yuvası uçubmuş, Jüsten...

Qadın hıçqırdı.

Jüstenin gözündən diyirlənən yaş telefon dəstəyinin üstünə düşdü.

O, qaynanasından eşitdiyi məlumatı nə İbrahim bəyə, nə də Eransuazaya bildirdi.

***

Müsafirlər həmin gün yır-yığışla məşğul oldular.

İbrahim bəy ayaqqabı mağazası üçün gözaltı etdiyi yerin sahibləri ilə danışmışdı. İmran tezliklə işə başlayacaqdı.

Fransuaza nəsə fikirli, qüssəli idi.

Jüsten axşamüstü Səbinə ilə görüşdü.

Qadın bu gün həmişəkindən daha şux və gözəl görünürdü.

-Çox cazibədarsınız.

Bu sözləri Jüsten dedi.

Səbinə gülümsədi:

-Təşəkkür edirəm, müsyö. Amma siz nədənsə qayğılı görünürsünüz.

-Yəqin payızdandır.

-Axı siz payızı sevirsiniz, Sabina xanım.

-Elədir. Amma bu fəslin bəzi rənglərində qüssə çaları da var.

-Ola bilər. Bunu payızı sevənlər bilər.

-Bütün günü ağlımla ürəyim arasında dialoq gedib.

-O nə dialoqdur elə?

-Dünənki söhbətə illüstrasiya kimi deyirəm bu sözləri.

Qadın ciddiləşdi.

-Hə, dünən ağlınızla ürəyiniz arasında nəsə bir anlaşılmazlıq olduğunu demişdiniz.

Jüsten üstündən ağır yük götürülmüş adamlarsayaq dərindən nəfəs aldı:

-Axır ki, onlar eyni fikrə gəldilər.

-Kim?

Jüsten güldü:

-Ağlım və ürəyim.

Qadın susdu.

Jüsten ehtiyatla dilləndi:

-İcazə versəniz, mən ağıl və ürəyimin birgə çıxartdığı qərarı sizə çatdırardım.

-Buyurun.

-Ürəyim və ağlım mənə hökm edir ki, bildirəm...

Uzun bir sükut.

Jüsten özünü ələ alıb sözünün arxasını da dedi:

-...bildirirəm ki, məni sizin ayağınıza bu qəribə tale gətirib.

Qadın inadla susurdu.

Jüsten Səbinə ilə üzbəüz dayandı:

-Bir daha bildirmək istəyirəm ki, mənim Sabinam göyərçinə dönüb sonsuzluğa uçdu. O, bir daha geri dönməyəcək. Səbinə, mən istəyirəm ki, biz bundan sonra qoşa uçaq. Mən bu səmanı səninlə bölüşmək istəyirəm.

Qadın susmaqda idi. Handan-hana o, başını yellədi. Çox güman ki, bu işarə yumşaq şəkildə olsa da “yox” demək idi.

Jüstenin baxışları yerə zilləndi.

***

Dörd nəfər adam şəhərin mərkəzi küçələrindən biri ilə asta-asta üzüyuxarı qalxırdılar.

Ağacdan qopan yarpaqlar havada yellənə-yellənə yerə düşürdü.

Hava əvvəlcə günəşli idi, sonra narın bir yağış başladı.

Onlar islanacaqlarından ehtiyat edərək yaxınlıqdakı iri eyvanın altına getdilər. Buranı yağış tutmurdu.

Bu dörd nəfər –Səbinə, Jüsten, Ceyhun və Fransuaza göyün üzünə tamaşa edirdilər.

Yağış get-gedə gurlaşırdı.

Qəfildən yaxınlıqdan əzan səsi eşidildi.

Sonra bu səsə kilsə zənginin səsi qarışdı.

Məlum oldu ki, başdan-başa  daş döşənmiş küçənin o üzündə məscid, bu biri üzündə isə kilsə binası var.

Əzan və zəng səsləri bu adi payız gününə nəsə gözlə görünməsi mümkün olmayan, yalnız qəlbin duya biləcəyi yeni, qeyri-adi bir rəng əlavə etməkdə idi.

Sən demə onları, bəlkə də onların hamısını yox, təkcə Jüsten Burseni möcüzə gözləyirmiş. Qəfildən gur yağış selinin içindən, sanki tutqun-boz tül arxasından bir ağ at peyda oldu. Jüsten çaşıb qaldı. Nəsə demək istəsə də səsi çıxmadı. Fransız qonaq bu ağ atı anındaca tanıdı: bir neçə gün öncə hava limanında “gördüyü” at idi. Daha doğrusu, həmin gün Jüsten yuxuda ikən bu atı uçuş meydançasında görmüşdü. Budur, indi, o, yuxuda deyil, ayıqdır, at isə düz şəhərin mərkəzinə, çox güman ki, məxsusi olaraq məhz onun pişvazına gəlib çıxıb.

Möcüzə hələ davam etməkdə idi; sən demə, çılpaq atın üstündə ağ geyimli bir adam da varmış. Gur, şıdırğı yağış bir anlığa səngidi, sanki görünməz bir əl sıx-sıx sıralanmış damlaları tül teatr pərdəsi kimi dartıb yana “çəkdi”. Və bir anlığa atlının ağ yaylıq altından sifətinə tökülmüş xurmayı saçları, iri-parlaq gözləri göründü. Bu sifət necə də tanış və doğma idi... Bu,elə həmin atlı idi: hava limanında gördüyü süvari xanım. Xeyir ola, görəsən bu atlı qadın onu qarabaqara nə üçün izləyirdi? Məqsədi, istəyi nə idi bu qəfil atlının? Jüstenə elə gəldi ki, eyvanın altında dayananlardan heç biri onun seyr etdiyi mənzərəni görmür. Çünki indi Səbinə, Ceyhun və Fransuaza nə barədəsə söhbət edir, xısın-xısın gülürdülər. Jüsten gözünü bu ağ geyimli süvaridən çəkə bilmirdi. At sanki yerlə yerimir, boşluqda uçurdu. At az qala düz Jüstenin burnunun ucundan dövrə vurub ani ayaq saxladı. Aman Allah, qadının sifəti necə gözəl, necə doğma idi. Bu, kim idi görəsən? Günün günortaçağı bu nə zarafatdı belə? Yox, bu, heç də zarafata oxşamırdı. Sonra qadın atı dördnala, küçə ilə üzüyuxarı çapdı. Əvvəlcə heç bir tappıltı eşidilmirdi. Yalnız ağ geyimli süvari qadın gözdən itəndən sonra uzaqlardan at ayağının tappıltısı eşidildi.

Daş döşəməyə çırpılan nal səsləri bir müddət Jüstenin qulağında əks-səda verdi.

Daha sonra göy gürüldadı, şimşək çaxdı.

İndi yaxınlıqdan keçən maşınların uğultusu, göy gürültusu, uzaqdan eşidilən at ayağının tappıltısı əzan və zəng səslərinə qarışmışdı.

Payız yağışı indi təkcə yaxınlıqdakı uca binaların damını deyil, elə səsləri də döyəcləyir və o səsləri də yuyub təmizləyirdi.

Görəsən, bu səsləri Jüstendən savayı eşidən vardımı?

Fransuaza Ceyhunun əlindən yapışmışdı.

Səbinə əlini irəli uzatmışdı: iri yağış damlaları onun ovcuna döyəcləyirdi.

Jüsten fikrə getmişdi. O, indi xəyalən özünü at belində görürdü. Mindiyi at qızılı-sarı xəzəl dənizini yararaq irəli şığıyırdı. Jüsten fikrən öz atını çaparaq süvari qadına çatmaq istəyirdi. Amma atlı qadın görünmürdü. Deyəsən, bu payız süvarisi payız yarpaqlarına qoşularaq artıq gözdən itmişdi. Jüsten xəyalən öz atının ağzını yenə geri döndərdi və gəlib indi dayandığı yerə çıxdı.

Onu qərq olduğu düşüncələrdən Səbinənin asta səsi ayırdı:

-Müsyö, çox fikirlisiz, düşünürəm ki, bəlkə sizin atınız çox uzaqlara çapıb gedib hə?..

Qadın sakitcə güldü.

Jüsten heyrətləndi. Və inadla susdu.

“Görəsən o atlını Səbinə də dörə bildimi?”

***

Hava limanı.

Günəşli bir payız günü idi.

İbrahim bəy, Jüsten və Fransuaza trapla yuxarı qalxaraq onları ötürməyə gələnlərə-

Rəhman Əsgərov, Aydın Sağlam, Səbinə və Ceyhuna əl etməyə başladı.

Jüsten təyyarədə yerini rahatlayandan sonra kiçik, dairəvi pəncərədən ətrafa boylandı. "Aman Allah, bu nədir?" Əvvəlcə elə bildi ki, onu qara basır. Bir neçə dəfə gözünü açıb-yumdu. Yox, o, ayıq idi. Budur, hava limanının düz ortasında dayanmış ağ at asta, yorğa addımlarla təyyarəyə yaxınlaşırdı. Yenə həmin at, yenə həmin atlı qadın. At irəliləyib düz təyyarənin yanında dayandı. Jüsten heyrət içində idi. Atlı qadının qolunun üstündə dağılmış bir göyərçin yuvası və o yuvanın içində zərif, parlaq lələkli bir göyərçin vardı.

Göyərçin qanad açıb havaya qalxdı, bir neçə dəfə dövrə vurdu.

Qadın Jüstenə əl etdi. Onun üzündə sirli bir təbəssüm vardı.

At dal ayaqları üstə şahə qalxıb ucadan kişnədi. Deyəsən, bu kişnərtini təyyarədəkilərin çoxu, bəlkə də elə hamısı, eşitdi.

Jüstenin yanında əyləşmiş Fransuaza təəccüblə çiynini çəkib dilləndi:

-Ata, görəsən o, nə səs idi elə? Eşidirsən, ata?

Jüsten susub çiynini çəkdi və qəmli-qəmli gülümsədi.

Bir azdan təyyarə uğultusu eşidildi.

**SON**

# FİRUZ MUSTAFANIN YARADICILIĞI HAQDA MƏQALƏLƏR

**Cəmil ƏLİBƏYOV**

## Zülmətə açılan qapının işığı

## FİRUZ MUSTAFANIN NƏSR VƏ DRAMATURGİYA NÜMUNƏLƏRİ HAQQINDA DÜŞÜNCƏLƏRİM

Haqqında söhbət açacağım ədibi, güman edirəm ki, yaxşı tanıyırsınız. Onun bir çox teatrlarda nümayiş etdirilən səhnə əsərlərinin tamaşaçısı olub, bədii, elmi və publisistik yazılarını oxumusunuz. Bu sətirlərin müəllifinin sizlərlə bölüşmək istədiyi fikirlər isə, əsasən onun "...QAPI..." kitabı ilə bağlıdır. (Əslində həmin kitabda gedən eyniadlı romanın bütöv adı belədir: "Zülmətə açılan QAPI sanki həmin anlarda tanrının göz yaşları ilə islanmış qurbanları qəbul etməkdən yorulmuşdu").

Firuz Mustafanın kitabı bu yaxınlarda işıq üzü görüb. Bundan xeyli əvvəl bir səhnə əsərinə baxandan sonra müəlliflə görüşüb fikir mübadiləsi aparmaq istəsəm də, bu, o vaxt mümkün olmamışdı. Bu yaxınlarda isə məzkur kitab mənə töhfə edildi. İlk növbədə kitabın adı məndə maraq oyatdı; xüsusən, peşə həmkarımın yazıçı kimliyi və hələ ömür yolunun ortasında acı keçmişə coşqun meyli!

Kitaba müəllifin üç nəsr və üç dram nümunəsi daxil edilib. Nəsr nümunələri müxtəlif janrlardadır: hekayə, povest və roman. Bir az da dəqiq desəm, hekayə-triptix, povest-pritça və roman-kantata.

Mən indiyədək Firuzu mehriban, nəzakətli, ağıllı, sakit, təmkinli, sadə, təvazökar bir oğlan kimi tanıyırdım. Bu kitabı oxuduqca, gözüm önündə müdrik, həyatın ağrı-acılarına bələd olan, bu yaşda nəşə-xumarlı məhəbbət ovqatı ilə yaşamaq əvəzinə neçə zamanın yamanlıqlarını özünə dərd eləyib, insanları mənəvi epidemiyalardan qorumaq naminə ürəyini yeyə-yeyə, zehnini zəhərli yamanlıqlar arasından çıxararaq, sözün həqiqi mənasında Sokratsayağı, insanlara şəfa məlhəmi vermək əqidəsi ilə yaşayan bir yazıçı canlandı. Məni yeni sözlə, yeni düşüncə ilə əqrabalaşdırdı Firuz!

Kitabı oxuyuram. İlk görüşümə gələn "At günü" hekayə-triptixidir. Qoy müəllif ahıl nasirdən bu ifadə üçün inciməsin: filosof-yazıçının təkcə bu əsərini oxumaq kifayət edərdi ki, müəllifin məslək qayəsini, yazıçı qüdrətini anlaya biləsən. Triptix mövcud ədəbi janrın tələbinə uyğun olaraq üç bölmədən ibarətdir: "Qaçış"; "İntihar"; "Son".

Nə qədər düzgün seçilmiş, məharətlə işlənmiş obrazdır At! İlk növbədə o qənaətə

gəlirik ki, yazıçı qələmə aldığı həyata dərindən bələddir. Firuz Mustafanın hekayəsi təhkiyə zənginliyi ilə də məni heyran etdi. Simvollarla zəngin olan bu əsərdə at müstəqil bədii obraz kimi götürülüb və onu da deyək ki, Şərq ədəbiyyatında, o cümlədən, Azərbaycan nəsrində və poeziyasında məcazlara istinad cəhətdən, bu obrazla bağlı rəngarəng bir qalereya mövcuddur. Amma belə hesab edirik ki, indiki dövrdə, ictimai-dünyəvi məzmunlu əsərlərə daha kəskin ehtiyac duyulduğu bir vaxtda, "At günü" tamamilə orijinaldır, bənzərsizdir.

"Bahar otları kimi şirin arzularının arxasınca" qoşan dayçanın canavara tuş gəlməsi, ilxı stixiyasına qoşulma cəhdi, onun az qala insan kimi keçirtdiyi sarsıntılar qeyri-adi bir ustalıqla qələmə alınıb. Bəlkə də, indiki oxucu, bizim dövrün kitab mütaliə edənlərdən fərqlidir və ona görə də hər seyi öz adı ilə demək lazım gəlir. Qısaca olaraq onu xatırladım ki, gözü bağlanıb anası ilə cütləşməyə təhrik edilən dayça az sonra hər şeyi sanki insan kimi içindən keçirərək sarsılır. "Dayça yaydan qopmuş ox kimi yuxarıya doğru atılıb var gücü ilə özünü yerə çırpdı. Onun başı zərblə kiçik qaya parçasına dəyib guppuldadı... Dayçanın ağzından qan gəlirdi".

Baş vermiş müdhiş hadisə bizi düşünməyə, nəticə çıxarmağa vadar edir. İndi biz, görünür, təkcə Aristotellərdən, Tusilərdən deyil, heyvanlardan da "insanlıq" dərsi öyrənmək zorunda qalmışıq.

Əsərdə namusunu satan bir adamla "namuslu" bir atın obrazı paralel olaraq, böyük ustalıqla təsvir edilib.

Qələm sahibinin səlahiyyəti sözlərlə yol göstərmək çərçivəsindədir, dünyanı düzəltmək iqtidarı verilməyib, axı, ona!..

Firuz Mustafanın "Dəniz köçü" povest-pritçası mənə Heminqueyin "Qoca və dəniz"ini xatırlatdı. Amma burada tamamilə başqa bir məsələ - insanla təbiətin harmoniyası, birliyi uğurla önə çəkilir. Ürəyi Tanrı ilə düz olan kəsin hər cür çətinlikdən xilas olmaq ehtimalı böyükdür. Əsərin qəhrəmanı gənc Tuqayın keçirdiyi hisslər, göstərdiyi şücaət və bütün baş verən hadisələr oxucunu öz təsiri altında saxlayır.

İçimizi göynədən, bizi həyəcanlarıdıran hadisələri hikmət sahibi olan yazıçı realist bir qələmlə təsvir edir, məlumdan-məchula, sadədən mürəkkəbə (və gah da əksinə) keçdikdə kitabın leytmotivinin səfini-sırasını pozmur, əksinə, daha da dərinliyə varır.

Artıq qeyd etdiyim kimi, ilk növbədə adı ilə übarə xatırlatdı. Yox, xatırlatmadı, yenidən

yaşatdı. Mənim həyatımda o illər dəhşətli - qorxulu yuxu kimi qalıb. "...QAPI..." güclü obrazları, bədii təfərrüfatları ilə məni yuxudan ayıltdı. İllərin üstünə çəkdiyi bər-bəzəkli örtüyü kənarlaşdırdı və məni onlarla - o qara zülmət qapını günahsız insanların üzünə açanlarla eyni bir cinsə məxsus olduğuma görə sanki müttəhimlər sırasına qoşdu.

Düzü, ağrı-acılarla dolu olan o illərə bir daha "səfər" etməyə ürəyim gəlmirdi. Mövzudan agah olandan, repressiya dəhşətlərini (bu yaxınlarda "Zəmanələrlə üz-üzə" ömürnaməsini yazarkən) ikinci dəfə yaşadığımdan üçüncü müdaxilədən yayınmaq istəyirdim. Bir də ona görə ki, çağdaş zəmanətdə qiyamətə aparan yolda onun əlamətlərindən əzablanıram, onlardan xilas cığırları arayıram. Bu, kifayət deyilmi?! Ancaq yox! Mən faciələrlə dolu illəri indi ayrı bir məqamda yaşamalı oldum.

Əgər Firuz Mustafa "...QAPI..."nın müqəddəməsində açıqlama verməsəydi, ərknən yazıçıya acığım da tutardı. Bəlkə də haqlı olduğumla razılaşardı da! Axı, o illərin dəhşətini, faciəsini görməyən, yaşamayan adam oxucuya təzə nə deyə bilər? Mən və on minlərlə "mən" - otuzuncu illərin zillətini çəkmişlər (onların arasında məhkumların qələm sahibi övladları da az deyil) nə qədər

yazsalar da, ekranlarda ürəklərini boşaltmağa çalışsalar da, nisgilləri-dərdləri tükənmir. Qoca tarixdə bu qədər günahsız insan qırğını, bu qədər ölüm düşərgələrinə sürgünlər, əzablı təqiblər - bu qədər bənzərsiz faciə olmayıb. Elə ki, bir neçə cümlə etiraf arayışını oxudum,"...QAPI..."nı da "At günü" kimi həyəcanla izləməyə başladım. Etiraf isə bunlardı: "...mən özümü repressiya "olunanlara", "dissidentlərə" (axı, indi belələri - atasını öldürüb, goruna and içənlər də var - C.Ə.) aid etmirəm (yeri gəlmişkən, xatırladım ki, 30-cu illərdə onlarca qohumun repressiya qurbanı olub və indi oxuduğunuz əsərdə təsvir olunan bəzi epizodlar özündə o dövrün ab-havasını əks etdirir)". Deməli, yazıçı o illərin əzabını fiziki cəhətdən olmasa da ruhən, qəlbən yaşayıb. Lakin bununla yanaşı, o, sənədli yox, bədii əsər yazıb.

İnam, inanc ilə romanı oxudum, oxudum yox, hər cümlənin ahəngi, məqamı ilə yaşadım və bu "məngənədən" azacıq xilas olanda, baş verənləri yuxuda görürmüşəm kimi, başımı sirkələyib oyanmaq istədim. Bu bədii səviyyəni Tanrı bəxşişi olan qələm sahibliyin, istedadın, intellektin varlığı ilə bağlamaq da azlıq elədi...

Axı, öz canlı həyat müşahidələrimiz bir yana, bu mövzuda rus klassikasının dünya

şöhrətli romanlarını oxumuşuq. (Bulqakov, Rıbakov, Platonov...kimi yazıçıların əsərlərində o dövrün ab-havası geniş şəkildə əks etdirilib. Yeri gəlmişkən, onu da deyim ki, əlli il öncə tapıb oxuya bilmədiyim Pasternakın "Doktor Jivaqo" romanını Sovet vətənimizdə yox, Vyanada gənclərin Dünya festivalında (1958) balışımızın altına qoyub gizlicə oxuyurduq).

Firuzun kitabı ümumən repressiyadan bəhs etsə də, forması, fabulası ilə tamamilə yeni və orijinaldır. Əsərin qəhrəmanının adı da gizli saxlanılır, romanda həmin obraz O kimi təqdim edilir. Qəhrəmanın sənəti-peşəsi də "gizlidir" (O, adamöldürən, daha doğrusu, həbsxana cəlladı vəzifəsini icra edir). Müəllifin "roman-kantata" kimi təqdim etdiyi əsər sanki, həqiqətən, müxtəlif musiqi ladları üzərində qələmə alınmışdır; belə ki, məsələn, "Kavatina"da gərginləşən hadisələr, "Reçitatv"də səngiyir, "Xor"da isə çoxsəsli vüsət alır. QAPInın "o üzündə" baş verənlərlə tanış olduqca istət-istəməz üşənirsən və fikirləşirsən ki, Allah eləməmiş, bugünün doqqazında tıxaclananlar birdən güc gəlib qara qapıdan bu yana keçsələr, insanların taleyi yenə də zülmün ərşə qalxdığı məramla nəticələnə bilər. Min şükür, bizim məkanda zülmətə açılan QAPI yoxdursa da, haqsızlığa,

insanın yaşam hüququna basqılar, bir çox nakəslərin şəxsiyyətləri sındırmaq cəhdi, müqəddəs dəyərlərin alver predmetinə çevrilməsi, çox təəssüf ki, hələ qalmaqdadır. Və biganəlik olsa, onlar bu gün də qara qapıya çevrilə bilər.

Nədir doqqazlarda cəm olunanlar? Şərin-xeyri üstəlməsi, nəinki yaxın dostların, hətta, ana-balanın, qohum-əqrabanın yadlaşması, insan təbiətinin ətraf aləmdən- təbiətdən kənarlaşması və bunlardan doğan yamanlıqlar...

Bütün bunları yazıçı dörd gözlə, Tanrı baxışı və vicdanlı vətəndaş qeyrəti ilə görüb dərk etmiş və ağlın qüdrətinə söykənərək həqiqəti bütün acılığı ilə göstərmək qənaətinə gəlmişdir.

Kitabın mehrabına - QAPI məqamına gələk. Ədəbiyyatımızda bu mövzu - heç bir xalqın taleyində bənzəri olmayan repressiya qurbanlarının faciəsi, son on illərin ağrı-acısı, sızıltısı ilə yaşanmaqdadır.

Yazının bu məqamında dahi Norveç dramaturqu Henrik İbsenin "Vəhşi ördək" əsərindən bir görüntü yadıma düşdü. Ovçunun vurub yaraladığı ördək uçub başqa bir yerdə gizlənmir. Suyun dibinə cumur, otdan-yosundan yapışır, özünü qoruyur. Amma o, canını nə vaxtacan qoruya biləcək?..

Romanı oxuyanda zəngin bədii təfərrüatlar, insan sifətinin şəkildən-şəklə düşməsinin gerçək görüntüləri ilə özünü onların yerinə qoymaq vadarlığı yaradır, içini göynədir. Tək kiçik bir epizod: "Yağışdan əsər-əlamət yoxdur... Bəs bu qoluzəncirlilərin üz-gözü niyə islanmışdı?(...) Sallaqxanaya gedən qoyunlar kimi çiyin-çiyinə, boyun-boyuna verib açıq qapıdan içəri keçdilər... Bu damcılar haradan peyda olub bu bədbəxtlərin, zavallıların üz-gözündə? Bu, bəlkə Allahın göz yaşları idi?! Axı, ola bilməzdi ki, Allah arabir insanların halına ağlayıb göz yaşları tökməsin! İnsanı Allah yaradıbsa, demək, o özü də elə öz yaratdıqları kimi ağlaya bilərdi".

Bəndələr Allahı unudanda, həmişə belə olub - budur yazıçının xəbərdarlığı. Buna əməl edilməsə, bu zülm zaman-zaman təkrarlanacaq, "ölülər dirilərə baxıb qətiyyən dirilmək istəməyəcək".

Qoy ulu Tanrı öz məxluqunun halına acı-acı göz yaşı axıtmasın, onu sevinc yaşına qərq etsin!

Dediyimiz kimi, kitaba müəllifin üç dram əsəri daxil edilib: "Müqəvva", "Çardaqda zirzəmi" və "Neytral zona".

Bu gün dram janrına müraciət etmək asan deyil. Bir həqiqət də var ki, indiki həyatımız büsbütün dramatik hadisələrlə

zəngindir. Yolda-izdə, yas yerində, yaxınlarla söhbətdə hər gün elə hadisələr nəql edilir ki, bunları bədiiləşdirmək, hətta, Şekspir üçün də çətin olardı... Qəzaya düşmüş insan bütün fikrini bir yerə cəm edir (başıma gəlib): qəzadan sonra sağ qalacağammı?! Bizlər də bəşəri hissləri içimizdən keçirməzdən əvvəl ibtidai insanın qayğıları ilə əlbəyaxa qalırıq: necə eləyək ki, balalarımız (eləcə də özümüz) bu müsibətlərdən xətasız ötüşək...

"Müqəvva" monodramını oxuyuram. Bu da rəmzlərlə zəngin olan əsərdir. Amma burada rəmz-təmsil üçün heyvanlar aləmindən obraz seçilməyib. Əsərin qəhrəmanı kişi müqəvvasıdır.

"Müqəvva" ictimai səciyyəli mövzuda qələmə alınmış bir əsərdir.

Qadın evinə kişi müqəvvası gətirib, ona "ərə gedib". İndi az qala dünyanın bütün kişiləri onunçün adi bir müqəvvadır. Onun özünün "həyat fəlsəfəsi" var: "Hərə bir şey istəyir. Çörək, iş, pul, azadlıq, həqiqət, düzlük, qanun-qayda... Budur pəncərədən baxıram, onların hamısı müqəvvaya, manikenə, yəni sənə oxşayır". Qadın bu sözləri müqəvvaya deyir, toplaşanlara isə eyhamla çatdırır: "Bəs nədən, haradan başlayır bizim azadlığımız? Öz nəfsimizdən, öz xislətimizdən, öz daxilimizdən, öz xaricimizdən... başlayır.

Əvvəlcə, ürəyinizi azad edin, sonra ruhunuzu, sonra da bütün bədəninizi". Müqəvvanı isə buna inandıraraq istəyir: "Sən tam azadsan. Elə mən özüm də azadam. Biz indi çox xoşbəxtik".

Ancaq elə bu dəqiqədən etibarən dramatik kulminasiyada enmə başlayır. Və sonda qadın müqəvvaya çevrilir, kişi (maniken) isə... canlı kişiyə! Artıq rollar dəyişir. Bir qədər əvvəl deyilmiş sözlər öz yerini alır: "Hər ikimiz sərbəstik, azadıq". "Müqəvva" oxucunu-tamaşaçını düşünməyə vadar edir.

"Neytral zona" iki sərhədin arasında - neytral zolaqda qalan kişinin tragik və komik situasiyaya düşməsinin ustalıqla təsviridir. Həmin zonada itən heyvanın - itin sahibi tapılır, insana isə yiyə çıxan tapılmır. Əsərin qəhrəmanı haray qoparır: "Bu müsibətə necə dözürsən, ay Allah?! İtin, pişiyin, toyuğun, cücənin sahibi var! Bəs mənim?! Bəs bizim? Niyə bizə sahib durmursan, ay bu dünyanın sahibi?! Oyyy..." Yazıçı fərdi və bəşəri problemi bir insanın taleyində birləşdirərək maraqlı fəlsəfi ümumiləşdirmə aparmışdır.

Firuz Mustafa bu dünya dolusu dərdlərimizi qələmə alarkən, daxilən gör nə qədər əzabları yaşayıb və yaşadıb, ürəyini yeyib, çağdaş insanın ağrısını dağdan arana,

arandan dağa daşıyıb, ona haqq sözünü demək istəyib və çox mətləbləri incəliklə, eyhamla, ustalıqla deyə bilib. Gizlətmirəm ki, neçə yüz səhifəni oxuyub başa çıxana qədər yazıçı zillətinin bir qismini mən də yaşamalı oldum, için-için göz yaşları axıtdım. Əsəri oxuduqca istər-istəməz yazıçının yaratdığı obrazların - insanların, eləcə də bu obrazları yaradan yazıçının dözümünə heyrətlənməyə bilmirsən.

Ancaq son səhifəni nikbin əhvalla çevirdim.

"...QAPI..." kitabı məni çox nadir istedadla görüşdürdü. İnandım ki, yeni zəmanənin ədəbiyyatını, bax, bu cür ayıq, həyati və cəsarətli, həm də bütün telləri və rişələrilə xalqa bağlı olan yazarlar yaradacaq. Qələm əhli Allah dərgahı ilə bizlər arasında merac yaxınlığı yaradacaq və biz haqqa qovuşacağıq!

Əgər mən - qoca nasir bir neçə gündən bəri Firuzun yazılarının təsiri altından çıxa bilmirəmsə, deməli, gənclik bu əsərlərdəki insani çağırışlara səs verəcək, öz həyatını bu inandırıcı bədii təəssüratlar içərisində xoş zəmanə üçün hazırlamalı olacaq, inşallah.

Kitab mənim üzümə qapı açdı - amma zülmətə deyil, işığa!

Qətiyyətlə demək olar ki, yeni kitab həm oxucuya aşıladığı pak hissələrə və dilimizin

qüdrətini dəyərincə zinətləndirdiyinə görə, həm də nəsrimizə yeni işıqlı qapı açdığına görə, nəinki təkcə Firuzun, habelə bütün ədəbiyyatımızın uğuru hesab olunmalıdır.

Açıq-aşkar görünür ki, Firuz Mustafa ədəbiyyatımıza yeni nəfəslə gəlib, yeni nəfəs gətirib.

Bu istedadı, bu qeyrəti, bu gəlişi alqışlayıram!

**525-ci qəzet.- 2009.- 22 aprel.- S.7.**

http://anl.az/down/meqale/525/525_aprel2009/76122.htm

# Firuz Mustafanın nəşr olunmuş və tamaşaya qoyulmuş əsərlərinin siyahısı

## Əsərləri

### Elmi əsərləri

- "Mənəvi tələbatın inкişaf dialektiкası" (“Elm” nəşrиyyatı, 1985)
- "Yenidənqurma və demokratiya şəraitində tələbə və şagirdlərin hüquqi və mənəvi tərbiyəsinin formalaşması" (“APİ-nin nəşriyyatı”, 1987)
- "Sərhədsiz dünya" (“Diplomat” nəşriyyatı, 1999)
- "Mədəniyyəт və fəlsəfə"(“Araz” nəşriyyatı, 2005)
- “Orta təhsil islahatları proqramlarının məzmun baxımından təhlili və qiymətləndirilməsi” (“MBM” nəşriyyatı, 2011)
- “Qloballaşma və mədəniyyət”(“Araz” nəşriyyatı, 2011)

### Bədii əsərləri

- "Göyəm кolları" (“Gənclik” nəşriyyatı, 1985)
- "Dünyanın rəngi" (“Gənclik” nəşriyyatı, 1989)
- "Кəhrəba" (“Elm fondu”nun nəşri, 1997)
- "Bəhruz-Vətənə sipər oğul" (“Azərbaycan” nəş., 1997)
- "Çəhrayı tunel" (“Şur” nəşriyyatı, 1999)
- "Teatr meydanı" (“Çaşıoğlu”, 2001)
- "Adsız" (“Adiloğlu” nəşriyyatı, 2001
- "Sifət" (“Araz” nəşriyyatı, 2002)

- "Buz üstə sətirlər" (“Araz” nəşriyyatı, 2003)
- "Коmediyalar" (“Araz” nəşriyyatı, 2004)
- "Qara qutu" (“Araz” nəşriyyatı, 2006)
- “Dəniz köçü” (“Araz” nəşriyyatı, 2006) [1]
- “Onluqlar” (“Araz” nəşriyyatı, 2008)
- “...Qapı...” (“MBM” nəşriyyatı, 2008)
- “13 hekayə” (“MBM” nəşriyyatı, 2008)
- “Müqəvva” (“MBM” nəşriyyatı, 2009)
- “Monohekayələr” (“MBM” nəşriyyatı, 2009)
- “Qapı” (“Araz” nəşriyyatı, 2009)
- “Dəniz köçü” (7 nəşr) (“Nurlan”və “Araz” nəşriyyatı, 2009-10)
- “Hekayələr” (“MBM” nəşriyyatı, 2009)
- “At günü” (“MBM” nəşriyyatı, 2009)
- “Monopyeslər” (“Araz” nəşriyyatı, 2010)
- “Çardaqda zirzəmi” (“MBM” nəşriyyatı, 2011)
- “Sklerozlar üçün yaddaş” (Araz” nəşriyyatı, 2011)
- "Daş üstə yazılmış sətirlər”(dördlüklər) (“MTR group” nəşriyyatı, 2014)
- “Ölü dildə sevgi məktubları” (“Zero”nəşriyyatı, 2014)
- “Hekayələr” (“MBM” nəşriyyatı, 2015)
- "Seçilmiş əsərləri" (1-ci cild) (“MBM” nəşriyyatı, 2016)

## Rusca kitabları

- «Мирбезграниц» (“Diplomat” nəşriyyatı, 1999)
- «Морскоекочевье» (“Araz” nəşriyyatı, 2008, 164 s.)

- «Пьесы» ("Nurlan" nəşriyyatı, 2008, 560 s.)
- «…Дверь» ("Nurlan" nəşriyyatı, 2008, 384 s. )
- «Фируз Мустафа в переводе Шахло Касумовой» («MBM» nəşriyyatı , 2011, 120 s.)
- «Манекен» ("MBM" nəşriyyatı nəşriyyatı, 2009)
- «День лошади» ("MBM" nəşriyyatı nəşriyyatı, 2009)
- «Подвал на крыше» ("MBM" nəşriyyatı nəşriyyatı, 2011)

## İngiliscə kitabları

- "A sea nomad" - ("Araz" nəşriyyatı, 2010)
- "The Amber, a true friend"- ("Elm fondu"nun nəşri, 1997)

## Tərcümə

- "Putin. Birinci şəxsdən" ("Diplomat" nəşриyyatı, 2000)
- "Poeziya nümunələri" (Teatr jurnalına əlavə, 2012)

## Tərtib etdiyi kitablar

- «Стотюркскихэтносов» ("Araz" nəşriyyatı, 2012)

## F.Mustafaya həsr olunan kitablar

- «Посвящается тебе, Фируз Мустафа» (toplu) (2012)
- "Sənə həsr olunur, Firuz Mustafa" (toplu) (2012)
- ·Sabir Bəşirov "Firuz Mustafa: idrakla hissin

vəhdəti”. (Ədəbi portret-monoqrafiya) (2012)
- Babək Qurbanov "Firuz Mustafanın yaradıcılığına baxış (Dörd bucaq)" (2012)

## Tamaşaya qoyulan əsərləri (pyesləri)

- “Ağıllı Adam” - Azərbaycan Dövlət Gənclər Teatrı
- “Qəfəs” - Azərbaycan Dövlət Gənclər Teatrı
- “Tabut” - Azərbaycan Dövlət Gənclər Teatrı
- “Vida marşı” - Azərbaycan Dövlət Gənclər Teatrı
- “Qara qutu” - Azərbaycan Dövlət Gənclər Teatrı
- “Su pərisi” - Azərbaycan Dövlət Gənclər Teatrı
- “Müqəvva” - Naxçıvan Dövlət Musiqili Komediya Teatrı
- “Ağıllı Adam” - Şuşa Dövlət Musiqili Komediya Teatrı
- “Musiqili məкtublar”- Şuşa Dövlət Musiqili Komediya Teatrı
- “İlğım”- Lənkəran Dövlət Dram Teatrı
- “Sevməsən ölərəm”- Ağdam Dövlət Dram Teatrı
- “Müqəvva”- «Yuğ» Dövlət Teatrı”
- "Müqəvva"- Tədris Teatrı
- “Musiqili məktublar”- Tədris Teatrı
- “Ifritə”- Tədris Teatrı
- “Əqrəb bürcü”- Tədris Teatrı
- ”Ayı təbəssümü”- Füzuli Dövlət Dram Teatrı
- “Dəhliz” - Mingəçevir Dövlət Dram Teatrı
- “Adsız”- Mingəçevir Dövlət Dram Teatrı
- “Vida marşı”- Mingəçevir Dövlət Dram Teatrı

- “Sənə sözüm var”- Qazax Dövlət Dram Teatrı
- “Qarışqa tələsi “- Qazax Dövlət Dram Teatrı
- “Neytral zona” - Qazax Dövlət Dram Teatrı
- “Adsız”- İrəvan Dövlət Dram Teatrı
- “Əqrəb bürcü”- Sumqayıt Dövlət Dram Teatrı
- “Tələ” - Sumqayıt Dövlət Dram Teatrı
- “Tıxac”- Gəncə Dövlət Nizami Poeziya Teatrı
- “Adsız”- Gənc Tamaşaçılar Teatrı
- ”Ayı təbəssümü”- Qusar Ləzgi Dövlət Dram teatrı
- “Vida marşı” - Gəncə Dövlət Dram Teatrı
- "Tıxac”- Gəncə Dövlət Nizami Poeziya Teatrı
- “Pələng ili”- Gənc Tamaşaçılar Teatrı

## Xarci ölkələrdə tamaşaya qoyulmuş əsərləri (pyesləri)

- “Müqəvva”- «Oda» Teatrı (Türkiyə Respublikası)
- "Neytral zona" - Dərbənd Azərbaycan Dram teatrı) (Rusiya Fedreasiyası)
- “Marian çökəkliyi” – müstəqil tamaşa (İran)

## Tamaşaya qoyulmamış dramları

· “Zaman”
· “Bəyaz kölgə”
· “Bir nəfər üçün tamaşa”
· “Parlamentdə toy”
· “Çardaqda zirzəmi”
· “Amazonka”
· “Alın yazısı”

- “Sehrbaz”
- “Final”
- “İfritə”
- “Oxşarlar”
- “Ağrı”
- “Fotoqraf”
- “Marian çökəkliyi”
- “Üç canavar”
- “Məruzə”
- “Sifət”

## Təltif olunduğu mükafatlar

Cəfər Cabbarlı
Humay
Beynəlxalq Avrasiya Fondunun mükafatı
Teatr Xadimləri İttifaqının mükafatı

## *Mündəricat:*

DÜNYANIN RƏNGİ ..........................................
DƏNİZ KÖÇÜ ............................................
PAYIZ SÜVARİSİ ..........................................

***Firuz Mustafanın yaradıcılığı haqda***

**Cəmil ƏLİBƏYOV**- Zülmətə açılan qapının işığı (Firuz Mustafanin nəsr və dramaturgiya nümunələri haqda düşüncələrim) **..............................................**

Firuz Mustafanın nəşr olunmuş və tamaşaya qoyulmuş əsərlərinin siyahısı

**Firuz MUSTAFA**
**(Firuz Qədimalı oğlu Mustafayev)**

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**
**(OTUZ CİLDDƏ)**

**BAKI – "ECOPRİNT" - 2017**

**İkinci cild**
**(povestlər)**

Naşir: Ceyhun Əliyev
Korrektor: Güntəkin
Texniki redaktor: Ülvi Arif
Dizayner: Emil Camalov
Operator: Asim Səfərov

Yığılmağa verilib: 03.03.2017
Çapa imzalanıb: 17.04.2017
Ş.ç.v. 22, tiraj 200
"Ecoprint" nəşriyyatının
mətbəəsində çap olunub.
Tel.: +994 55 216 09 91

**Qiyməti razılaşma yolu ilə**